*Rafiq İsmayılov*
*Gülşən Orucova*
*Nərminə Qaragözova*

# AZƏRBAYCAN DİLİ
# 3

## Müəllim üçün
## METODİK VƏSAİT

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
05.07.2010-cu il tarixli, 973 №-li əmri ilə
təsdiq edilmişdir.

Çap üçün deyil

altun kitab

Bakı – 2014

*Rafiq İsmayılov*
*Gülşən Orucova*
*Nərminə Qaragözova*

**AZƏRBAYCAN DİLİ (3-cü sinif). Müəllim üçün metodik vəsait**
Bakı: Altun Kitab, 2014. 232 səh.

Redaktorlar: ***Solmaz Abdullayeva***
Bakı şəhər 23 №-li tam orta məktəbinin müəllimi
***Nigar Həbibova***
Bakı şəhər 54 №-li tam orta məktəbinin müəllimi

Bədii tərtibat: ***Rəşad Nəbiyev***

Korrektor: ***Aqşin Məsimov***

*Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı bir hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.*

© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2014

Çap üçün deyil

# İÇİNDƏKİLƏR

GİRİŞ ....................................................................................................5-26

1. "Azərbaycan dili" dərslik dəsti ..................................................5
1.1. Dərslik ..........................................................................................6
1.2. Müəllim üçün metodik vəsait ......................................................7
1.3. Əlavə resurslar ..............................................................................7

2. Məzmun standartları ...............................................................8
2.1. Dinləmə bacarığı üzrə məzmun standartları və təlim məqsədləri ...............8
2.2. Danışma bacarığı üzrə məzmun standartları və təlim məqsədləri ..............8
2.3. Oxu bacarığı üzrə məzmun standartları və təlim məqsədləri .....................9
2.4. Yazı bacarığı üzrə məzmun standartları və təlim məqsədləri ......................11
2.5. Dil qaydaları üzrə məzmun standartları və təlim məqsədləri ......................12

3. Qiymətləndirmə ......................................................................14
3.1. Qiymətləndirmənin məqsədi........................................................14
3.2. Qiymətləndirmə materialı ...........................................................14
3.3. Qiymətləndirmə meyarları ..........................................................15
3.4. Qiymətləndirmənin prosedur qaydaları .......................................15
3.5. Dinləmə bacarığının qiymətləndirilməsi cədvəli ..........................16
3.6. Danışma bacarığının qiymətləndirilməsi cədvəli .........................17
3.7. İfadəli oxu bacarığının səviyyələr üzrə qiymətləndirilməsi .........................18
3.8. Şüurlu oxu bacarığının səviyyələr üzrə qiymətləndirilməsi ..........................18
3.9. Yazı bacarığının qiymətləndirilməsi ..........................................18
3.10. Dil qaydaları üzrə qiymətləndirmə ...........................................20
3.11. Sosial bacarıqların qiymətləndirilməsi ......................................21
3.12. Özünüqiymətləndirmə ................................................................21
3.13. Oxu bacarığı üzrə özünüqiymətləndirmə vərəqi ........................22
3.14. Şagirdlərin bir-birini qiymətləndirməsi ......................................22
3.15. Danışma bacarığı üzrə bir-birini qiymətləndirmə cədvəli .........................23
3.16. Nitq bacarıqlarının ümumi qiymətləndirilməsi ..........................23

4. Təlim texnologiyaları ..............................................................24

Çap üçün deyil

5. DƏRSLƏRİN SAATLAR ÜZRƏ BÖLGÜSÜ ........................................................ 27

I bölmə. **Ailə və məktəb** ........................................................ 28-56
II bölmə. **Mənəvi dəyərlər** ........................................................ 57-82
III bölmə. **Sirli dünya** ........................................................ 83-105
IV bölmə. **Sevimli qəhrəmanlarım** ........................................................ 106-129
V bölmə. **Tarixi şəxsiyyətlər** ........................................................ 130-156
VI bölmə. **Bayramlar və tarixi günlər** ........................................................ 157-182
VII bölmə. **Hikmət xəzinəsi** ........................................................ 183-205
VIII bölmə. **Mədəni irsimiz** ........................................................ 206-231

Çap üçün deyil

# GİRİŞ

## 1 "AZƏRBAYCAN DİLİ" DƏRSLİK DƏSTİ

### MƏZMUN KONSEPSİYASI

3-cü sinifdə Azərbaycan dilinin tədrisinin 8 mərhələdə keçilməsi nəzərdə tutulur. Dərslik komplektində bu mərhələlər aşağıdakı bölmələr şəklində təqdim olunmuşdur:

I bölmə. Ailə və məktəb
II bölmə. Mənəvi dəyərlər
III bölmə. Sirli dünya
IV bölmə. Sevimli qəhrəmanlarım
V bölmə. Tarixi şəxsiyyətlər
VI bölmə. Bayramlar və tarixi günlər
VII bölmə. Hikmət xəzinəsi
VIII bölmə. Mədəni irsimiz

Hər bölmə həftədə 10 saat olmaqla orta hesabla 42-43 saat-dərs üçün nəzərdə tutulmuşdur.

Bölmələrdə təqdim olunan oxu və dinləmə mətnləri, eləcə də danışma və yazı fəaliyyətləri müvafiq bölmənin mövzusu ilə bağlıdır. Oxu və dinləmə mətnlərinə qoyulan qrammatik suallar isə müvafiq bölmədə öyrədilən dil qaydaları ilə uzlaşdırılır. VIII bölmədə dil qaydaları üzrə tapşırıqlar əvvəlki bölmələrdə keçilmiş mövzuların təkrarına və möhkəmləndirilməsinə xidmət edir.

Müəllim üçün metodik vəsaitdə hər bir bölmənin əvvəlində müvafiq bölmənin mündəricatı verilir ki, burada mövzuların dərslik komplektindəki yeri, eləcə də həmin mövzuların tədrisi zamanı reallaşdırılan məzmun standartları öz əksini tapmışdır.

Tədris mərhələsinin sonuncu həftəsi istisna olunmaqla hər dərs həftəsində sinifdənxaric oxuya yer verilir.

Hər mərhələnin son iki saatı dinləmə, yazı, oxu və dil qaydaları üzrə kiçik summativ qiymətləndirmə (KSQ) üçün nəzərdə tutulmuşdur. KSQ materialları MMV-də verilmişdir. Bu materiallar nümunə xarakteri daşıyır. Müəllimlər bu nümunələr əsasında KSQ üçün öz materiallarını tərtib edə bilərlər.

Dərslərdə müvafiq fənn kurikulumunda təsbit olunmuş məzmun xətlərinin inteqrasiyası özünü büruzə verir. Belə ki, dərslikdəki mətn əsasında qurulan hər bir dərs **anlama** (oxu, dinləmə) ⟶ **özünüifadə** (danışma, yazı) sxeminə əsaslanır ki, bu da dörd nitq bacarığını inkişaf etdirmək məqsədi güdür.

Çap üçün deyil

## DƏRSLİK KOMPLEKTİNİN KOMPONENTLƏRİ

**DƏRSLİK (şagird kitabı)**

**1. Oxu materialları (mətnlər və tapşırıqlar)**

Dilin tədrisində mətn əsas tədris və qiymətləndirmə materialı kimi çıxış edir. İstənilən məzmun standartının reallaşdırılması mətn əsasında baş verir.

Dərslikdəki mətnlər üzrə tapşırıqlar müxtəlif rubrikalar altında verilir:

“Sözlük”. Mətndə rast gəlinən yeni sözlərin izahı verilir. 2.1. (Lüğət ehtiyatının zənginləşdirilməsi) və 2.2. (Oxuyub-anlama) standartlarının reallaşdırılmasına xidmət edir.

“Söz ehtiyatı”. Mətndəki müəyyən sözlər və ifadələrlə bağlı tapşırıqlar verilir:

- kontekstdən (sözün işləndiyi cümlədən, mətn parçasından) çıxış edərək yeni söz və ya ifadəni izah etmək;
- çoxmənalı sözün və ya omonimin konkret mətndəki mənasını izah etmək;
- frazeoloji ifadəni kontekstə görə izah etmək.

“Şüurlu oxu”. Mətndəki faktoloji materialın dərindən və təfərrüatı ilə mənimsənilməsinə kömək edir (2.2. Oxuyub-anlama):

- hadisələrin ardıcıllığını müəyyən etmək;
- hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyənləşdirmək;
- kim? nə? harada? (hekayə xəritəsi) tipli sualları cavablandırmaq.

“Düşün və cavab ver”. Oxuduğu mətndən nəticə çıxarmaq bacarığını inkişaf etdirir (2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir):

- mətnin ideya məzmununu müəyyən etmək;
- mətndəki obrazlara və hadisələrə münasibət bildirmək;
- yarımçıq mətni bədii təxəyyülünə görə davam etdirmək (proqnozlaşdırma).

Bu rubrikadakı tapşırıqlar “Oxuyub-anlama” məzmun standartı ilə yanaşı, şagirdlərin şifahi nitq bacarıqlarını (1.2.1) inkişaf etdirməyə yönəlmişdir.

“Dil qaydaları”. Müəyyən dil qaydalarının konkret mətndəki nitq materialı ilə bağlı öyrədilməsi daha səmərəli nəticələr verir. Bu yanaşma kurikulumun da tələblərinə (dil qaydalarını dilçiliyin mücərrəd ehkamları şəklində deyil, nitq bacarıqlarının bir komponenti kimi tədris etmək) cavab verir.

**2. Dil qaydaları üzrə nəzəri material və çalışmalar**

Dil qaydaları üzrə nəzəri material, ilk növbədə, ədəbi dilin normalarının və zəruri dilçilik terminlərinin mənimsənilməsinə yönəlmişdir. Şagirdlərə bu terminləri öyrətmədən müəllimin onlarla səmərəli ünsiyyət qurması qeyri-mümkündür.

Nəzəri material elmi mətn qismində oxu materialı kimi tədris edilsə, daha effektli nəticələr əldə oluna bilər və fəndaxili inteqrasiya üçün zəmin yaranar (2.2. Oxu və 4.1. Dil qaydaları).

**3. Nitq bacarıqları üzrə öyrədici dərslər**

Əvvəlki siniflərlə müqayisədə 3-cü sinifdə şagirdlər sadə nəzəri materialları dərk etmək iqtidarında olurlar. Məhz bu yaş mərhələsindən başlayaraq şagird hər bir fənnin mahiyyəti və məqsədini dərk etməli, bu fənni nə üçün öyrəndiyini bilməli, nitq bacarıqlarını sistemli şəkildə inkişaf etdirmək üçün müəyyən terminologiyaya malik olmalıdır.

Dərslikdə mavi fonlu çərçivələrdə dinləmə, danışma, oxu bacarıqları ilə bağlı müxtəlif



Çap üçün deyil

anlayışlar haqqında məlumatlar verilir. Burada verilən şərhlər və terminlər şagirdlər tərəfindən əzbərlənmək üçün deyil. Onlar, sadəcə, dərs prosesində müəllimlə şagirdin ünsiyyətini asanlaşdırmağa xidmət edir. Məsələn, müəllim hər hansı dinləmə mətnini səsləndirməzdən əvvəl 17-ci səhifədəki "Dinləmə qaydaları"nı şagirdlərə xatırlada, oxutdura bilər və ya hər hansı şeiri təhlil edərkən əmin olmalıdır ki, şagird misra, bənd, qafiyə və s. terminləri bilir.

Nitq bacarıqları üzrə öyrədici dərslər bu məqsədə xidmət edir. Bu dərslərdə:

- dinləmə, danışma, oxu, yazı bacarıqlarının mahiyyəti açıqlanır;
- bu bacarıqların insan üçün həyatda nəyə görə vacib olduğu göstərilir;
- nitq bacarıqlarına yiyələnməyin yolları göstərilir;
- əsas nitq materialı olan mətnin struktur elementləri və komponentləri açıqlanır ki, bu da dərs prosesində müəllimlə şagirdlər arasında ünsiyyəti asanlaşdırır.

## MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT (MMV)

Vəsaitdə bütün dərslər öz əksini tapır. MMV:

1. Hər bir dərs üçün məzmun standartlarından doğan təlim məqsədini müəyyənləşdirir.
2. Dərslikdə verilmiş materiallardan səmərəli istifadə üçün müvafiq təlim strategiyaları təklif edir.
3. Bütün məzmun standartlarını əhatə etmək üçün əlavə materiallar (dinləmə və imla mətnləri, debat, məruzə, müzakirə, inşa mövzuları və s.) təqdim edir.

Dərslərin şərhində aşağıdakı məlumatlar təqdim olunur:

- təlim məqsədi (müvafiq məzmun standartı göstərilməklə);
- mətnin tipi (oxu və dinləmə dərslərinə aiddir);
- fəndaxili inteqrasiya;
- fənlərarası inteqrasiya;
- resurslar;
- dərslik və iş dəftərində verilmiş bəzi materialların şərhi;
- müəllim üçün tövsiyələr.

Təlim strategiyaları, forma və üsullar barədə vəsaitin giriş hissəsində məlumat verilir (səh. 24-26). Burada hər bir təlim üsulunun daha çox hansı məzmun standartının reallaşdırılmasına xidmət etdiyi də göstərilir. Ona görə də həmin metod və üsullar konkret dərslər üzrə tövsiyələrdə geniş şərh olunmur (sadəcə, üsulun şərh olunduğu müvafiq səhifəyə istinad edilir).

Müəllimlərin vəsaitdən istifadəsini bir qədər asanlaşdırmaq üçün dərslərin şərhindəki bəzi hissələr rənglərlə fərqləndirilir. Belə ki, bütün mətnlər (imla, ifadə, dinləmə və s.) və əlavə materiallar (test sualları, çalışmalar) göy rəngdə verilir. Dərs prosesində mübahisə doğura biləcək bir sıra məqamlar, nisbətən çətin çalışmaların cavabları, şagirdlərin ehtimal olunan suallarına cavablar və müəllimlərin bilməli olduqları bir sıra məlumatlar qırmızı rəngdə "Müəllimin nəzərinə" başlığı altında verilir. Qırmızı rəngdə verilən şərh və məlumatlar qiymətləndirmə obyekti olmamalıdır.

## ƏLAVƏ RESURSLAR

Dəfələrlə qeyd olunduğu kimi, "Fənn üzrə dərslik komplektləri təlim prosesində standartlara nail olunması üçün yaradılan minimum resurslardır" *(www.kurikulum.az)*. Məzmun standartlarının tam və effektiv şəkildə reallaşdırılması üçün tədris prosesində imkan olduğu təqdirdə əlavə tədris resurslarından – iş dəftərindən, sinifdənxaric oxu materiallarından, lüğətlərdən və qiymətləndirmə vəsaitlərindən istifadə olunması tövsiyə edilir.



Çap üçün deyil

## 2 MƏZMUN STANDARTLARI

Dərslik müəlliflərinin qarşısında duran əsas vəzifələrdən biri kurikulumda təsbit olunmuş məzmun standartlarının tədris prosesində reallaşdırılması yollarını açıqlamaqdır. Hər dərs bir və ya bir neçə alt-standartın reallaşdırılmasına xidmət edir. Dərslərdə qoyulan təlim məqsədləri – gözlənilən şagird nailiyyətləri məzmun standartlarına doğru aparan addımlardır.

Aşağıdakı təsnifatda hər bir məzmun standartının tədris prosesində hansı yollarla (təlim məqsədləri ilə) açıqlandığı (reallaşdırıldığı) göstərilir.

### 1. DİNLƏYİB-ANLAMA VƏ DANIŞMA

*Şagird:*

1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.

**1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir.**

Təlim məqsədləri:

- Dinlədiyi mövzuya dair suallar verir;
- Dinlədiyi mətnlə bağlı faktoloji suallara cavab verir;
- Debat zamanı opponentini dinləyir və əks-arqumentlər hazırlayır;
- Müzakirə zamanı səhv hesab etdiyi fikrə qarşı tolerantlıq (dözümlülük) nümayiş etdirir;
- Dinlədiklərinə qarşı etikaya uyğun reaksiya verir.

**1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir.**

Təlim məqsədləri:

- Dinlədiyi mətndəki hadisələrin ardıcıllığını müəyyən edir;
- Dinlədiyi bədii mətnin ideyasını müəyyən edir;
- Dinlədiklərində ilk dəfə eşitdiyi sözlərin mənasını təxmin edir;
- Mənasını bilmədiyi sözləri qeyd edir və aydınlaşdırmağa çalışır;
- Dinlədiyi mətnin necə davam edəcəyini və hansı sonluqla bitəcəyini təxmin edir;
- Dinlədikləri ilə bağlı öz həyatından və ətrafda gördüklərindən nümunələr gətirir.

*Şagird:*

1.2. Şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir.

**1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir.**

Təlim məqsədləri:

- Hamının eşidə biləcəyi aydın səslə, axıcı və səlis danışır;
- Sözləri düzgün tələffüz edir;
- Cümlələri düzgün və anlaşıqlı qurur;
- Məqsəddən asılı olaraq məntiqi vurğudan yerli-yerində istifadə edir;
- Danışığında gündəlik həyatdan misallar gətirir;
- Danışarkən mövzudan kənara çıxmır;
- Eşitdikləri və gördüklərini misal gətirərək mövzu ilə bağlı fikirlərini əsaslandırır;
- Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır;
- Verilmiş qrafik informasiyanı mətnə çevirib danışır.

**1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir.**



Çap üçün deyil

Təlim məqsədləri:
- Müzakirə zamanı nitqə başlayarkən "üzr istəyirəm...", "icazə verin..." kimi ifadələrdən istifadə edir;
- Auditoriya qarşısında çıxışı zamanı dinləyicilərin suallarını cavablandırır;
- Danışarkən özünü sərbəst hiss edir, dinləyicilərlə göz təması qurur;
- Dialoji mətnin səhnələşdirilməsi zamanı nitqini obrazın xarakterinə uyğunlaşdırır;
- Danışıq zamanı hamının başa düşdüyünə əmin olmaq üçün dinləyicilərə suallar verir;
- Razılaşmadığı fikirlərə çəkinmədən etiraz edir və bunu əsaslandırmağa çalışır;
- Qrup halında çalışmalar zamanı fikirlərini başqaları ilə bölüşür;
- Debat zamanı mövqeyini müdafiə etmək üçün arqumentlər gətirir.

**1.2.3. Fikirlərini aydın və obrazlı etmək məqsədilə bədii ifadələrdən istifadə edir.**

Təlim məqsədləri:
- Danışarkən fikrini əsaslandırmaq üçün atalar sözlərindən istifadə edir;
- Məsəlləri yerli-yerində işlədir;
- Nitqində frazeoloji ifadələrdən istifadə edir;
- Nitqini aforistik şəkildə (hər hansı kəlamla, aforizmlə) ümumiləşdirə bilir;
- Bənzətmə və mübaliğələrdən yerli-yerində istifadə edir;
- Təkrar olunan yersiz söz və ifadələrdən ("şey...", "adı nədir..." və s.) istifadə etmir.

**1.2.4. Ədəbi-bədii nümunələri ifadə edərkən müvafiq situasiyaya uyğun jest və mimikalardan istifadə edir.**

Təlim məqsədləri:
- Bədii mətnin nəqli zamanı müəllif nitqindən qəhrəmanın nitqinə keçərkən səs tonunu, jest və mimikalarını dəyişdirir;
- Bədii mətni və ya hər hansı hadisəni nəql edərkən obrazın xarakterinə uyğun danışır;
- Danışıq zamanı yersiz hərəkətlərə yol vermir;
- Jest və mimikalardan təbii şəkildə, nitqinin emosionallığını artırmaq üçün istifadə edir.

## 2. OXU
## Lüğət ehtiyatının zənginləşdirilməsi

*Şagird:*

2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.

**2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, onların xarakterik əlamətlərini adlandırır.**

Təlim məqsədləri:
- Əşya və ya hadisələri bir neçə yaxınmənalı sözlə adlandırır;
- Sözün aid olduğu məna qrupunu müəyyən edir;
- Varlığın və ya hadisənin əlamətlərini sadalamaqla sözü izah edir;
- Şeirin məzmununa və qafiyəsinə görə buraxılmış sözləri müəyyən edir.

**2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir.**

Təlim məqsədləri:
- Qarşılaşdığı yeni sözlərin mənasını kontekstdən çıxış edərək təxmin edir;
- Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir;
- Sözü cümlədə mənasına uyğun işlətməklə izah edir.



Çap üçün deyil

**2.1.3. Öyrəndiyi yeni söz və terminlərdən məqamında istifadə edir.**

Təlim məqsədləri:
- Tanıdığı terminin hansı elm sahəsinə aid olduğunu müəyyən edir;
- Terminin mənşəyini (etimologiyasını) araşdırır və ilkin mənası ilə əlaqəni müəyyən edir.

**2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir.**

Təlim məqsədləri:
- Çoxmənalı sözün mətndəki mənasını digər mənalarından fərqləndirir;
- Çoxmənalı sözləri müxtəlif kontekstlərdə işlətməklə onların məna çalarları arasındakı fərqi aşkar edir;
- Əksmənalı sözləri müəyyən edir;
- Mətndəki sözü uyğun gələn yaxınmənalı sözlə əvəz edir;
- Frazeoloji ifadələrin mənasını kontekstdən çıxış edərək izah edir.

## Oxuyub-anlama

*Şagird:*

### 2.2. Oxu bacarıq və vərdişlərinə yiyələndiyini nümayiş etdirir.

**2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur.**

**Qeyd.** Bu alt-standart həm oxu texnikasını, həm də oxuyub-anlama bacarıqlarını əhatə etdiyindən onu iki yerə bölmək olar: səsli (düzgün, ifadəli oxuyur) və səssiz (sürətli, şüurlu oxuyur) oxu.

- Müvafiq mətnləri düzgün, ifadəli oxuyur.

Təlim məqsədləri:
- Oxuduğu sözləri orfoepik normalara uyğun tələffüz edir;
- Hamının eşidə biləcəyi aydın səslə oxuyur;
- Durğu işarələrinə uyğun oxuyur;
- Oxuyarkən məntiqi vurğudan yerli-yerində istifadə edir;
- Şeiri oxuyarkən müəllifin hiss və həyəcanını intonasiya və səs tonu ilə ifadə edir;
- Əsərdəki obrazların nitqini onların xarakterinə uyğun səsləndirir;
- Obrazların hiss və həyəcanını ifadə etmək üçün müvafiq jest və mimikalardan istifadə edir.

- Müvafiq mətnləri sürətli, şüurlu oxuyur.

Təlim məqsədləri:
- Diqqətini oxuduğu mətnin üzərində cəmləşdirir;
- Oxuduqlarında nə? harada? nə vaxt? niyə? necə? və kim? suallarına cavab axtarır;
- Oxuduğu mətndə ona maraqlı görünən fikirləri qeyd edir;
- Mətnin məzmununa uyğun gəlməyən "yad" hissəni müəyyən edir;
- Mətndən çıxarılmış cümlələrin mətndəki yerini müəyyən edir;
- Mətndəki hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən edir;
- Bədii əsərin müəyyən hissəsini oxuduqdan sonra baş verəcək hadisələri proqnozlaşdırır (təxmin edir).

**2.2.2. Bədii və elmi-kütləvi mətnləri fərqləndirir, onların xüsusiyyətlərini sadə şəkildə şərh edir.**



Çap üçün deyil

Təlim məqsədləri:
- Elmi mətndəki əsas məlumatları mənimsəyir;
- Elmi mətndəki məlumatları qrafik informasiya şəklində təqdim edir;
- Elmi mətndəki məlumatların təsnifatını yaradır (başlıqlar altında qruplaşdırır);
- Elmi mətndəki informasiyanı mənimsəyib təcrübədə tətbiq edir;
- Eyni mövzuda yazılmış elmi-kütləvi və bədii mətnləri fərqləndirir.

2.2.3. Mətnin geniş planını tutur.

Təlim məqsədləri:
- Mətnə əsasən hekayə xəritəsi tərtib edir;
- Mətnin abzaslarına başlıq verə bilir;
- Mətnin hər bir abzasına sual qoya bilir.

2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir.

Təlim məqsədləri:
- Mətndən əsas fikri əks etdirən açar sözləri seçir;
- Mətnə başlıq verə bilir;
- Oxuduqlarına dair gündəlik həyatdan misallar gətirir;
- Mətndəki əsas fikri öz üzərində sınamaqla düzgünlüyünə əmin olur;
- Mətnin ideyasını şəxsi həyatı ilə əlaqələndirərək fikir yürüdür;
- Mətndəki hadisə və obrazları həyat haqqında düşüncələri ilə əlaqələndirir.

2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir.

Təlim məqsədləri:
- Mətnin giriş, əsas və sonluq hissələrini müəyyən edir;
- Mətndəki hadisələri ardıcıllıqla nəql edir;
- Oxuduqları haqqında fikirlərini bölüşür;
- Oxuduqlarını ümumiləşdirə bilir;
- Əsəri bədii təxəyyülünə uyğun davam etdirir;
- Özünü əsər qəhrəmanının yerinə qoyaraq əsəri interpretasiya edir (yaradıcı şəkildə dəyişdirir).

## 3. YAZI

*Şagird:*

### 3.1. Yazı bacarıq və vərdişlərinə yiyələndiyini nümayiş etdirir.

3.1.1. Hüsnxət normalarına riayət etməklə səliqəli və sürətlə yazır.

Təlim məqsədləri:
- Hərfləri hüsnxət normalarına uyğun yazır və digər hərflərlə birləşdirir;
- Sözdəki (cümlədəki, mətndəki) hərfləri eyni ölçüdə yazır;
- Dinlədiyi mətni orfoqrafik normalara uyğun yazır;
- Əsas durğu işarələrindən (nöqtə, sual işarəsi, nida işarəsi) yerli-yerində istifadə edir;
- Mətni təyin olunmuş müddətdə yazıb bitirir.

3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür.

Təlim məqsədləri:
- Qeyri-ardıcıl şəkildə verilmiş mətni düzgün ardıcıllıqla köçürür;
- Mətni (şeiri) abzaslara (bəndlərə) bölərək köçürür;

Çap üçün deyil

- Deyilişi və yazılışı fərqlənən sözləri orfoqrafik normalara uyğun köçürür;
- Mətndən çıxarılmış sözləri (cümlələri) yerinə qoymaqla köçürür.

**3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır.**

Təlim məqsədləri:
- Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır;
- Verilmiş qrafik informasiyanı mətnə çevirib yazır;
- Şeiri yazıda nəsrlə ifadə edir.

**3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır.**

Təlim məqsədləri:
- Müəyyən mövzu ilə bağlı verilmiş cümləni genişləndirərək mətn qurub yazır;
- Mətni öz təxəyyülünə uyğun davam etdirib yazır;
- Mətnin ideya məzmununu şəxsi həyat təcrübəsi ilə əlaqələndirərək inşa yazır;
- Atalar sözündə və ya aforizmdə ifadə olunmuş kəlamla bağlı öz fikirlərini yazır.

**3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, açıqca, elan, ərizə, dəvətnamə) yazır.**

Təlim məqsədləri:
- Əsərin qəhrəmanına məktub yazır;
- Bayram münasibətilə açıqca yazır;
- Tədbirlə bağlı elan yazır;
- Tədbirlə bağlı dəvətnamə yazır;
- Verilmiş situasiya ilə bağlı ərizə yazır.

## 4. DİL QAYDALARI

*Şagird:*

4.1. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.

**4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir.**

Təlim məqsədləri:
- Danışıq səslərini xarakteri etibarilə ətrafdakı digər səslərdən fərqləndirir;
- Danışıq səslərinin təbiətini (yaranma mexanizmini) izah edir;
- Müxtəlif danışıq səslərini tələffüz etməklə danışıq üzvlərinin funksiyasını izah edir;
- Sait və samit səslərin fizioloji təbiətini araşdırır və fərqi izah edir;
- Danışıq üzvlərinin hərəkətini izləyərək sait və samit səslərin yaranmasındakı fərqi izah edir;
- Qalın və incə saitlərin yaranmasında danışıq üzvlərinin (dilin) rolunu izah edir;
- Dodaqlanan və dodaqlanmayan saitlərin yaranmasında danışıq üzvlərinin (dodağın) rolunu izah edir;
- Kar və cingiltili samitlərin fizioloji təbiətini araşdırır və dərk edir.

**4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları məqamına uyğun istifadə edir.**

Təlim məqsədləri:
- Xüsusi isimləri böyük hərflə yazır;
- Bəzi mürəkkəb adların (bayram, qəzet, jurnal, əsər) yazılış qaydasını yazıda tətbiq edir.



Çap üçün deyil

**4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir.**

Təlim məqsədləri:
- Deyilişi və yazılışı fərqlənən sözləri müəyyən edir;
- Lüğətlərin növlərinə görə təyinatını bilir;
- Hərflərin əlifba sırasını bilir və bu biliyindən lüğətlə iş zamanı istifadə edir;
- Yazdığı imla mətnini orfoqrafik cəhətdən yoxlamaq üçün lüğətdən istifadə edir;
- Mürəkkəb sözləri orfoqrafik normalara uyğun bitişik və ya defislə yazır.

**4.1.4. Cəm şəkilçisinin yazılışı və tələffüzü ilə bağlı qaydaları nitqində tətbiq edir.**

Təlim məqsədləri:
- Cəm şəkilçisini sözə müvafiq olaraq dörd cür (-lar$^2$, -dar$^2$, -rar$^2$, -nar$^2$) tələffüz edir, lakin tələffüzdən asılı olmayaraq bir cür (-lar$^2$) yazır.

**4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir.**

Təlim məqsədləri:
- Əsas nitq hissələrini (isim, sifət, say, feil, əvəzlik) fərqləndirir və müvafiq terminlə adlandırır;
- Cümlənin baş üzvlərini (mübtəda, xəbər) fərqləndirir və müvafiq terminlə adlandırır.

**4.1.6. Cümlənin formalaşmasında baş və ikincidərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir.**

Təlim məqsədləri:
- Cümlə üzvünün sualını müəyyən edir;
- Cümlə üzvü rolunda çıxış edən söz birləşmələrini müəyyən edir.

**4.1.7. Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir.**

Təlim məqsədləri:
- Nəqli, sual və əmr cümlələrini fərqləndirir;
- Cümləni növündən asılı olaraq düzgün intonasiya ilə tələffüz edir;
- Cümləni növündən asılı olaraq müvafiq durğu işarəsi ilə tamamlayır.

Çap üçün deyil

## 3 QİYMƏTLƏNDİRMƏ

Qiymətləndirmə nəticəyönümlü təhsilin ayrılmaz tərkib hissəsidir. Müntəzəm qiymətləndirmə olmadan tədrisi səmərəli qurmaq mümkün deyil. Müasir qiymətləndirmə metodikası özündə bir çox problemi birləşdirən mürəkkəb və çoxşaxəli prosesdir. Bu problemləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Qiymətləndirmənin məqsədi
2. Qiymətləndirmə materialı
3. Qiymətləndirmə meyarları
4. Qiymətləndirmənin prosedur qaydaları

**1. Qiymətləndirmənin məqsədi**

Əslinə qalsa, tədris qiymətləndirmədən başlanır. Belə ki, şagirdin ilkin səviyyəsini qiymətləndirmədən, yəni <u>diaqnostik qiymətləndirmə</u> aparmadan hər hansı mövzunu öyrətməyə başlamaq düzgün olmazdı. Odur ki ilkin qiymətləndirmənin məqsədi tədrisi şagirdin səviyyəsinə uyğun qurmaqdır. <u>Formativ qiymətləndirmə</u> isə müəllimə imkan verir ki, "əlini daim şagirdin nəbzində saxlasın". Bu qiymətləndirmə tədris prosesində şagird nailiyyətlərinin monitorinqini aparmaq məqsədi güdür.

Müasir təhsilin əsas məqsədi məzmun standartları ilə ifadə olunan məqsədlərə nail olmaqdır. Hər bir təhsil pilləsinin sonunda keçirilən <u>yekun (summativ) qiymətləndirmə</u> şagirdin bu məqsədə nə dərəcədə nail olduğunu göstərir.

Beləliklə, qiymətləndirmənin üç əsas məqsədi aşağıdakılardır:

1) tədrisi şagirdin səviyyəsinə uyğun qurmaq;
2) şagirdin irəliləyişlərini izləməklə tədrisi daha səmərəli şəkildə təşkil etmək;
3) nəzərdə tutulan təhsil pilləsi üçün standartların nə dərəcədə reallaşdığını yoxlamaq.

**2. Qiymətləndirmə materialı**

Azərbaycan dili fənnində əsas tədris və qiymətləndirmə materialı kimi mətn və onunla bağlı tapşırıqlar çıxış edir. Mətn özündə bütün nitq vahidlərini (səs, hərf, söz, söz birləşməsi, cümlə) birləşdirdiyindən istənilən standartı reallaşdırmağa imkan verir. Yalnız dil qaydaları ilə bağlı summativ qiymətləndirmə testləri söz və cümlə əsasında ola bilər.

Mətnlə bağlı tapşırıqların bir çox modeli var ki, təqdim olunan dərslik komplektində onlardan geniş istifadə olunur.

***1. Uyğunluğu müəyyən et.*** Mətndən çıxarılmış ifadələr bir sütunda verilir. Qarşı sütunda onların qarşılığı (məsələn, sinonimləri və ya antonimləri) qarışıq şəkildə düzülür. Hər iki sütundakı elementlər arasında uyğunluğu müəyyən etmək tələb olunur.

***2. Doğru, yoxsa yanlış.*** Şagirdlər mətnlə bağlı verilmiş cümlələrdən hansının doğru, hansının yanlış olduğunu müəyyən etməlidirlər.

***3. Dördündən biri fərqlidir.*** Verilmiş dörd vahiddən (sözdən, ifadədən) üçü məntiqi qanunauyğunluqla bağlıdır, biri isə bu qanunauyğunluğa tabe deyil.

***4. Ardıcıllığı davam etdir.*** Verilmiş vahidlər arasında müəyyən qanunauyğunluq var. Cavab variantlarından yalnız biri bu qanunauyğunluğa tabedir.

***5. Boşluğu doldur.*** Mətndə müəyyən sözlərin (cümlələrin) yeri boş buraxılır. Uyğun gələn vahidləri yerinə qoymaq tələb olunur.

***6. Ardıcıllığı bərpa et.*** Mətnin abzasları (və ya abzasın cümlələri) qeyri-ardıcıl şəkildə verilir. Ardıcıllığı bərpa etmək tələb olunur.

Bu cür modellər və onların variantları onlarcadır. Bu modellərdən istifadə etməklə müəllimlər özləri də müəyyən mətnlər əsasında şagirdlərin nitq bacarıqlarını inkişaf etdirə və onları qiymətləndirə bilərlər.



Çap üçün deyil

Dərslik komplektində 200-dən çox mətndən istifadə olunmuşdur. Mətnlərin seçimi zamanı aşağıdakı meyarlar əsas götürülmüşdür:

– uşaqların yaş səviyyəsinə və maraq dairəsinə uyğunluq;

– Azərbaycan və dünya ədəbiyyatının klassik nümunələri ilə ilkin tanışlıq.

Konkret dərslər üçün mətnlərin seçimi isə həmin dərsin məqsədindən, yəni hansı məzmun standart(lar)ının reallaşdırılmasından asılı olur.

**3. Qiymətləndirmə meyarları**

Azərbaycan dili üzrə qiymətləndirmə hər bir məzmun xətti üzrə ayrıca aparılmalı, daha sonra orta qiymət çıxarılmalı və beləliklə, şagirdin səviyyəsi müəyyən olunmalıdır. Belə bir qiymətləndirmə şagirdin yalnız Azərbaycan dili üzrə deyil, ümumiyyətlə, təhsilindəki uğur və geriləmələrin səbəbini aydınlaşdırmağa və müvafiq ölçülər götürməyə imkan verir. Belə ki, istənilən dərsdə şagird oxuyur, dinləyir, yazır, danışır. Əgər şagirdin oxu və ya dinləmə bacarığı zəifdirsə, deməli, onun anlama (qavrama, mənimsəmə) qabiliyyəti zəifdir. Əgər yazı və ya danışma qabiliyyəti güclüdürsə, deməli, onun özünüifadə qabiliyyəti güclüdür. Beləliklə, nitq bacarıqlarını qiymətləndirməklə biz şagirdin aşağıdakı qabiliyyətlərini aşkar etmiş oluruq:

| *Nitq bacarığı* | *Qabiliyyət* |
|---|---|
| Oxu | yazılı informasiyanı qavrama |
| Dinləmə | şifahi informasiyanı qavrama |
| Yazı | yazmaqla özünüifadə |
| Danışma | şifahi özünüifadə |

Hər bir nitq bacarığının qiymətləndirilməsi üçün meyarlar müvafiq məzmun standartlarından və onunla bağlı olan təlim məqsədlərindən doğur. Bu meyarlar vəsaitin giriş hissəsində təqdim olunan müxtəlif qiymətləndirmə cədvəllərində öz əksini tapır.

**4. Qiymətləndirmənin prosedur qaydaları**

Qiymətləndirmənin prosedur qaydaları Təhsil Nazirliyinin direktiv sənədləri və təhsil qurumlarının bu sənədlərə uyğun qərarları ilə müəyyən olunur. Dərslik müəllifləri Azərbaycan dili fənni üzrə qiymətləndirmənin bəzi konseptual məsələləri ilə bağlı fikirlərini açıqlamaqla kifayətlənirlər (sözsüz ki, bu fikirlər tövsiyə xarakterlidir):

1. **Qiymətləndirmə yaddaşa əsaslanmamalıdır. İlboyu oxunmuş və ya dinlənilmiş mətnlərdəki informasiya summativ qiymətləndirmə obyekti olmamalıdır.** <u>Oxu və dinləmə</u> üzrə kiçik və böyük summativ qiymətləndirmələr yeni mətn əsasında qoyulmuş sual və tapşırıqlar üzrə aparılmalıdır. Qiymətləndirmə obyekti kimi **mətni qavrama bacarığı** əsas götürülməlidir.

2. <u>Yazı</u> üzrə qiymətləndirmə materialı dinləmə mətni ola bilər. Başqa sözlə, ifadə yazı qiymətləndirmə forması kimi daha məqsədəuyğundur, çünki yazı bacarıqlarının daha geniş spektrini əhatə edir (hüsnxət, orfoqrafiya, fikrini ifadə etmək və s.). Bununla belə, yazı üzrə kiçik summativ qiymətləndirmə üçün yoxlama imla və ya inşa formasını da seçmək olar.

3. <u>Danışma</u> üzrə qiymətləndirmə tədris prosesində müşahidə yolu ilə aparılır. Bu zaman danışma bacarığı üzrə summativ qiymətləndirmə formativ qiymətləndirmələrin nəticəsi əsasında aparılır.

4. <u>Dil qaydaları</u> üzrə kiçik summativ qiymətləndirmə əlahiddə testlər əsasında aparılır, çünki müvafiq mərhələdə qazanılmış dil qaydaları üzrə bacarıqları yoxlamaq üçün uğurlu mətn tapmaq çox çətindir.

Çap üçün deyil

Şagird nailiyyətlərinin qiymətləndirilməsinin prosedur qaydaları Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi “Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması qaydaları” adlı sənədlə tənzimlənir. Bu sənəddə kiçik və böyük summativ qiymətləndirmə üçün dəqiq düsturlar göstərilmişdir.

Formativ qiymətləndirmənin nəticələri jurnalda qeyd olunmadığından müəllimlər şagird nailiyyətlərinin gündəlik monitorinqi üçün müxtəlif qiymətləndirmə cədvəllərindən istifadə etməlidirlər. Aşağıda verilən qiymətləndirmə cədvəlləri, ilk növbədə, formativ qiymətləndirmə üçün nəzərdə tutulmuşdur. Bu cədvəllər nümunə xarakteri daşıyır. Hər bir müəllim qiymətləndirmənin meyarlarından və mövcud prosedur qaydalarından çıxış edərək öz qiymətləndirmə cədvəllərini yarada bilər.

## DİNLƏMƏ BACARIĞININ QİYMƏTLƏNDİRİLMƏSİ CƏDVƏLİ
(NÜMUNƏ)

Dinləmə bacarığının qiymətləndirilməsi həm müşahidə, həm də dinləmə mətni üzrə sual və tapşırıqlar əsasında aparılır.

Şagirdin hər dəfə müəyyən bacarığı nümayiş etdirməsi müvafiq xanada + işarəsi ilə qeyd olunur. Qeydlərin sayına görə hər meyar üzrə qiymət müəyyən edilir. Mərhələnin sonunda qiymətlər cəmlənir və meyarların sayına bölünür.

4 qeyd – 5 bal – həmişə əməl edir;
3 qeyd – 4 bal – tez-tez əməl edir;
2 qeyd – 3 bal – bəzən əməl edir;
1 qeyd – 2 bal – nadir hallarda əməl edir;
0 qeyd – 1 bal – heç əməl etmir.

Şagirdin adı, soyadı ________________________________________

| № | Meyarlar | Qeydlər | | | | Qiymət |
|---|---|---|---|---|---|---|
| 1 | Dinlədiyi mövzuya dair suallar verir. | + | + | | | 3 |
| 2 | Dinlədiyi mətnlə bağlı faktoloji suallara cavab verir. | + | + | + | | 4 |
| 3 | Debat zamanı opponentinin sözünü kəsmir. | + | | | | 2 |
| 4 | Debat zamanı opponentini dinləyir və əks-arqumentlər hazırlayır. | | | | | 1 |
| 5 | Müzakirə zamanı səhv hesab etdiyi fikrə qarşı tolerantlıq (dözümlülük) nümayiş etdirir. | + | | | | 2 |
| 6 | Dinlədiklərinə qarşı etika çərçivəsində reaksiya verir. | + | | | | 2 |
| 7 | Dinlədiyi mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | + | + | + | + | 5 |
| 8 | Dinlədiyi bədii mətnin ideya məzmununu müəyyən edir. | + | + | | | 3 |
| 9 | Dinlədiklərində ilk dəfə eşitdiyi sözlərin mənasını təxmin edir. | + | | | | 2 |
| 10 | Mənasını bilmədiyi sözləri qeyd edir və aydınlaşdırmağa çalışır. | + | + | | | 3 |
| 11 | Dinlədiyi mətnin necə davam edəcəyini təxmin edir. | + | + | + | | 4 |
| 12 | Dinlədikləri ilə bağlı öz həyatından və ətrafda gördüklərindən nümunələr gətirir. | + | + | | | 3 |
| | **Orta qiymət** | | | | | **3** |



Çap üçün deyil

## DANIŞMA BACARIĞININ QİYMƏTLƏNDİRİLMƏSİ CƏDVƏLİ
(NÜMUNƏ)

Danışma bacarığının qiymətləndirilməsi müşahidə əsasında aparılır.

Şagirdin hər dəfə müəyyən bacarığı nümayiş etdirməsi müvafiq xanada + işarəsi ilə qeyd olunur. Qeydlərin sayına görə hər meyar üzrə qiymət müəyyən edilir. Mərhələnin sonunda qiymətlər cəmlənir və meyarların sayına bölünür.

4 qeyd – 5 bal – həmişə əməl edir;
3 qeyd – 4 bal – tez-tez əməl edir;
2 qeyd – 3 bal – bəzən əməl edir;
1 qeyd – 2 bal – nadir hallarda əməl edir;
0 qeyd – 1 bal – heç əməl etmir.

Şagirdin adı, soyadı ____________________

| № | Meyarlar | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | Aydın səslə, axıcı və səlis danışır. | + | + | + | + | 5 |
| 2 | Sözləri orfoepik normalara uyğun tələffüz edir. | + | + | | | 3 |
| 3 | Cümlələri düzgün və anlaşıqlı qurur. | + | + | + | | 4 |
| 4 | Danışarkən mövzudan kənara çıxmır. | + | + | + | + | 5 |
| 5 | Müəyyən fikirlə bağlı öz mövqeyini əsaslandırır. | + | + | + | | 4 |
| 6 | Verilmiş qrafik informasiyanı mətnə çevirib danışır. | + | + | | | 3 |
| 7 | Danışarkən özünü sərbəst hiss edir. | + | + | + | + | 5 |
| 8 | Nəzərlərini dinləyicilərdən qaçırmır. | + | + | + | + | 5 |
| 9 | Nitq etiketlərindən yerli-yerində istifadə edir. | + | + | + | | 4 |
| 10 | Danışarkən dinləyicilərə suallarla müraciət edir. | + | + | | | 3 |
| 11 | Razılaşmadığı fikirlərə çəkinmədən etiraz edir. | + | + | + | | 4 |
| 12 | Danışığında gündəlik həyatdan misallar gətirir. | + | + | | | 3 |
| 13 | Fikrini əsaslandırmaq üçün atalar sözlərindən istifadə edir. | | | | | 1 |
| 14 | Məsəlləri yerli-yerində işlədir. | + | + | | | 3 |
| 15 | Nitqində frazeoloji ifadələrdən istifadə edir. | + | + | + | | 4 |
| 16 | Nitqini aforistik şəkildə ümumiləşdirə bilir. | + | | | | 2 |
| 17 | Öyrəndiyi yeni sözlərdən yerində istifadə edir. | + | + | + | | 4 |
| 18 | Hadisəni nəql edərkən obrazın xarakterinə uyğun danışır. | + | + | + | + | 5 |
| 19 | Danışıq zamanı yersiz hərəkətlərə yol vermir. | + | + | + | + | 5 |
| 20 | Təkrar olunan yersiz sözlərdən istifadə etmir. | + | + | + | + | 5 |
| 21 | Qrup halında çalışmalar zamanı fikirlərini başqaları ilə bölüşür. | + | + | + | + | 5 |
| 22 | Nitqinin emosionallığını artırmaq üçün jest və mimikalardan istifadə edir. | + | + | + | | 4 |
| | **Orta qiymət** | | | | | **4** |

Çap üçün deyil

Müəllimlər yuxarıda verilmiş cədvəl nümunələrindən istifadə edərək digər nitq bacarıqları üzrə də formativ qiymətləndirmə cədvəlləri hazırlaya bilərlər. Lakin bu zaman nəzərə almaq lazımdır ki, təlim məqsədlərindən doğan meyarlar heç də eyni səviyyəli deyil. Odur ki müəllimlər təcrübə və intuisiyadan çıxış edərək meyarları səviyyələr üzrə bölməyi bacarmalıdırlar. Beləliklə, bəzən yalnız bir meyara görə şagirdin müəyyən nitq bacarığı üzrə səviyyəsini müəyyən etmək olar. Bu, gündəlik monitorinq zamanı şagirdlərin operativ qiymətləndirilməsini həyata keçirməyə imkan verir.

Aşağıda oxu bacarığının səviyyələr üzrə qiymətləndirilməsi üçün cədvəl nümunələri verilmişdir.

Qeyd etmək lazımdır ki, **ifadəli və şüurlu oxu** bacarıqlarının qiymətləndirilməsi müxtəlif meyarlar və üsullarla həyata keçirilir. İfadəli oxu müşahidə, şüurlu oxu mətnə qoyulmuş sual və tapşırıqlar əsasında qiymətləndirilir.

Şüurlu oxunun qiymətləndirilməsi zamanı aşağıdakılar nəzərə alınmalıdır:

1. Mətnin çətinlik dərəcəsi
2. Mətnin həcmi
3. Mətnə qoyulan sual və tapşırıqların çətinlik dərəcəsi
4. Qiymətləndirmə üçün ayrılmış müddət

Şüurlu oxunun mətn əsasında qiymətləndirilməsi iki cür aparıla bilər:

**1) yaddaşa əsasən** (əvvəlcə mətn vərəqi verilir, şagirdlər mətni oxuduqdan sonra vərəqlər yığışdırılır və test vərəqləri paylanır);

**2) vizual mətn əsasında** (iş vərəqində mətn və test sualları bir yerdə verilir).

| **İFADƏLİ OXU**<br>**bacarığının səviyyələr üzrə qiymətləndirilməsi** | |
|---|---|
| Səviyyələr | Bacarıqlar |
| I səviyyə | Aydın səslə, axıcı və səlis oxuyur. |
| II səviyyə | Müəllif nitqindən obrazların nitqinə keçərkən səs tonunu dəyişir. |
| III səviyyə | Hər bir obrazın nitqini onun xarakterinə uyğun səsləndirir. |
| IV səviyyə | Obrazların hiss və həyəcanını ifadə etmək üçün müvafiq jest və mimikalardan istifadə edir. |

| **ŞÜURLU OXU**<br>**bacarığının səviyyələr üzrə qiymətləndirilməsi** | |
|---|---|
| Səviyyələr | Bacarıqlar |
| I səviyyə | Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. |
| II səviyyə | Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyən edir. |
| III səviyyə | Əsərin ideya məzmununu atalar sözü ilə ifadə edir. |
| IV səviyyə | Əsəri bədii təxəyyülünə uyğun davam etdirir. |

Meyarları səviyyələr üzrə bölüb bu cür holistik qiymətləndirmə cədvəlləri hazırladıqdan sonra bütün nitq bacarıqları üzrə analitik qiymətləndirmə cədvəli də t rtib etm k olar.

**YAZI BACARIĞININ QİYMƏTLƏNDİRİLMƏSİ**

Yazı üzrə alt-standartları və onlardan irəli gələn təlim məqsədlərini də səviyyələrə bölmək lazım gəlir:



Çap üçün deyil

I səviyyə – yazıda hüsnxət normalarına riayət etmək;
II səviyyə – orfoqrafik normalara uyğun yazmaq;
III səviyyə – bildiklərini yazıda ifadə etmək;
IV səviyyə – hiss və düşüncələrini yazıda ifadə etmək.

Lakin yazı bacarığının özünəməxsusluğu ondadır ki, burada “səviyyə” sözü bir qədər başqa anlamdadır. Şagirdin 4-cü səviyyəyə yetişməsi heç də onun 1-ci və ya 2-ci səviyyəyə nail olmasının göstəricisi deyil. Başqa sözlə, gözəl və maraqlı inşa yazan şagirdin xətti və orfoqrafiyası qüsurlu ola bilər. Deməli, yazı bacarığı üzrə yuxarıda qeyd etdiyimiz səviyyələr şaquli deyil, üfüqi səviyyələrdir, yəni avtonom bacarıqlardır. Odur ki bu yazı bacarıqlarının hər biri üzrə şaquli səviyyələri müəyyən etmək lazımdır. Digər tərəfdən IV səviyyəni yoxlamaq üçün istifadə olunan esse üsulu bütün səviyyələri yoxlamaq imkanı verir.

Dərslik komplektində yazı bacarıqları müxtəlif üsullarla inkişaf etdirilir və qiymətləndirilir. Komplektdə hüsnxət normalarına riayət etməklə bağlı tapşırıqlar, əsasən, iş dəftərində təqdim olunmuşdur, çünki bu bacarığın inkişaf etdirilməsi nümunə mətnlər əsasında mümkündür. Bundan əlavə, həmin bacarıq “üzündən köçürmə” və “imla” fəaliyyət xətləri daxilində əlavə qiymətləndirmə meyarı kimi çıxış edir.

ÜZÜNDƏN KÖÇÜRMƏ

Üzündən köçürmə fəaliyyətinin əsas məqsədi şagirdlərdə praktik orfoqrafiya vərdişlərini və hüsnxət normalarına uyğun sürətli yazını inkişaf etdirməkdir. Üzündən köçürmə mətnləri daha çox formativ qiymətləndirmə materialı kimi çıxış edir.

Etiraf etmək lazımdır ki, təfəkkürlü və yaradıcı şagird üçün mətni üzündən köçürmək cansıxıcı və darıxdırıcı bir fəaliyyət kimi görünə bilər. Lakin bu məzmun standartı şüurlu oxu məzmun standartı ilə (2.2.1) inteqrasiya olunsa, nitq bacarıqlarının inkişafında daha yüksək nəticələr əldə etmək olar. Məhz buna görə də iş dəftərində üzündən köçürmə üçün nəzərdə tutulmuş mətnlər hər hansı əlavə tapşırıqla müşayiət olunur. Bu tapşırıqların məqsədi köçürülən mətni oxuyub anlamaqdan ibarətdir. Beləliklə, üzündən köçürmə məqsəd kimi deyil, oxuyub anladığını nümayiş etdirmək üçün vasitə kimi çıxış edir. Belə olduqda yaradıcı şagirdlər də bu tapşırığı daha həvəslə yerinə yetirirlər.

“Üzündən köçürmə” mətnlərini müşayiət edən tapşırıq modelləri:

– Mətnin abzasları qeyri-ardıcıl şəkildə verilir. Tapşırıq: Mətni düzgün ardıcıllıqla köçür.
– Mətn abzaslara bölünmədən verilir. Tapşırıq: Mətni abzaslara böl və köçür.
– Mətndə artıq (yad) cümlə verilir. Tapşırıq: Yad cümləni çıxmaqla mətni köçür.
– Mətndən bir (və ya bir neçə) söz (cümlə) çıxarılır və ayrıca çərçivədə verilir. Tapşırıq: *Verilmiş cümləni mətndə yerinə qoymaqla mətni köçür.*

Bu tapşırıqları bir az da mürəkkəbləşdirib “Üzündən köçürmə” standartını 3.1.4 (Təsviri və ya nəqli xarakterli inşalar yazır) standartı ilə inteqrasiya etmək olar:

– Mətnin sonluğu verilmir. Tapşırıq: *Mətni köçür və öz təxəyyülünə uyğun sonluqla tamamla.*

İMLA YAZILAR

İmlalar öyrədici və yoxlama xarakterli ola bilər. Formativ qiymətləndirmə zamanı imladan geniş istifadə etmək olar. Bu zaman yazı, oxu və dil qaydaları üzrə məzmun standartlarının inteqrasiyası məqsədəuyğundur.

**Sadə (orfoqrafik) imla**. İmlanın ən bəsit və yazı texnikası zəif olan şagirdlər üçün nəzərdə tutulmuş növüdür. Mətn səsləndirilərkən deyilişi və yazılışı fərqlənən sözlər əvvəlcə orfoepik, sonra isə orfoqrafik normalara uyğun tələffüz olunur. Durğu işarələrinin yeri bildirilir. Bu imla növünün məqsədi şüurda səslə hərfi eyniləşdirmək, hüsnxət normalarına uyğun yazmaq bacarıqlarını inkişaf etdirməkdir.



Çap üçün deyil

**Xəbərdarlıqlı imla.** Müəllim əvvəlcədən imla mətninin yazılışında ehtimal olunan orfoqrafik səhvləri açıqlayır. Orfoqram (müəyyən sözlərdə fərqli tələffüz olunan hərf) aydın, ucadan tələffüz olunur, hecalarla, xüsusi vurğu altında deyilir. Bundan sonra imla orfoepik qaydalara uyğun səsləndirilir və şagirdlər tərəfindən yazılır.

**Vizual (görüntülü) imla.** Xarakterinə görə "Üzündən köçürmə" yazı fəaliyyətinə yaxındır. Əvvəl deyilişi və yazılışı fərqlənən sözlər lövhədə yazılır, orfoqram izah olunur. Sonra üstü örtülərək müəllimin orfoepik qaydalara uyğun diktəsi ilə mətn yazılır.

**İzahlı imla.** İmladan əvvəl ehtimal olunan səhvlərlə bağlı müvafiq orfoqrafik və qrammatik qaydalar təkrarlanır. Mətn əvvəl bütöv, sonra cümlə-cümlə oxunur. İmla yazıldıqdan sonra izah olunmuş qaydaların tətbiqi yoxlanılır və şagirdlərə "Bu söz necə tələffüz olunur? Bəs niyə belə yazdın? Burada hansı qayda özünü göstərir?" deyə suallar verilir.

**Lüğət üzrə imla (özünüqiymətləndirmə).** Mətn orfoepik qaydalara uyğun səsləndirilir. Sonra şagirdlərə vaxt verilir ki, düzgün yazılışında şübhələndikləri sözləri orfoqrafiya lüğəti ilə tutuşdursunlar və səhvlərini düzəltsinlər.

**Cütlərlə imla (bir-birini qiymətləndirmə).** İmla yazıldıqdan sonra yanaşı oturan şagirdlər bir-birinin yazısını oxuyur və səhvləri qeyd edirlər.

**Yaradıcı imla.** Bu imlalar mətn üzərində çalışmalarla müşayiət olunur. Məsələn, müəllim mətndəki cümlələrin ardıcıllığını pozmaqla diktə edir. Şagirdlər imlanı yazdıqdan sonra mətni ardıcıllıqla köçürürlər.

## İFADƏ

Kiçik summativ qiymətləndirmələr üçün ifadə yazılar daha məqsədəuyğundur. Çünki bu üsul yazı bacarığı üzrə birinci üç səviyyəni (hüsnxət, orfoqrafiya, özünüifadə) qiymətləndirməyə imkan verir. Hər bölmənin sonunda MMV-də dinləmə mətni, iş dəftərində isə mətnlə bağlı sual və tapşırıqlar verilir. Dinləmə bacarığı qiymətləndirildikdən sonra şagirdlər həmin mətn üzrə ifadə yazırlar. Beləliklə, bir mətn əsasında həm dinləmə, həm də yazı bacarıqları qiymətləndirilir.

## DİL QAYDALARI ÜZRƏ QİYMƏTLƏNDİRMƏ

Dil qaydaları üzrə formativ qiymətləndirmə hər bir mövzudan sonra testlər əsasında, eləcə də oxu və dinləmə mətnləri üzrə qoyulmuş sual və tapşırıqlar əsasında aparıla bilər. Summativ qiymətləndirmənin isə test əsasında aparılması məqsədəuyğundur, çünki müvafiq bölmədə öyrədilmiş dil qaydaları üzrə bütün mövzuları əhatə edən nitq materialından ibarət mətn tapmaq çox çətin olur və bu üsul məqsədi məhdudlaşdırır.

Test sualları vasitəsilə, ilk növbədə, dil qaydalarının konkret nitq materialına tətbiqi bacarığı yoxlanılmalıdır. Bununla belə, bəzi nəzəri biliklər və dilçilik terminləri ilə bağlı məlumatlar da qiymətləndirmə obyekti ola bilər (bunu müvafiq məzmun standartları tələb edir).



Çap üçün deyil

### SOSİAL BACARIQLARIN QİYMƏTLƏNDİRİLMƏSİ

Nitq bacarıqları ünsiyyət vasitəsi olaraq sosial bacarıqlardır. Bu baxımdan şagirdlərin cütlər və qruplarla iş zamanı, eləcə də müzakirələrdə və debatlarda fəallığı qiymətləndirmə obyekti olmalıdır. Aşağıda sosial bacarıqlarla bağlı qiymətləndirmə cədvəllərinin nümunələri verilmişdir.

## Kiçik qruplarda iş zamanı qrup üzvünün qiymətləndirilməsi

Şagirdin adı, soyadı ______________________________

| *Meyarlar* | *Bəli* | *Qismən* | *Xeyr* |
|---|---|---|---|
| Qrupun ümumi vəzifəsini dərk etməyə çalışır. | | | |
| Qrupda vəzifəsini aydınlaşdırır. | | | |
| Üzərinə düşən vəzifəni yerinə yetirməyə çalışır. | | | |
| Müzakirələrdə fəallıq göstərir. | | | |
| Qrup yoldaşlarına kömək etməyə çalışır. | | | |
| Danışanın sözünü kəsmir. | | | |
| Qrup yoldaşı səhv danışanda onu danlamır. | | | |
| Mənsub olduğu kollektivin qərarına hörmətlə yanaşır. | | | |
| Qrup liderinin göstərişlərinə sözsüz əməl edir. | | | |
| Kollektivdə qəbul olunmuş qaydalara riayət edir. | | | |

## Kiçik qruplarda iş zamanı qrup liderinin qiymətləndirilməsi

Şagirdin adı, soyadı ______________________________

| *Meyarlar* | *Bəli* | *Qismən* | *Xeyr* |
|---|---|---|---|
| Qrupun fəaliyyətini düzgün yönəldə bilir. | | | |
| Yalnız özü danışmır, başqalarına da imkan yaradır. | | | |
| Qrup üzvlərini daim həvəsləndirir. | | | |
| Qrup üzvü səhv danışanda onu danlamır. | | | |
| Çətin anlarda məsuliyyəti öz üzərinə götürür. | | | |
| Müəyyən vəzifələr üçün qrup üzvlərini düzgün seçir. | | | |
| Kollektivdə qəbul olunmuş qaydalara riayət edir. | | | |
| Kollektivdə çoxluğun qərarına tabe olur. | | | |
| Qrup üzvlərinə qarşı hörmət, ədalət və qayğıkeşlik nümayiş etdirir. | | | |

### ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ

Şagirdin müntəzəm olaraq özünü qiymətləndirməsi tədris prosesində maraqlı psixoloji məqamlardan biridir. Bu, şagirdin özünüidarə bacarığını inkişaf etdirir, öz zəif və üstün cəhətlərini daha dərindən duymağa imkan verir, müəllim qiymətləndirməsinə etibar yaradır və beləliklə, şagird nailiyyətlərinin monitorinqini daha da zənginləşdirir və tamamlayır. Belə bir qiymətləndirmə zamanı şagird sinif yoldaşları ilə müqayisədə hansı səviyyəyə çatdığını, ən əsası isə bundan sonra nə etməli olduğunu dərk edir.

Çap üçün deyil

**OXU BACARIĞI ÜZRƏ**

## ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

(NÜMUNƏ)

Şagirdin adı, soyadı ________________________________________

*(Müsbət cavabı sualın qarşısındakı xanada işarə et)*

Oxuyarkən fikrimi mətn üzərində cəmləyirəm. ☐
Səssiz oxu zamanı dodaqlarımı tərpətmirəm. ☐
Oxuyarkən barmağımla sətirləri izləmirəm. ☐
Oxuduqlarımı zehnimdə canlandırıram. ☐
Xarakterin daxili aləmini anlayıram. ☐
Maraqlı fikirləri özüm üçün qeyd edirəm. ☐
Fikrim yayınarsa, həmin hissəni təkrar oxuyuram. ☐
Başa düşmədiyim sözləri soruşuram. ☐
Oxuduqlarımı başqaları ilə bölüşürəm. ☐

Mətni oxuduğum zaman üzləşdiyim çətinliklər:

________________________________________
________________________________________
________________________________________

Oxumaq bacarığımı artırmaq üçün nə etməliyəm?

________________________________________
________________________________________
________________________________________

### ŞAGİRDLƏRİN BİR-BİRİNİ QİYMƏTLƏNDİRMƏSİ

Bu qiymətləndirmə üsulundan daha çox danışma, ifadəli oxu, məruzə, rollu oyun kimi fəaliyyət növlərinin qiymətləndirilməsində istifadə oluna bilər. Bunun üçün şagirdlər aşağıda nümunəsi verilmiş qiymətləndirmə cədvəlindən və ya üzərində 1-dən 5-ə kimi qiymət yazılmış vərəqlərdən istifadə edə bilərlər. Hər bir şagird müvafiq vərəqi yuxarı qaldırmaqla çıxış edən şagirdə öz qiymətini verir.

Bundan əlavə, şagirdlər bir-birinin imla, ifadə yazılarını və esselərini də qiymətləndirib öz münasibətlərini bildirsələr, maraqlı nəticələr əldə etmək olar.

Şagirdlərin bir-birini qiymətləndirməsi, sadəcə, qiymət qoymaqla bitməməlidir. Hər bir şagird qoyduğu qiyməti əsaslandırmalı, görülən işdə mənfi və müsbət cəhətləri sadalamağı bacarmalıdır. Beləliklə, şagirdlərdə analitik qiymətləndirmə bacarığını inkişaf etdirmək olar.

Çap üçün deyil

**DANIŞMA BACARIĞI ÜZRƏ**
**BİR-BİRİNİ**
## QİYMƏTLƏNDİRMƏ CƏDVƏLİ

(Daha çox debat, məruzə, Akvarium üsulunun tətbiqi zamanı istifadə olunur)

Qiymətləndirən şagirdin adı, soyadı ______________________________
Spikerin adı, soyadı ______________________________

| *Meyarlar* | *Bəli* | *Qismən* | *Xeyr* |
|---|---|---|---|
| Aydın səslə danışırdı, mən onu rahat eşidirdim. | | | |
| Cümlələri anlaşıqlı idi, danışığını yaxşı başa düşürdüm. | | | |
| Sərbəst idi, bir neçə dəfə gözlərimə baxdı. | | | |
| Yeri gəldikdə mimika və jestlərdən istifadə edirdi. | | | |
| Lazımsız əl-qol hərəkətlərinə yol vermirdi. | | | |
| Hislərini daha yaxşı anlatmaq üçün səs tonundan düzgün istifadə edirdi. | | | |
| Mövzudan kənara çıxmırdı. | | | |
| “Adı nədir...”, “şey...” kimi yersiz sözlərə yol vermirdi. | | | |

Hər ayın sonunda müəllim bütün qiymətləndirmə materiallarını ümumiləşdirərək hər bir şagird haqqında belə bir qiymətləndirmə cədvəli hazırlaya bilər.

**NİTQ BACARIQLARININ ÜMUMİ QİYMƏTLƏNDİRİLMƏSİ**
(Ay ərzində müşahidələrin nəticəsinə əsasən doldurulur)

Şagirdin adı, soyadı ______________________________

| Səviyyələr | Dinləmə | Danışma | Oxu | Yazı | Dil qaydaları |
|---|---|---|---|---|---|
| Yüksək səviyyədədir. | | | | | |
| İnkişaf edir. | | | | | |
| Aşağı səviyyədədir. | | | | | |

Qeydlər: ______________________________
______________________________
______________________________

Çap üçün deyil

## 4 TƏLİM TEXNOLOGİYALARI

Məktəblərdə tədrisin əsas məqsədi şagirdlərə hazır bilik və ehkamlar vermək deyil, onların faktlar və mənbələrlə sərbəst işləmək, təhlil etmək, müstəqil nəticələr çıxarmaq bacarıqlarını inkişaf etdirməkdir. Bu cür təlimdə qiymətləndirmə konsepsiyası da fərqlidir. Burada yalnız mənimsənilmiş biliklərin aşkarlanması deyil, şagirdlərin oxuduğu mətni qavramaq, məntiqi və yaradıcı düşünmək, ümumiləşdirmək, sərbəst işləmək bacarıq və vərdişləri əsas qiymətləndirmə meyarı kimi götürülür.

Bütün bunlarla yanaşı, demək lazımdır ki, interaktiv metod məqsəd deyil, vasitədir. Məqsəd isə kurikulumda təsbit olunmuş məzmun standartlarını reallaşdırmaqdır. Odur ki müəllim bu standartlara aparan ən səmərəli yolu özü seçməlidir. Bunun üçün bir dərs daxilində bir neçə fəaliyyət modelindən və təlim üsulundan istifadə etmək olar.

Aşağıda interaktiv təlimdə geniş yayılmış, eləcə də dərslik müəllifləri tərəfindən təklif olunan bir sıra metod və üsulların təsviri verilir.

**BİBÖ** əksər dərslərdə tətbiq oluna bilən çox sadə və səmərəli üsuldur. Bu üsul özündə diaqnostik qiymətləndirməni və özünüqiymətləndirməni ehtiva edir.

Dərsin mövzusu müəllim tərəfindən elan edilir və lövhədə BİBÖ cədvəli çəkilir:

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |

Şagirdlərin mövzu ilə bağlı bildikləri 1-ci sütunda, bilmək istədikləri 2-ci sütunda qeyd olunur. Dərsin sonunda mövzu ilə bağlı şagirdlərin öyrəndikləri 3-cü sütunda qeyd olunur.

**Beyin həmləsi** yeni mövzuya maraq oyatmaq və diaqnostik qiymətləndirmə aparmaq məqsədilə  keçirilir. Bəzi mənbələrdə **əqli hücum** da adlanır.

Sual (problem) lövhədə yazılır. Şagirdlər çəkinmədən sual ətrafında öz ideyalarını, fikirlərini bildirirlər. Bütün ideyalar şərhsiz, müzakirəsiz qeydə alınır. Sonda düzgün ideyalar aşkar olunur, yekunlaşdırılır və təhlil edilir.

**Söz assosiasiyaları** şagirdlərin assosiativ düşüncə bacarığını yoxlamaqla motivasiya zamanı diaqnostik qiymətləndirmə rolunu oynaya bilər.

Öyrəniləcək mövzu ilə bağlı əsas söz lövhədə yazılır. Şagirdlər bu sözlə bağlı xatırladıqları söz, ifadə və fikirləri söyləyirlər. Beləliklə, mövzu ilə bağlı şagirdlərin ilkin bilik səviyyəsi müəyyən edilir.

**Qruplarda araşdırma** modeli informasiya qəbul etmə və ona münasibət bildirmə prosesində şagirdin tənqidi təfəkkürünün inkişafına geniş imkanlar açır.

Burada fəaliyyət aşağıdakı sxem üzrə baş verir: 1. Mövzu ilə bağlı tədqiqat sualı qoyulur. 2. Şagirdlər qruplara bölünərək araşdırma aparırlar (hər qrup mövzu ilə bağlı bir problemi araşdırır). 3. Qrupların təqdimatları dinlənilir. 4. Məlumat mübadiləsi aparılır. 5. Tədqiqat sualı bir yerdə müzakirə olunur və nəticə çıxarılır.

**Sual müsabiqəsi**, əsasən, elmi mətnlərlə iş zamanı aparılır.

Şagirdlər dörd qrupa bölünürlər. Dərslikdə verilmiş mətn şagirdlər tərəfindən səssiz oxunduqdan sonra qruplar bu mətn üzrə mümkün qədər çox sual hazırlayır (unutmamaq üçün sualları vərəqdə qeyd edirlər). Hər bir qrupun sualına digər qruplar cavab verməlidir. Suallar qruplar tərəfindən növbə ilə bir-bir səsləndirilməlidir, buna görə də qrupların ardıcıllığı püşkə əsasən müəyyən olunur. Müəllim bildirir ki, hər suala görə qrup 1 bal, düzgün cavaba görə 2 bal qazanacaq və qiymətləndirmə üçün lövhədə belə bir cədvəl çəkir (ballar şərti olaraq göstərilir):



Çap üçün deyil

| Qruplar | Verilən suallar | Düzgün cavablar | Cəmi |
|---|---|---|---|
| I qrup | xxx | xx | 7 bal |
| II qrup | xx | xxx | 8 bal |
| III qrup | xx | x | 4 bal |
| IV qrup | x | xx | 5 bal |

Müəllim müsabiqənin digər şərtlərini də elan edir:
– Təkrarlanan, qeyri-müəyyən və anlaşılmaz suallar qəbul olunmur.
– Sualı səsləndirmək üçün qrupa 5 saniyə vaxt verilir.

Sual səsləndikdən sonra əlini birinci qaldıran şagird cavab verir. Əgər bir neçə şagird eyni zamanda əlini qaldırarsa, kimin cavab verəcəyi müəllim tərəfindən müəyyən olunur.

**Akvarium** diskussiya bacarığını inkişaf etdirir.

İştirakçılar diskussiya qaydalarını (reqlament, bir-birinin sözünü kəsməmək) müəyyən edirlər. Şagirdlər iki qrupa bölünüb bir-birinin içində olan dairələr şəklində otururlar. Birinci qrup daxili (kiçik) dairədəki stullarda əyləşərək müəllimin təklif etdiyi problemi müzakirə edir. Böyük dairədəki stullarda əyləşmiş digər qrup isə diskussiyanın müəyyən edilmiş qaydalara uyğun aparıldığını müşahidə edir. Vaxt bitdikdən sonra "xarici dairə"nin iştirakçıları diskussiyanın gedişini qiymətləndirir.

Birinci mərhələ bitdikdən sonra qruplar yerini dəyişərək bu və ya digər problemin müzakirəsini davam etdirir.

**Debat** şifahi nitq bacarıqlarını və tənqidi təfəkkürü inkişaf etdirir.

Debatın necə keçirilməsi sinfin səviyyəsindən asılıdır. Səviyyə nə qədər yüksəkdirsə, debat üçün ayrılmış vaxt daha çox, qaydalar da bir o qədər dəqiq və sərt olur. İstənilən halda, adi mübahisədən fərqli olaraq debatın dəqiq formatı və reqlamenti olmalıdır. "Azərbaycan dili" dərsində debatın əsas məqsədi hər hansı həqiqəti aşkar etmək deyil, şagirdlərin dinləmək, danışmaq və araşdırmaq bacarıqlarını inkişaf etdirməkdir. Şagirdlər hər bir fikri əsaslandırmaq üçün arqument (dəlil, sübut) axtarmalı və onları şifahi nitq bacarıqlarının köməyi ilə effektiv şəkildə təqdim etməlidirlər. Onlar opponentin sözünü kəsmədən onun arqumentlərini dinləməli və qısa zamanda əks-arqumentlər hazırlamağı bacarmalıdırlar. Debat üçün mövzu şagirdin yaş səviyyəsinə uyğun seçilməlidir.

**Məruzə** layihə hazırlamağın növlərindən biri kimi araşdırma və danışma bacarığını inkişaf etdirən üsuldur.

Hər bölmənin sonunda şagirdlərə həmin bölmənin mövzusu ilə bağlı məruzə hazırlamağı tapşırmaq olar. Müəllim bölmənin mövzusunu problemlərə bölüb hər problemlə bağlı bir məruzə hazırlamağı tapşıra bilər. Məruzənin hazırlanmasında müəllim və valideyn köməyi vacibdir. Məruzə qruplar tərəfindən və ya fərdi şəkildə hazırlana bilər.

**Anlayış oyunu** şagirdlərdə anlayışın əlamətlərini sadalamaqla sözü izah etmək bacarığını inkişaf etdirir.

Arxasında hər hansı söz yazılmış kart lövhədə asılır. Şagirdlər bu sözü tapmalıdırlar. Bunun üçün müəllim kartın üzərində həmin sözü izah edən iki-üç əlamət (xüsusiyyət) yazır. Əgər bu, sözü tapmağa kifayət etməzsə, müəllim siyahını genişləndirir.

**Auksion** şagirdlərdə analitik təfəkkürü və söz ehtiyatını inkişaf etdirir.

Şagirdlər qarşısında problem qoyulur, şagirdlər bu problemin həlli yollarını sadalamalıdırlar. Düzgün fikirlər lövhədə qeyd olunur. Sonuncu düzgün fikri söyləyən şagird qalib sayılır.

Çap üçün deyil

Məsələn: 1) bədii mətn oxunduqdan sonra hər hansı obrazı səciyyələndirən xüsusiyyətləri sadalamaq, 2) söz-anlayış elan edildikdən sonra onun əlamətlərini sadalamaq və s.

**Doqquzdaş oyunu** şagirdlərin söz ehtiyatını zənginləşdirir.

Oyunda tərəflərinə hərflər yazılmış kiçik kublardan – zərlərdən istifadə olunur. Zərin altı tərəfi olduğundan burada 54 (9x6) hərf iştirak edir. Azərbaycan dilində 32 hərf olduğundan dilimizdə daha çox işlənən hərflər (əsasən saitlər) bir neçə zərdə təkrarlanır. Müəllim və ya şagirdlərdən biri zərləri masanın üstünə atır. Üstə düşən hərflər yazı taxtasına yazılır. Bu hərflərin köməyi ilə daha çox söz düzəldən qrup oyunda qalib gəlir.

Bu zərləri şagirdlər özləri müəllimin köməyi ilə karton və ya qalın kağızdan düzəldə bilərlər.

Bu oyunun geniş təsviri “Azərbaycan dili” (2-ci sinif) müəllim üçün metodik vəsaitdə verilmişdir.

**Söz-loto oyunu** şagirdlərdə sözün ümumi mənasını izah etmək bacarığını inkişaf etdirir.

Şagirdlərə altıxanalı kart verilir. Hər xanada müəyyən bir məna qrupunun adı yazılır. Məsələn, “quş”, “geyim”, “əmək aləti”, “çalğı aləti”, “tərəvəz” və s. Müəllimin masası üstünə müxtəlif varlıqlar çəkilmiş şəkillər qoyulur. Şagirdlərdən biri masaya yaxınlaşıb bir şəkil götürür və orada təsvir olunmuş varlığın adını ucadan deyir; məsələn, “kamança”. Bu zaman kartında “çalğı aləti” xanası olan şagird deməlidir: “Məndə”. Şəklin adını deyən şagird ona yaxınlaşıb həmin şəkli verir. Bu mərhələdə qalib gəlmiş şagird masaya yaxınlaşıb başqa şəkil götürür. Beləcə, şagirdlərdən birinin kartındakı xanalar dolana qədər oyun davam edir.

Bu oyunun geniş təsviri “Azərbaycan dili” (2-ci sinif) müəllim üçün metodik vəsaitdə verilmişdir.

**Xanaqraf oyunu** şagirdlərin söz ehtiyatını zənginləşdirir.

“Xanaqraf” cədvəli və bu oyunun geniş təsviri “Azərbaycan dili” (2-ci sinif) iş dəftərində verilmişdir.

**Klaster (şaxələndirmə)** anlayışların təsnifatını yaratmaq bacarığını inkişaf etdirir.

Lövhənin və ya iş vərəqlərinin mərkəzində dairə çəkilir və orada söz yazılır. Şagirdlər sözün ifadə etdiyi anlayışlarla bağlı yeni sözlər yazmalı və onları xətlərlə əlaqələndirməlidirlər. Vaxt bitdikdən sonra alınan klaster müzakirə edilir.

**Ziqzaq** üsulu mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır. Bu üsul <u>dinləmə</u>, <u>danışma</u> və <u>oxu</u> məzmun xətlərini özündə birləşdirməklə sinifdə hər bir şagirdin fəal olmasına imkan yaradır.

Şagirdlər 4-5 nəfərlik qruplara bölünür. Bunlar əsas qrup adlanır. Qruplardakı şagirdlər nömrələnir və eyni rəqəmli şagirdlərdən yeni qrup yaradılır. Buna ekspert qrupu deyilir. Öyrəniləcək mətn ekspert qruplarının sayı qədər (4-5) hissələrə bölünür və hər qrupa bir hissə verilir. Hər bir ekspert qrupundakı şagirdlər öz hissələrini oxuyub qavradıqdan sonra əsas qrupa qayıdıb öyrəndikləri hissəni danışırlar. Sonda əsas qrupun bir nümayəndəsi oxuduğunu və dinlədiklərini ümumiləşdirib mətni nəql edir.

Bundan sonra müəllim hər bir əsas qrupun mətni tam qavradığına əmin olmaq üçün qruplara suallar verir.

**Rollu oyun** şagirdlərdə ifadəli oxu və danışma bacarığını inkişaf etdirir.

Dialoqların üstünlük təşkil etdiyi mətnlər səhnələşdirilir. Bu zaman müəllif mətnini bir şagird, qəhrəmanların nitqini başqa şagirdlər səsləndirir.

Çap üçün deyil

# DƏRSLƏRİN SAATLAR ÜZRƏ BÖLGÜSÜ

Dərslik komplektində verilmiş materiallar müəllim üçün vəsaitdə dərslər (mövzular) üzrə bölünmüşdür. Bəzən bir mövzuya bir neçə qoşa saat ayrılsa da, hər bir dərs bitkin və müstəqil xarakter daşıyır və fərqli məzmun xətləri və fəaliyyət modelləri üzərində qurulur.

Müəllimlər dərslik komplektində verilmiş materiallardan istifadə edərək öz təqvim planlarını yaratmalıdırlar. Bu zaman onlar vəsaitdə verilmiş dərslərin ardıcıllığını poza bilərlər. Məsələn, bayramlar, tarixi günlər, mövsümlərlə bağlı dərsləri müvafiq günlərə, aylara salmaq mümkündür. Lakin bu zaman KSQ materiallarında dəyişiklik etmək lazım gəlir. Bundan əlavə, dil qaydalarının təqdimatındakı ardıcıllığı pozmaq məqsədəuyğun deyil.

Elə mövzular da var ki, onlar ardıcıl verilmiş bir neçə dərsdə açılır. Bu dərslərdə təlim məqsədləri müxtəlif məzmun standartları ilə bağlı olsa da, onlar bir mövzunun açılmasına xidmət edir. Odur ki bu dərsləri bir-birindən ayırıb müxtəlif vaxtlarda keçmək olmaz.

Hansı çalışmaların ev tapşırığı kimi verilməsi, hansıların dərs zamanı yerinə yetirilməsi də müəllimin öz ixtiyarına buraxılır. Odur ki vəsaitdə verilmiş dərslərin şərhində "ev tapşırığı" rubrikası yoxdur. Dərslik komplektində və əlavə resurslarda şagirdin həm evdə, həm də məktəbdə çalışması üçün kifayət qədər material verilmişdir. Layihə, araşdırma tipli tapşırıqların şagirdlər tərəfindən evdə yerinə yetirilməsi və sinifdə təqdim edilməsi tövsiyə olunur.

Bəzi dərslər şagirdlərdən, eləcə də müəllimlərdən qabaqcadan hazırlıq tələb edir. Bu, araşdırma, mənbələrlə iş, müşahidə tələb edən layihə, məruzə və ya debat-dərslərdir. Buna görə də müəllim hər bir növbəti mərhələyə (bölməyə) başlamazdan əvvəl müvafiq bölmə üçün nəzərdə tutulmuş dərsləri  nəzərdən keçirməlidir.

Çap üçün deyil

# I bölmə

## AİLƏ VƏ MƏKTƏB

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | İş dəftəri səh. | MMV səh. |
|---|---|---|---|---|---|---|
| 1. | Ünsiyyət nədir? | 1.1.2, 1.2.1, 1.2.2, 2.1.4, 2.2.1, 2.2.4, 4.1.1 | 2 | 10-11 | 6 | 29 |
| 2. | Məktəbdə bir gün | 1.2.1, 2.1.3, 2.2.1, 2.2.4, 3.1.3, 3.1.4, 3.1.5, 4.1.1 | 4 | 12-14 | 7-8 | 31 |
| 3. | Eşitmək və dinləmək *Dinləmə bacarığı* | 2.1.4, 2.2.1, 2.2.4, 3.1.1, 4.1.4 | 4 | 15-17 | 9-10 | 33 |
| 4. | Uşaqların nağılı | 1.1.1, 1.1.2, 1.2.2, 3.1.2, 4.1.1 | 4 | 17-18 | 11-12 | 35 |
| 5. | Otuz altı, altı *Qalın və incə saitlər* | 1.1.1, 1.1.2, 1.2.2, 2.1.3, 2.1.4, 2.2.1, 2.2.4, 3.1.3, 3.1.4, 4.1.1, 4.1.2, 4.1.3 | 6 | 19-21 | 13-15 | 38 |
| 6. | Beş bacının qardaşı *Dodaqlanan və dodaqlanmayan saitlər* | 1.1.2, 1.2.2, 2.1.4, 2.2.4, 3.1.2, 4.1.1 | 4 | 22-23 | 16-17 | 43 |
| 7. | "Hə", yoxsa "bəli"? *Danışma bacarığı* | 1.2.2, 2.2.1, 2.2.4, 4.1.1 | 2 | 24-25 | 18 | 45 |
| 8. | İki alma | 1.2.1, 1.2.3, 2.1.2, 2.1.4, 2.2.1, 2.2.4, 2.2.5, 3.1.4, 4.1.1 | 4 | 26-27 | 19 | 46 |
| 9. | Yolda hadisə | 2.2.1, 2.2.4, 3.1.3, 4.1.1 | 2 | 28 | 20 | 48 |
| 10. | Tam məxfi | 1.2.1, 2.1.4, 2.2.1, 2.2.4, 3.1.4, 3.1.5, 4.1.1 | 2 | 29-30 | 21 | 49 |
| 11. | Yaşıl karandaş *Kar və cingiltili samitlər* | 1.2.1, 1.2.4, 2.1.1, 2.2.1, 2.2.5, 4.1.1 | 2 | 31-32 | 22 | 51 |
| 12. | Qələm | 1.1.1, 1.2.4, 2.1.2, 2.1.4, 2.2.1, 3.1.3 | 2 | 33 | | 52 |
| 13. | Ümumiləşdirici təkrar | | 2 | 34 | | 54 |
| 14. | Bölmə üzrə qiymətləndirmə | | 2 | | 23-25 | 54 |
| | | Yekun | 42 saat | | | |

Çap üçün deyil

## Dərs 1. ÜNSİYYƏT NƏDİR (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi mətnlə bağlı fikirlərini izah edir. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Oxuduğu mətndən əldə etdiyi biliklərə əsaslanaraq qrafik informasiyanı (sxemi) şərh edir. |
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Verilmiş mövzu üzrə səhnəcikdə iştirak edir və roluna uyğun cümlələr qurub danışır.<br>İlk tanışlıq zamanı dialoji nitqində müvafiq etiketlərdən istifadə edir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Çoxmənalı sözün mətndəki mənasını digər mənalarından fərqləndirir.<br>Mətndəki sözü uyğun gələn yaxınmənalı sözlə əvəz edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Sualları cavablandıraraq mətni şüurlu oxuduğunu nümayiş etdirir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətndəki əsas fikri təsdiq edən misallar gətirir. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Sözlərdə sait və samit səsləri fərqləndirir. |

*Müəllimin nəzərinə:* Bu dərs şagirdləri "Azərbaycan dili" fənninin əsas predmeti (məzmun xətləri) ilə tanış edir. Gələcək tədris prosesində və qiymətləndirmə zamanı bu dərsdə öyrədilən anlayışların böyük əhəmiyyəti var.

### Motivasiya

**Müəllim:** – *Biz hansı yollarla bilik qazanırıq?* (oxumaqla, dinləməklə) *Öz fikirlərimizi başqalarına çatdırmaq üçün nə edirik?* (danışırıq, yazırıq) *"Ünsiyyət" sözünün mənasını necə başa düşürsünüz?* (İnsanların nitq vasitəsilə bir-biri ilə əlaqədə olması.)

### Oxu

Mətn (dərslik, səh. 10) hissə-hissə oxunur. Hər bir abzasdan sonra müəllim suallar verməklə həmin abzasdakı məlumatların şagirdlər tərəfindən tam qavranıldığını yoxlayır.

Müəllim şagirdlərə təklif edir ki, mətndən əsas fikirlə bağlı olan açar sözləri seçsinlər. Bu sözlər deyildikcə lövhədə yazılır (dinləmək, danışmaq, oxumaq, yazmaq, dil qaydaları, anlamaq, anlatmaq). Müəllim bu sözlərin mahiyyəti ilə bağlı suallar verir.

**Dərsliyin** 11-ci səhifəsindəki 1-3-cü tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqlar nitq bacarıqları (dinləmə, danışma, oxu, yazı) ilə bağlı şagirdlərin söz ehtiyatını zənginləşdirməyə, çoxmənalı sözün kontekstə uyğun mənasını müəyyənləşdirmək, onu yaxınmənalı sözlə əvəz etmək bacarığını inkişaf etdirməyə yönəlmişdir.

2-ci tapşırıq. Cavab "B" variantıdır. 1-ci cümlədə *"oxumaq"* sözü *"təhsil almaq"*, 2-ci cümlədə *"ifa etmək"*, 3-cü cümlədə *"mütaliə etmək"* mənalarını verir.

### Dinləmə

Müəllim lətifə danışır:

"Bir savadsız adam Molla Nəsrəddindən xahiş edir ki, onun üçün məktub yazsın.
Molla soruşur:
– Hara göndərmək istəyirsən?
– Bağdadda olan anama.

Çap üçün deyil

– Bağışla. Bağdada gedə bilməyəcəyəm.
– Molla, sən niyə gedirsən? Sən məktubu yaz, mən özüm göndərərəm.
– Yox, axı sən bilmirsən. Mənim yazdığım məktubu özümdən başqa heç kəs oxuya bilmir. Ona görə də məktubu oxumaq üçün gərək özüm də gedəm".

**Sual:** – *Sizcə, Mollanın hansı nitq bacarığı zəif idi?* (anlatma – yazı)
Şagirdlərin cavabları dinlənilir.

**İş dəftərinin** 6-cı səhifəsindəki tapşırıqlar vasitəsilə nitq bacarıqları haqqında dərslikdən əldə edilmiş biliklər möhkəmləndirilir.

**Danışma**

Dərslikdə verilmiş mətndəki məlumatların daha dərindən qavranılması üçün müəllim lövhədə aşağıdakı sxemi çəkir və şagirdlərə bu sxemi şərh etməyi tapşırır:




*Müəllimin nəzərinə:* Qrafik informasiyanı şərh etmək təfəkkürü və nitqi inkişaf etdirən mühüm bacarıqlardan biridir. Müəllim bu bacarığı formalaşdırmaq üçün müəyyən təlimatlar verə bilər:
– Sxemə diqqətlə baxın.
– Ayrı-ayrı pəncərələrdəki söz və ifadələri diqqətlə oxuyun və anlamağa çalışın.
– Oxlar hansı sözləri birləşdirir? Bu sözlər arasında hansı əlaqə var? Həmin əlaqəni öz sözlərinizlə ifadə etməyə çalışın.

5-ci tapşırıq. **Müəllim:** – *Bir adamla tanış olarkən onu hansı xüsusiyyətlərinə görə qiymətləndirirsiniz?* Müəllim müxtəlif cavablar (gözəlliyi, geyimi, danışığı) içindən "danışma bacarığı" cavabını seçir və bu bacarıqla bağlı suallar verir, müxtəlif nitq situasiyaları ilə bağlı nümunələr göstərməyi tapşırır.

**Cütlərlə iş.** Hər cütlükdəki şagirdlərdən biri sinfə yeni gəlmiş şagird rolunda çıxış edir. Beləliklə, cütlər "İlk tanışlıq" adlı kiçik səhnəcik (3-4 dəq.) hazırlayırlar. Bir neçə cütlüyün səhnəciyi təqdim olunur. Müəllim şagirdləri sərbəst olmağa, özlərini real həyatdakı kimi hiss etməyə həvəsləndirir: "*Çalışın tərəfdaşınız haqqında mümkün qədər çox məlumat toplayasınız və ona xoş təsir bağışlayasınız*". Hər səhnəcikdən sonra iştirakçılara sual verilir: *"Tərəfdaşın səndə hansı təəssüratı oyatdı?*

Sinif cütlüklərin təqdimatını aşağıdakı meyarlar üzrə qiymətləndirir (bu meyarlar əvvəlcədən müəllim tərəfindən elan olunur):
– sözlərin aydın tələffüzü;
– cümlələrin düzgün və anlaşıqlı olması;
– nəzakət qaydalarına riayət olunması;
– nitq etiketlərindən istifadə.

**Dil qaydaları**

Bu bölmədə dil qaydaları ilə bağlı tədris olunacaq əsas mövzu saitlərin və samitlərin növləridir. 6-cı tapşırıq vasitəsilə şagirdlərə bu mövzu üzrə 2-ci sinifdə əldə etdikləri biliklər xatırladılır.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.



Çap üçün deyil

## Dərs 2. MƏKTƏBDƏ BİR GÜN (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Bədii əsərin müəyyən hissəsini oxuduqdan sonra baş verəcək hadisələri proqnozlaşdırır (təxmin edir). |
| 2.1.3. Öyrəndiyi yeni söz və terminlərdən məqamında istifadə edir. | Kontekstdən çıxış edərək mətndə buraxılmış sözü müəyyən edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndəki hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını və mövzusunu müəyyən edir.<br>Mətndəki obraza münasibətini bildirir. |
| 3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. | Mətnin qısa məzmununu yazır. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Əsərin davamını təxmin edərək öz təxəyyülünə uyğun nəqli xarakterli mətn yazır. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, açıqca, elan, ərizə, dəvətnamə) yazır. | Əsərin qəhrəmanına məktub yazır. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Səs və hərfi fərqləndirir.<br>Danışıq səslərinin fizioloji təbiətini izah edir və onların yaranmasında danışıq üzvlərinin rolunu müəyyənləşdirir. |

*Müəllimin nəzərinə:* Bu mətnin dərsliyin 1-ci mövzusu ("Ünsiyyət nədir") ilə birbaşa əlaqəsi var, çünki əsərdə ünsiyyətin insan üçün vacibliyindən danışılır. Mətnin ideya məzmunundan danışılarkən bu fikir xüsusilə vurğulanmalıdır.

**Motivasiya** (Ümumi müzakirə)

**Müəllim:** – *Nitq bacarıqlarından bəhs edən "Ünsiyyət nədir" mövzusunu keçərkən insanlar arasında ünsiyyət, onun əhəmiyyəti haqqında danışmışdıq. İndi bir anlığa təsəvvür edin ki, siz ünsiyyətdən məhrum olmusunuz. Ətrafdakılar sizi görmür, ona görə də sizinlə danışmırlar, siz də öz hiss və düşüncələrinizi ətrafdakılara çatdıra bilmirsiniz. Bu cür həyat tərzi xoşunuza gələrmi? Sizcə, bunun hansı müsbət və mənfi nəticələri ola bilər?*

**Oxu** (Proqnozlaşdırma)

"Məktəbdə bir gün" (dərslik, səh. 12-13) mətninin 12-ci səhifədə verilmiş hissəsi oxunur. Müəllim: – *Sizcə, bundan sonra nə baş verəcək?* – deyə soruşur. Şagirdlər hekayənin davamını təxmin edirlər. Sonra mətnin davamı oxunur və şagirdlərin fərziyyələri ilə müqayisə olunur.

**Dərsliyin** 13-cü səhifəsindəki 1-3-cü tapşırıqlar yerinə yetirilir.

**İş dəftərinin** 7-ci səhifəsindəki 1-4-cü tapşırıqlar yerinə yetirilir.

Şagirdlər mətnin mövzusunu (mətndə nədən danışıldığını) və ideyasını (mətndəki əsas fikri) müəyyən edirlər.

Çap üçün deyil

Mətnin mövzusu: Görünməz olmuş bir uşağın başına gələnlər.
Mətnin ideyası: Başqaları tərəfindən eşidilmək, duyulmaq hamı üçün vacibdir.
**Müəllim:** – *“Məktəbdə bir gün” və “Ünsiyyət nədir” mətnləri arasında hansı əlaqə var?*
– *Görünməz olmaqla İlkin hansı bacarıqlardan məhrum oldu?*
Görünməz olmaqla İlkinin ətrafdakılarla ünsiyyət bacarıqlarından məhrum olduğu qeyd olunur.

### Yazı

**Müəllim:** – Gəlin “Məktəbdə bir gün” hekayəsinin sonluğunu xatırlayaq. İlkin görünməz olaraq qalır. Bəs onun taleyi necə olacaq? Əgər görünməz qalsa, pis hərəkətlərini davam etdirəcəkmi?

**Qruplarla iş.** Şagirdlər üç qrupa bölünürlər.
**I qrup** mətnin qısa məzmununu yazır.
**II qrup** “Məktəbdə bir gün” mətnini öz təxəyyülünə uyğun davam etdirir və məntiqi sonluğa çatdırır (4-cü tapşırıq).
**III qrup** əsərin qəhrəmanına məktub yazır (5-ci tapşırıq).
Qrupların təqdimatları dinlənilir və müzakirə olunur. (Şagirdlərin bir-birini qiymətləndirməsi üçün qiymətləndirmə cədvəlləri tərtib oluna bilər.)

Sonda müəllim hekayənin davamı ilə bağlı öz variantını təklif edir.

“...İlkin ağladı, ağladı, axırda yorulub yuxuya getdi. Nə qədər yatdığını bilmirdi. Birdən o, anasının səsini eşitdi:
– İlkin, dur. Yenə dərsə gecikəcəksən.
İlkin gözlərini açdı. Qəribədir, axı o, bayaq divanda uzanmışdı. İndi isə öz çarpayısında idi.Təəccüblə soruşdu:
– Ana, sən məni görürsən?
Anası yerindəcə donub-qaldı:
– İlkin, xəstələnmisən?
– Anacan, sən məni eşidirsən?
Anası əlini İlkinin alnına qoydu:
– Aman Allah, deyəsən, qızdırman var. Bəlkə, məktəbə getməyəsən?
– Yox, ana, gedəcəyəm. Mütləq gedəcəyəm.
İlkin yerindən durub məktəbə hazırlaşmağa başladı.

Belə bir sonluq bir çox suala aydınlıq gətirir. Məlum olur ki, hekayədə baş verənləri İlkin yuxuda görübmüş.

### Dil qaydaları

Şagirdlərin səs və hərflər haqqında bilikləri yada salınır.
Şagirdlərə iş vərəqində aşağıdakı nümunəyə uyğun cədvəl tərtib etmək tapşırılır. Mətndən deyilişi və yazılışı fərqlənən 10 söz seçilib vərəqdə yazılır.

| Sözlərin deyilişi | Sözlərin yazılışı |
|---|---|
| | |

**Müəllim:** – *Hansı sait səsləri tanıyırsınız?*
– *Sait səslər samitlərdən nə ilə fərqlənir? (Uşaqlar bilirlər ki, sait səsləri uzatmaq olur.)*
– (Bir neçə sait səs tələffüz olunur) *Bu səslərin tələffüzündə hansı danışıq üzvləri daha fəal iştirak edir?*
Müəllim şagirdlərə aşağıdakı əlavə məlumatı verə bilər:
– *Sait səslər ağız boşluğundan sərbəst çıxır. Bu səsləri asanlıqla uzatmaq olur. Sait səslərin müxtəlifliyi tələffüz zamanı dilin, dodağın, çənənin hansı vəziyyətdə olmasından irəli*



Çap üçün deyil

*gəlir. Deməli, səs tellərinin yaratdığı avaz ağız boşluğunda cüzi maneələrə rast gələrək müxtəlif səslərə çevrilir:*

*a, ı, o, u, ə, e, i, ö, ü*

**Dərsliyin** 14-cü səhifəsindəki 6-10-cu tapşırıqlar yerinə yetirilir.

7-ci tapşırıq. Sxem belə şərh oluna bilər: – *Dinləyərkən və danışarkən səslərdən, oxuyarkən və yazarkən hərflərdən istifadə edirik.*

10-cu tapşırıq.

1. Alt dodaq üst dişlərə toxunaraq hava axınına mane olduqda [v] səsi yaranır.
2. Ağız geniş açılaraq hava axınının sərbəst çıxmasına imkan yaratdıqda [ə] səsi yaranır.
3. Dil üst dişlərə toxunaraq hava axınına mane olduqda [l] səsi yaranır.
4. Dodaqlar büzülüb irəli uzanmaqla hava axınına azacıq maneə yaratdıqda [u] səsi yaranır.

**İş dəftərinin** 8-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 3. EŞİTMƏK VƏ DİNLƏMƏK (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Çoxmənalı sözləri müxtəlif kontekstlərdə işlətməklə onların məna çalarları arasındakı fərqi aşkar edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətnə yeni başlıq seçməklə şüurlu oxuduğunu nümayiş etdirir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Təcrübələr aparmaqla mətndəki əsas fikrin düzgünlüyünə əmin olur.<br>Mətnin ideyasını həyat haqqında düşüncələri ilə əlaqələndirərək fikir yürüdür. |
| 3.1.1. Hüsnxət normalarına riayət etməklə səliqəli və sürətlə yazır. | Çap hərfləri ilə verilmiş mətni hüsnxət normalarına uyğun köçürür. |
| 4.1.4. Cəm şəkilçisinin yazılışı və tələffüzü ilə bağlı qaydaları nitqində tətbiq edir. | "L" samiti ilə başlanan şəkilçilərin yazılışı və tələffüzü ilə bağlı qaydaları nitqində tətbiq edir. |

### Motivasiya

**Müəllim:** – *Biz daim ətrafda baş verənlər haqqında məlumat alırıq. Bunu daha çox görmək yolu ilə edirik: kitab-jurnal oxuyuruq, televizora baxırıq.*

Müəllim təklif edir ki, şagirdlər gözlərini yumsunlar. O, səsli addımlarla qapıya tərəf gedir, qapını açıb-bağlayır, sonra yerinə qayıdır. Masanın üstündən bir vərəq götürüb cırır. Şagirdlərə müraciət edir:

– İndi gözünüzü açın. *Deyə bilərsinizmi, mən nə etdim?* (cavablar səsləndikdən sonra) *Bəs bunu necə bildiniz? Axı məni görmürdünüz?*

**Nəticə:** – *Deməli, bir çox məlumatları dinləmək yolu ilə də almaq olur. Lakin bu zaman çox diqqətli olmaq lazımdır.*

Çap üçün deyil

**Müəllim:** – *Bəzən müəllim dərsi danışıb qurtardıqda məlum olur ki, bəzi şagirdlər onun dediklərini xatırlamırlar. Sizcə, bu niyə belə olur? Axı onlar da, başqaları kimi, müəllimi eşidirlər.*

**Oxu** (Rollu oyun)
Mətndə (dərslik, səh. 15-16) dialoq üstünlük təşkil etdiyindən onu səhnələşdirmək tövsiyə olunur. Əvvəlcə şagirdlər mətni səssiz oxumaqla onun məzmunu ilə tanış olurlar. Sonra müəllim mətnin səhnələşdirilməsi üçün üç şagird dəvət edir. Onlardan biri Elşən, o biri Elşənin atası, digəri isə aparıcı rolunu oynayır.

**Söz ehtiyatı.** Şagirdlər "Sözlük" rubrikasında verilmiş sözlərin mənalarını araşdırırlar. Bu sözləri başqa cümlələrdə işlədirlər. Bunun üçün müəllim söz birləşmələri də təklif edə bilər: "yay tətili təəssüratları", "dediyinin fərqinə varmaq".
**Dərsliyin** 16-cı səhifəsindəki 1-ci tapşırıq şagirdlərin çoxmənalı söz və ifadələri kontekstə uyğun işlətmək bacarığını inkişaf etdirir.
2-ci tapşırığı yerinə yetirməklə şagirdlər mətndəki əsas fikri müəyyən etmək bacarıqlarını nümayiş etdirirlər.

**Müəllim:** – *İndi deyə bilərsinizmi, biz ətrafdakı əşyalar və hadisələr haqqında hansı yollarla məlumat alırıq?*
"Görmək və dinləmək" cavabı səsləndikdən sonra müəllim şagirdlərə bir neçə gül, konfet və rezin gəlincik göstərir:
– *Bu gülləri, konfetləri görməklə onların qoxusu, dadı haqqında məlumat almaq olarmı? Deyə bilərsinizmi, bu gəlincik bərk materialdandır, yoxsa yumşaq?*
Müəllim konfetləri və gülləri uşaqlara paylayır. Bir neçə şagirdə təklif edir ki, gəlinciyə toxunub onun bərkliyini yoxlasın. Beləliklə, aşağıdakı nəticə əldə olunur:
– *İnsanlar ətrafdakı aləm haqqında görmə, eşitmə, iybilmə, dadbilmə və toxunma (lamisə) qabiliyyətlərinin köməyi ilə məlumat alırlar.*
Sonda müəllim belə bir ev tapşırığı verə bilər:
– *Eşitdikləriniz, lakin görmədikləriniz haqqında təəssüratlarınızı dəftərinizdə yazın. Əgər mümkünsə, səsini eşitdiyiniz, lakin görmədiyiniz bir varlığın rəsmini çəkin.*

**İş dəftərinin** 9-cu səhifəsində verilmiş tapşırıqlar yerinə yetirilir.

**Yazı**
**İş dəftərinin** 10-cu səhifəsində verilmiş "Cəfər və balıq" şeiri buraxılmış misralar yerinə qoyulmaqla köçürülür.

**Dil qaydaları**
**İzahlı imla.** Müəllim *-lıq*$^4$, *-la*$^2$ şəkilçilərinin deyilişi və yazılışı qaydalarını *-lar*$^2$ şəkilçisi ilə müqayisəli şəkildə izah edir.

**ÜZÜM VƏ ARI** (49 söz)

Tənəklərin arasında bir salxım üzüm qalmışdı. Arı onu tapdı və üzüm salxımına dostluq təklif etdi. Onlar dost oldular.
Arı hər gün üzüm gilələrindən birinin üstünə qonur və şirəsini sorurdu. Üzümün şirəsi qurtarana kimi bu dostluq davam etdi. Elə ki axırıncı üzüm giləsi qurudu, arı özünə təzə dost axtarmağa başladı.

İmla mətnində ehtimal olunan orfoqrafik səhvlər:
*tənəklərin – tənəy(h)lərin, dostluq – dosd(l)ux, gilələrindən – gilələrinnən, üstünə – üsdünə, axırıncı – axrıncı, axtarmağa – axdarmağa, başladı – başdadı.*

**Sinifdənxaric oxu.** Xanımana Əlibəyli. "Noğul" şeiri.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.



Çap üçün deyil

## Dərs 4. UŞAQLARIN NAĞILI (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnlə bağlı faktoloji sualları cavablandırır.<br>Dinlədiyi mətndəki ziddiyyətli məqamları aşkar edir. |
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi mətndəki hadisələrin davamını təxmin edir. |
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Verilmiş tapşırığa uyğun mətn qurub danışır. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Vacib məlumatları yadda saxlamaq məqsədi ilə dərslikdə verilmiş kiçik mətnləri üzündən köçürür. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Sait və samit səslərin fizioloji təbiətini araşdırır və dərk edir. |

*Müəllimin nəzərinə:* Bu dərsin əsas məqsədi dinləyərkən və oxuyarkən, yəni anlama prosesində diqqətli olmağın vacibliyini şagirdlərin nəzərinə çatdırmaqdır.

### Motivasiya

Müəllim bir lətifə danışır:

“İki qoca adam yolda bir-birinə rast gəlir. Biri soruşur:

– Bazara gedirsən?

O biri deyir:

– Yox, bazara gedirəm.

– Hə, get, get. Elə bildim bazara gedirsən”.

**Sual:** – *Sizcə, bu adamların söhbəti niyə gülüş doğurur?* (Bu adamlar ağır eşitdikləri üçün bir-birini başa düşmədilər.)

İnsanlar danışarkən bir-birini diqqətlə dinləməyəndə ünsiyyət alınmır. Diqqətsiz dinləyici həmsöhbətinin dediklərindən düzgün nəticə çıxarmır.

### Dinləmə

**Müəllim:** – *İndi mən kiçik bir mətn söyləyəcəyəm. Bu mətndə bəzi səhvlər var. Siz o səhvləri tapmalısınız. Ona görə də diqqətlə qulaq asın.*

**TAHİR BABANIN NƏVƏLƏRİ**

Tahir babanın bir oğlu və bir qızı var. Onun dörd nəvəsindən üçü məktəbdə oxuyur. Bu, Tahir babanın qızı Solmaz xalanın uşaqlarıdır. Onların xalası qızı Aysel isə hələ bağçaya gedir. Bu ailədə hamı Ayseli çox sevir. Aysel isə hamıdan çox öz böyük qardaşı ilə oynamaq istəyir. Tahir baba deyir ki, Aysel bizim ailənin böyüyüdür, çünki o nə desə, hamı yerinə yetirməyə çalışır.

*Müəllimin nəzərinə: Bu mətndə iki səhv buraxılıb: 1. Solmazın uşaqlarının xalası ola bilməz, çünki Solmaz xalanın bacısı yoxdur. 2. Ayselin qardaşı ola bilməz, çünki Tahir babanın cəmi dörd nəvəsi var, onlardan üçü Solmaz xalanın uşaqlarıdır.*

Çap üçün deyil

*Lakin mətni dinləməklə bu səhvləri aşkar etmək çox çətindir. Ona görə də müəllim bu mətni imla kimi yazdırmalı və şagirdlərin diqqətini həmin sözlərə cəlb etməlidir.*

**Dinləmə və danışma**. Müəllim təklif edir ki, şagirdlər dərslikdəki hekayənin qəhrəmanları kimi nağıl quraşdırsınlar və bu zaman başqalarının dediklərinə diqqətlə qulaq assınlar.

**Müəllim:** – Gəlin bir yerdə şeir oxuyaq. Mən birinci misranı deyim, siz isə onun cavabında deyin: “Mən də, mən də”.

*– Gəl gedək bağa,*
*– Mən də, mən də.*
*– Çıxaq budağa,*
*– Mən də, mən də.*

*– Şaftalı yığaq,*
*– Mən də, mən də.*
*– Bağban gəlsin,*
*– Mən də, mən də.*

*– İtə qışqırsın,*
*– Mən də, mən də.*
*– İt mənə hürsün,*
*– Mən də, mən də.*

Müəllimə diqqətlə qulaq asanlar sonuncu misranı  (“Mən də, mən də”) deməyəcəklər. Lakin çox güman ki, bəziləri bu misranı təkrar edəcək. Müəllim bunun səbəbini onların diqqətlə dinləməmələri, eşitdiklərinin fərqinə varmamaları ilə izah edir.

**Fəndaxili inteqrasiya: Yazı, Dinləmə**. Müəllimin köməyi ilə şagirdlər dərsliyin 17-ci səhifəsində verilmiş dinləmə qaydalarını mənimsəyirlər. Müəllim bu qaydaları dəftərə köçürməyi tapşırır.

*Müəllimin nəzərinə:* Dərslikdə mavi fonda verilmiş nitq bacarıqları üzrə materialları “Yadda saxla!” rubrikasına aid etmək olar. Şagirdlər ayrıca bir qeyd dəftərçəsi tutub bu materialları köçürsələr, dinləmə, danışma, mətnlərin növləri və xüsusiyyətləri üzrə bir sıra qaydaları daha dərindən mənimsəmiş olarlar.

Bundan sonra müəllim dinləmə mətnini səsləndirir:

### YUYULMAMIŞ ƏRİK

Tural sancılanmışdı. Divanda uzanıb əli ilə qarnını tutur, elə hey zarıyırdı. Anası ilə nənəsi böyür-başında fırlanır, nə edəcəklərini bilmirdilər.

Nəhayət, həkim gəlib çıxdı. Turala yaxınlaşıb başını sığalladı, gülümsəyib soruşdu:

– Hə, de görüm, nə yemisən?
– Ərik, – deyə Tural cavab verdi.
– Əllərini yumuşdun?
– Yox...
– Bəs əriyi necə?
Tural susub başını aşağı saldı.

Müəllim fasilə verib ekspress-sorğu keçirir. Sual-cavabın məqsədi: 1) mətnin dinlənilmiş hissəsinin qavranılmasını yoxlamaq; 2) qalan hissənin diqqətlə dinlənilməsi üçün motivasiya yaratmaq.

– *Turala nə olmuşdu?*
– *O nə yemişdi?*
– *Sizcə, qarın ağrısının səbəbi nə idi?*
– *Niyə yeməzdən əvvəl əlini, meyvə-tərəvəzi yumayanda sancılanma olur?*

Sonuncu sualla bağlı şagirdlərin cavabları dinlənilir. Müzakirədən sonra müəllim: *“İndi görək həkim bunu necə izah etdi?”* – deyə mətnin davamını səsləndirir.

– Hər şey aydındır, – deyə həkim çantasından dərman çıxarıb Turala verdi. – Əllərində və ərikdə olan mikroblar bağırsaqlarına gedib. Orada mikrobdan qurd əmələ gəlib. İndi həmin qurd dayanıb gözləyir. Sən nə yesən, qurd onları göydəcə tutub öz qarnına ötürür. Sən də ac qalırsan. Bu səbəbdən də qarnın ağrıyır.



Çap üçün deyil

Fasilə verilir. Şagirdlərin cavabları ilə həkimin izahı müqayisə olunur. Müəllim:

– *Mətnin sonuncu hissəsində Tural dərmanı içəcək və onun qarnında dərmanla qurd qarşılaşacaq. Sizcə, bu zaman nə baş verəcək?*

Şagirdlər öz təxəyyüllərinə uyğun təsvir edirlər.

Müəllim mətni oxumağa davam edir:

Tural qorxdu. İki əli ilə qarnını tutub gözlərini bərəltdi. Həkimin verdiyi dərmanı dinməzcə içib fikrə getdi. Budur, qurd onun qarnında oyan-buyana gəzib yemək axtarır. Birdən yemək əvəzinə dərman görünür. Qurd dərmanla vuruşmağa başlayır. Amma dərman daha güclüdür. O, qurdu üstələyir, qollarını sarıyıb əsir götürür.

“Ura!” – Tural öz səsinə fikirdən ayrıldı. Özünü yaxşı hiss edir, daha qarnı ağrımırdı. Öz-özünə fikirləşdi: “Daha buna yol vermək olmaz! Gərək yeməzdən əvvəl əllərimi də, meyvə-tərəvəzi də yaxşı-yaxşı yuyum”.

**Müəllim:** – *Dərmanla qurdun mübarizəsini şəkildə təsvir edin.*

Şagirdlər tapşırığı yerinə yetirirlər.

## Oxu

Dərsliyin 17-ci səhifəsindəki mətn oxunur.

<u>1-ci tapşırıq.</u> Şagirdlər yoldaşlarını diqqətlə dinləməyən hekayə qəhrəmanını (Anar) müəyyən edirlər.

<u>2-ci tapşırıq.</u> Anarın buraxdığı səhvlər aşkar edilir: **1-ci səhv:** Uşaqların qurduqları nağılda bağbanın bir oğlu, bir qızı var idi. Anar isə danışanda onlara “qardaşlar” dedi. **2-ci səhv:** Uşaqların söylədikləri nağılda *“uşaqlar ərik ağacı əkdilər”* deyilirdi. Anar isə əriyi armudla qarışdırdı.

## Dil qaydaları

Dərsliyin 18-ci səhifəsindəki <u>4-9-cu tapşırıqlar</u> yerinə yetirilir. Bu tapşırıqlar şagirdlərin 2-ci sinifdə sait və samitlərlə bağlı əldə etdikləri bilikləri möhkəmlətməyə xidmət edir.

<u>5-ci tapşırıq.</u> Şagirdlər bilirlər ki, samitlərdən fərqli olaraq, saitləri tələffüz zamanı uzatmaq olur. Lakin elə samitlər var ki, onları da uzun tələffüz etmək olur. Məsələn: *z, s, ş* və s. Ona görə də müəllim əlavə edə bilər: səslər nəfəs alarkən yaranan hava axınının hesabına yaranır. Samitlərin tələffüzü zamanı bu hava axını ağız boşluğunda daha çox maneəyə rast gəlir: dodaqlar, dişlər qapanır, dil damağa və ya dişə toxunaraq hava axınının qarşısını kəsir.

<u>6-cı tapşırıq.</u> Şagirdlərdən verilmiş hərflər arasındakı məntiqi qanunauyğunluğu müəyyən etmək və bu qanunauyğunluğu pozan hərfi tapmaq tələb olunur. Hər sırada bir hərf ifadə etdiyi səsin növünə (sait və ya samit olmasına) görə digər üçündən fərqlənir. Birinci sətirdə “T”, ikinci sətirdə “O”, üçüncü sətirdə “V” hərfləri fərqlidir.

<u>7-ci tapşırıq.</u> *Bal, bar, bat, sal, yal, qal; bol, böl, bel* və s. Şagirdlər hər dəfə yeni söz yaratdıqca əvvəlki sözdə saitin, yoxsa samitin dəyişdiyini izah etməlidirlər.

<u>8-ci tapşırıq.</u> Cavab “B” variantıdır. Bu tapşırığı yerinə yetirərkən şagirdlər “A” hərfini tələffüz etməli, dil, diş və dodaqların hərəkətini izləməlidirlər.

<u>9-cu tapşırıq.</u> Şagirdlərin söz ehtiyatını müəyyənləşdirmək üçün “Auksion” oyunu keçirilə bilər (kərtənkələ, kitab, telefon, anbar və s.).

**İş dəftərinin** 11-12-ci səhifələrində verilmiş tapşırıqlar yerinə yetirilir.

<u>*Müəllimin nəzərinə:*</u> İş dəftərindəki anaqramların (5-ci tapşırıq) cavabları: Elnarə, Samirə, Nailə.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.



Çap üçün deyil

## Dərs 5. OTUZ ALTI, ALTI (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətndəki məlumatlarla bağlı fikir yürüdür.<br>Debat zamanı opponentinin sözünü kəsmədən fikrini dinləyir və əks-arqumentlər hazırlayır. |
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi mətndəki faktları həyatda gördükləri ilə müqayisə edərək nəticələr çıxarır. |
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Debat zamanı mövqeyini müdafiə etmək üçün öz səviyyəsinə uyğun arqumentlər gətirir. |
| 2.1.3. Öyrəndiyi yeni söz və terminlərdən məqamında istifadə edir. | Mətndə rast gəldiyi terminlərin mənşəyini (etimologiyasını) araşdırır. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Çoxmənalı sözün mətndəki mənasını digər mənalarından fərqləndirir.<br>Mətndəki sözü uyğun gələn yaxınmənalı sözlə əvəz edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndəki hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən edir.<br>Şeiri oxuyarkən əsər qəhrəmanının hiss və həyəcanını ifadə etmək üçün müvafiq səs tonundan istifadə edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını həyat haqqında düşüncələri ilə əlaqələndirərək fikir yürüdür. |
| 3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. | Şeiri yazıda nəsrlə ifadə edir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Əsər qəhrəmanının emosional vəziyyətini və düşüncələrini öz sözləri ilə yazılı şəkildə ifadə edir. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Qalın və incə saitlərin fizioloji təbiətini araşdırır və dərk edir. |
| 4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları məqamına uyğun istifadə edir. | İnsan adı bildirən sözləri böyük hərflə yazır. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğətdən istifadə edir. | Tələffüzü və yazılışı fərqlənən sözlərin düzgün yazılışını lüğətin köməyi ilə müəyyən edir. |

### Motivasiya

**Suallar:** – *İnsanlar xəstələnəndə ilk növbədə onların hərarətini ölçürlər. Deyə bilərsinizmi, bunun üçün nədən istifadə edilir?*

(BİBÖ cədvəli çəkilir, şagirdlərin termometr haqqında biliklərinin səviyyəsi yoxlanılır.)

– *Termometrlə hərarəti necə ölçürlər?*
– *Termometrin içində qalxıb-enən maddənin adı nədir?*
– *Sağlam insanın bədən hərarəti neçə dərəcə olur?*



Çap üçün deyil

– *İnsan xəstələndikdə onun hərarəti qalxır, yoxsa düşür?*
– *Termometr haqqında başqa nə bilmək istərdiniz?*

**Dinləmə**

(Müəllim mətni oxuyarkən termometri əyani olaraq göstərir, abzaslar arasında pauza edib, oxunmuş abzasın şagirdlər tərəfindən tam qavranılması üçün suallar verir, *"Kimin sualı var?"* deyə sinfə müraciət edir.)

**TERMOMETR**

Xəstələnməyin, xüsusilə soyuqlamağın əlamətlərindən biri insanın bədən hərarətinin, yəni istiliyinin yüksəlməsidir. Yəqin ki, eşitmisiniz, bəzən deyirlər, filankəsin qızdırması qalxıb. Bu o deməkdir ki, həmin adamın bədən hərarəti yüksəlib, yəni o xəstələnib. Ona görə də alimlər insanın bədən hərarətini ölçmək üçün xüsusi cihaz icad ediblər. Bu cihazın adı termometrdir (dərsliyin 20-ci səhifəsindəki məlumatdan istifadə etməklə sözün mənşəyini izah etmək olar).

(Dinləyib anlamanı yoxlayan suallar)

Termometr şəffaf şüşədən olur. İşıqda diqqətlə baxdıqda bu şüşənin içində parlaq gümüşü rəngli maddə görmək olar. Bu maddənin adı civədir. Qızıl, gümüş, dəmir kimi, civə də metaldır. Lakin başqa metallardan fərqli olaraq civə maye halda olur. İstilik çoxalanda bu maye genişlənir.

(Dinləyib anlamanı yoxlayan suallar)

Civə termometrin aşağısındakı ensiz hissədə yerləşir. Bu hissəni bir qədər isti yerə qoysanız, görəcəksiniz ki, civə genişlənib yuxarı tərəfə qalxır. Ancaq çox isti yerə qoymaq olmaz, çünki civə o dəqiqə genişlənib termometri partlada bilər. Unutmayın ki, civə çox zəhərli maddədir. Onun təkcə iyindən insan zəhərlənə bilər. Ona görə də termometrlə ehtiyatla davranmaq lazımdır.

(Dinləyib anlamanı yoxlayan suallar)

Termometr şüşəsinin üzərində xətlər və rəqəmlər var. Buna "şkala" deyilir. Şkala istiliyin dərəcəsini göstərir. Məsələn, əgər civə istidən genişlənib "38" yazılan xəttə çatıbsa, deməli, insanın hərarəti 38 dərəcədir. Yüzlük onluqlara, onluq təkliklərə bölündüyü kimi, hərarət dərəcəsi də on yarımdərəcəyə bölünür. Ona görə də bəzən deyirlər, məsələn: "Onun hərarəti 37,4-dür". Bu ifadədə otuz yeddi dərəcəni, dörd isə yarımdərəcəni göstərir.

(Dinləyib anlamanı yoxlayan suallar)

Sağlam insanın hərarəti 36,6 olur. Hərarət 37-yə çatıbsa, deməli, xəstəlik başlayıb. 39-40 dərəcə artıq xəstəliyin xeyli ağırlaşdığını göstərir.

Mətn oxunub qurtardıqdan sonra müəllim şagirdlərə tapşırır ki, hərə mətnlə bağlı üç sual hazırlasın. Suallar səslənir və başqa şagirdlər suallara cavab verirlər.

Müəllim şagirdlərin iştirakı ilə BİBÖ cədvəlini tamamlayır.

Şagirdlərin cavablarından sonra **iş dəftərinin** 13-cü səhifəsində verilmiş termometrlə bağlı tapşırıqlar yerinə yetirilir.

*Müəllimin nəzərinə:* Aşağıdakı suallar uşaqlardan məntiqi təfəkkür və həyatda gördüklərindən nəticə çıxarmaq bacarığı tələb edir:
– *Termometri həkim olmadan istifadə etmək olarmı?*
– *Havanın və insanın hərarətini ölçmək üçün eyni termometrdənmi istifadə olunur?*
Bu suallarla bağlı uşaqların çətinliyi olarsa, müəllim müəyyən şərhlər verməlidir.



Çap üçün deyil

**Müəllim:** – *Bəzi uşaqlar dərsə getməmək üçün özlərini xəstəliyə vururlar. Sizcə, onlar xəstə görünmək üçün hansı hiylələrə əl atırlar?*

Şagirdlərin fikirləri dinlənilir və münasibət bildirilir.

## Oxu

Dərslikdə verilmiş "Otuz altı, altı" şeiri (səh. 19) məzmun baxımından bitkin bəndlərə bölünüb. Müəllimin tapşırığı ilə bəndlərin hərəsini bir şagird oxuyur. Digər şagirdlər oxuyanı dinləməklə yanaşı, dərslikdə şeirin müvafiq misralarını izləyirlər.

Müəllim hər bənddən sonra suallar verir:

– *"Təlaş" sözünü hansı sözlə əvəz etmək olar?* (həyəcan, təşviş)
– *"Azarlamaq" sözünü hansı sözlə əvəz etmək olar?* (xəstələnmək)
– *Şeirin qəhrəmanı xəstədir, yoxsa sağlam? Hansı misralar onun sağlam olduğunu bildirir?*
– *Sizcə, nəyə görə şeirin qəhrəmanı xəstə görünmək istəyir?*
– *Niyə şeirin qəhrəmanı məktəbə getmək istəmir?*
– *Şeirin qəhrəmanı yalandan xəstələnmək üçün hansı yola əl atdı?*
– *Qəhrəmanın hiyləsi baş tutdumu?*

**İfadəli oxu.** Müəllim şeirdən bir parçanı emosional şəkildə oxuyur. Bu zaman əsər qəhrəmanının hiss və həyəcanını qabarıq şəkildə ifadə etməyə çalışır. Bundan sonra sinifdə ifadəli oxu üzrə müsabiqə keçirilir. Bunun üçün şagirdlər qruplara bölünürlər. Şeir qrupdakı şagirdlərin sayına görə parçalara bölünür. Qrup üzvləri şeirin hissələrini ardıcıllıqla oxuyurlar.

Şagirdlər arasında səsvermə yolu ilə "ən yaxşı şeir ifaçısı" seçilir.

**Söz ehtiyatı.** "Termometr" sözü izah edildikdən sonra "termos" sözünün mənası araşdırılır. Əvvəlcə bu sözün aid olduğu ümumi məna qrupunun adı tapılır (qab). Sonra bu qabdan nə üçün istifadə edildiyi soruşulur. Çox güman ki, uşaqlar "çayı isti saxlamaq üçün" cavabını verəcəklər. Müəllim izah etməlidir ki, termosdan yalnız çayı deyil, həmçinin adi suyu və ya südü isti saxlamaq üçün də istifadə etmək olar. Deməli, termosun tərifi belə ola bilər: "Mayeni isti saxlamaq üçün istifadə olunan qab" və ya qısaca: "istiliyi saxlayan qab".

Bundan sonra "metr" sözünün iştirak etdiyi sözlər xatırladılır. Bu sözə uzunluq ölçü vahidlərinin adının tərkibində rast gəlmək olar: millimetr, santimetr, kilometr. Bundan başqa, bir sıra ölçmə cihazlarının adında da "metr" sözü işlədilir:

Voltmetr – elektrik cərəyanının gərginliyini ölçən cihaz.

Barometr – havanın təzyiqini ölçən cihaz.

Termometr ikinci qrup sözlərə aiddir, çünki o, ölçmə cihazıdır (1-ci tapşırıq).

Şagirdlər 2-ci tapşırığı yerinə yetirməklə "şirin" sözünün müxtəlif mənaları haqqında fikir yürüdürlər.

## Yazı

Şagirdlərin mətni daha dərindən duymaları və qəhrəmanın vəziyyətini təsəvvür etmələri üçün müəllim sinfə müraciət edir:

– *Sizcə, şeirdə hadisə günün hansı vaxtı baş verir?*
– *Bu zaman evdə kim var idi?*
– *Termometr harada idi?*
– *O, termometri necə götürdü ki, heç kim görmədi?*
– *Qəhrəman termometri nəfəsi ilə harada qızdırdı?*
– *Niyə o, termometri, sadəcə, isti suyun altında saxlamadı?*
– *O, anasını çağırıb nə dedi ki, ana uşağının xəstə olduğunu düşündü?*
– *Necə oldu ki, ana onun hiyləsindən şübhələnmədi?*
– *Sizcə, əsər qəhrəmanı anasını inandırdıqdan sonra öz hərəkətindən utandı, yoxsa özündən razı qaldı?*



Çap üçün deyil

Şagirdlərin cavablarından sonra şeirin məzmununu yazılı şəkildə ifadə etmək tapşırılır. Bunun üçün müəllim şagirdləri təlimatlandırmalıdır:

*– Əsər qəhrəmanının roluna girməyə çalışın. Bir anlığa elə təsəvvür edin ki, bütün günü həyətdə uşaqlarla oynayıb sabahkı dərslərinizə hazırlaşmamısınız.*

*– Mətni 1-ci şəxsin adından, yəni öz adınızdan yazın.*

*– Şeirdəki ayrı-ayrı misraları təkrar etməyə çalışmayın, əsər qəhrəmanının hiss və düşüncələrini öz sözlərinizlə ifadə edin.*

*– Verilən suallara cavablarınızı da öz yazınızda əks etdirə bilərsiniz.*

Yazıların qiymətləndirilməsi zamanı əsas meyarlar (3.1.3; 3.1.1):

*– şeirin qısa məzmununun şagirdin öz sözləri ilə nəql olunması;*

*– şagird təxəyyülünün yazıda öz əksini tapması;*

*– orfoqrafik qaydalara əməl olunması;*

*– hüsnxət normalarına riayət olunması.*

**Danışma** (Debat)

**DƏRSƏ HAZIR DEYİLSƏNSƏ...**

*Müəllimin nəzərinə:* Bu dərs öncədən hazırlıq tələb edir. “Otuz altı, altı” mətni oxunduqdan sonra müəllim bildirir ki, gələn dərs müzakirə-debat şəklində keçəcək. Sinif 2 qrupa bölünür. 1-ci qrupun müdafiə etdiyi fikir: “Dərsə hazırlıqlı olmasan da, məktəbə getmək lazımdır”. 2-ci qrup isə əks fikri müdafiə etməlidir: “Dərsə hazırlıqlı deyilsənsə, məktəbə getməyin mənası yoxdur”. Şagirdlər tapşırığı dəftərdə qeyd edirlər.

Hər bir qrupun üzvləri müdafiə etdikləri fikri əsaslandırmaq üçün mümkün qədər çox arqument düşünməlidirlər. Debata hazırlaşarkən evdə böyüklərin köməyindən də istifadə etmək olar. Onu da nəzərə almaq lazımdır ki, hər bir şagird necə düşünməyindən asılı olmayaraq qrupun mövqeyini müdafiə etməlidir. Əsas məsələ tutarlı arqumentlər tapmaqdır. Qruplar öz spikerlərini seçir. Spikerlər evdə qrupun mövqeyinə uyğun giriş nitqi hazırlamalıdırlar.

Müəllim hər bir qrupun müdafiə etməli olduğu tezisi xatırladır:

**I qrup.** Dərsə hazırlıqlı olmasan da, məktəbə getmək lazımdır.

**II qrup.** Dərsə hazırlıqlı deyilsənsə, məktəbə getməyin mənası yoxdur.

Hər bir qrup öz spikerini təqdim edir. Müəllim bir daha bildirir ki, debatda kimin necə düşünməyi vacib deyil, qrupun mövqeyini müdafiə edən tutarlı arqumentlər gətirmək vacibdir.

Əvvəlcə 1-ci qrupun spikeri çıxış edib öz arqumentlərini gətirir. Qrupdakı qalan uşaqlar spikerə arqumentlər hazırlamaqda kömək edirlər. O, çıxışını bitirdikdən sonra 2-ci qrupun üzvləri ona çaşdırıcı suallar verirlər. Daha sonra 2-ci qrupun spikeri çıxış edir və 1-ci qrupun üzvləri suallar verir.

Bu zaman müəllim çıxışlar üzrə qeydlər aparır (bax: MMV, səh. 16-17).

Debatda təxminən aşağıdakı arqumentlər səslənə bilər:

**I qrupun arqumentləri:**

– dərsdə heç iştirak etməməkdənsə, iştirak edib aşağı qiymət almaq yaxşıdır;

– əgər dərsə hazırlıqlı deyilsənsə, müəllimə yaxınlaşıb bunun səbəbini izah etmək olar;

– əsas məsələ bilik almaqdır, dərsə hazırlıqlı olmasan da, başqa uşaqların cavablarından faydalana bilərsən;

– ola bilər ki, müəllim heç səndən dərsi soruşmasın.

**II qrupun arqumentləri:**

– dərsə hazırlıqlı olmayanda istər-istəməz sinifdə adam həyəcan keçirir, bu isə sağlamlığa ziyandır;



Çap üçün deyil

– müəllimin suallarına cavab verməyəndə adam sinifdə biabır olur, hörmətdən düşür;
– müəllim valideyni çağırıb şikayət edir, ailədə qanıqaralıq olur.

Müəllim qrupların debatdakı fəaliyyətini obyektiv qiymətləndirir. Ola bilər ki, hətta 2-ci qrup tutarlı arqumentlərinə və çaşdırıcı suallarına görə qalib gəlsin. Bu zaman müəllim bildirir ki, debat bir oyundur və bu oyunda daha yaxşı iştirak edən tərəf qalib gəlir. Lakin debat bitdikdən sonra müəllim 1-ci tezisin müdafiəsinə arqumentlərini söyləyir və dərsdən qalmağın şagirdlərin təhsili üçün mənfi cəhətlərini sadalayır.

O bildirir ki, hər dərs əvvəlki dərslərdə qazanılmış biliklər əsasında qurulur. Ona görə də çox dərs buraxan şagirdlər üçün sonrakı dərsləri başa düşmək çətin olacaq və onlar təhsildə uğur qazana bilməyəcəklər. Əgər şagird üzrsüz səbəbdən dərs buraxıbsa, həyəcan keçirməkdənsə öz-özünü cəzalandırmalıdır. Bunun bir yolu var: o, müəllimə yaxınlaşıb hazırlıqsız olduğunu açıq etiraf etməli və söz verməlidir ki, gələn dərs üçün verilmiş tapşırıqlarla yanaşı, hazırlamadığı tapşırıqları da yerinə yetirəcək. Belə olsa, heç bir yalana və həyəcana yer qalmaz.

## Dil qaydaları

**Motivasiya.** 7-ci tapşırıq yerinə yetirilir.

**Müəllim**: – *Gəlin bir daha sait səsləri sadalayaq. Hansı səs daha qalın səslənir: "ı", yoxsa "i"? "A" saitini bir neçə dəfə tələffüz edin. İndi isə "ə" saitini tələffüz edin. Hansı danışıq üzvü hərəkət edərək yerini dəyişdi: dil, yoxsa dodaq?* ("Ə" dedikdə dil irəli uzanaraq dişlərə toxunur.)

Həmin təcrübə "o" və "ö" saitləri üzərində təkrar olunur.

– *Gəlin baxaq görək hansı saitləri tələffüz etdikdə dil qabağa gələrək dişlərə toxunur?*

Təcrübədən sonra müəllim bildirir ki, həmin saitlər incə saitlərdir.

**Qruplarla iş.** Dərsliyin 21-ci səhifəsində verilmiş nəzəri material mənimsənildikdən sonra şagirdlər həmin səhifədəki 8-11-ci tapşırıqları qruplarla iş şəklində yerinə yetirirlər. Şagirdlər tapşırıqları yerinə yetirdikdən sonra araşdırmalarının nəticələrini təqdim edirlər.

(10-cu tapşırıqda "q" və "z" samitlərinin arasına yalnız qalın saitlər artırmaqla sözlər düzəltmək olur.)

**Yaradıcı tətbiqetmə**

Tapşırıq. Hər sırada dördündən biri fərqlidir.

| | | | |
|---|---|---|---|
| E | U | Ü | İ |
| A | I | O | Ü |
| Ö | Ə | I | Ü |

*Müəllimin nəzərinə.* Verilmiş hər dörd saitdən biri qalın və ya incə olmasına görə digərlərindən fərqlənir.

**İmla**

**KONFET BABA** (49 söz)

Nailənin babasının adı Şirindir. O, zavodda işləyir. Hər gün işdən çıxanda yolunu dükandan salır, nəvəsinə konfet, saqqız alır. Amma baba gedən kimi Nailənin anası konfetləri onun əlindən alır. O deyir ki, şirnidən adamın dişləri xarab olur. Nailə hər yerdə Şirin kişini göstərib fəxrlə deyir ki, bu mənim Konfet babamdır.

İmla mətnində ehtimal olunan orfoqrafik səhvlər:

*Nailə – Nayilə, zavod – zovod, dükan – tükan, konfet – kanfet, saqqız – sakqız, əlindən – əlinnən, dişləri – dişdəri, fəxrlə – fəxirlə.*

Adların böyük hərflə yazılışına diqqət yetirmək vacibdir.



Çap üçün deyil

**İş dəftərinin** 13-15-ci səhifələrində verilmiş tapşırıqlar yerinə yetirilir.

**Sinifdənxaric oxu.** S.S.Axundov. "Əhməd və Məleykə" hekayəsi ("Qorxulu nağıllar" silsiləsindən).

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 6. BEŞ BACININ QARDAŞI (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi mətndəki əsas fikri müəyyən edir. Dinlədiyi mətndəki faktları həyatda gördükləri ilə müqayisə edərək nəticələr çıxarır. |
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Debat zamanı mövqeyini müdafiə etmək üçün öz səviyyəsinə uyğun arqumentlər gətirir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Mətndəki ifadələrin yaxınmənalı qarşılığını müəyyən edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını şəxsi həyatı ilə əlaqələndirərək fikir yürüdür. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Deyilişi və yazılışı fərqlənən sözləri orfoqrafik normalara uyğun köçürür. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Dodaqlanan və dodaqlanmayan saitlərin yaranmasında danışıq üzvlərinin rolunu izah edir. |

### Motivasiya

**Müəllim:** – *Ev tapşırıqlarında çətinlik çəkərkən böyüklər sizə necə kömək edir? Məktəbdə oxuyan kiçik bacı-qardaşınız varsa, siz onlara necə kömək edirsiniz?*

### Oxu

Müəllimin seçimi ilə mətn (dərslik, səh. 22) şagirdlər tərəfindən səsli və ya səssiz oxuna bilər. 1-ci tapşırığa əsasən, mətndəki frazeoloji ifadələr izah olunur. Daha sonra 2-3-cü tapşırıqları yerinə yetirən şagirdlər mətnin ideyası ilə bağlı fikir yürüdürlər.

### Danışma

Mətndəki əsas fikirlə bağlı kiçik debat təşkil olunur. Tofiqin pis oxumasında anasını və böyük bacılarını günahlandıranlar bir qrupda, Tofiqin özünü günahlandıranlar digər qrupda birləşirlər. *"Günah kimdədir?"* mövzusunda debat keçirilir.

### Yazı

**İş dəftərinin** 16-cı səhifəsində verilmiş "Tənbəl" şeirindən məzmunla bağlı olmayan bənd (3-cü bənd) müəyyən edilir və üzündən köçürülür.

### Dinləmə

Müəllim: – *Heç xəyala dalırsınızmı? Bu zaman nə haqda düşünürsünüz? "Şirin xəyal" ifadəsini necə başa düşürsünüz? Xəyalpərəst olmağın hansı yaxşı və pis cəhətləri var?* (Mətn dinlənildikdən və tapşırıqlar yerinə yetirildikdən sonra sonuncu sual ətrafında kiçik debat keçirmək olar.)

Çap üçün deyil

Müəllim aşağıdakı mətni səsləndirir.

## XƏYALPƏRƏST

Fərman bütün günü xəyala dalırdı. İndi də dərsdə oturub xəyalında ağlasığmaz qoçaqlıqlar göstərirdi. Onun gözü qarşıdakı partada oturmuş Aynurəyə sataşdı. Xəyalına gəldi ki, Aynurə çaya düşüb boğulur. O da özünü suya atıb qızı xilas edir. Birdən Aynurə çevrilib ondan soruşdu:

– Fərman, "ehtiyatlı" bir "y" ilə yazılır, yoxsa iki?

– Mane olma, mən fikirləşirəm.

Dərsdən sonra Fərman qonşusu Elnurla məktəbdən çıxdı. O hələ də öz xəyallarında idi. Təsəvvür edirdi ki, Elnur Qarabağda ermənilərə əsir düşüb. O da dostunu əsirlikdən qurtarır.

Birdən Elnur ona müraciət etdi:

– Fərman, mən xalamgilə getməliyəm. Çantamı evimizə aparmazsan?

– Elnur, fikrimi dağıtma.

Evdə kiçik bacısını görəndə Fərmanın xəyalı yenə də uzaqlara getdi. Küçədə oğlanlar bacısına söz atırdı. O da bir-iki karate fəndi ilə onların hamısını yerə sərdi. Birdən Günel ona yaxınlaşdı:

– Qaqaş, mənə riyaziyyatdan kömək edərsən?

– Mane olma, mən fikirləşirəm.

Sonra Fərman anasına yaxınlaşdı:

– Ana, mən nə edim ki, hamı mənimlə fəxr etsin?

– Heç kimin xətrinə dəymə. Heç kimdən köməyini əsirgəmə.

Şagirdlərlə birlikdə mətnin ideyası açıqlanır:
– Xəyallar insanı real həyatdan uzaqlaşdırmamalıdır.
Bundan sonra müəllim şagirdlərə aşağıdakı iş vərəqini paylayır:

| Aynurə ilə bağlı xəyalları | Aynurəyə qarşı hərəkəti |
|---|---|
| ____________________<br>____________________<br>____________________<br>____________________ | ____________________<br>____________________<br>____________________<br>____________________ |
| Elnurla bağlı xəyalları | Elnura qarşı hərəkəti |
| ____________________<br>____________________<br>____________________<br>____________________ | ____________________<br>____________________<br>____________________<br>____________________ |

| Bacısı ilə bağlı xəyalları | Bacısına qarşı hərəkəti |
|---|---|
| ____________________<br>____________________<br>____________________<br>____________________ | ____________________<br>____________________<br>____________________<br>____________________ |

Çap üçün deyil

### Dil qaydaları

**Motivasiya.** 4-5-ci tapşırıqlar yerinə yetirilir. **Müəllim**: – *"İ" və "ü" səslərinə diqqət yetirək. Onlar saitlərin hansı növünə aiddir?* (incə) *Deməli, hər ikisində dilin vəziyyəti eyni cür olur, yəni dil irəli gələrək dişlərə toxunur. Bəs fərqlənən hansı danışıq üzvüdür?* (dodaqlar) *"Ü" dedikdə dodaqlar hansı vəziyyəti alır? Başqa hansı saitlərdə dodaqların vəziyyəti eyni cür olur? (o, ö, u)*

**Ümumi müzakirə.** Dərslikdəki (səh.23) nəzəri məlumat mənimsənildikdən sonra həmin səhifədəki 6-10-cu tapşırıqlar şifahi şəkildə yerinə yetirilir.

Şagirdlər müəllimin köməyi ilə **iş dəftərinin** 17-ci səhifəsində verilmiş cədvəli doldururlar. Şagirdlərdən biri lövhədə bütün saitləri yazır: *a, ı, o, u, e, ə, i, ö, ü.* Cədvəlin birinci xanasını doldurmaq (dodaqlanan qalın saitlər) üçün əvvəlcə saitlər siyahısından incə saitlər silinir, qalır: *a, ı, o, u.* Sonra qalın saitlər siyahısından dodaqlanmayan saitlər silinir: *a, ı.* Deməli, dodaqlanan qalın saitlər bunlardır: *o, u.*

**Cütlərlə iş.** Cədvəlin qalan xanalarını şagirdlər cütlərə ayrılaraq doldururlar. Daha sonra **iş dəftərinin** 17-ci səhifəsindəki krossvord həll edilir və cütlərin nəticələri müqayisə edilir.

*Müəllimin nəzərinə:* İş dəftərinin 17-ci səhifəsindəki krossvordun cavabı:
Çəhrayı xanalarda: köpük, kötük, körük, küçük
Sarı xanalarda: kiçik, kələk, kəpək, keşik
Yaşıl xanalarda: kömək, kürək, külək, köpək

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 7. "HƏ", YOXSA "BƏLİ" (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Səhnələşdirdiyi dialoji nitqi mövzu ilə əlaqələndirir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Oxuduğu mətnlə bağlı faktoloji suallara cavab verir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətndəki əsas fikri atalar sözü ilə ifadə edir. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Sözləri tərkibindəki saitlərin növlərinə görə qruplaşdırır. |

### Motivasiya

**Müəllim:** – *Böyüklərlə danışarkən bu ifadələrdən hansıları işlədirsiniz: "hə", yoxsa "bəli", "yox", yoxsa "xeyr"?*

### Oxu

Dərsliyin 24-cü səhifəsindəki mətn abzaslarla oxunur, həmin səhifədəki sual və tapşırıqlar yerinə yetirilir. Müəllim əsərin ideyasını ifadə etmək üçün üç atalar sözündən birini seçməyi təklif edir:



Çap üçün deyil

A) Toydan sonra nağara.
B) Gec olsun, güc olsun.
C) Sonrakı peşmançılıq fayda verməz.
Mətnin ideyası ilə bağlı “B” variantı seçilir.

**Müəllim:** – *Danışma hansı bacarığa aiddir – anlama, yoxsa anlatma? Hər bir danışanı rahat anlayırsınızmı? Siz danışanda hamı sizə maraqla qulaq asırmı? Sinfinizdə kimin danışmasından daha çox xoşunuz gəlir? Cavabınızı əsaslandırın: həmin şagirdin danışma bacarığında hansı xüsusiyyətlər sizə xoş gəlir?*

Şagirdlər sualları cavablandırarkən konkret misallar gətirirlər.

**Cütlərlə iş.** Hər cüt elə dialoq qurub səhnələşdirir ki, “bəli”, “xeyr” sözlərindən yerində istifadə olunsun.

Dərsliyin 25-ci səhifəsindəki “Danışma bacarığı” mətni oxunur. Dərslikdə və **iş dəftərində** (səh. 18) mövzu ilə bağlı verilmiş sual və tapşırıqlar yerinə yetirilir.

### Dil qaydaları

Mətndə işlənən sözlər aşağıdakı cədvəl üzrə qruplaşdırılır.

| Qalın saitlərin işləndiyi sözlər | İncə saitlərin işləndiyi sözlər | Dodaqlanan saitlərin işləndiyi sözlər | Dodaqlanmayan saitlərin işləndiyi sözlər |
|---|---|---|---|
| | | | |

**İş dəftərinin** 18-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 8. İKİ ALMA (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. |
| 1.2.3. Fikirlərini aydın və obrazlı etmək məqsədilə bədii ifadələrdən istifadə edir. | Danışarkən fikrini əsaslandırmaq üçün atalar sözlərindən istifadə edir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Qarşılaşdığı yeni sözlərin mənasını kontekstdən çıxış edərək təxmin edir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Mətndə rast gəldiyi yeni sözləri yaxınmənalı sözlərlə əvəz edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndəki məlumatlardan istifadə edərək yeni məlumat yaradır. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideya məzmununu həyat haqqında düşüncələri ilə əlaqələndirərək fikir yürüdür. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Mətni məzmunca bitkin hissələrə bölür. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Nəqli xarakterli inşa yazır. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Samit səslərin fizioloji təbiətini, saitlərdən fərqini izah edir. |

Çap üçün deyil

**Motivasiya. Müəllim:** – *Valideynləriniz sizin xahişinizi yerinə yetirməyəndə nə edirsiniz?* Şagirdlərin bu sual ətrafında fikirləri dinlənilir. Müzakirələr aparılır.

**Oxu** ("Ziqzaq")

MMV-nin giriş hissəsində şərh edilmiş "Ziqzaq" üsulunu aşağıdakı şəkildə tətbiq etmək olar:

Mətn (dərslik, səh. 26-27) üç hissəyə bölünür. İlk üç abzas 1-ci qrupa, sonrakı iki abzas 2-ci qrupa, "Dayanacaqda" sözündən başlayaraq sona qədər olan hissə 3-cü qrupa verilir. Hər bir qrupun üzvləri mətni səssiz oxumalı, sonra verilmiş tapşırıqlar üzrə qrupda müzakirə aparmalıdırlar:

**I qrup:** 1) oxuduğunuz hissəni adlandırın; 2) ata ilə oğul, eləcə də onların münasibətləri haqqında düşündüklərinizi danışın.

**II qrup:** 1) oxuduğunuz hissəni adlandırın; 2) ata haqqında düşündüklərinizi danışın.

**III qrup:** 1) oxuduğunuz hissəni adlandırın; 3) oğul haqqında düşündüklərinizi danışın.

Verilmiş vaxt bitdikdən sonra qrup nümayəndələri mətnin müvafiq hissəsini danışır və qrup müzakirəsinin nəticəsini təqdim edirlər. Müəllim digər qruplardan soruşur: *"Siz bu fikirlə razısınızmı?"* Çox güman ki, 1-ci qrupla 3-cü qrupun oğul haqqında dedikləri fərqli olacaq. Bu halda müəllim: *"İnsan haqqında ilk təəssüratdan sonra qəti fikir söyləmək olarmı?"* – deyə yeni müzakirə aça bilər.

**Söz ehtiyatı.** Oxu zamanı "Sözlük"də verilmiş kəlmələrə rast gəldikcə mənaları açıqlanır. Müəllim köhnəlmiş sözlər – arxaizmlər haqqında məlumat verir, uşaqların nağıl və hekayələrdən eşitdikləri "darğa", "kəndxuda", "çarıq" kimi sözləri xatırladır.

Dərsliyin 27-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

*Müəllimin nəzərinə:* Bu səhifədəki 3-cü tapşırıq şagirdlərdən diqqətli oxu bacarığı və məntiqi düşüncə tələb edir. Altından xətt çəkilmiş 1-ci cümlədə deyilir: "... hərəsi bir şahıya iki alma aldım". Deməli, ata 10 qəpik pul xərclədi. Altından xətt çəkilmiş 2-ci cümlədə bildirilir ki, almaları alandan sonra atanın cibində bir abbası, yəni iyirmi qəpik pul qalmışdı. Deməli, ata evdən çıxanda cibində 30 qəpik pul olmuşdur.

**Danışma**

**Müəllim:** – *Böyüklərinizin məsləhətinə qulaq asmadığınız vaxtlar olubmu? Nəticəsi necə olub? Elə bir hadisə yadınıza sala bilərsinizmi ki, böyüyün sözünə əməl etməklə xeyir tapmısınız?*

Uşaqlar öz həyatlarından hadisələr danışırlar. Müəllim kiçik bir debat da keçirə bilər:

**I qrup.** Böyüklər həmişə müdrik olur.

**II qrup.** Ağıl yaşda deyil, başdadır.

"Müdrik" sözü açıqlanır. Mövzuya uyğun bir neçə atalar sözü deyilir: "Böyükdən demək, cavandan əmək", "Böyük sözünə baxmayan böyürə-böyürə qalar", "Kiçiyin kiçik yeri var, böyüyün – böyük".

**Yazı**

Müəllim şagirdlərə *"Böyüklərin sözü niyə həmişə doğru çıxır?"* mövzusunda inşa yazmalarını tapşırır. İnşa yazının qaydalarını xatırladır. Şagirdlərə tapşırır ki, öz fikir və düşüncələrini başlarına gəlmiş və ya xəyallarına gələn hər hansı hadisə ilə əsaslandırsınlar.

**Dil qaydaları**

*Müəllimin nəzərinə:* Bu dərsdə samitlərin fizioloji təbiəti haqqında məlumat verilir. Dərslik və iş dəftərindəki tapşırıqlar yerinə yetirilərkən müəllim çalışmalıdır ki, şagirdlər bu səsləri tələffüz etsinlər, danışıq üzvlərinin hərəkətini izləsinlər və onların hər bir səsin tələffüzündəki rolunu izah etsinlər.



Çap üçün deyil

**Müəllim:**
– *Sait səslər samitlərdən nə ilə fərqlənir?* (səs ağız boşluğundan sərbəst çıxır)
– *[H] səsi də ağız boşluğundan sərbəst çıxır, lakin bu səs sait deyil, samitdir. Onda [h] səsi saitlərdən nə ilə fərqlənir?* (Bu səsin tələffüzü zamanı avaz olmur, yəni [h] avaza çevrilməmiş hava axınının hesabına yaranır.)

Dərslikdən 4-6-cı tapşırıqlar yerinə yetirilir.

**İş dəftərinin** 19-cu səhifəsində verilmiş tapşırıqlar yerinə yetirilir.
4-cü tapşırıq: Fərhad, Rüstəm, Beyrək.
5-ci tapşırıq: bağ, dağ.

**Sinifdənxaric oxu.** "Dəmirçi hökmdar" rəvayəti ("Qabusnamə" dən)

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.
Şagirdlərin bir-birini qiymətləndirməsi üçün MMV-nin giriş hissəsində verilmiş "Danışma bacarığı üzrə bir-birini qiymətləndirmə cədvəli"ndən istifadə etmək tövsiyə olunur.

## Dərs 9. YOLDA HADİSƏ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsi yaradaraq epizodların düzgün ardıcıllığını müəyyən edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını şəxsi həyatı ilə əlaqələndirərək fikir yürüdür. |
| 3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. | Mətndəki cümlələrin düzgün ardıcıllığını müəyyənləşdirməklə qısa məzmununu yazır. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Tərkibində qalın, incə, dodaqlanan, dodaqlanmayan saitlər olan sözləri qruplaşdırır. |

**Motivasiya.** Lövhədə cümlələr yazılır:
– Çayların suyu aşıb-daşdı.
– Yaz gəldi.
– Ətraf kəndləri sel basdı.
– Çaylarda su çoxaldı.
– Buzlar əridi.
Bu cümlələrin düzgün ardıcıllığını müəyyən edin.

*Müəllimin nəzərinə:* Bu dərsin əsas məqsədi şagirdlərə mətndə məntiqi ardıcıllığı müəyyən etmək bacarığını aşılamaqdır. Şagirdlərə bildirilir ki, danışarkən və ya yazarkən hadisələri ardıcıllıqla nəql etmək lazımdır. Əgər bu ardıcıllığa riayət edilməsə, nitq anlaşılmaz olar.

**Oxu**
Dərsliyin 28-ci səhifəsindəki "Yolda hadisə" mətni oxunur. Ümumi müzakirə yolu ilə əsər qəhrəmanlarının nitqindəki cümlələrin ardıcıllığı müəyyən olunur.

**Müəllim:** – *Mətnin ardıcıllığı o zaman pozulur ki, səbəb və nəticəni bildirən cümlələrin yeri səhv düşür.*



Çap üçün deyil

**Cütlərlə iş.** Şagirdlərə aşağıdakı cədvəl paylanır və onu doldurmaq tapşırılır.

| Səbəb | Nəticə |
|---|---|
| Yolda yer buzlu idi. | |
| | Təcili yardım maşını gəldi. |
| | Nihad və Natiq dərsə gecikdilər. |

### Danışma

Dərsliyin 28-ci səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir. Mətndəki hadisələr düzgün ardıcıllıqla nəql edilir. 2-ci tapşırıq ümumi müzakirə yolu ilə yerinə yetirilir. Müəllim şagirdlərə tapşırır ki, öz cavablarını əsaslandırmaq üçün bir neçə cümlədən ibarət çıxış hazırlasınlar.

### Yazı

**İş dəftərinin** 20-ci səhifəsində verilmiş “İki qardaş” mətni oxunur və abzasların ardıcıllığı müəyyən edilir və qısa məzmunu yazılır. Mətnlə bağlı tapşırıqlar yerinə yetirilir.

### Dil qaydaları

Şagirdlər mətndən tərkibində yalnız qalın, yalnız incə, yalnız dodaqlanan, yalnız dodaqlanmayan saitlər işlənmiş sözləri seçib (hərəsinə aid iki nümunə) aşağıdakı cədvəl üzrə qruplaşdırırlar.

| Yalnız qalın saitlərin işləndiyi sözlər | Yalnız incə saitlərin işləndiyi sözlər | Yalnız dodaqlanan saitlərin işləndiyi sözlər | Yalnız dodaqlanmayan saitlərin işləndiyi sözlər |
|---|---|---|---|
| | | | |

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 10. TAM MƏXFİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Oxuduğu mətnin süjetini dəyişməklə davamını təxəyyülünə uyğun nəql edir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Mətndə rast gəldiyi yeni sözləri yaxınmənalı sözlərlə əvəz edir.<br>Çoxmənalı sözün mətndəki mənasını digər mənalarından fərqləndirir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndəki sətiraltı informasiyanı müəyyənləşdirir və izah edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətndəki hadisə və obrazları həyat haqqında düşüncələri ilə əlaqələndirir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Nəqli xarakterli inşa yazır. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, açıqca, elan, ərizə, dəvətnamə) yazır. | Əsərin qəhrəmanına məktub yazır. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Saitləri növlərinə görə fərqləndirir. |

Çap üçün deyil

**Motivasiya. Müəllim:** – *Dinləmənin qaydaları haqqında danışarkən diqqətli olmağın vacibliyini qeyd etmişdik. Bəs siz dərslərdə həmişə diqqətli ola bilirsinizmi? Bəzən diqqətsiz olmağınızın səbəbi nədir?* (Ailədə, şəxsi həyatda baş vermiş xoşagəlməz hadisələr.) *Sizcə, şagird dərslərdə diqqətsizdirsə, müəllim nə etməlidir?* (Diqqətsizliyin səbəbini aydınlaşdırmalı, sonra ölçü götürməlidir.)

**Oxu** ("Ziqzaq")

Mətn (dərslik, səh. 29) müəllim tərəfindən 4 hissəyə bölünür və oxunması üçün MMV-nin giriş hissəsində şərh edilmiş "Ziqzaq" üsulu tətbiq olunur.

**Söz ehtiyatı.** Altından xətt çəkilmiş frazeoloji ifadələrin (səh. 30, 1-ci tapşırıq) mənaları açıqlanır:

*qanı qaralmaq – kədərlənmək;*
*fikrini bir yerə toplamaq – diqqətli olmaq;*
*ürəyi yerinə gəlmək – sakitləşmək.*

**Müəllim:** – *Mətndəki bir cümləyə diqqət yetirək: "Samirə atasına yaxınlaşıb üzündən öpəndə ona elə gəldi ki, cibindəki zərf xışıldadı". Müəllif bu cümlə ilə nə demək istəyir?* (Samirə qorxurdu ki, atası müəllimin məktubunu oxuyar.) Müəllim şagirdlərə başa salır ki, bədii əsərlərdə müəlliflər çox zaman fikirlərini birbaşa deyil, dolayı yolla (obrazlı şəkildə, sətiraltı) ifadə edirlər.

3-cü tapşırığı yerinə yetirməklə şagirdlər mətndəki əsas fikri və obrazların xarakterini tam anladıqlarını nümayiş etdirirlər.

**Danışma (Qruplarla iş)**

4-cü tapşırıqda hadisələrin davamını təxmin etmək tələb olunur. Şagirdlər bununla bağlı mətn qurarkən keçən dərsdə öyrəndikləri səbəb-nəticə əlaqəsinə riayət etməlidirlər. Bunun üçün müəllim onların diqqətini məktubun məzmununa yönəldir. Belə ki, Samirənin anası müəllimlə əlaqə saxlamasa, çox güman ki, müəllim özü ana ilə əlaqə yaradacaq.

Daha sonra şagirdlər üç qrupa bölünürlər. I qrup Samirə obrazına, II qrup müəllim obrazına, III qrup ana obrazına münasibət bildirmək üçün qrupdaxili müzakirələr aparır və nəticələrini təqdim edir. Müəllim uşaqlara tapşırır ki, öz fikirlərini əsərdən sitat gətirməklə əsaslandırsınlar.

**Yazı**

Şagirdlərin seçimi ilə bir qrup şagird "Mən Samirənin yerində olsaydım, nə edərdim?" mövzusunda inşa, digər qrup Samirəyə məktub yazır. (Hər iki yazının planı əvvəlcədən tərtib edilir.)

**Dil qaydaları**

Dərslikdən 5-8-ci tapşırıqlar yerinə yetirilir.

7-ci tapşırıq məntiqi xarakterlidir. Şagirdlər verilmiş saitlər qrupunun növünü müəyyənləşdirməli, sonra oraya həmin növdən olan sait əlavə etməlidirlər:

*1) o, a, ı, u    2) e, i, ö, ə, ü,    3) ü, o, u, ö    4) ə, a, e, i, ı*

**İş dəftərinin** 21-ci səhifəsində verilmiş tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır. Şagirdlərin danışma prosesindəki fəaliyyətinin qiymətləndirilməsi vəsaitin 23-cü səhifəsində verilmiş meyarlar üzrə aparılır.

Çap üçün deyil

# Dərs 11. YAŞIL KARANDAŞ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. |
| 1.2.4. Ədəbi-bədii nümunələri ifadə edərkən müvafiq situasiyaya uyğun jest və mimikalardan istifadə edir. | Jest və mimikalardan təbii şəkildə, nitqinin emosionallığını artırmaq üçün istifadə edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, onların xarakterik əlamətlərini adlandırır. | Əsərin qəhrəmanının xarakterik əlamətlərini müəyyən edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətni ifadəli və şüurlu oxuyur. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Hekayənin bir hissəsinə əsasən bütöv mətni təxmin edir. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Kar və cingiltili samitləri fərqləndirir. |

**Motivasiya.** Müəllim lövhədə yazır:
*Mehriban – kobud*
*Əliaçıq – ...*
**Sual:** – *Nöqtələrin yerinə hansı söz uyğun gəlir? (xəsis)*

**Oxu** (Proqnozlaşdırma)
Şagirdlərdən biri “Dərsdə müəllim soruşdu” sətrindən başlayaraq hekayənin (dərslik, səh. 31) sonluğunu səsli oxuyur.

**Müəllim:** – *Sizcə, Lətifə ilə Aygül arasında nə baş vermişdi? Aygül niyə qızarmışdı? Lətifə niyə ondan karandaşı götürməmişdi?*
Uşaqların fərziyyələri dinlənilir. Bundan sonra şagirdlər hekayəni səssiz oxuyurlar və fərziyyələrlə mətn müqayisə olunur.

**Rollu oyun.** Hekayə səhnələşdirilir. Lətifə, Aygül, müəllim və aparıcı rollarını ifa etmək üçün şagirdlərdən dörd “aktyor” seçilir. Aktyorlar rollarını mətni oxumaqla deyil, yaddaş əsasında, müvafiq jest və mimikalardan istifadə etməklə öz sözləri ilə ifa edirlər.
1-2-ci tapşırıqlar yerinə yetirilir. Şagirdlər əsər qəhrəmanlarının xarakteri haqqında fikir söyləyir, bunu əsərin müvafiq epizodlarına istinad etməklə əsaslandırırlar.

**Danışma**
**Müəllim:** – *“Yaşıl karandaş” hekayəsinin qəhrəmanı Aygül karandaşını rəfiqəsindən əsirgədi. Sizcə, o bu hərəkəti ilə nə isə qazandımı? Bəs itirdiyi nə oldu? Xəsis insan həyatda daha çox qazanır, yoxsa itirir? Bəs genişürəkli insanlar nə qazanırlar?*
Fikirlər dinlənilir və müzakirə olunur.

Müəllim tapşırır ki, şagirdlər mətnin giriş və sonluq hissələrini müəyyən etsinlər. Şagirdlər bu hissələri oxuduqdan sonra öz fikirlərini əsaslandırırlar. (Adətən, girişdə əsər qəhrəmanları haqqında ümumi məlumat verilir. Sonluqda əsər qəhrəmanlarının sonrakı taleyi əks olunur.)
Bundan sonra şagirdlər mətnin əsas hissəsini təşkil edən 1-ci və 4-cü abzasları ardıcıllığa riayət etməklə öz sözləri ilə danışırlar.



Çap üçün deyil

**Yazı**

İş dəftərinin 20-ci səhifəsindəki "İki qardaş" mətni düzgün ardıcıllıqla köçürülür.

**Dil qaydaları**

Dil qaydalarına keçid üçün motivasiya xarakteri daşıyan 3-cü tapşırıq yerinə yetirilir. Müəllimin yönəldici sualları ilə şagirdlər [ş] səsi ilə müqayisədə [j] səsinin tələffüzü zamanı boğazda səs tellərinin titrədiyini və avazlı səsin yarandığını müəyyən edirlər.

**Müəllim:** – *Əvvəlcə [s], sonra [z] samitini uzadaraq tələffüz edin. Hansı səsin tələffüzündə avaz səslənmir, yəni səs telləri iştirak etmir?*

Şagirdlər samitləri səsləndirməklə suala cavab verirlər.

Sonra müəllim iki samit səs tələffüz edir: [t] (tı) və [d] (dı).

**Suallar:**

– *Bu samitlərin tələffüzü zamanı dil hansı vəziyyəti alır?* (İrəli uzanıb üst dişlərə toxunur.)

– *Dodaqların vəziyyətində fərq varmı?*

– *"T" samitini "ı" saiti olmadan tələffüz edin. Mümkün oldumu?*

– *"D" samitini "ı" saiti olmadan tələffüz edin. Mümkün oldumu?*

– *Bu samitlərin tələffüzü arasındakı fərq nədədir?* (Səs tellərinin iştirakında, yəni boğazdakı avazın səslənməsində, "d" samitini avazsız tələffüz etmək olmur.)

**"Sual müsabiqəsi".** Nəzəri materialın mənimsədilməsi məqsədilə MMV-nin 24-25-ci səhifələrində şərh olunmuş "Sual müsabiqəsi" üsulu tətbiq olunur. Şagirdlər **dərsliyin** 32-ci səhifəsindəki 4-6-cı tapşırıqları yerinə yetirirlər.

6-cı tapşırıq. Bilməcənin cavabı: Səməd Vurğun.

**İş dəftərinin** 22-ci səhifəsində verilmiş tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 12. QƏLƏM (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnlə bağlı faktoloji sualları cavablandırır. |
| 1.2.4. Ədəbi-bədii nümunələri ifadə edərkən müvafiq situasiyaya uyğun jest və mimikalardan istifadə edir. | Rollu oyun zamanı obrazın xarakterini açmaq üçün jest və mimikalardan istifadə edir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Qarşılaşdığı yeni sözlərin mənasını kontekstdən çıxış edərək təxmin edir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Çoxmənalı sözün mətndəki mənasını digər mənalarından fərqləndirir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Şeiri obrazın hiss və həyəcanını ifadə etməklə oxuyur. |
| 3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. | Şeiri yazıda nəsrlə ifadə edir. |

Çap üçün deyil

**Motivasiya. Müəllim:** – *Müəyyən bir işi yerinə yetirərkən əsas məsələ istifadə olunan alətdə deyil, insanın öz bacarığındadır.*

Müəllim təklif edir ki, şagirdlər həyatdan bu fikri əks etdirən misallar gətirsinlər. Nümunə: 1) iki nəfər odun doğrayır, birində yaxşı alınır, digəri isə şikayətlənir ki, balta kütdür; 2) iki nəfər kompüterdə işləyir, biri tapşırıqları tez yerinə yetirir, digəri isə deyir ki, kompüteri zəifdir və s.

## Oxu

Şagirdlər dərsliyin 33-cü səhifəsindəki şeiri əvvəlcə səssiz oxuyurlar. Sonra müəllim bir neçə şagirdə şeirin bəndlərini ifadəli oxutdurur.

**Bir-birini qiymətləndirmə. Müəllim:** – *Kim daha təsirli oxudu? Kimə daha çox inandınız?* – deyə şagirdlərə müraciət edir. Şagirdlər bir-birinin ifadəli oxu tərzini qiymətləndirirlər. “Mən bu misranı belə oxuyardım” – deyə öz variantlarını təklif edirlər.

**Söz ehtiyatı.** “Kotan” və “feil” sözlərinin mənaları araşdırıldıqdan sonra müəllim diqqəti “kotan salıb” və “dağladı” sözlərinə yönəldir (1-2-ci tapşırıqlar). Bu ifadələrin şeirdəki mənasını, onların nə üçün dırnaq içində yazıldığını soruşur. Bu sözləri cümlələrdə həqiqi mənada işlədərək yazmağı tapşırır.

1-ci tapşırıq. Şeirdə “kotan salıb” ifadəsi dəftərdəki yazıda çoxlu səhvin olması mənasında işlənib.

2-ci tapşırıq. Cavab “C” variantıdır. Şəfəq yazısında çoxlu səhvə yol verərək dəftəri “incidib”, ona “dağ çəkib”.

*Müəllimin nəzərinə:* 2-ci tapşırığın cavabı birmənalı deyil. Burada “dağlamaq” sözü “qızdırılmış dəmirlə iz qoymaq, damğalamaq” mənasında da işlənə bilər. Lakin “C” variantı daha çox uyğun gəlir. Bununla bağlı müəllim “Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar” atalar sözünü də xatırlada bilər. Bu atalar sözündə “dağ” yüksəklik mənasında deyil, dərd, qəm mənasında işlənmişdir.

## Yazı

Şeirin qısa məzmunu dəftərə yazılır.

## Dinləmə

**Motivasiya. Müəllim:** – *Çətinliyə düşmüş dosta təsəlli verməklə əməli yardım arasında nə fərq var? Dosta kömək etmək mümkündürsə, yalnız təskinlik vermək düzgündürmü?*

Şagirdlər həyatda gördükləri və eşitdiklərindən misal gətirirlər.

Müəllim mətni səsləndirir.

### TƏNƏFFÜSDƏ

Tənəffüs zəngi çalındı. Uşaqlar acmışdılar. Hərə evdən gətirdiyi naharı yeməyə başladı. Səməd çantasını açdı ki, anasının verdiyi qoğalı götürsün. Amma çantada qoğal yox idi. Birdən yadına düşdü ki, qoğal yaddan çıxıb evdə, mətbəx masasının üstündə qalıb.

Bu vaxt Nəcəf ona yaxınlaşdı. Kolbasa-çörəyini ləzzətlə dişləyib çeynəyə-çeynəyə soruşdu:

– Səməd, sən niyə yemirsən?

– Naharım evdə qalıb.

– Hə... Bu, pis oldu.

– Yeməyi evdə niyə qoymusan? – deyə Samir söhbətə qarışdı. O, yekə bir toyuq budunu didişdirirdi.

– Nə bilim, yadımdan çıxıb.

Çap üçün deyil

*– Lap huşsuzsan ki.*

*Bu vaxt Aqşin Səmədə yaxınlaşdı. O heç nə soruşmadı. Evdən gətirdiyi pendir-çörəyi bölüb yarısını Səmədə verdi:*

*– Al, ye. Qabaqda hələ iki dərsimiz var.*

**Dinləmədən sonra.** Müəllim faktoloji suallarla mətnin tam qavranılmasına nail olur:

1. *Əsərdə hadisə nə zaman baş verir?*
2. *Əsərin baş qəhrəmanı kimdir?*
3. *O hansı çətinliklə üzləşmişdi?*
4. *Ona birinci kim yaxınlaşdı?*
5. *Nəcəf nə yeyirdi? O, Səmədə nə dedi?*
6. *Sonra kim yaxınlaşdı?*
7. *Samir nə yeyirdi? O, Səmədə nə dedi?*
8. *Sonda Səmədə kim yaxınlaşdı? O nə etdi?*

**Rollu oyun.** Dörd şagirdin iştirakı ilə mətn səhnələşdirilir. Tamaşaçılar "aktyor"ların oyununu qiymətləndirərkən nitqin səlisliyinə, jest və mimikalardan istifadəyə diqqət yetirirlər.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 13. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərsdə dərsliyin 34-cü səhifəsində verilmiş sual və tapşırıqlar yerinə yetirilir, müvafiq bölmədə tədris olunmuş materiallar təkrarlanır. Bununla yanaşı, müəllim həm özünün hazırladığı materiallardan, həm də müxtəlif qiymətləndirmə vasitələrindən istifadə edə bilər. Tapşırıqların seçimi zamanı bölmədə reallaşdırılmış standartları əsas götürmək lazımdır.

## Dərs 14. BÖLMƏ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ (2 saat)

**DİNLƏMƏ**

### ANA

Bir dəfə kübar xanımların ziyafət məclisi idi. Qadınlar gözəl paltarlar geyinib, bahalı daş-qaşlarını taxıb məclisə gəlmişdilər. Birdən məclisə bir xanım da gəldi. Onun geyimi çox sadə idi. Üstündə heç bir qiymətli əşya yox idi. Məclisdəkilər təəccübləndilər.

– Sənin qiymətli heç nəyin yoxdur? – deyə sual verdilər.

– Var, – deyə həmin qadın cavab verdi. – Amma mən elə bildim ki, siz məni bəzək-düzəksiz də tanıyırsınız.

– Bəli, tanıyırıq, – deyə məclisdəkilər dilləndilər. – Amma sənin qiymətli əşyalarını da görmək istəyirik.

– Bu saat qulluqçuya tapşıraram gətirsin, – deyə həmin qadın cavab verdi.

Bir azdan qulluqçu bir oğlan və bir qız uşağını məclisə gətirdi. Qadın dedi:

– Mənim var-dövlətim bunlardır. Hər bir qadın anadır. O, daş-qaşı gəzdirən fəhlə deyil.

Bu cavabı eşidən xanımlar susmaqla qadının haqlı olduğunu təsdiq etdilər.

*Rəşid bəy Əfəndiyev. "Bəsirətül-ətfal" dərsliyi*

Müəllim "kübar" (incə zövqlü, incə təbiətli, əsilzadə) və "ziyafət" (qonaqlıq) sözlərinin mənalarını izah etdikdən sonra aşağıda verilmiş tapşırıqlar yerinə yetirirlər.



Çap üçün deyil

**1. Hekayədəki hadisələr harada baş verir?**
A) qadınların iclasında
B) gözəllik müsabiqəsində
C) qadınlar üçün təşkil olunmuş qonaqlıqda

**2. Məclisdəki qadınları təəccübləndirən nə oldu?**
A) ananın kobud davranışı
B) ananın sadə geyimi
C) ananın bahalı daş-qaşları

**3. Ana oğlu ilə qızını məclisə niyə gətirtdi?**
A) Uşaqları evdə tək qoymaqdan qorxurdu.
B) Qadınların yanında öz övladları ilə qürrələnmək istəyirdi.
C) Onun üçün nəyin daha qiymətli olduğunu göstərmək istəyirdi.

**4. Mətndə əsas fikir nədir?**
A) Məclisə gedəndə ən yaxşı paltarı geymək lazımdır.
B) Bahalı daş-qaş qadını daha da cazibədar edir.
C) Ana üçün hər şeydən qiymətli onun övladlarıdır.

**5. Hansı sözlər birləşib mürəkkəb söz yarada bilər?**
A) aş, qaş
B) kübar, xanım
C) sadə, geyim

**YAZI** (İfadə)
Şagirdlər mətnin qısa məzmununu yazırlar.

**OXU**

## DÜNYA XƏRİTƏSİ

Elnurun atası işdən yorğun qayıtmışdı. Divanda oturub qəzet oxuyurdu. Elnur atasına yaxınlaşıb xahiş etdi ki, onu gəzməyə aparsın.
– Bu gün yorğunam, oğlum. Sabah gedərik, – deyə ata cavab verdi.
– Nə olar, gedək də, – Elnur əl çəkmirdi.
Ata masanın üstündən dünya xəritəsini götürüb onu qayçı ilə bir neçə hissəyə kəsdi və oğlunun qarşısına düzüb dedi:
– Xəritəni düzgün bərpa etsən, səni gəzməyə aparacağam.
Ata əmin idi ki, 3-cü sinifdə oxuyan oğlu dünya xəritəsini bərpa edə bilməz. Lakin heç beş ... **(1)** keçmədi ki, Elnur kəsilmiş hissələri yapışdıraraq ... **(2)** olunmuş xəritəni sakitcə ... **(3)** qarşısına qoydu.
Ata təəccüblə gah xəritəyə, gah oğluna baxdı. Elnur dedi:
– Ata xəritənin arxasında adam şəkli var idi. Adamı düzəltdim, dünya da düzəldi.

**1. Nömrələnmiş boşluqların yerinə hansı sözlər uyğun gəlir?**
A) 1) ay 2) xarab 3) pəncərənin
B) 1) dəqiqə 2) bərpa 3) atasının
C) 1) saat 2) məhv 3) binanın

**2. Elnur haqqında deyilənlərdən hansı ilə razısan?**
A) Dünya xəritəsini yaxşı bilir.



Çap üçün deyil

B) Dərslərini yaxşı oxuyur.
C) Hər cür vəziyyətdən çıxmağı bacarır.

**3. Mətnin sonuncu cümləsini başqa cür necə ifadə etmək olar?**
A) Hər bir xəritənin arxasında adam şəkli olmalıdır.
B) İnsanlar qayğıkeş olsalar, dünya da gözəlləşər.
C) Adam dünyadan vacibdir.

**4. Mətndə hansı suala cavab var?**
A) Elnurun atası harada işləyir?
B) Hadisə həftənin hansı günü baş verib?
C) Elnur neçənci sinifdə oxuyur?

**5. Hansı sözdəki cingiltili samitlərin kar qarşılığı yoxdur?**
A) adam
B) Elnur
C) dünya

## DİL QAYDALARI

**1. Sait səsləri samitlərdən fərqləndirən əsas cəhət hansıdır?**
A) Tələffüz zamanı dil hərəkətsiz olur.
B) Dodaq iştirak etmir.
C) Ağız boşluğundan sərbəst çıxır.

**2. Hansı sözdə üç qalın, dodaqlanan sait var?**
A) könüllü
B) futbolçu
C) dondurma

**3. Oğlan adlarında qalın saitləri, qız adlarında incə saitləri seç.**
İlqar, Aygün, Səmayə, Orxan, Günel, Kamil, Ülvi, Selcan

**4. “F” samitinin cingiltili qarşılığı hansı samitdir?**
A) d B) b C) v

**5. Hansı sırada dodaqlanan sait yoxdur?**
A) a, u, ı B) o, e, ü C) ə, i, ı

**6. “U” saitindən fərqli olaraq, “o” saitini tələffüz edərkən:**
A) dodaqlar irəli uzanır.
B) ağız geniş açılır.
C) dodaqlar qapanır.

**7. Dördündən biri fərqlidir. Fərqli olanı dairəyə al.**

| | | | | |
|---|---|---|---|---|
| A) | ş | f | h | g |
| B) | d | t | g | q |
| C) | p | s | l | k |

**8. Hansı sözdə yalnız cingiltili samitlər var?**
A) zürafə B) zınqırov C) pələng

Çap üçün deyil

# II bölmə

# MƏNƏVİ DƏYƏRLƏR

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | İş dəftəri səh. | MMV səh. |
|---|---|---|---|---|---|---|
| 15. | **Qənaətcillik** | 1.1.1, 1.1.2, 2.1.3, 2.1.4, 2.2.1, 2.2.4, 3.1.4, 4.1.1 | 4 | 36-37 | 26 | 58 |
| 16. | **Qeybət**<br>*Əsərin mövzusu və ideyası* | 1.1.1, 1.2.1, 2.2.4, 3.1.2, 4.1.1, 4.1.7 | 2 | 38 | 27 | 60 |
| 17. | **Qartalın təşəkkürü**<br>*Sözlərin deyilişi və yazılışı* | 1.1.1, 2.1.4, 2.1.2, 2.2.3, 2.2.4, 3.1.1, 4.1.3 | 4 | 39-40 | 28 | 62 |
| 18. | **Ağıllı qarışqa**<br>*Nəsr və nəzm* | 2.1.1, 2.2.1, 2.2.2, 2.2.4, 3.1.3 | 2 | 41 | 29 | 64 |
| 19. | **Cəmil + Mahir =...** | 1.2.1, 1.2.3, 2.1.1, 2.1.2, 2.2.1, 2.2.3, 2.2.4, 3.1.5, 4.1.1, 4.1.3 | 6 | 42-46 | 30-31 | 65 |
| 20. | **Atanın oğluna nəsihəti** | 1.2.1, 2.1.3, 2.2.1, 2.2.4, 3.1.3, 4.1.2, 4.1.3 | 4 | 47 | 32 | 68 |
| 21. | **Tənha qu quşu** | 2.2.1, 2.2.3, 3.1.4, 4.1.3, 4.1.4 | 2 | 48-49 | 33 | 70 |
| 22. | **Üç oğlan**<br>*Dialoq nədir?* | 1.2.2, 1.2.4, 2.2.1, 4.1.3 | 2 | 50-51 | 34 | 71 |
| 23. | **Şar** | 1.2.2, 1.2.4, 2.1.4, 2.2.1, 2.2.4, 4.1.3 | 2 | 52-53 | 35 | 73 |
| 24. | **Ballı və Vız-vız**<br>*Mətnin hissələri* | 2.2.1, 2.2.3, 2.2.4, 2.2.5, 3.1.1, 3.1.4, 4.1.3 | 4 | 54-55 | 36-37 | 74 |
| 25. | **Yaxşılığa yaxşılıq** | 1.1.2, 2.1.3, 2.2.1, 2.2.4, 4.1.3 | 2 | 56-57 | 38 | 76 |
| 26. | **Nəbi və Tahir** | 1.2.1, 2.2.1, 3.1.4, 4.1.3 | 2 | 58 | 39 | 78 |
| 27. | **Hamıdan qəşəng** | 1.1.1, 1.2.2, 2.2.1, 3.1.4 | 2 | 59 | 40 | 79 |
| 28. | **Ümumiləşdirici təkrar** | | 2 | 60 | | 80 |
| 29. | **Bölmə üzrə qiymətləndirmə** | | 2 | | 41-43 | 80 |
| | | Yekun | **42 saat** | | | |

Çap üçün deyil

# Dərs 15. QƏNAƏTCİLLİK (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Debat zamanı opponentinin sözünü kəsmədən dinləyir və onun fikirlərinə qarşı arqumentlər irəli sürür. |
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi mətndəki faktları həyatda gördükləri ilə müqayisə edərək nəticələr çıxarır. |
| 2.1.3. Öyrəndiyi yeni söz və terminlərdən məqamında istifadə edir. | Kontekstə görə yeni sözlərin mənasını təxmin edir və cümlədə işlədir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Mətndəki sözün əksmənalı qarşılığını müəyyən edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Kontekstdən çıxış edərək mətndəki yarımçıq cümlələri bərpa edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətndəki əsas fikri həyat düşüncələri ilə əlaqələndirir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Mənəvi dəyərlərlə bağlı fikirlərini yazılı ifadə edir. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Qalın və incə saitləri fərqləndirir. |

**Motivasiya. Müəllim:** – *Yəqin ki, məktəbə gedərkən valideynləriniz sizə pul verir. Bu pulu nəyə və necə xərcləyirsiniz? Heç qənaət edirsinizmi?*

"Qənaət" sözü izah olunur və şagirdlər sualla bağlı fikirlərini bildirirlər.

**Əqli həmlə. Sual:** – *Sizcə, nə üçün pula qənaət etmək lazımdır?*

Müəllimin yönəldici sualları vasitəsilə şagirdlər belə bir qənaətə gəlirlər: "Bəzən insan öz həyatında elə bir gözlənilməz problemlə qarşılaşır ki, bu problemi həll etmək üçün böyük xərc tələb olunur. Bu halda qənaət edilmiş pullar kömək edir".

**Oxu** ("Ziqzaq")

Mətn (dərslik, səh. 36-37) 4 hissəyə bölünür və MMV-nin 26-cı səhifəsində verilmiş "Ziqzaq" üsulu ilə oxunur. Dərsliyin 37-ci səhifəsində verilmiş tapşırıqlar yerinə yetirilir.

2-ci tapşırıq. 1 – B, 2 – Ç, 3 – A, 4 – C

3-cü tapşırıq. Cavab C variantıdır.

4-cü tapşırıq. Şagirdlər Elbəyin *qənaətcil, gözütox, səbirli, çalışqan* kimi cəhətlərindən daha çox xoşlarına gəldiyi ikisi haqqında danışa bilərlər.

**İş dəftərinin** 26-cı səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir.

**Söz ehtiyatı**

**Məntiq.** Lövhədə aşağıdakı cədvəl çəkilir. Tapşırıq: *Cədvəlin 1-ci sırasındakı sözlər arasında məna əlaqəsini müəyyənləşdirin. Digər xanalarda aşağıda verilmiş sözlərdən uyğun gələnini yazın:* qorxaq, ehtiyatlı, xəsis, qənaətcil

| № | A | B | C |
|---|---|---|---|
| 1 | soyuq | ilıq | isti |
| 2 | cəsur | | |
| 3 | əliaçıq | | |



Çap üçün deyil

Müəllimin nəzərinə: *Cədvəlin A və C sütunlarında antonim sözlər yerləşdirilmişdir. B sütununda isə bu sözlər arasında orta səviyyəni bildirən söz yazılmalıdır; məsələn, 1-ci sıra: "ılıq" sözü "soyuq" ilə "isti" arasındakı orta səviyyəni bildirir. Beləliklə, 2 – B xanasında "ehtiyatlı", 2 – C xanasında "qorxaq", 3 – B xanasında "qənaətcil", 3 – C xanasında "xəsis" sözləri yazılmalıdır.*

İş dəftərinin 26-cı səhifəsindəki 2-ci tapşırıq yerinə yetirilir. Həddən artıq qənaətcilliyin xəsisliyə, yaxud izafi əliaçıqlığın da israfçılığa çevrilməsi açıqlanır.

**Yazı**
İş dəftərinin 26-cı səhifəsindəki 3-5-ci tapşırıqlar yerinə yetirilir.

**Dinləmə**
Müəllim: – *Qənaətcillik və xəsislik – bu xüsusiyyətlərin hansı oxşar və fərqli cəhətləri var?*

## QƏLƏMYONAN

Xəyalla Kamal bir partada əyləşirdilər. Onlar rəsm dərsinə xüsusi maraq göstərirdilər. Kamal fikir verib gördü ki, karandaşın ucu qırılan kimi Xəyal onu bir tərəfə tullayır. "Gərək təzəsini aldıram", – deyə dodaqaltı mızıldanır. Üçüncü sinfə keçdiyi dörd aydan bəri beş qələm dəsti aldırmışdı. Qələmi bir balaca bərk basan kimi ucu qırılırdı. Xəyal da onu torbaya atırdı. Evdə qələm əlindən tərpənmək olmurdu. Kamal dostuna dedi:

– Sən qənaətcil deyilsən.

– Neyləyim, – deyə Xəyal etiraz etdi. – Əgər qələm qırılıbsa, təzəsini almaq lazımdır.

– Təzəsinə ehtiyac yoxdur. Bunun ucunu yonsan, bəsdir. Qələmyonanın biri iyirmi qəpikdir. Amma qələmin dəsti bir manatdır. Sən cəmi iyirmi qəpik xərcləməklə qələmlərini yonub sona qədər işlədə bilərsən. Onda bir dəst qələm sənə altı-yeddi ay bəs edər. Gör nə qədər pula qənaət etmiş olarsan.

Xəyal fikrə getdi. Hər dəfə qələm dəsti almaq söhbəti gələndə anasının üzündə yaranan narazı ifadəni yadına saldı. Razılıq ifadəsi ilə dostunun üzünə baxdı.

Sual və tapşırıqlar:
*1. Xəyal necə oğlandır?*
*2. Kamal və Xəyal neçənci sinifdə oxuyurlar?*
*3. Hadisə hansı ayda baş verib?*
*4. Xəyal neçə qələm dəsti aldırıb?*
*5. Ana Xəyalın istəyini necə yerinə yetirir?*
*6. Xəyal dostunun məsləhəti ilə razılaşırmı?*

**Yazı**
*İsrafçılıq, qənaətcilliklə bağlı indiyə kimi etdiyiniz hərəkətləri xatırlamağa çalışın və "Mən qənaətciləmmi?" mövzusunda esse yazın.*

**Danışma** (debat)
**Müəllim:** – *Bəzən insanın xarakteri haqqında danışanda "müsbət xüsusiyyətlər", "mənfi xüsusiyyətlər" ifadəsini işlədirik. Bu ifadələri necə başa düşürsünüz?* (yaxşı, pis xüsusiyyətlər). *Hansı müsbət xüsusiyyətləri tanıyırsınız? Hansı mənfi xüsusiyyətləri tanıyırsınız?*
Müəllim lövhədə iki sütunda şagirdlərin sadaladıqları xüsusiyyətləri qeyd edir. Şagirdlərə "Siz özünüzdə hansı mənfi xüsusiyyətləri görürsünüz və onunla mübarizə aparırsınızmı?" sualı ilə müraciət olunur.
Sinif iki qrupa bölünərək debat keçirir.
**I qrup.** Qənaətcillik müsbət xüsusiyyətdir.
**II qrup.** Qənaətcillik mənfi xüsusiyyətdir.

Çap üçün deyil

*Müəllimin nəzərinə: Oxunmuş və dinlənmiş mətnlərdən sonra I qrupun arqumentləri çox ola bilər. II qrup isə belə bir arqument gətirə bilər: "Qənaətcillik xəsisliyin yumşaq formasıdır. Xəsislik isə mənfi keyfiyyətdir. Hər bir xəsis öz hərəkətlərinə bəraət qazandırıb deyə bilər ki, o, xəsis deyil, sadəcə, qənaətcildir".*

Debat bitdikdən sonra müəllim yekun nəticəyə gəlmək üçün belə bir mətn səsləndirir:

Bakı milyonçusu Zeynalabdin Tağıyev ocaq ətrafında oturub öz işçiləri ilə söhbət edirdi. Birdən işçilərdən biri cibindən kibrit çıxarıb siqaretini yandırdı. Hacı Zeynalabdin narazı halda ona baxaraq bədxərcliyə görə tənbeh etdi:

– Siqaretini yandırmaq üçün ocaqdan köz götürmək olardı.

Bu həmin Tağıyev idi ki, Azərbaycanda ilk teatr binası, kasıblar üçün məktəblər tikdirmiş, Bakıya Şollar suyu çəkdirmişdi. Bu cür xeyriyyə işləri üçün o, milyonlarla pul xərcləmişdi.

**Müəllim:** – *Belə çıxır ki, qənaətcil adam səxavətli və əliaçıq da ola bilər. Əliaçıqlıq isə müsbət xüsusiyyətdir.*

**Dil qaydaları**

Tapşırıq:

1. Verilmiş sözlərdən tərkibində yalnız incə saitlər olanları seçin.

*kompüter, Elbəy, tənəffüs, cədvəl, qardaşlar, bədxərc, sındırmaq, gözütox, çalışqan, daxıl*

2. Verilmiş sözlərdən tərkibində həm qalın, həm də incə saitlər olanları seçin.

*bufet, valideyn, qənaətcil, büdcə, büsbütün, saqqız, hədiyyə, Orxan, mehriban, sevincək*

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 16. QEYBƏT (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətndəki qəhrəmanların hərəkətinə münasibət bildirir. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Eşitdikləri, gördükləri və oxuduqlarını misal gətirərək mövzu ilə bağlı fikirlərini əsaslandırır. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Oxuduğu mətndəki əsas hadisə və obrazları öz həyat düşüncələri ilə əlaqələndirir. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Mətndən yazılışı və deyilişi fərqli olan sözlərin işləndiyi cümlələri köçürür. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Qalın və incə saitləri fərqləndirir. |
| 4.1.7. Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir. | Nəqli və sual cümlələrini fərqləndirir. |

**Motivasiya**

**Müəllim:** – *Yəqin ki, sizin hər birinizin dostu var. Təsəvvür edin ki, başqa bir adam dostunuzun dalınca onun pis xüsusiyyəti haqqında danışır. Siz bu söhbəti eşidib nə edərsiniz?*

Uşaqların fikirləri dinlənilir, ümumiləşdirilir.

**Oxu**

Mətn (dərslik, səh. 38) oxunur. Müəllim aşağıdakı sualı verir:

– *Sizcə, həmin adam qocanın mətnin sonunda verdiyi sualı necə cavablandırır?*



Çap üçün deyil

Əsərin mövzusu və ideyası ilə bağlı dərslikdə verilən nəzəri hissə mənimsədilir. Mətnin sonundakı tapşırığa əsasən, “Qeybət” mətninin ideyası 2-ci cümlədə, mövzusu isə 1-ci cümlədə açıqlanır.

**Cütlərlə iş.** Müəllim hər cütə indiyədək oxuduqları hər hansı bir əsərin adını verir. Cütlər həmin əsərin ideyasını və mövzusunu müəyyən edirlər.

### Danışma

**Müəllim: –** *Artıq 3 ildir ki, birlikdə təhsil alırsınız. Olubmu ki, sizin yanınızda yoldaşınızın qeybətini eləsinlər? Siz bu zaman nə etmisiniz?*

Cavab variantları içərisində (məsələn: “Yoldaşım haqqında deyilənlərə qulaq asmışam, sonra da gəlib onu xəbərdar etmişəm”; “Yoldaşım haqqında danışmağa izin verməmişəm, heç özünə də bu haqda heç nə deməmişəm” və s.) daha çox üstünlük təşkil edənlər müəyyənləşdirilir. Sonda müəllim şagirdləri düzgün istiqamətə yönəldir.

### Dinləmə

Müəllim aşağıdakı mətnləri səsləndirir.

### I MƏTN

Telli nənə evdə təmizlik işləri ilə məşğul idi. Otaqda mebellərin tozunu silində təsadüfən ayağı büdrədi, əli dolabdakı bahalı qaba dəydi. Qab yerə düşüb sındı. Telli nənə çox məyus oldu, özünü danlaya-danlaya qabın qırıntılarını yığışdırdı.

Axşam ana evə gələndə balaca Sevil tez yüyürüb bu xəbəri ona elə qapının yanındaca söylədi.

– Bilirsən, ana, nənə ...

O, sözünü bitirməmiş ana onu kənara çəkib tənbeh etdi.

### II MƏTN

Bir gün Telli nənə Sevillə gəzməyə çıxmışdı. Yolda mağazadan ərzaq almalı idi. Lakin mağazaya çatanda məlum oldu ki, pul kisəsini salıb itirib. Ona görə də evə əliboş qayıtdılar. Şirniyyat bişirməyə hazırlaşan ana şəkər tozunu gözləyirdi. Onları əliboş görəndə təəccübləndi. Amma heç nə soruşmadı.

Bir neçə gün sonra məlum oldu ki, Telli nənə pul kisəsi ilə bərabər, şəxsiyyət vəsiqəsini də itirib. Bunu bildiyi halda ona söyləmədiyinə görə ana Sevili danladı.

**Sual:** – *I mətndə xəbəri çatdırdığına görə, II mətndə isə xəbəri gizlətdiyinə görə ana Sevili danladı. Sizcə, niyə?*

Sual ətrafında müzakirələr aparılır, fikirlər ümumiləşdirilir.

### Yazı

Mətndən yazılışı və deyilişi fərqli olan sözlərin işləndiyi cümlələr seçilib dəftərə köçürülür.

### Dil qaydaları

– *Əsərdə qocanın dediyi cümlələr hansı növə aiddir?* (əsasən, sual cümlələri)

– Bu cümlələrdən biri nəqli cümlədir. Həmin cümlədə yalnız incə və yalnız qalın saitlər işlənən sözləri seçin.

**İş dəftərinin** 27-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

# Dərs 17. QARTALIN TƏŞƏKKÜRÜ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnlə bağlı faktoloji sualları cavablandırır. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Çoxmənalı sözləri müxtəlif kontekstlərdə işlətməklə onların məna çalarları arasındakı fərqi aşkar edir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Qarşılaşdığı yeni sözlərin mənasını lüğətin köməyi ilə izah edir. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətni bitkin hissələrə bölür. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Bədii mətndəki məlumatlardan elmi nəticələr çıxarır. |
| 3.1.1. Hüsnxət normalarına riayət etməklə səliqəli və sürətlə yazır. | Tələffüz formasında verilmiş sözləri orfoqrafik normalara və hüsnxət qaydalarına uyğun səliqəli yazır. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Sözlərin yazılış və tələffüz qaydalarını müəyyən etmək üçün lüğətdən istifadə edir. |

**Motivasiya** (Əqli həmlə)

**Müəllim:** – *Yaxşılıqla bağlı hansı atalar sözlərini bilirsiniz?* Söylənilən atalar sözləri lövhədə yazılır. Müəllim onlara aşağıdakıları əlavə edir:

– Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir.
– Yaxşılıq elə, at dəryaya, balıq bilməsə də, Xaliq bilər.
– Yaxşılıq itməz.
– Yaxşılıq bilməyənə yaxşılıq etmə.
– Yaxşılıq elə ki, başına gəlsin.
– Yaxşılıq eləyən yaxşılıq görər.
– Yaxşılıq yerdə qalmaz.
– Yaxşılıq edib bir şey umursansa, eləməsən, yaxşıdır.
– Yaxşılıq qarşılıqlı olur.

**Oxu**

Dərsliyin 39-cu səhifəsindəki mətn oxunur.

**Qruplarla iş.** Şagirdlər 4 qrupa bölünürlər. Hər qrup 2-ci tapşırıqdakı plan əsasında uyğun abzası danışır. Təqdimatlardan sonra müəllim aşağıdakı sualı verir:

– *Lövhədə yazılmış atalar sözlərindən hansı mətnin ideya məzmununa tam uyğundur, hansı bir az uyğun gəlir, hansı heç uyğun deyil?*

Cavablardan sonra 3-cü tapşırıq yerinə yetirilir: *"Qartalın iti gözləri var"* və *"Quşlar və heyvanlar zəlzələni qabaqcadan hiss edirlər"*.

**Söz ehtiyatı**. 1-ci tapşırıq yerinə yetirilir. Mətndə "uçan" və "uça-uça" sözləri "qanad çalıb havada süzmək", "uçub" sözü isə "dağılmaq, sökülmək" mənasında işlənmişdir. Şagirdlər bu sözləri hər iki mənada müxtəlif cümlələrdə işlədirlər.

**Müəllim:** – *"Nəfs" və "nəfis" sözlərini izah edin* (bu sözlər növbəti mərhələdə veriləcək dinləmə mətni ilə bağlıdır).

Şagirdlər lüğətin köməyi ilə hər iki sözün izahını verirlər. "Nəfsini cilovlamaq", "nəfsini saxlamaq" ifadələrinin mənası açıqlanır.



Çap üçün deyil

**Dinləmə** (Danışma)

## ÇƏYİRDƏK

Ana aldığı gavalıları axşam yeməyindən sonra uşaqlara paylamaq istəyirdi. Gavalılar masanın üstündə, boşqabda idi.

Samir gavalılara baxdıqca ağzı sulanır, axşamı gözləməyə səbri çatmırdı. Ona görə də gavalıların yanında otərəf-butərəfə gedir, yolunu gavalı qoyulan yerin lap yaxınlığından salırdı. Nəhayət, otaqda tək qalanda özünü saxlaya bilməyib gavalılardan birini yedi.

Şam yeməyindən əvvəl ana gavalıları sayıb gördü ki, biri çatmır. Atanın qulağına nə isə pıçıldadı. Yeməkdən sonra ata üzünü uşaqlara tutub soruşdu:

– Uşaqlar, sizlərdən kim gavalının birini yeyib?

Hamı and-aman elədi ki, bu işdən xəbəri yoxdur. Samir də qıpqırmızı qızarıb:

– Yox, mən yeməmişəm, – dedi.

Ata dedi:

– Mən bilirəm ki, sizdən kimsə nəfsini saxlaya bilməyib. Bu, yaxşı hərəkət deyil. Ancaq mənim qorxduğum şey başqadır. Məsələ burasındadır ki, gavalının çəyirdəyi zəhərlidir. Kim onu udarsa, bir müddətdən sonra ölər.

Bu sözləri eşidən Samirin rəngi saraldı:

– Yox, mən çəyirdəyi pəncərədən bayıra tulladım.

Hamı güldü, Samir isə utandığından ağlamağa başladı.

*L.N.Tolstoyun eyniadlı hekayəsinin motivləri əsasında*

Mətnlə bağlı faktoloji suallar:

*1. Ana uşaqlara nə almışdı? 2. Gavalılar harada qoyulmuşdu? 3. Kim nəfsini saxlaya bilmədi? 4. Gavalıların yeyildiyini kim və nə zaman aşkar etdi? 5. Ata yeməkdən sonra uşaqlara nə dedi? 6. Gavalının tumu zəhərli idimi? 7. Hamı güldüyü zaman Samir niyə ağladı?*

**Düşündürücü sual:** *"Nəfsini cilovlaya bilməmək hansı mənfi xüsusiyyətlərə gətirib çıxarır?"* (acgözlük, tamahkarlıq, yalan, eqoizm və s.)

Sonra müəllim "Çəyirdək" mətni ilə X.Əlibəylinin "Noğul" şeirini ("Sinifdənxaric oxu") müqayisə etməyi tapşırır. Hər iki mətnin ideya məzmunu və qəhrəmanların hərəkətləri müqayisəli şəkildə təhlil olunur.

### Dil qaydaları

4-cü tapşırıq yerinə yetirilir. Sonra müəllim lövhədə bir neçə söz yazır: *dairə, qanad, təəccüb, şaftalı.* Şagirdlərə bu sözləri tələffüz etmək tapşırılır. Daha sonra şagirdlər həmin sözləri tələffüz etdikləri kimi lövhədə yazırlar: [dayirə], [qanat], [tə:cüb], [şafdalı]. Sözlərin deyilişi ilə yazılışı arasındakı fərq araşdırılır.

Dərsliyin 40-cı səhifəsində verilmiş nəzəri material mənimsənildikdən sonra həmin səhifədəki 5-7-ci tapşırıqlar yerinə yetirilir.

5-ci tapşırıq. Cavab "A" variantıdır.

6-cı tapşırıq. Deyiliş forması səhv yazılan sözlər bunlardır: orfoepiya [arfayepiya], təbiət [təbiyət]. (Tapşırığın icrası zamanı lüğətdən istifadə olunur.)

Şagirdlər 7-ci tapşırıqda verilmiş mətni orfoqrafik səhvləri düzəltməklə dəftərə köçürürlər.

**İş dəftərinin** 28-ci səhifəsində verilmiş tapşırıqlar yerinə yetirilir.

**Sinifdənxaric oxu.** "Aldədə" (əfsanə).

### Yazı

Aşağıdakı imla mətni yazdırılır. Qırmızı rəngdə verilmiş sözlərin yazılışına xüsusi diqqət yetirilir.



Çap üçün deyil

**BİZİM AİLƏ** (48 söz)

Bizim ailəmiz böyükdür. Atam inşaat mühəndisidir. Onların müəssisəsi rayonumuzda stadion tikir. Anam teatrda çalışır. O, istedadlı aktrisadır. Böyük qardaşım Səid mətbəədə müdir işləyir. Bacım Firuzə isə həkimdir, xəstələri müalicə edir. Mən üçüncü sinifdə oxuyuram. Boş vaxtlarımda mütaliə etməyi sevirəm, hərdən şeir də yazıram. Nənəm məni balaca şair adlandırır.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 18. AĞILLI QARIŞQA (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, onların xarakterik əlamətlərini adlandırır. | Varlığın və ya hadisənin əlamətlərini sadalamaqla sözü izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Şeiri oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnləri fərqləndirir, onların xüsusiyyətlərini sadə şəkildə şərh edir. | Nəzm və nəsrlə yazılmış mətnləri fərqləndirə bilir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Şeirin ideyasını şəxsi həyatı ilə əlaqələndirərək fikir yürüdür. |
| 3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. | Şeiri yazıda nəsrlə ifadə edir. |

### Motivasiya

**Müəllim:** – *Sizlərin arasında kim əvvəlcə oynamağı, sonra isə valideyninə kömək etməyi düzgün sayır?*

### Oxu

Dərsliyin 41-ci səhifəsindən şeir düzgün, ifadəli oxunur. Müəllim tapşırır ki, şeir oxunarkən obrazların nitqi onların xarakterinə uyğun səsləndirilsin. İfadəli oxu müsabiqəsi keçirilir.

**Müəllim:** – *Dovşanı və qarışqanı xarakterizə edən sözlər deyin.*

Cavablardan sonra <u>1-3-cü tapşırıqlar</u> yerinə yetirilir.

<u>1-ci tapşırıq.</u> Şeirin ideyası müəyyənləşdirilir: "*Valideynə kömək etmək övladın borcudur*".

<u>2-ci tapşırıq.</u> Şeirdə göy rənglə verilmiş *"buğda"* və *"kələm"* sözlərinin yeri dəyişik düşüb.

<u>3-cü tapşırıq.</u> Şeirin sonuncu iki misrası tapşırıqda verildiyi kimi olsaydı, ideya dəyişərdi. Bu zaman şeirdən belə başa düşülər ki, qarışqa və dovşan valideynlərinin sözlərinə qulaq asmır, onlara kömək etmir.

**Anlayışın çıxarılması.** Müəllim lövhədə sxem çəkir:




**Sual:** – *Sual işarəsinin yerinə hansı sözü yaza bilərik?*

Söz müəyyən edildikdən sonra müəllim şeirlə nəsr əsərləri arasındakı fərqi soruşur. Şagirdlərin fikirləri dinlənildikdən sonra dərsliyin 41-ci səhifəsindəki "Nəsr və nəzm" nəzəri

Çap üçün deyil

materialı oxunur, əvvəlki biliklərlə müqayisə olunur. Şagirdlərin yadlarında qalan nəsr və nəzm əsərlərinin adları çəkilir. Bu, “Auksion” oyunu tətbiq edilməklə də keçirilə bilər.

Şeirin qafiyə sistemi araşdırılır. Şagirdlər qafiyələnən sözləri müəyyən edirlər. Müəllim əlavə olaraq şeirin vəzni (ritmi) haqqında da məlumat verə və şagirdlərə şeirin hər misrasındakı hecaları saymağı tapşıra bilər.

**Yazı**

Şeirin qısa məzmunu dəftərə yazılır.

**Dil qaydaları**

– *Şeirdə hansı obrazın adının yazılışı və deyilişi arasında fərq var?* (dovşan)

**İş dəftərinin** 29-cu səhifəsində verilmiş tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 19. CƏMİL + MAHİR = ... (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. |
| 1.2.3. Fikirlərini aydın və obrazlı etmək məqsədi ilə bədii ifadələrdən istifadə edir. | Danışarkən fikrini əsaslandırmaq üçün atalar sözlərindən istifadə edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, onların xarakterik əlamətlərini adlandırır. | Mətndəki obrazın xüsusiyyətini göstərən hissəni müəyyən edir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Qarşılaşdığı yeni sözlərin mənasını kontekstdən çıxış edərək təxmin edə bilir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Bədii əsərin müəyyən hissəsini oxuduqdan sonra baş verəcək hadisələri proqnozlaşdırır (təxmin edir).<br>Mətndən çıxarılmış cümlələrin mətndəki yerini müəyyən edir. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətnin abzaslarına başlıq verir və mətnin geniş planını tutur. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətndəki əsas fikri təcrübədən keçirməklə düzgünlüyünə əmin olur. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, açıqca, elan, ərizə, dəvətnamə) yazır. | Əsərin qəhrəmanına məktub yazır. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Sait səsləri növlərinə görə fərqləndirir. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Sözlərin düzgün yazılışını müəyyənləşdirmək üçün lüğətdən istifadə edir. |

**Motivasiya** (Riyaziyyatla inteqrasiya)

– *Toplama əməlinin komponentləri hansılardır?*

“Toplanan, toplanan, cəm” cavabı deyildikdən sonra müəllim aşağıdakı sualla müraciət edir:



Çap üçün deyil

– Deməli, cəm hər iki toplananın birlikdə nəticəsi kimi təqdim oluna bilər. Onda gəlin toplananları sözlər olan bərabərliklər deyək. Məsələn: çay + şəkər = ? (şagirdlər şirin çay deyirlər)

Uşaqlar başqa variantlar da söyləyirlər: süd + qəhvə = südlü qəhvə və s.

Variantlar içərisində, məsələn, "Tərlan + Səid = Dostluq" kimi də bərabərliklər söylənə bilər. Söylənilən bu variantdan sonra müəllim soruşur:

– *Tərlan və Səidin "dostluq" sözü altında birləşməsi nə deməkdir?*

Şagirdlər cavab variantlarını söyləyirlər.

**Oxu** (Proqnozlaşdırma)

Dərslikdən mətn "O, təsərrüfat işləri üzrə direktor müavini idi" cümləsinə qədər oxunur.

– *Sizcə, Cəmil nə edəcək?*

Cavab variantları dinlənilir. Sonra mətnin davamı həmin hissənin sonunadək oxunur, söylənilən versiyalarla müqayisə olunur.

– *Oxuduğunuz hissə sizdə Cəmillə bağlı hansı təəssüratı yaratdı?*

Cavab variantlarından sonra mətnin növbəti hissəsi oxunur.

– Cəmilin növbəti hərəkətinə münasibətinizi bildirin (1-ci tapşırıq).

Cavab variantlarından sonra müəllim soruşur:

– *Sizcə, hekayənin davamı necə olacaq?*

Cavab variantları dinlənilir. Mətnin növbəti hissəsi oxunur.

– *Oxuduğunuz hissədə Cəmilin daha hansı keyfiyyətlərini gördünüz?* (2-ci tapşırıq)

"Yalançı" və "qorxaq" cavabları səsləndikdən sonra şagirdlərin Cəmilə olan münasibətləri haqda fikirlər səslənir.

– *Əgər Cəmil etdiyi hərəkəti dostunun üstünə atırsa, Cəmilin dostluğu haqqında nə deyə bilərsiniz? Cəmil dostluq etməyi bacarır?*

Cavablardan sonra mətnin sonuncu hissəsi oxunur.

– *"Cəmil + Mahir = 0" yazmaqla Mahir nə demək istəyirdi?* (4-cü tapşırıq)

*"Dostluqlarının sona çatdığını" cavabı deyiləndən sonra "Nə üçün bu fikrə gəldiniz?"* sualı verilir. Cavabda sıfrın ayrılıqda heç nə olduğu, heç bir məna kəsb etmədiyi (riyaziyyatla inteqrasiya) vurğulanır.

– *Mahir Cəmillə dostluğuna nə üçün son qoydu?*

"Öz günahını dostunun üstünə atdığına görə" cavabı səsləndikdən sonra müəllim deyir: – *Kazım müəllim divarı, partanın üstünü yazan adamı axtarırdı. Həmin adamı tapır, amma onu bu işə görə danlamaq, cəzalandırmaq əvəzinə "dost necə olmalıdır" barədə mülahizələrini söyləyir. Bunu necə başa düşürsünüz?*

**Söz ehtiyatı**. Mətndən götürülmüş bəzi ifadələrin mənası şagirdlərin başa düşəcəkləri şəkildə izah olunur.

*Ağızucu zümzümə etmək – ahəstə səslə özü üçün oxumaq; dodaqaltı oxumaq*
*Əl-ayağa düşmək – təlaşa düşmək; həyəcanlanmaq*
*Ürəyi düşmək – qorxmaq*
*Gözucu baxmaq – ötəri nəzər salmaq*
*Boynuna almaq – bir işi görmüş olduğunu etiraf etmək; açıb söyləmək*
*Ayağa vermək – kiminsə qarşısında alçaltmaq*

5-ci tapşırıq. Mətnin hissələri adlandırılır:
1-ci hissə – "Divara yazılmış yazı"
2-ci hissə – "Təşvişə düşmüş Cəmil"
3-cü hissə – "Sıfra çevrilən dostluq"
Mətnin məzmununa uyğun plan tutulur. Plan təxminən aşağıdakı kimi ola bilər:
1. Cəmilin ağlına gələn fikir



Çap üçün deyil

2. Divara yazılan yazı
3. Musiqi dərsində
4. Partaya yazılan yazı
5. Zəngin səsi
6. Yazıları yazan kimdir?
7. Kazım müəllimin Cəmillə söhbəti
8. Dostunu ayağa verən Cəmil
9. Kazım müəllimin nəsihəti
10. Cəmilə uzadılmış kağız.

Şagirdlər mətnin məzmununu plan üzrə danışırlar.

**İş dəftərinin** 32-ci səhifəsində verilmiş tapşırıqlar yerinə yetirilir.

**Danışma**

– *Sizcə, Mahir dostluq etməyi bacarırdı?*

Cavablardan sonra müəllim uşaqlara təklif edir ki, özlərini Mahir ilə eyniləşdirməklə cümləni tamamlasınlar. “Mən Mahirin yerinə olsaydım, ... ”.

**Debat**

1. Mahir Cəmillə dostluqlarını pozmaqda haqlı idi.
2. Mahir Cəmillə dostluqlarını pozmaqda haqlı deyildi.

Arqumentlər səslənəndə atalar sözlərindən də istifadə etmək yerinə düşərdi:
Dost dar gündə tanınar.
Dostluq düzlükdədir.
Dostluğun telini qırma – bağlarsan, düyün qalar.
Dost yolunda boran olar, qar olar.
Dost dostun eybini üzünə deyər.
Dost arası sözsüz olmaz.
Örtülü bazar dostluğu pozar.

**Dinləmə**

**Müəllim:** – *Böyüklər sizə bəzi şeyləri qadağan edirlər. Bəs təklikdə qalanda, sizi heç kim görməyəndə həmin qadağalara əməl edirsinizmi?*

Müəllim hamını bu suala səmimi cavab verməyə çağırır. Dinləmə mətni səsləndirilir.

Sinfimizdə Murad adlı bir oğlan vardı. Hüseyn müəllimin ona xüsusi münasibəti hiss olunurdu. Bir dəfə biz müəllimdən soruşduq:

– Müəllim, niyə siz Muradı daha çox istəyirsiniz?

Müəllim bizə tutarlı cavab verə bilmədi.

Novruz bayramı ərəfəsi idi. Hüseyn müəllim bizə axır çərşənbə günü belə bir tapşırıq verdi:

– Uşaqlar, bu gün hərəniz bir toyuq kəsərsiniz. Amma elə yerdə kəsin ki, sizi heç kim görməsin.

Səhəri gün dərsə gələndə müəllim soruşdu:

– Uşaqlar, toyuğu kəsdinizmi? Necə kəsdiniz? Görən oldumu?

Biri dedi ki, mən zirzəmidə kəsdim, o biri dedi ki, çardaqda kəsdim. Murad isə başını aşağı salıb günahkar kimi dilləndi:

– Müəllim, mən elə bir yer tapa bilmədim ki, toyuğu gizlin kəsim. Hər yerdə Allah məni görürdü. Ona görə də mən toyuq kəsə bilmədim.

Müəllim gülümsəyib dedi:

– Uşaqlar, indi bildinizmi mən Muradı niyə çox istəyirəm?

Mətn müzakirə olunur. Şagirdlər belə bir nəticəyə gəlirlər ki, insanın heç bir hərəkəti Allah və onun özü tərəfindən gizli qala bilməz. Odur ki hər bir insan ilk növbədə öz vicdanı qarşısında məsuliyyət daşımalıdır.



Çap üçün deyil

**İş dəftərinin** 30-cu səhifəsindəki "Adam" şeiri oxunaraq təhlil olunur. Durğu işarələri müəyyən olunur. Həmin səhifədəki yazı tapşırıqları yerinə yetirilir.

**Yazı**

Cəmilə və ya Mahirə məktub yazın. Məktubda onlara dostluğu qorumaq üçün məsləhətlər verin.

Müəllim şagirdlərə belə bir tapşırıq da verir:

– *Elə bir təlimat hazırlayın ki, onu oxuyanlar partaların üstünü yazmasın, ucu iti əşya ilə cızmasınlar.*

Daha maraqlı və təsiredici təqdimat hazırlayanların işləri sinif otağının divarından asılır.

**Dil qaydaları**

12-15-ci tapşırıqlar lüğətdən istifadə edilməklə yerinə yetirilir.

**İş dəftərinin** 30-31-ci səhifələrində verilmiş tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 20. ATANIN OĞLUNA NƏSİHƏTİ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Eşitdikləri, gördükləri və oxuduqlarını misal gətirərək mövzu ilə bağlı fikirlərini əsaslandırır. |
| 2.1.3. Öyrəndiyi yeni söz və terminlərdən məqamında istifadə edir. | Öyrəndiyi yeni sözü cümlədə mənasına uyğun işlədir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Şeiri oxuyarkən müəllifin hiss və həyəcanını intonasiya və səs tonu ilə ifadə edir; |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını şəxsi həyatı ilə əlaqələndirərək fikir yürüdür.<br>Mətndəki hadisə və obrazları həyat haqqında düşüncələri ilə əlaqələndirir. |
| 3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. | Şeiri yazıda nəsrlə ifadə edir. |
| 4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları məqamına uyğun istifadə edir. | Həm ümumi, həm də xüsusi isim kimi işlənən sözləri yerindən asılı olaraq düzgün yazır. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Dinlədiyini yazarkən yazılışı və tələffüzü fərqlənən sözlərin düzgün yazılışını müəyyən edir. |

*Müəllimin nəzərinə: Dərslikdə verilən "Atanın oğluna nəsihəti" şeiri dahi Azərbaycan şairi N. Gəncəvinin "Oğlum Məhəmmədə nəsihət" şeirindən bir hissədir. Böyük şair əsərlərində tərbiyə ilə bağlı dəyərli fikir və ideyalara xüsusi yer ayırıb:*

*1) seçdiyi peşənin, sənətin əsl sahibi, kamil ustası olmaq;*

*2) atacaqları addımların və deyəcəkləri sözlərin nə ilə nəticələnəcəyini qabaqcadan düşünmək;*



Çap üçün deyil

*3) daim biliyə can atmağın, geniş biliyə malik olmağın əhəmiyyətini gənc nəslə anlatmaq, biliyə, elmə onda dərin maraq oyatmaq və s.*

### Motivasiya

**Müəllim:** – *Məhəmməd peyğəmbərin belə bir kəlamı var: "Heç bir ata övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz". Bu kəlamı necə başa düşürsünüz?*

### Danışma

**Qruplarla iş.** Müəllim şeiri hissələrə ayırır, hər hissənin əvvəlinə şeirin ilk iki misrasını əlavə edir və qruplara paylayır. Qruplar təqdim olunmuş misraları ifadəli oxuduqdan sonra onları nəsrə çevirib danışır və öz əlavələrini edir. Əlavələr *"Sizcə, ata oğluna daha nələri məsləhət görər?"* sualının cavabı olmalıdır.

**I qrup.** Oğul, sözlərimə yaxşı qulaq as,
Ata nəsihəti faydasız olmaz:
Nə hiylәgәr, nə də vicdanı dar ol,
Hal bilən, hal duyan bir sənətkar ol.

*(Heç kimi aldatmaq olmaz, vicdanlı olmaq lazımdır. Elə sənət sahibi ol ki, sənə müraciət edənlərin halını duyasan, vəziyyətindən xəbərdar olasan.)*

**II qrup.** Oğul, sözlərimə yaxşı qulaq as,
Ata nəsihəti faydasız olmaz:
Bir elmi öyrənmək istədikdə sən,
Çalış ki, hər şeyi kamil biləsən.

*(Elmlə məşğul olmaq, elmə yiyələnmək lazımdır. Bunun üçün çalışmaq lazımdır. Çalışıb hər şeyi tam, mükəmməl öyrənmək gərəkdir.)*

**III qrup.** Oğul, sözlərimə yaxşı qulaq as,
Ata nəsihəti faydasız olmaz:
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.

*(Hər hansı bir sənəti öyrəndikdə, hətta palançı belə olduqda yarımçılıqdan qaçmaq, öz peşəsinin kamil ustası olmaq lazımdır.*

**IV qrup.** Oğul, sözlərimə yaxşı qulaq as,
Ata nəsihəti faydasız olmaz:
Məndən söyləməkdir, səndən eşitmək:
Bir insan əliboş gəzməsin gərək.

*(Həyatda hər insanın müəyyən bir sənəti, peşəsi olmalıdır. Boş-boş gəzmək olmaz. Bir işin qulpundan yapışmaq lazımdır.)*

**İş dəftərinin** 32-ci səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir.

### Danışma

Müəllim belə bir atalar sözü söyləyir: *"Sözü söylə alana, Qulağında qalana".*

Atalar sözünün oxuduqları şeirlə hansı bağlılığı olduğu araşdırılır.

Daha sonra müəllim şagirdlərə belə bir sualla müraciət edir:

– *Siz indiyədək atanızdan hansı nəsihəti eşitmisiniz? Bu nəsihətin həyatınızda necə rolu olub?*

### Dil qaydaları

*Mətndəki hansı söz yerindən asılı olaraq həm böyük, həm də kiçik hərflə yazıla bilir?* (kamil) *Nə üçün şeirin bir misrasında bu söz kiçik, bir misrasında isə böyük hərflə yazılıb?* (Şeirdə işlənmiş "kamil" sözü "mükəmməl, ideal, qüsursuz" mənasında işlənib. 7-ci misrada bu söz misranın əvvəlində gəldiyi üçün böyük hərflə yazılıb.)

Çap üçün deyil

**Müəllim:**
– *Dəftərə elə bir cümlə yazın ki, “kamil” sözü yerindən asılı olmayaraq böyük hərflə yazılsın.*
İş dəftərinin 32-ci səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlar yerinə yetirilir.

**Sinifdənxaric oxu.** Viktor Hüqo. “Kozetta” (“Səfillər” romanından).

**Yazı**
**İmla.** Qırmızı rəngdə verilmiş sözlərin yazılışına xüsusi diqqət yetirilir.

### BÖCƏK VƏ ÇİÇƏK

İşıqlaşırdı. Günəş üfüqdə göründü. Onun parlaq şüaları çəmənliyə yayıldı. Çiçəklər gözlərini açıb səadət dolu baxışlarla günəşi seyr etməyə başladı.

Xallı böcək də qanadlarını açdı. Günəşdən qamaşan gözlərini səmaya tuşladı və uçdu. Çiçəklər böcəyə təəccüblə baxırdı. Böcək bu təəccübün səbəbini başa düşə bilmirdi. Nəhayət, o, bir çiçəyin üstünə qondu. İndi başa düşdü ki, o da bu çiçəyə bənzəyir. Çiçək kimi onun da zil qara xalları və qırmızı qanadları var. Çiçək və böcək xoşbəxt-xoşbəxt günəşin altında qızındı.

**Əlavə tapşırıqlar:**

*1. Mətndə söhbət hansı çiçəkdən və böcəkdən gedir?*
A) Qızılgül və dozanqurdu
B) Lalə və parabüzən
C) Bənövşə və işıldaböcək

*2. Hansı sözdə “l” samiti “d” kimi tələffüz olunur?*
A) parlaq  B) işıqlaşırdı  C) çəmənlik  Ç) qanadlar

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 21. TƏNHA QU QUŞU (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətni qəhrəmanların hiss və həyəcanına uyğun ifadəli oxuyur.<br>Mətndən çıxarılmış hissənin yerini müəyyən edir. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Əsərin hekayə xəritəsini tərtib edir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Mətnin ideyasından çıxış edərək verilmiş mövzuda inşa yazır. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Deyilişi və yazılışı fərqlənən sözləri müəyyən edir. |
| 4.1.4. Cəm şəkilçisinin yazılışı və tələffüzü ilə bağlı qaydaları nitqində tətbiq edir. | “L” samiti ilə başlanan şəkilçilərin yazılışı və tələffüzü ilə bağlı qaydaları nitqində tətbiq edir. |

**Motivasiya**
**Müəllim: –** *Özünüzə dost seçəndə hansı xüsusiyyətinə görə seçirsiniz? Dostunuzun hansı xüsusiyyəti sizi özünə cəlb edir?* (səliqəsi, yaxşı oxumağı, geyimi, danışığı, davranışı, mehribanlığı, əliaçıqlığı, valideynlərinin mövqeyi və s.)



Çap üçün deyil

**Oxu** ("Ziqzaq")

Dərsliyin 48-49-cu səhifələrində verilmiş "Tənha qu quşu" mətni oxunur. Bunun üçün MMV-nin 26-cı səhifələrində şərh olunmuş "Ziqzaq" üsulu tətbiq edilir.

1-ci tapşırıq yerinə yetirilir. Burada verilmiş parça 2-ci hissə ilə 3-cü hissə arasına uyğun gəlir.

Şagirdlər qruplarda işləyərək aşağıdakı suallara cavab verməklə mətnin hekayə xəritəsini tərtib edirlər (2-ci tapşırıq):

– Hadisələr harada baş verir?
– Hadisələr nə zaman baş verir?
– Əsas qəhrəmanlar
– Əsərin qısa məzmunu

Hekayə xəritələri təqdim olunur və müzakirə edilir.

**İş dəftərinin** 33-cü səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Yazı**

**Müəllim:** – *İnsanda zahiri, yoxsa daxili gözəllik əsasdır? Seçiminizi əsaslandırın.*
*"İnsanda daxili gözəllik əsasdır"* mövzusunda inşa yazılır.

**Dil qaydaları**

– Mətndən götürülmüş aşağıdakı sözlərin deyiliş qaydası müəyyənləşdirilir:
*qamışlıqda, günlərinin, dostları, onlar, dəhşətli, gözlərini, qanadlarını, hərəkətlərinə, qazlarla.*

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 22. ÜÇ OĞLAN (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Dialoji nitqində düzgün müraciət formaları seçir və suallara adekvat cavab verir. |
| 1.2.4. Ədəbi-bədii nümunələri ifadə edərkən müvafiq situasiyaya uyğun jest və mimikalardan istifadə edir. | Rollu oyun zamanı obrazların xarakterinə və nitqinə uyğun jest və mimikalardan istifadə edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətni qəhrəmanların hiss və həyəcanına uyğun ifadəli oxuyur.<br>Mətnin ideyasını atalar sözü ilə ifadə edir. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Deyilişi və yazılışı fərqlənən sözləri müəyyən edir.<br>Lüğətlərdən təyinatına görə istifadə edir. |

**Motivasiya. Müəllim:** – *Tutaq ki, dərsinizi öyrənmədiyinizə görə "2" almısınız. Bilirsiniz ki, evdə sizi danlayacaqlar. Bu halda nə edirsiniz? Yalan danışmaqdan başqa bir çıxış yolu axtarırsınızmı?*

Mülahizələr dinlənilir. Müəllim bütün deyilənləri ümumiləşdirərək həmişə sözün düzünü deməyin lazım olduğunu söyləyir.

**Oxu** (Rollu oyun)

Mətn (dərslik, səh. 50) səssiz oxunur. 1-3-cü tapşırıqlar yerinə yetirilir. Sonra rollar üzrə səhnələşdirilir. Bunun üçün şagirdlər qruplara ayrılaraq ssenari yazırlar.



Çap üçün deyil

**I qrup.** “Oğlanların qərarı” səhnəsi
**II qrup.** “I oğlanın valideynləri ilə söhbəti”
**III qrup.** “II oğlanın valideynləri ilə söhbəti”
**IV qrup.** “III oğlanın valideynləri ilə söhbəti”
Lövhədə atalar sözləri yazılır:
– Yalançının evi yandı, heç kim inanmadı.
– Yalançının şahidi yanında olar.
– Şirin yalandansa, acı həqiqət yaxşıdır.
– Yalan ayaq tutar, amma yeriməz.
– Ən yaxşı biclik düzlükdür.
– Yalançının ipi ilə quyuya düşən quyuda qalar.
– Yalanın axırı yoxdur.
– Yalanın ömrü az olar.
**Sual:** – *Lövhədə yazılmış atalar sözlərindən hansı mətnin ideyasına tam uyğundur, hansı bir az uyğun gəlir, hansı heç uyğun deyil?*

**Danışma**

**“Mətni dəyiş” üsulu**

4-cü tapşırıq qruplarla yerinə yetirilir. Hər qrup öz təqdimatını hazırlayır.

Təqdimatlardan sonra müəllim sinifdə iki şagird, yaxud özü ilə bir şagird arasında dialoq yaradır. Məsələn:
– Nərmin, lövhəyə gəl! Dərsə hazırsanmı?
– Hansı dərsə, müəllim?
– Azərbaycan dili dərsinə… və s.

Dialoq lövhədə yazılır və müəllim bu mətnin dialoq adlandığını bildirir.

Dərsliyin 51-ci səhifəsindəki nəzəri material mənimsədilir. Sonra şagirdlər qruplarla (üç və ya dörd) 5-ci tapşırığı yerinə yetirirlər.

**Dil qaydaları**

Motivasiya (Ekspress-sorğu). Suallar:
– *Lüğətlərdən istifadə edirsinizmi?*
– *Lüğətdən istifadə üçün nəyi bilmək lazımdır?* (Hərflərin əlifba sırasını)
– *Hansı lüğətləri tanıyırsınız?* (Orfoqrafiya, orfoepiya, izahlı)

Hər bir lüğətin özəllikləri və əhəmiyyəti haqqında məlumatlar ümumiləşdirilir.

Lövhədə mətn təqdim olunur:

Bizim sinfə Maskva şəhərindən iki ekiz qardaş gəlib. Biz onları öz kamandamıza qəbul etdik. Ümüd edirik ki, bizim aramızda billur kimi saf bir munasibət yaranacaq.

Şagirdlər altından xətt çəkilmiş sözlərdəki orfoqramı (deyilişi və yazılışı fərqlənən hərfi) müəyyən edirlər və iş vərəqlərində mətni düzgün yazırlar.

Lövhədə cədvəl çəkilir və aşağıdakı sözləri lövhənin müvafiq sütunlarında yazmaq tapşırılır: F(i,ü)zuli, g(u,ü)şə, p(e,ə)ndir, p(ə,e)ncək, həş(a,ə)rat.

6-ci tapşırıq. Cümlələrdəki sözlər düzgün yazılaraq dəftərə köçürülür: *dovşan, dovğa, lövbər, bünövrə, tövlə.*

7-cı tapşırıq. Sözlər aşağıdakı kimi tamamlanıb dəftərə köçürülür: *müdir, ümid, mühit, küftə.*

**İş dəftərinin** 34-cü səhifəsində verilmiş tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.



Çap üçün deyil

## Dərs 23. ŞAR (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Dialoji mətni səhnələşdirərkən nitqini oynadığı rolun xarakterinə uyğunlaşdırır. |
| 1.2.4. Ədəbi-bədii nümunələri ifadə edərkən müvafiq situasiyaya uyğun jest və mimikalardan istifadə edir. | Bədii mətni və ya hər hansı hadisəni nəql edərkən obrazın xarakterinə uyğun danışır. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Frazeoloji ifadələrin mənasını kontekstdən çıxış edərək izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir.<br>Mətndəki hadisə və obrazlar haqqında fikir yürüdür. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Həyatdan misallar gətirməklə oxuduğu mətnin ideyası haqqında fikir yürüdür və bu ideyanı atalar sözü ilə ifadə edir. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Deyilişi və yazılışı fərqlənən qoşasaitli sözləri düzgün yazır və tələffüz edir. |

**Motivasiya** (Əqli həmlə)
**Müəllim:** – *Mənəvi dəyərlər arasında hansı müsbət keyfiyyətləri tanıyırsınız?*
Şagirdlər sadaladıqdan sonra müəllim "xeyirxahlıq" sözü üzərində dayanır:
– *Bu sözü necə başa düşürsünüz?*
– *Həyatda gördüklərinizdən misal gətirməklə bu sözü izah etməyə çalışın.*

**Oxu** (Rollu oyun)
Mətn (dərslik, səh. 52) səssiz oxunduqdan sonra səhnələşdirilir.
1-ci tapşırıq. *"Söz danışıqdan keçər"* ifadəsi *"əvvəlcədən kəsilmiş şərtlərə əməl etmək lazımdır"* mənasında izah olunur.
5-ci tapşırıq. Mətnin mövzusu ilə bağlı *biganəlik, xəsislik* sözləri seçilməklə ideyası haqqında fikir irəli sürülür.

**Danışma**
**Debat.** Şagirdlər iki qrupa bölünürlər:
1) şar satanı mənfi obraz hesab edənlər;
2) şar satana haqq qazandıranlar.
*Müəllimin nəzərinə: Sözsüz ki, I qrupun deməyə sözü çox olacaq. Lakin II qrupun da kəsərli arqumentləri ola bilər. Məsələn: "1. Şar satan çörəkpulunu bu şarları satmaqla qazanır. Əgər o hər uşağa şar paylasa, ailəsinə çörəkpulu apara bilməz. 2. Şar satan uşağı aldatmadı. Əgər oğlan bütün şarları düşürsəydi, yəqin ki, bir şarı ona verərdi" və s.*

**Dil qaydaları**
Lövhədə şəkillər asılır və cədvəl çəkilir:

Çap üçün deyil





Şagirdlər şəkillərin adlarını cədvəlin müvafiq xanalarında yazırlar.

| Belə deyilir | Belə yazılır |
|---|---|
| məllim | müəllim |
| radiyo | radio |

**Cütlərlə iş.** Müəllim tək nömrəli cütlüklərə aşağıdakı kimi tapşırıq verir:

– *"Müavin", "müayinə", "müalicə" sözlərinin düzgün deyilişini və yazılışını müəyyənləşdirin. Deyilişlə yazılış arasındakı fərqi izah edin.*

Cüt nömrəli cütlüklərə isə aşağıdakı kimi tapşırıq verir:

– *"Ailə", "təbiət", "Səidə" sözlərinin düzgün deyilişini və yazılışını müəyyənləşdirin. Deyilişlə yazılış arasındakı fərqi izah edin.*

Cütlüklər işlərini təqdim etdikdən sonra 6-cı tapşırıq yerinə yetirilir. Bu tapşırıq şagirdlərin diqqətini yoxlamaq məqsədilə verilir. Üç dəfə təkrar olunan söz "*sait"dir*. Tapşırığın cavabı tapıldıqdan sonra müəllim belə bir sual verir:

– *Bu hərf sırasında daha hansı qoşasaitli sözlər var?* (daim, şüa, şeir, Səid)

– *Hərf sırasında tapdığınız qoşasaitli sözlər necə tələffüz olunur.*

7-ci tapşırıq yerinə yetirilməklə şagirdlərin qoşasaitli sözlərin deyilişi və yazılışı ilə bağlı bacarıqları möhkəmləndirilir.

**İş dəftərinin** 35-ci səhifəsində verilmiş tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 24. BALLI VƏ VIZ-VIZ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətnin məzmununa uyğun gəlməyən yad hissəni tapır.<br>Bədii əsərin müəyyən hissəsini oxuduqdan sonra baş verəcək hadisələri proqnozlaşdırır. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətnə əsasən hekayə xəritəsi tərtib edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını şəxsi həyatı ilə əlaqələndirərək fikir yürüdür. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Mətnin giriş, əsas və sonluq hissəsini müəyyənləşdirir.<br>Mətndəki hadisələri ardıcıllıqla nəql edir. |
| 3.1.1. Hüsnxət normalarına riayət etməklə səliqəli və sürətlə yazır. | Mətni təyin olunmuş müddətdə yazıb bitirir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Mətnin ideyasını şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Deyilişi və yazılışı fərqlənən sözləri müəyyən edir. |

Çap üçün deyil

**Motivasiya. Müəllim:** – *Hansı həşəratları tanıyırsınız? Onlardan xeyirli və zərərli olanları sadalayın.*

Bu sorğudan sonra arı və milçək haqqında BİBÖ cədvəli və ya Venn diaqramı tərtib oluna bilər.

**Oxu** (proqnozlaşdırma).

Mətn (dərslik, səh. 54) səsli olaraq "İndi gəl gedək bizim evə" cümləsinə kimi oxunur. Müəllim şagirdlərin 2-ci sinifdə arı haqqında keçdiklərini xatırladaraq suallar verir:

– *Arının evi necə adlanır? Arı ailəsində kimlər olur? Onlar nə iş görürlər? Sizcə, Ballının evində gördükləri Vız-vıza necə təsir bağışlayacaq?*

Şagirdlərin fikirləri dinlənildikdən sonra mətn davam etdirilir, söylənmiş fikirlərlə müqayisə olunur.

**Müəllim:** – *Nəyə görə Vız-vız başa düşdü ki, milçəklər heç zaman xoşbəxt olmayacaq?*

Cavablardan sonra 1-3-cü tapşırıqlar yerinə yetirilir.

1-ci tapşırıq. Cavab "C" variantıdır.

2-ci tapşırıq. Əsərin mövzusu zəhmətlə bağlıdır.

3-cü tapşırıq. Ədalət, nizam-intizam olan yerdə hamı xoşbəxt olur və işləməkdən həzz alır.

Bundan sonra dərsliyin 55-ci səhifəsindəki "Mətnin hissələri" haqqında verilmiş nəzəri hissə mənimsədilir. Sonra "Ballı və Vız-vız" mətninin giriş, əsas, sonluq hissələri müəyyən edilir (4-cü tapşırıq). Mətnin giriş hissəsində arı ilə milçəyin dostluğundan, sonluğunda isə ədalətin, nizam-intizamın olduğu yerdə xoşbəxtliyin bərqərar ola biləcəyindən danışılır. 5 və 6-cı tapşırıqlar yerinə yetirilir.

**İş dəftərinin** 37-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Yazı**

"Əmək xoşbəxtliyin açarıdır" mövzusunda inşa yazılır.

**Müəllim:** – *Çətin bir məsələni həll edə bilməyəndə nə edirsiniz? Variantlardan birini seçin.*

A) Kömək üçün böyüklərə müraciət edirəm.

B) Kənara qoyub başqa işlərimlə məşğul oluram.

C) Yenidən həll etməyə cəhd göstərirəm.

Şagirdlər əl qaldırmaqla hərəsi bir varianta səs verir. Lövhədə diaqram çəkilir və hər bir variantı seçmiş şagirdlərin nisbət faizi göstərilir. Bundan sonra şagirdlər öz seçimlərini müdafiə etməyə çalışırlar. Müzakirələrdən sonra belə bir nəticə çıxarılır: "Həyatda nəyəsə nail olmaq üçün səbirli olmaq, zəhmət çəkmək lazımdır".

**Dil qaydaları**

Mətndən seçilmiş *milçək, dostluq, çəmənlikdə, çiçəklərdən, yeməkdən, acından, qanadlarını, ailəsinə, qonaq, qayıdanları, yoxlayıb, gətirməyənləri, mumdan, şərik, xoşbəxt* sözlərini şagirdlər aşağıdakı cədvəl üzrə dəftərlərinə yazırlar.

| Belə yazılır | Belə deyilir |
|---|---|
| | |

**İş dəftərinin** 36-cı səhifəsindəki "Arı və milçək" hekayəsi oxunur. Oxuyub anlama məqsədilə "Ziqzaq" (MMV, səh. 26) üsulu, ifadəli oxu üçün "Rollu oyun" tətbiq oluna bilər.

37-ci səhifədəki 4 və 5-ci tapşırıqlar yerinə yetirilir.

**İmla mətni**

*Qırmızı rəngdə verilmiş sözlərin yazılışına xüsusi diqqət yetirilir.*

Çap üçün deyil

### İTİN DOSTLUĞU

Qorxmazın iti xəstə idi. Qorxmaz onun altına şabalıd, söyüd ağacının budaqlarını kəsib döşədi. Ona qənd, isti süd verdi. Hətta Məstan da ona kömək etmək istəyirdi. Belə qulluqdan sonra it tez sağaldı.

Qorxmaz məktəbə gedəndə də it onunla gedirdi. Yolda iri şaftalı ağacları, çiyələk çəmənliyi vardı. Bir gün Qorxmaz şaftalı dərmək üçün ağaca dırmaşdı. Köynəyi ağacın budağına ilişdi, büdrəyib yerə yıxıldı. İt tez kəndə qaçıb Qorxmazın qardaşı Rüstəmi köməyə çağırdı. O, Rüstəmin qabağında irəli-geri qaça-qaça Qorxmazın yerini göstərdi.

**Yazı**

**İş dəftərinin** 36-cı səhifəsindəki mətn hüsnxət normalarına uyğun yazılır.

**Sinifdənxaric oxu.** "Hökmdar və çayçı" (rəvayət).

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 25. YAXŞILIĞA YAXŞILIQ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi bədii mətnin ideyasını müəyyən edir və ona münasibət bildirir. |
| 2.1.3. Öyrəndiyi yeni söz və terminlərdən məqamında istifadə edir. | Mətndə rast gəldiyi yeni sözlərdən məqamında istifadə edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Bədii əsərin müəyyən hissəsini oxuduqdan sonra baş verəcək hadisələri proqnozlaşdırır. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Həyatdan misallar gətirməklə oxuduğu mətnin ideyası və obrazları haqqında fikir yürüdür. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Deyilişi və yazılışı fərqlənən sözləri müəyyən edir. |

**Motivasiya**

**Müəllim:** – *"Qartalın təşəkkürü" hekayəsini xatırlayaq. Sizcə, heyvanlar yaxşılığı başa düşürlərmi? Onlarda minnətdarlıq hissi olurmu? Fikirlərinizi həyatda gördükləriniz, eşitdikləriniz, oxuduqlarınızla əsaslandırın.*

**Beyin həmləsi:** – *Yaxşılıq haqqında atalar sözlərini xatırlayaq.* Səsləndirilən atalar sözləri lövhədə yazılır.

**Oxu** ("Proqnozlaşdırma")

"Yaxşılığa yaxşılıq" hekayəsi (dərslik, səh. 56) əvvəlcə "Yaxına gələndə gözlərinə inanmadı" cümləsinə qədər oxunur və şagirdlər həmin səhifədəki illüstrasiyaya baxaraq nə baş verdiyini təxmin edirlər. Sonra "Əhməd ayı balasının hərəkətinə təəccüblənsə də, onun dalınca getdi" cümləsinə qədər oxunur və sonrakı hadisələr proqnozlaşdırılır. Mətn tam oxunduqdan sonra əvvəlcə söylənilmiş fikirlərlə müqayisə olunur.

Şagirdlər Əhməd və Səməd obrazları haqqında fikirlərini söyləyirlər.

Çap üçün deyil

**Dinləmə**

İki dost meşə ilə gedirdi. Birdən qarşılarına bir ayı çıxır. Dostlardan biri tez ağaca dırmaşır. O biri isə büdrəyir, qaça bilməyəcəyini görüb üzüqoylu yıxılır və özünü ölülüyə vurur. Ayı yaxınlaşıb onu iyləyir. Şikarı ölmüş bilib uzaqlaşır. Ayı gedəndən sonra dostu aşağı düşüb soruşur:

– Ayı sənə nə dedi?

– Ayı mənə dedi ki, səni darda qoyan adamla dostluq etmə.

*Müəllim: – Sizcə, ayı oğlana doğrudan bu sözləri pıçıldamışdı?*

Fikirlər dinlənilir.

– *Mətndəki "şikar" sözünü hansı sözlə əvəz etmək olar?*

– *Hər iki mətni müqayisə edin.*

*Müəllimin nəzərinə:* *Bu dərsdəki oxu və dinləmə mətnlərinin müqayisəsi zamanı "mövzu" və "ideya" (ana fikir) anlayışları üzərində dayanmaq məqsədəuyğundur. Hər iki mətndə mövzu (meşədə iki dostun başına gələn əhvalat), obrazlar (iki dost və ayı) və məkan (meşə) eynidir. Lakin ideya fərqlidir. Oxu mətni yaxşılıq, dinləmə mətni dostluq haqqındadır.*

Əvvəlcə oxu mətninin ideya məzmunu atalar sözü vasitəsilə açıqlanır: "Yaxşılıq edən yaxşılıq görər". Sonra müəllim dinləmə mətninin ideya məzmununu müəyyən etmək üçün aşağıdakı bayatıları söyləyir:

| A) | B) | C) |
|---|---|---|
| Minsən, at yaxşı şeydir,<br>Təmiz at yaxşı şeydir.<br>Düşmən zəif olsa da,<br>Ehtiyat yaxşı şeydir. | Yol üstündə daş nədir?<br>Düz yolda çaş-baş nədir?<br>Özün ki yıxılmısan,<br>Axıtdığın yaş nədir? | Əzizim, gəz dostunu,<br>Bir zaman gəz dostunu.<br>Yüz il yüz ilə getsə,<br>Dost atmaz öz dostunu. |

Şagirdlər müzakirə nəticəsində "C" variantının üzərində dayanırlar.

**Dil qaydaları**

3-cü tapşırıq. Mətndən götürülmüş *"təəccüblənsə"* sözü [tə:ccüblənsə] kimi tələffüz olunur.

Müəllim iki eyni sait yanaşı işlənən sözlər deyir *(camaat, təəssüf, saat, məəttəl)*. Bu sözlərin düzgün deyilişi və yazılışı müəyyənləşdirilir. Deyilişlə yazılış arasındakı fərq izah olunur.

4-cü tapşırıqdakı səhv yazılmış sözlərin düzgün yazılışı müəyyənləşdirilir və dəftərə yazılır. Bu tapşırığın icrasından sonra müəllim aşağıdakı sualı verir:

– *Qoşasaitli sözlər necə yazılır?*

Şagirdlərin cavabları ümumiləşdirilir:

– *Bəzi qoşasaitli sözlərdə saitlərdən biri tələffüz edilmir, o biri isə uzun tələffüz olunur.*

– *Bəzi qoşasaitli sözləri tələffüz edərkən iki saitin arasında "y" samiti səslənir.*

– *Qoşasaitli sözlərdə iki eyni sait yanaşı gəldikdə bir uzun sait kimi tələffüz edilir.*

**İş dəftərinin** 38-ci səhifəsində verilmiş tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

# Dərs 26. NƏBİ VƏ TAHİR (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Dinlədiyi bədii mətnin ideyasını müəyyən edir, onu oxuduğu mətnlə müqayisə edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Bədii əsərin müəyyən hissəsini oxuduqdan sonra baş verəcək hadisələri proqnozlaşdırır. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Atalar sözündə və ya aforizimdə ifadə olunmuş kəlamla bağlı öz fikirlərini yazır. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Deyilişi və yazılışı fərqlənən sözləri müəyyən edir. |

**Motivasiya**

Dinləmə mətni:

Zəng vuruldu. Uşaqlar ingilis dili otağına tərəf yüyürdülər. Hamı tələsirdi. Birdən Nailənin əlindəki qələmdan yerə düşdü və içindəki qələm, karandaşlar yerə səpələndi. Amil bir anlıq dayandı, kömək etmək istədi, amma dərsə gecikəcəyini düşünüb sinfə sarı qaçdı. Kamil isə Nailəyə yaxınlaşıb ona kömək etdi, karandaşları topladı. Hər ikisi dərsə gecikdi. Sinfin qapısı önündə dayandılar. Müəllim:

– Niyə gecikmisiniz?

Kamil heç nə deməyib başını aşağı saldı.

**Sual:** – *Müəllim Kamili cəzalandırsa, sizcə, o, yenə yoldaşına kömək edərmi?*

Fikirlər dinlənilir. Müəllimin yönəldici sualları ilə şagirdlər aşağıdakı nəticələrə gəlirlər:

1. Hər günaha görə insanı tənbeh etməyə tələsmək olmaz. Əvvəlcə günahın səbəbini araşdırmaq lazımdır.

2. İnsan ilk növbədə öz vicdanı qarşısında cavabdeh olmalı, vicdanının cəzasından qorxmalıdır və s.

**Oxu** (Proqnozlaşdırma)

Mətn (dərslik, səh. 58) hissə-hissə oxunur. Hər hissədən sonra şagirdlər mətnin davamını təxmin edirlər.

I hissə – "Nəbi onu qucağına alıb ata mindirdi" cümləsinə qədər.

**Sual:** – *Sizcə, Tahir bundan sonra nə etdi?*

II hissə – "Atı məndən bu yolla aldığını heç kimə demə" cümləsinə qədər.

**Sual:** – *Nəbi niyə belə dedi?*

*Əsərin mövzusunun xainlik olduğu qeyd edilir.*

Daha sonra şagirdlər 4 qrupa bölünür. Hər qrupa iş vərəqində yazılmış bir atalar sözü verilir. Verilmiş kəlama uyğun olaraq kiçik süjetli hekayə yazmaq tapşırılır.

**I qrup.** Yaxşılıq elə, at dəryaya, balıq bilməsə də, Xaliq bilər.

**II qrup.** Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir.

**III qrup.** Namərdin çörəyi dizinin üstündə olar.

**IV qrup.** İgid odur atdan düşə atlana, igid odur hər əzaba qatlana.

Təqdimatlar dinlənildikdən sonra qruplar bir-birinin mətnini qiymətləndirir.



Çap üçün deyil

**Dinləmə**

**ÇAQQAL DOSTUMDAN ÖYRƏNDİM**

Bir gün şir, çaqqal və tülkü ova çıxırlar. Həmin gün uğurlu olduğundan birdən-birə üç ov əldə edirlər. Bir dovşan, bir ceyran, bir kəklik. Əvvəlcədən belə şərtləşmişdilər ki, əldə etdikləri ovu öz aralarında bərabər bölsünlər. Şir üzünü çaqqala tutub soruşur:

– Çaqqal, səncə, şikarı necə bölməliyik?

Çaqqal cavab verir:

– Tülkü hamıdan balaca olduğuna görə kəklik onun, dovşan mənim, ceyran da sənin olsun.

Şir qəzəblənir, çaqqalın dərisini boğazından çıxarır, sonra üzünü tülküyə tutub deyir:

– Sən ovu necə bölərdin?

Tülkü dərisi boğazından çıxmış çaqqal dostuna baxıb deyir:

– Şir sağ olsun. Kəklik sənin səhər yeməyin, dovşan günorta yeməyin, ceyran da şam yeməyin olsun.

Bu sözlər şirin ürəyinə yağ kimi yayılır və tülküdən soruşur:

– Bu bölgünü haradan öyrənmisən?

Tülkü cavab verir:

– Dərisi boğazından çıxmış çaqqal dostumdan.

Təmsil təhlil olunur və onun ideya məzmunu ilə “Nəbi və Tahir” mətninin ideya məzmunu müqayisə olunur, fərqli və oxşar cəhətlər araşdırılır.

**Yazı**

“Namərdin çörəyi dizinin üstündədir” atalar sözü ilə bağlı şagirdlər öz fikirlərini yazırlar.

**Dil qaydaları**

Mətndən seçilmiş *adlı, keçirmək, əlindən, bərkdən, kömək, minmək, istəyirdi, məndən, insanlar, bundan* sözlərini şagirdlər aşağıdakı cədvəl üzrə dəftərlərinə yazırlar.

| Belə yazılır | Belə deyilir |
|---|---|
| | |

**İş dəftərinin** 39-cu səhifəsində verilmiş tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 27. HAMIDAN QƏŞƏNG (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Debat zamanı opponentinin sözünü kəsmədən dinləyir və onun fikirlərinə qarşı arqumentlər irəli sürür. |
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Debat və müzakirə zamanı nitqə başlayarkən “üzr istəyirəm...”, “icazə verin...” kimi standart ifadələrdən istifadə edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Əsərdəki obrazların nitqini onların xarakterinə uyğun səsləndirir.<br>Mətndəki hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən edir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Oxuduğu mətnin ideyası ilə bağlı təxəyyülünə uyğun nəqli mətn qurub yazır. |

Çap üçün deyil

**Motivasiya. Müəllim:** – *İnsanlar haqqında danışanda "zahiri gözəllik", "daxili aləmin gözəlliyi" ifadələrini işlədirlər. Bu sözləri necə başa düşürsünüz?*

Şagirdlər mülahizələrini dedikdən sonra müəllim təklif edir ki, zahirən gözəl adamın sözdə və rəsmdə portretini yaratsınlar. Daha sonra şagirdlər mənəvi cəhətdən gözəl olan insanın keyfiyyətlərini sadalayırlar.

**Müəllim:** – *Təsəvvür edin ki, sinifdə qruplarla iş gedir. Qruplardan birində şagirdlər bir-biri ilə çox mehribandırlar. Digər qrupun şagirdləri isə küsülüdürlər. Sizcə, hansı qrupun işi daha səmərəli olar?*

**Oxu**

Dərsliyin 59-cu səhifəsindəki mətnin oxunması üçün "Ziqzaq" və ya "Proqnozlaşdırma" üsulundan istifadə etmək olar. Mətn oxunduqdan sonra əsas obrazlar təhlil olunur.

*Müəllimin nəzərinə: Bu hekayənin mövzusu "Tənha qu quşu" ilə bağlı olduğundan (zahiri və daxili gözəllik) mətnlərin və obrazların müqayisəli təhlilini aparmaq olar.*

**Danışma** (Debat)

Müəllim debat sualını səsləndirir: – *Sizcə, insanı ilk növbədə nəyinə görə qiymətləndirmək lazımdır – zahiri görünüşünə, yoxsa daxili aləminə görə?*

Şagirdlər iki qrupa ayrılıb bu mövzuda debat keçirirlər. Debat zamanı bu mövzuda kəlamlardan və atalar sözlərindən istifadə etmək məqsədəuyğundur: "Gözəllik ondur, doqquzu dondur"; "İnsanı geyiminə görə qarşılayar, ağlına görə yola salarlar" və s.

**İş dəftərinin** 40-cı səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Yazı**

"Hamıdan qəşəng kimdir?" mövzusunda inşa yazmaq tapşırılır. Bu məqsədlə müəllim tapşırır ki, şagirdlər oxuduqları təmsildəki heyvan obrazlarını insan obrazları ilə əvəz edərək təxəyyülə uyğun süjet düşünsünlər və nəqli mətn qurub yazsınlar.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 28. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərsdə dərsliyin 60-cı səhifəsində verilmiş sual və tapşırıqlar yerinə yetirilir, müvafiq bölmədə tədris olunmuş materiallar təkrarlanır. Bununla yanaşı, müəllim həm özünün hazırladığı materiallardan, həm də müxtəlif qiymətləndirmə vasitələrindən istifadə edə bilər. Tapşırıqların seçimi zamanı bölmədə reallaşdırılmış standartları əsas götürmək lazımdır.

## Dərs 29. BÖLMƏ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ (2 saat)

**DİNLƏMƏ**

**QULAQ DƏRMANI**

Bir gün Molla eşidir ki, şəhərin hakimi azarlayıb. Ağacdan bir neçə alma götürüb hakimə baş çəkməyə gedir.

Hakim deyir:

– Molla, birdən-birə dişim də başladı ağrımağa, qulağım da. Daha mənə bir əzab verdilər ki, gəl görəsən. Dünən bir yaxşı təbib tapdım. Bu təbib dişimi yaxşı çəkdi. İndi onun ağrısı qurtarıb. Amma qulağım hələ də ağrıyır. Kaş bir qulaq həkimi də tap...

Molla dərhal onun sözünü kəsib deyir:

– Bircə halal süd əmmiş adam tapılıb sənin qulağını da çəksəydi, sən də rahatlanardın, əhali də.

Çap üçün deyil

**1. Hansı başlıq mətnin məzmununa uyğun gəlir?**
A) Səxavətli molla
B) Qonşun pisdir – köç qurtar, dişin ağrıyır – çək qurtar
C) Mollanın arzusu

**2. Bu mətndən hansı nəticəni çıxarmaq olar?**
A) Molla yaltaqdır.
B) Şəhər hakimi əhali ilə pis rəftar edir.
C) Diş həkimi heç vaxt qulağı müalicə edə bilməz.

**3. "Qulağını çəkmək" ifadəsindəki "çəkmək" sözünü hansı sözlə əvəz etmək olar?**
A) burmaq B) qoparmaq C) kəsmək

**4. "Halal süd əmmiş" ifadəsini hansı sözlə əvəz etmək olar?**
A) peşəkar B) namuslu C) qorxmaz

**5. Bu abzasdakı sözləri hansı sözlərlə əvəz etmək olar?**

| *eşidir:* | *azarlayıb:* | *götürüb:* | *baş çəkməyə:* |
|---|---|---|---|
| A) qulaq asır | A) vəfat edib | A) dərib | A) dərdləşməyə |
| B) xəbər tutur | B) yıxılıb | B) çıxarıb | B) yoluxmağa |
| C) dinləyir | C) xəstələnib | C) yeyib | C) danışmağa |

**YAZI**
İfadə. Şagirdlər mətnin qısa məzmununu yazırlar.
İmla. Mətnin birinci abzası müəllimin diktəsi ilə şagirdlər tərəfindən yazılır.

**OXU**

### YALANÇI FALÇI

Bir yalançı kəndə gəlib özünü falçı kimi qələmə verir. Hamı onun başına yığışır. Kəndlilərdən biri falçıya deyir:

– Bir falıma bax, görüm məni nə gözləyir.

Falçı zər atıb kişinin falına baxır. Deyir ki, onu yaxın zamanda böyük var-dövlət gözləyir, o qədər varlanacaq ki, qızıl içində üzəcək, hamı ona həsəd aparacaq.

Falçı sözünü qurtaran kimi kəndli dönüb getmək istəyir. Falçı onun dalınca qışqırır:

– Ay kişi, bir dayan görüm. Axı pulumu vermədin...

Kəndli deyir:

– Nə pul? Sən fırıldaqçısan. Əgər əsl falçı olsaydın, bilərdin ki, mənim cibimdə siçan oynayır.

**1. "Cibimdə siçan oynayır" ifadəsini hansı ifadə ilə əvəz etmək olar?**
A) Cibim cırılıb.
B) Pulum yoxdur.
C) Pulu siçan aparıb.

**2. "Fala baxmaq" nə deməkdir?**
A) gələcəkdən xəbər vermək B) varlı etmək C) aldatmaq

**3. Falçı kəndlinin varlanacağını dedi, çünki:**
A) kəndliyə yazığı gəldi.
B) kəndlinin gələcəyini bilirdi.
C) kəndlini aldadıb ondan pul almaq istəyirdi.

Çap üçün deyil

**4. Mətnin mövzusu nədir?**
A) Falçının bir kəndlini aldadıb pulunu əlindən alması
B) Bir kəndlinin yalançı falçını ifşa etməsi
C) Yalançı falçının kənddən qovulması

**5. Hansı atalar sözü mətnin ideyasına uyğun gəlir?**
A) Od yanmasa, tüstü çıxmaz.
B) Yalanın ömrü az olar.
C) Sonrakı peşmançılıq fayda verməz.

**DİL QAYDALARI**

**1. Dörd sözdən biri səhvdir.**

| | | | |
|---|---|---|---|
| A) təbaşir | B) zəmanət | C) sədaqət | Ç) maharət |
| A) xususi | B) ümumi | C) zürafə | Ç) müsabiqə |
| A) sual | B) şua | C) nümunə | Ç) müşahidə |
| A) mühüm | B) münbit | C) mühüt | Ç) üfüq |

**2. Hansı sözdə uzun sait yazıda bir hərflə işarə olunur?**
A) [tə:ccüb]  B) [sa:mit]  C) [ma:rif]

**3. Hansı sözün deyilişi ilə yazılışı eynidir?**
A) pambıq  B) anbar  C) kömbə

**4. Buraxılmış hərfləri əlavə et.**
çəki..., cora..., qarpı..., tün..., söyü..., qatı..., qayma..., ülgü..., göbələ..., pələn...

**5. Hansı sırada altından xətt çəkilmiş söz səhv yazılıb?**
A) O hadisələrdən üç əsir keçib.
B) Zabit əmr verdi ki, əsirləri bir sıraya yığsınlar.
C) Döyüşlərdən birində yaralanıb əsir düşdü.

**6. Hansı sözün tələffüzü zamanı kar samitlərdən biri cingiltili qarşılığı ilə əvəz olunur?**
A) dost  B) həftə  C) xəritə

**7. Hansı sözdə "q" samiti [k] kimi tələffüz olunur?**
A) nöqtə  B) yarpaq  C) əqidə

**8. Hansı sətirdəki sözlərin yazılışı düzgündür?**
A) vaqzal, qırqın, şəfək
B) sağlıx, burux, tutğun
C) qutab, qıvraq, sayıq

**9. Hansı söz yazıldığı kimi tələffüz olunur?**
A) doqquz  B) mürəkkəb  C) bənna

**10. Hansı söz cingiltili samitlərdən ibarətdir?**
A) həkim  B) hakim  C) molla

Çap üçün deyil

# III bölmə
# SİRLİ DÜNYA

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | İş dəftəri səh. | MMV səh. |
|---|---|---|---|---|---|---|
| 30. | **Sərçə**<br>*Yaxınmənalı sözlər* | 2.1.4, 2.2.1, 2.2.5, 4.1.3, 4.1.5 | 4 | 62-63 | 44 | 84 |
| 31. | **Ayın itməsi**<br>*Əksmənalı sözlər* | 1.1.1, 1.2.1, 2.1.4, 2.2.1, 2.2.4 | 4 | 64-66 | 45-46 | 86 |
| 32. | **İki gül**<br>*Sözün məcazi mənası* | 1.2.1, 2.1.2, 1.2.3, 2.2.5, 3.1.2, 4.1.3 | 6 | 67-68 | 47 | 88 |
| 33. | **Gözlər**<br>*Çoxmənalı sözlər* | 2.1.2, 2.1.4, 2.2.1 | 2 | 69 | 48 | 90 |
| 34. | **Təkər. Təkərin tarixi**<br>*Bədii və elmi mətnlər* | 2.2.1, 2.2.2, 4.1.3 | 6 | 70-71 | 49 | 91 |
| 35. | **Ağac**<br>*Sözün mənasını necə izah etməli* | 1.2.1, 2.1.1, 2.1.4, 2.2.1, 2.2.3, 2.2.4, 2.2.5, 3.1.4, 4.1.3 | 4 | 72-73 | 50-51 | 93 |
| 36. | **Leylək və Bülbül**<br>*Nitq etiketləri* | 1.2.2, 2.2.1, 2.2.3, 2.2.4, 4.1.3 | 4 | 74-76 | 52-53 | 95 |
| 37. | **Qarağacın kölgəsi**<br>*Nitq etiketləri*<br>*Söz sonunda bəzi samitlərin tələffüzü* | 1.1.1, 1.1.2, 1.2.1, 1.2.2, 2.1.2, 2.2.4, 4.1.1 | 4 | 77-79 | 54-56 | 97 |
| 38. | **Çox sevirəm** | 2.1.2, 2.1.4, 2.2.1, 3.1.4, 4.1.4 | 2 | 80-81 | 57 | 99 |
| 39. | **Qar dənəsi** | 1.1.1, 2.1.4, 2.2.1, 4.1.3 | 2 | 82-83 | 58 | 101 |
| 40. | **Ümumiləşdirici təkrar** | | 2 | 84 | | 103 |
| 41. | **Bölmə üzrə qiymətləndirmə** | | 2 | | 59-61 | 103 |
| | | **Yekun** | **42 saat** | | | |

Çap üçün deyil

## Dərs 30. SƏRÇƏ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Söz və ifadələrin yaxınmənalı qarşılığını seçərək cümlədə işlədir.<br>Çoxmənalı sözləri müxtəlif kontekstlərdə işlətməklə onların məna çalarları arasındakı fərqi aşkar edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətnin məzmununa uyğun başlıq seçir.<br>Mətnin məzmununu əhatə edən açar sözləri seçir. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Mətnin bir hissəsini oxuduqdan sonra davamını təxmin edir. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Deyilişi və yazılışı fərqlənən sözlərin düzgün yazılışını müəyyən edir. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Sözlərin aid olduğu nitq hissələrini müəyyənləşdirir. |

**Motivasiya**

**Müəllim:** – *Siz çətinə düşəndə bir-birinizə kömək edirsinizmi? Əsl dost necə olmalıdır? Sizcə, heyvanlar da bir-birinə kömək edirmi?*

Uşaqlar öz fikirlərini bildirirlər.

**Oxu** (Proqnozlaşdırma)

Mətnin (dərslik, səh. 62) 1-ci abzası oxunur.

**Müəllim:** – *Sizcə, arı buğda yeyirmi? Onda buğda onun nəyinə lazım idi? Mətndəki hadisələrin davamı ilə bağlı öz fikirlərinizi söyləyin.*

Şagirdlərin variantları dinlənilir. Sonra mətnin davamı oxunur və söylənilmiş variantlarla müqayisə olunur.

Mətnin nə dərəcədə qavranıldığını müəyyən etmək məqsədilə suallar verilir:

*1. Buğdanı kim apardı?*
*2. Əsərin qəhrəmanı niyə arının arxasınca getdi?*
*3. Arı buğdanı hara aparırdı?*
*4. Sizcə, o niyə sərçəyə kömək edirdi?*

Müəllim şagirdlərə təklif edir ki, mətndən əsas fikirlə bağlı olan açar sözləri seçsinlər. Bu sözlər deyildikcə lövhədə yazılır (təəccüblü hadisə, buğda, arı, kor sərçə, sədaqət). Müəllim bu sözlərin mahiyyəti ilə bağlı suallar verir.

**Söz ehtiyatı**. Dərsliyin 62-ci səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir.

**İş dəftərinin** 44-cü səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir.

**Müəllim:** – Qocanın biliyi – ..., gəncin gücü – ...,
*Bu sözləri hansı sözlə əvəz edə bilərsiniz?* (Yaşlının ağlı – cavanın qüvvəti)

2-ci tapşırıq. Mətndə altından xətt çəkilmiş “bərkdir” sözü “itidir” sözü ilə əvəz edilə bilər.

3-cü tapşırıq. 1 – C, 2 – A, 3 – B. Bahar – yaz, gözəl – qəşəng, unutmaq – yaddan çıxarmaq sözləri ilə əvəz oluna bilər.



Çap üçün deyil

Dərslikdən nəzəri material (səh. 63) oxunur və qruplara iş verilir.

**Qruplarla iş.**

**I qrup.** Yaxınmənalı sözləri xətlə birləşdirin və cümlədə işlədin.

| | |
|---|---|
| çeşmək | çoxlu |
| yüyürür | eynək |
| xeyli | qaçır |

**II qrup.** *"Məsələni şərh etmək" və "Futbol oyununu şərh etmək" birləşmələrinin hansında "şərh etmək" ifadəsini "izah etmək" ifadəsi ilə əvəz etmək mümkündür? Cavabınızı əsaslandırın. "Gözəl" sözünü cümlədə elə işlədin ki, onu "göyçək" sözü ilə əvəz etmək mümkün olmasın.*

**III qrup.** Dördündən biri fərqlidir. Fərqli sözə yaxınmənalı söz yaz və cümlədə işlət.

| | | | |
|---|---|---|---|
| 1. yaşlı | 2. qoca | 3. ahıl | 4. qədim |
| 1. istək | 2. əmr | 3. dilək | 4. arzu |

**IV qrup.** "Fikirləş" sözünə yaxınmənalı söz yazın və cümlədə işlədin. "Böyük" sözünü cümlədə elə işlədin ki, onu "iri" sözü ilə əvəz etmək mümkün olmasın (böyük şair).

Qrupların təqdimatı dinlənilir və müzakirə olunur.

Müəllim lövhədə üç sütunda yazılmış sözlərdən ibarət plakat asır:

| | | |
|---|---|---|
| fayda | böyük | qəşəng |
| geyim | mənfəət | çətin |
| mürəkkəb | gözəl | səmərə |
| yekə | qəliz | paltar |
| göyçək | libas | iri |

Şagirdlər yaxınmənalı sözləri xətlə birləşdirirlər.

Dərslikdən 4-5-ci tapşırıqlar yerinə yetirilir.

4-cü tapşırıq. Acıq – hirs – qəzəb, gözəl – göyçək – qəşəng, arzu – murad – istək.

5-ci tapşırıq. Cavab "A" variantıdır.

## Dil qaydaları

*Müəllimin nəzərinə: Bəzi sözlərin yazılışında hərflərin yeri səhv salınır. Bu cür sözlərə aid heç bir nəzəri qayda olmadığına görə belə sözlərin düzgün yazılışını, sadəcə, yadda saxlamaq lazımdır.*

6-cı tapşırıq. Lüğətdən istifadə etməklə sözlərin düzgün yazılışı müəyyənləşdirilir: *kirpik, məşhur, yanlış, müşayiət.*

İş dəftərinin 44-cü səhifəsindəki 2 və 3-cü tapşırıqlar yerinə yetirilir.

**Hüsnxət. İş dəftərinin** 44-cü səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

Çap üçün deyil

## Dərs 31. AYIN İTMƏSİ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnlə bağlı faktoloji sualları cavablandırır. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Topladığı məlumatlara əsaslanaraq mövzu ilə bağlı şifahi təqdimat edir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Sözlərin əksmənalı qarşılığını müəyyən edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətnin məzmununa uyğun gəlməyən “yad” hissəni tapır.<br>Əsərdəki obrazların nitqini onların xarakterinə uyğun səsləndirir.<br>Bədii əsərin müəyyən hissəsini oxuduqdan sonra baş verəcək hadisələri proqnozlaşdırır. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Əsərdəki hadisə və obrazları həyat haqqında düşüncələri ilə əlaqələndirir. |

### Motivasiya

Ayın tam (bədirlənmiş), oraq formalı (hilal) və yarımgörüntülü şəkli nümayiş etdirilir.

**Suallar:** – *Ayı nə şəkildə görmüsünüz?*

*– Niyə o, müxtəlif formalarda olur?*

Uşaqlar öz fikirlərini deyirlər.

**İfadəli oxu** (Rollu oyun). Sincab, Maral, Tülkü, Ayı, Çaqqal, Şir, Bayquş, Dovşan, Canavar obrazları üçün şagirdlər seçilir. Hərə öz qəhrəmanının nitqini (dərslik, səh. 64-65) səsləndirir.

Mətn “Bayquş dedi: – Yaxşı, mən sizə Ay, Yer və Günəş haqqında dərs keçərəm” cümləsinə kimi oxunur. Müəllim sual verməklə həmin abzasdakı məlumatları şagirdlərin necə qavradığını yoxlayır.

*1. Sincab niyə narahat idi?*
*2. O, fikrini kimə dedi?*
*3. Bəs Maral fikrini kimə bildirdi?*
*4. Xəbəri bütün meşəyə kim yaydı?*
*5. Məsləhətə kimin yanına getdilər?*

**Müəllim:** – *Sizcə, Bayquş onlara nəyi izah etdi? Ay itə bilərmi? Ay niyə balacalaşır?*

Uşaqlar versiyalarını dedikdən sonra mətnin davamını oxuyurlar və öz versiyaları ilə müqayisə edirlər:

1. Ay özü işıq saçmır.
2. Onu işıqlandıran Günəşdir.
3. Axşamlar Günəş Yerin arxa tərəfində olur.
4. Günəş əks tərəfdə olduğuna görə Yer qaranlıq olur.
5. Günəş Ayın bir hissəsini işıqlandırır.
6. Qalan hissəsinə Yerin kölgəsi düşür.
7. 14 gündən sonra Ay tam işıqlanacaq və dairə formasına düşəcək.

Dərslikdən 2-3-cü tapşırıqlar yerinə yetirilir.

<u>3-cü tapşırıq.</u> Sonuncu söz “müdriklik” olacaq.

### Yazı

Əvvəlki dərsin davamı olaraq **iş dəftərinin** 45-ci səhifəsindəki <u>1 və 2-ci tapşırıqlar</u> yerinə yetirilir.



Çap üçün deyil

**Dinləmə**

Aşağıdakı sualları BİBÖ cədvəlinin müvafiq sütunlarında yerləşdirin:

*1. Gecələr Ayı müxtəlif şəkillərdə görürük?*

*2. Diqqətlə baxsanız, görərsiniz ki, oraqşəkilli və ya yarımgörüntülü Ayın qaranlıq hissəsi də azacıq işıqlanır. Bəs bu hissə nəyin hesabına işıq saçır?*

*3. Ay niyə işıq saçır?*

*4. Yəqin ki, bədirlənmiş Ayın üzündəki ləkələri görmüsünüz. Bu ləkələr nədir?*

*5. Ay neçə günə hilal formasından bədirlənmiş formaya düşür?*

*6. Uzağa baxmaq üçün durbindən istifadə edirik. Bəs Ayı və digər göy cisimlərini nəyin vasitəsilə yaxından görmək olar?*

Şagirdlər 2-ci, 4-cü və 6-cı sualları "İstəyirəm bilim" sütununda yerləşdirirlər.

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |

**AY NİYƏ GECƏ İŞIQ SAÇIR**

Nağıllarımızda gözəl qızlar haqqında tez-tez belə ifadəyə rast gəlmək olar: "On dörd gecəlik ay kimi işıq saçır". Deməli, insanlar çoxdan bilirdilər ki, Ay 14 günə bədirlənir.

Qədim yunan alimləri kəşf etdilər ki, Ay Günəşin işığını əks etdirir. Onlar Ayın üzərindəki ləkələrə də fikir vermişdilər. Yunanlar elə bilirdilər ki, bu ləkələr Yerdəki dənizlərin və dağların əksidir. İki min il əvvəl yaşamış Roma alimi Plutarx ilk dəfə olaraq sübut etdi ki, bu ləkələr Ayın öz səthində olan ləkələrdir.

Böyük italyan alimi Leonardo da Vinçi diqqətlə baxıb gördü ki, Ayın qaranlıq hissəsi də zəif işıq saçır. O özünün kəşf etdiyi teleskopla Aya baxanda başa düşdü ki, Ayın bu hissəsini Yer işıqlandırır. Axı Yer də Günəşin işığını əks etdirir və bu işıq Ayın üzərinə düşür.

Müəllim "teleskop" sözünün mənasını izah edir: – *Göy cisimlərini müşahidə etmək üçün böyüdücü şüşələri olan cihaz.*

Daha sonra faktoloji suallar (şifahi şəkildə və ya iş vərəqi paylamaqla) vasitəsilə dinləmə mətnindəki məlumatların mənimsənildiyi yoxlanılır.

**Danışma**

Bir neçə gün əvvəl uşaqlara tapşırılır ki, "Ay" mövzusunda araşdırma aparsınlar, böyüklərdən, sorğu kitablarından, internetdən Ay haqqında mümkün qədər çox məlumat əldə etsinlər.

**Qruplarla iş.** Şagirdlər dörd qrupa bölünür. Hər qrupun şagirdləri Ay haqqında topladıqları məlumatları bölüşürlər. Öz aralarından spiker seçirlər.

**Məruzə.** Hər spiker öz qrupunun məruzəsini təqdim edir. Hər məruzədən sonra lövhədə yeni məlumatlar yazılır. Oxu mətni, dinləmə mətni və araşdırmalar nəticəsində qazanılmış biliklər müqayisə olunur.

**Söz ehtiyatı**. Dərsliyin 66-cı səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Yaşıl rənglə verilmiş sözlər (düz, doğru) yaxınmənalı, göy və qırmızı rənglə verilmiş sözlər (soruşdu, cavab verdi; sonra, qabaq) isə əksmənalıdır.

**Müəllim:** – "Qırmızıpapaq" nağılını yadımıza salaq. Qırmızıpapaq nənənin yanına uzun yolla getdi, ona görə də ora gec çatdı. Ancaq Canavar nənənin yanına qısa yolla getdiyinə görə ora tez çatdı. Burada hansı sözlər əksmənalıdır (uzun – qısa, tez – gec).

Uşaqlara üç sütundan ibarət cədvəl təqdim olunur. I sütundakı sözlər verilir, II, III sütunlar şagirdlərin köməyi ilə yazılır.

Çap üçün deyil

| Sözlər | Yaxınmənalı sözlər | Əksmənalı sözlər |
|---|---|---|
| kiçik | balaca | böyük |
| gözəl | qəşəng | çirkin |
| ağ | bəyaz | qara |
| dar | ensiz | geniş |
| şor | duzlu | şit |
| dadlı | ləzzətli | dadsız |
| mərd | qoçaq | qorxaq |

Dərsliyin 66-cı səhifəsindəki məlumat oxunur.

Sinif qruplara bölünür.

**I qrup.** Əksmənalı sözlər yazın və cümlə qurun: ağ – ..., qaçmaq – ..., otur – ..., yer – ...

**II qrup.** Atalar sözlərində səhv düşən sözləri yerinə yazın: "Çox danış, az eşit", "Qışda işləyən yayda dişləyər". "Susmaq gümüşdürsə, danışmaq qızıldır".

**III qrup.** Bu sözlərə əksmənalı sözlər yazın: doğru, ağır, həqiqət, mehriban.

**IV qrup.** Verilmiş sözlərlə əksmənalı sözlər yazın və cütlərdən birini cümlələrdə işlədin: hündür – ..., dayanmaq – ..., atmaq – ..., isti – ...

Qruplar öz araşdırmalarını təqdim edir.

5-ci tapşırıq yerinə yetirilir: dost – düşmən, yoxuş – eniş, ağlağan – güləyən, uzun – qısa, yuxarı – aşağı, əvvəl – sonra, gülmək – ağlamaq, oturmaq – qalxmaq.

**İş dəftərini** 46-cı səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 32. İKİ GÜL (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Oxuduğu mətnləri mövzu və ideya baxımından müqayisə edir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 1.2.3. Fikirlərini aydın və obrazlı etmək məqsədilə bədii ifadələrdən istifadə edir. | Nitqində məcazi mənalı söz və ifadələrdən yerli-yerində istifadə edir. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Mətnin giriş, əsas və sonluq hissələrini müəyyənləşdirib nəql edir. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Deyilişi və yazılışı fərqlənən, eləcə də mürəkkəb sözlərin işləndiyi mətnləri üzündən köçürür. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Deyilişi və yazılışı fərqlənən sözləri müəyyən edir.<br>Dinlədiyini yazarkən deyilişi və yazılışı fərqlənən sözlərin düzgün yazılışını müəyyən etmək üçün lüğətdən istifadə edir. |

**Motivasiya.** (Mətnin məzmununu ifadə edən açar sözün izahı)

**Müəllim:** – *Gəlin bir daha dostluq münasibətlərini ifadə edən sözləri xatırlayaq.*

Bu dəfə müəllim "fədakarlıq" sözünün üzərində dayanır:



Çap üçün deyil

*– Bu sözü necə başa düşürsünüz? Qayğı, kömək nə zaman fədakarlığa çevrilir?*

Müəllimin yönəldici sualları vasitəsilə uşaqlar bu qənaətə gəlirlər ki, insan öz yaxınına qayğı göstərərkən öz rahatlığını, sağlamlığını qurban verirsə, fədakarlıq etmiş olur.

## Oxu

Mətn (dərslik, səh. 67) abzaslarla oxunur. Hər abzasdan sonra həm mənimsəmə, həm də proqnozlaşdırma məqsədilə suallar verilir.

1-ci tapşırıq. Hər üç əsərin mövzusu təbiətlə bağlıdır. “Sərçə” mətnində arının kor olmuş dostu sərçəyə olan sədaqətindən, dostluğundan, “İki gül” mətnində bir gülün digərinə olan xeyirxahlığından, dostluğundan, məhəbbətindən danışılır. Ana Təbiət uşaqlara ünvanladığı məktubda insanların onun ailəsini incitdiyi haqqında şikayət edirdi. “İki gül” mətnində oğlan gülü əzir və heç nə olmamış kimi çıxıb gedir. O fikirləşmir ki, ayağının altında bir canlını incitdi, ağrıtdı. “Sərçə” və “İki gül” mətnlərindəki obrazlar Ana Təbiətin bir parçasıdır. Bu obrazlar bir-birinə dayaq olmaqla insanları başa salmaq istəyir ki, onlar da canlıdır, insanların “bacı-qardaşıdır”.

**Suallar:**

1. Mətnin giriş, əsas və sonluq hissələrini müəyyənləşdirin (2-ci tapşırıq) və hər bir hissəni ayrıca nəql edin.
2. Gülün fədakarlığını göstərən cümlələri tapın və bir daha oxuyun.

**İş dəftərinin** 47-ci səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir.

## Yazı

Mətndən obrazlı ifadələr (“göz yaşları ilə suladı” və s.) və məcazi mənalı sözlər seçilib iş vərəqində yazılır.

**Söz ehtiyatı.** 3-cü tapşırıq. Lüğətin köməyi ilə “gülümsəmək” sözünün mənası izah olunur: *təbəssüm etmək, dodaqaltı gülmək.* Mətndə altından xətt çəkilmiş cümlədə *“gülümsədi”* sözü məcazi mənada verilib, günəş gülün üzünə baxaraq gülümsədi, onda fərəh oyatdı.

4-cü tapşırıq. “Sinə gərmək” ifadəsinin mənası izah olunur: özünü qorxmadan qabağa verərək müqavimət göstərmək.

Lövhədə “qızıl üzük”, “qızıl ürək”, “qızıl payız” (və ya “oğlanın qolu”, “çayın qolu”) sözləri yazılır.

**Müəllim:** *– Hər bir söz birləşməsində “qızıl” (“qol”) sözünün mənasını izah etməyə çalışın. Sizcə, bu sözün ilkin (əsas) mənası hansıdır?*

**Qruplarla iş.** Şagirdlər dərsliyin 68-ci səhifəsindəki nəzəri materialı oxuduqdan sonra qruplara bölünürlər.

**I qrup.** Dərslik, səh. 68, 5 və 6-cı tapşırıqlar.

**II qrup.** *1. Hansı cümlədə “daş” sözü məcazi mənada işlənmişdir?*

A) Uşaqlar daş hasarı aşıb bağa girdilər.
B) Aytən daşı çaya atdı.
C) Hətta onun daş ürəyi rəhmə gəldi.

*2. Hansı izah “acı” sözünün həqiqi mənasına aiddir?*

A) fəlakətli, məşəqqətli, kədərlə dolu: acı günlər
B) dili-ağzı yandıran: acı bibər
C) xoşa gəlməyən, qəlbə toxunan, kobud: acı söz

**III qrup.** İş dəftəri, səh. 47, 2 və 3-cü tapşırıqlar.

**IV qrup.** İş dəftəri səh. 47, 5 və 6-cı tapşırıqlar.

Qruplar araşdırmalarının nəticələrini təqdim edir.

Əqli həmlə yolu ilə **iş dəftərinin** 47-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Şagirdlər “tutmaq” və “tutulmaq” sözlərini əvvəlcə həqiqi, sonra məcazi mənada cümlələrdə işlədirlər.



Çap üçün deyil

Məsələn: "Pişik siçanı tutdu" (həqiqi). "Cinayətkar dəstə tutuldu" (həqiqi). "Bu söz onu yaman tutdu" (məcazi). "Günəşin üzü tutuldu" (məcazi).

**Dil qaydaları**

*Müəllimin nəzərinə:* Qoşa samitlə bitən birhecalı sözlərin yazılışında şagirdlər çox vaxt səhvə yol verirlər. Buna görə də bu cür sözlərin yazılışını yadda saxlamaq lazımdır.

Lüğətin köməyi ilə 7-ci tapşırıq yerinə yetirilir. Şagirdlər sözlərin tələffüzü zamanı iki samit arasına saitin əlavə olunmasına diqqət yetirməlidirlər.

**İmla mətni**

*Qırmızı rəngdə verilmiş sözlərin yazılışına xüsusi diqqət yetirilir.*

**QIŞ YUXUSU (53 söz)**

Qarlı-şaxtalı qış gəlmişdi. Qışın öz gözəllikləri var: dağlar, təpələr, düzlər pambıq kimi ağ və yumşaq qarla örtülmüşdü. Ağacların budaqları lülə-lülə qara bürünmüş, axar sular donmuşdu. Arabir buludların arasından Günəşin soyuq şüaları süzüldükcə hər tərəf almaz kimi par-par parıldayır, gözləri qamaşdırırdı. Quşbaşı qarın ağır-ağır yerə enməsi, şaxtalı havanın yanaqları oxşaması adama ayrı ləzzət verirdi.

*M.Rzaquluzadə*

**Sinifdənxaric oxu.** "Babil bağları" (əfsanə).

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 33. GÖZLƏR (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Mətndə rast gəldiyi sözləri yaxınmənalı sözlərlə əvəz edir.<br>Çoxmənalı sözün kontekstə uyğun olan mənasını müəyyənləşdirir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Dialoji şeiri qəhrəmanların hiss və düşüncələrini ifadə etməklə oxuyur. |

**Motivasiya**

**Müəllim:** – *İnsanın bədən üzvlərini bildirən hansı sözlər çoxmənalı söz kimi işlənir?*

Şagirdlər bu sözləri sadalayır və onları müxtəlif mənalarda işlədirlər.

Müəllim "göz" sözü üzərində dayanır və şagirdlər bu sözün bütün mənalarını əhatə edən cümlələr işlədirlər. Hər dəfə cümləyə görə bu sözün konkret mənası açıqlanır.

**Oxu** (Rollu oyun)

Şeirin oxunması üçün iki şagird seçilir və onlar şeir qəhrəmanlarının nitqini səsləndirirlər.

İş dəftərinin 48-ci səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir.

**Söz ehtiyatı**. Dərsliyin 69-cu səhifəsindəki 1-2-ci tapşırıqlar yerinə yetirilir.

**Müəllim:** – "Baş" sözünü cümlələrdə müxtəlif mənalarda işlədin.

Bu sözün müxtəlif mənalarına aid cümlələr deyilənə qədər əqli həmlə davam edir:

1) insan və heyvanlarda bədən orqanı (adamın başı, heyvanın başı);



Çap üçün deyil

2) müəyyən bir yerin yuxarı tərəfi (kəndin başı);
3) rəhbər (baş həkim).

**Qruplarla iş.** Şagirdlər dərsliyin 69-cu səhifəsindəki nəzəri materialı oxuduqdan sonra qruplara bölünürlər.

**I qrup.** İş dəftəri, səh. 48, 2-ci tapşırıq.
**II qrup.** İş dəftəri, səh. 48, 3-cü tapşırıq.
**III qrup.** İş dəftəri, səh. 48, 4-cü tapşırıq.
**IV qrup.** İş dəftəri, səh. 48, 5-ci tapşırıq.

Təqdimatdan sonra aşağıdakı tapşırıq ümumi müzakirə yolu ilə yerinə yetirilir:

"Çalmaq" sözünün mənalarına diqqət yetir.

A) çalmaq – biçmək
B) çalmaq – səsləndirmək, ifa etmək
C) çalmaq – sancmaq
Ç) çalmaq – vurmaq, çaxmaq

Aşağıdakı cümlələrdə bu söz hansı mənalarda işlənib?

1. Ağca xanımı ilan çaldı.
A B C Ç
2. Kəndlilər dəryazları götürüb ot çalmağa yollandılar.
A B C Ç
3. Əhməd divara mismar çalıb şəkli asdı.
A B C Ç
4. Habil Əliyev kamançada gözəl çalır.
A B C Ç

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 34. TƏKƏR. TƏKƏRİN TARİXİ (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Elmi mətndəki əsas məlumatları mənimsəyir və əvvəl bildikləri ilə müqayisə edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnləri fərqləndirir, onların xüsusiyyətlərini sadə şəkildə şərh edir. | Eyni mövzuda yazılmış bədii və elmi-kütləvi mətnləri fərqləndirir və məzmununa görə müqayisə edir. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Dinlədiyini yazarkən deyilişi və yazılışı fərqlənən sözlərin düzgün yazılışını müəyyən etmək üçün lüğətdən istifadə edir. |

**Motivasiya**

**Müəllim: –** *Təsəvvür edin ki, siz heç kimə gərək deyilsiniz. Bu zaman özünüzü necə hiss edərdiniz?*

**Oxu** (Rollu oyun)

"Təkər" mətni rollara bölünərək oxunur.

Şagirdlər əsərin ideya məzmununu müəyyən edirlər (1-ci tapşırıq): "Başqalarına gərəkli olmaq hər bir varlığa xas olan istəkdir".



Çap üçün deyil

Müəllim "Bənövşə" adlı üç mətn səsləndirir:
Bənövşə (I mətn)
Bənövşəyəm, bənövşə,
Düşmüşəm dilə-dişə.
Məni qızlar, oğlanlar
Dərib taxarlar döşə.

Bənövşə (II mətn)
Yazın ilk günlərində qarın altından boynubükük bənövşə görünür. Bu gül yazın rəmzi sayılır. Bənövşə çiçəyinin 300-dən çox növü məlumdur. Onların əksəriyyəti ot formasında, bəziləri isə kol formasında olur. Azərbaycanda bənövşənin 22 növünə rast gəlmək olar. Ala-bəzək bənövşə, ətirli bənövşə kimi növlərindən əczaçılıqda və ətriyyatda istifadə olunur.

Bənövşə (III mətn)
Bağçada güllər söhbət edirdi. Hərə özünü öyürdü. Bənövşə isə çox qəmgin görünürdü. Sanki incik idi. Boynunu büküb kənardan tamaşa edirdi.

**Suallar:** – *Bu mətnlərdən hansı bənövşə çiçəyi haqqında daha çox məlumat verir? Belə mətnlər necə adlanır?* (elmi) *Digər iki mətn bu mətndən nə ilə fərqlənir?* (Bənövşə çiçəyi obraz, əsər qəhrəmanı kimi verilir.) *Belə əsərlər necə adlanır?* (bədii) *Bəs indicə dinlədiyiniz iki bədii mətn bir-birindən nə ilə fərqlənir?* (Biri şeir, digəri nəsr əsəridir.)
Dərsliyin 70-ci səhifəsində verilmiş nəzəri məlumat oxunub müzakirə olunur.
**Sual:** – *Oxuduğunuz mətndən təkər haqqında hər hansı elmi məlumat, bilik əldə etdinizmi? Bu mətni hansı növə aid etmək olar: bədii, yoxsa elmi?* (2-ci tapşırıq)
Şagirdlər bu suala cavab verərkən fikirlərini əsaslandırmalıdırlar.

**Müəllim:** – *Təkər haqqında nə bilirik?* (BİBÖ)

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |

**Oxu** (Sual müsabiqəsi)
Dərsliyin 71-ci səhifəsindəki mətn oxunduqdan sonra sual müsabiqəsi keçirilir (bax: MMV, səh. 24).
3-cü tapşırıq yerinə yetirilir. Hər hansı bir varlıq haqqında elmi mətnlərdən daha çox məlumat əldə olunduğu qeyd edilir.
**İş dəftərinin** 49-cu səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

## Dil qaydaları

**İmla mətni**
*Qırmızı rəngdə verilmiş sözlərin yazılışına xüsusi diqqət yetirilir.*

### SƏHƏR (53 söz)

Getdikcə dan yerinin qızartısı artırdı. Dərələrdən və çaylardan duman qalxırdı. Günəş dağın arxasından ahəstə-ahəstə çıxırdı. Hələ özü görünmürdü. Amma şəfəqi qarşıdakı uca dağın başına düşmüşdü. Sonra yavaş-yavaş qalxıb dağın dalından göründü və ruh verən qızıl zərrələrini aləmə dağıdıb yatmışları oyatdı. Çəmənlərdə, seyrəngahlarda çiçəklərin qönçələrində gizlənmiş arıları və pərvanələri oyatdı. Quşların cəh-cəhi havaya ucaldı.

*S.S.Axundov*



Çap üçün deyil

**Sual və tapşırıqlar:**
1. *"Dan yeri" dedikdə nə nəzərdə tutulur?*
2. *Mətndə məcazi mənalı söz və ifadələrin altından xətt çəkin (dağın başı, ruh vermək, günəşin qızıl zərrələri).*

**Sinifdənxaric oxu.**V.Suteyev. "Göbələk"

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 35. AĞAC (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Oxuduğu mətndən əldə etdiyi bilikləri həyatda gördükləri ilə müqayisə edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, onların xarakterik əlamətlərini adlandırır. | Sözün ifadə etdiyi anlayışın əlamətlərini və aid olduğu məna qrupunu müəyyən edir.<br>Verilmiş əlamətlərdən istifadə edərək sözü (anlayışı) müəyyən edir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Mətndəki sözü kontekstə uyğun gələn yaxınmənalı sözlə əvəz edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Əsərdəki hadisələrin səbəb-nəticə əlaqəsini müəyyən edir. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətnin bitkin hissələrini müəyyənləşdirməklə planını tərtib edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını müəyyən edir. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Mətnin giriş, əsas və sonluq hissələrini müəyyən edir.<br>Mətndəki hadisələri ardıcıllıqla nəql edir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Əldə etdiyi məlumatlardan istifadə edərək təlimat xarakterli inşa yazır. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Deyilişi və yazılışı fərqlənən sözləri müəyyən edir. |

### Motivasiya

Ağac təsvir olunmuş şəkil: ağacın oyuğunda dovşan, budağında quş yuva salıb, budaqlardan birində dələ oturub.

**Sual:** – *Bu şəkildə nə görürsünüz? Ağacın nə kimi xeyri var?*

Uşaqlar ağacın xeyrindən danışırlar. Müəllim bu haqda əlavə məlumat verir. 2-ci sinifdə keçilmiş "Ana Təbiətin uşaqlara məktubu" xatırlanır.

### Oxu

Dərsliyin 72-ci səhifəsində verilmiş mətn abzaslarla oxunur. Şagirdlər mətnin giriş, əsas və sonluq hissələrini müəyyən edirlər. Əsas hissədəki hadisələr ardıcıllıqla nəql olunur.

Çap üçün deyil

**Sual:** – *Bu ardıcıllıq pozulsa, əsərin məzmununa xələl gələrmi? Əsas hissədəki hadisələr arasında səbəb-nəticə əlaqəsi varmı? Bəs sonluğu əsas hissədən əvvələ qoysaq necə?*

Şagirdlər bu qənaətə gəlirlər ki, sonluq əsas hissədəki hadisələrin nəticəsini bildirir.

Müəllim əsərin ideya məzmununu müəyyən etmək üçün test sualından istifadə edir:

– *Hansı atalar sözü əsərin ideya məzmununa uyğun gəlir?*

A) Keçi can hayında, qəssab piy axtarır.

B) Dağdan hey götürüb desən ki, çoxdur, bir də görərsən ki, dağ özü yoxdur.

C) Torpaq deyər: "Öldür məni, dirildim səni".

Dərsliyin 72-ci səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir:

1. Oğlan ağacın yarpağını qopartdı.
2. Keçi ağacın qabığını gəmirdi.
3. Oğlan bıçaqla ağacdan bir budaq kəsdi.
4. Ağac qurudu.

4-cü cümlə hadisələrin nəticəsi kimi qəbul olunur. Bu cümlələr mətnin planı kimi qəbul olunur və mətnin məzmunu nəql edilir.

**İş dəftərinin** 50-ci səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir.

**Yazı**

**Müəllim:** – *Elə bir təlimat yazın ki, onu oxuyanlar ağacların budaqlarını qırmasınlar, onların gövdəsini bıçaqla cızmasınlar.*

**Söz ehtiyatı.** 2-ci tapşırıq. Cavab "B" variantıdır.

MMV-nin 25-ci səhifəsində təsvir olunmuş "Anlayış" oyunu keçirilir. Məsələn, "soyuq, şaxta, buz, qar, palto, fevral, yeni il" sözləri yazıldıqdan sonra şagirdlər müvafiq fəslin adını çəkməlidirlər.

**Qruplarla iş.**

**I qrup.** İş dəftərinin 50-ci səhifəsindəki 2-ci tapşırıq yerinə yetirilir. Əlavə tapşırıq: "Kitab" sözünün mənasını cümlədə işlətməklə izah edin.

**II qrup.** İş dəftərinin 50-ci səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilir. Əlavə tapşırıq: "Məktəb" sözünün əlamətlərini sadalayın. "Kəpənək" sözünü cümlədə işlətməklə izah edin.

**III qrup.** İş dəftərinin 50-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Əlavə tapşırıq: "Qayçı" sözünün əlamətlərini yazın. "Pişik" sözünü cümlədə işlətməklə izah edin.

**IV qrup.** İş dəftərinin 50-ci səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir. Əlavə tapşırıq: "Günəş" sözünü cümlədə işlətməklə izah edin.

*Müəllimin nəzərinə: İş dəftərindəki 6-cı tapşırığın cavabı: kirpi, kirpik.*

"Karusel" oyunu keçirilir. Hər qrupa vərəqdə yazılmış müəyyən anlayışı bildirən bir söz verilir. Üç qrupun hərəsi bu vərəqdə bir əlamət yazdıqdan sonra vərəq müəllimə ötürülür və müəllim yazılmış əlamətləri səsləndirir. Dördüncü qrup sözü tapmalıdır.

I, II, III qrupların yazdığı əlamətlərə görə IV qrup sözü tapır.

II, III, IV qrupların yazdığı əlamətlərə görə I qrup sözü tapır.

III, IV, I qrupların yazdığı əlamətlərə görə II qrup sözü tapır.

IV, I, II qrupların yazdığı əlamətlərə görə III qrup sözü tapır.

Dərslikdə (səh. 73) verilmiş nəzəri məlumat mənimsənilir, ümumi müzakirə yolu ilə tapşırıqlar yerinə yetirilir.



Çap üçün deyil

MMV-nin 25-ci səhifəsində təsvir olunmuş “Auksion” oyunu keçirilir. Şagirdlər bir sözün mümkün qədər çox əlamətini sadalamalıdırlar. Məsələn, qarpız: içi qırmızı, çölü yaşıl zolaqlı, şirin, yumru bostan bitkisi.

Söz-loto oyunu keçirilir (MMV, səh. 26).

*Müəllimin nəzərinə: Dərslikdəki 5-ci tapşırığın cavabı: alaq, qala, tala.*

**Dil qaydaları**

6-cı tapşırıq. Verilən sözlərdə “n” və ya “m” hərflərinin yeri müəyyən olunur: *anbar, tənbəl, kömbə, şənbə, pambıq.*

7-ci tapşırıq. Verilən sözlər bir və ya iki “y” hərfi əlavə olunmaqla dəftərə köçürülür: *tövsiyə, mənəviyyat, riyaziyyat, ehtiyat, bəşəriyyət.*

**Oxu**

Müəllim kiçik bir mətn səsləndirir:

“Elxan tənəffüsdə Vaqifə yaxınlaşıb dedi:

– Dərsdən sonra stadiona gedəcəyik. Bu gün yarışımız var. Amma Kamran xəstələnib, on birinci oyunçu lazımdır. Bizim komandada oynaya bilərsən?

– Mənim yerim harada olacaq?

– Kamran yarımmüdafiədə oynayırdı. Mən qapıçıyam. İstəsən, sən hücumçu olarsan.

– Gedərdim, amma dünən ayağım burxulub. Qorxuram sizi pis vəziyyətdə qoyum”.

**Sual:** – *Sizcə, söhbət hansı idman oyunundan gedir? Niyə belə düşündünüz?*

Şagirdlərdən “zəfəran” sözünün mənası soruşulur. Əqli həmlə yolu ilə bu bitkinin əlamətləri sadalanır.

**İş dəftərinin** 51-ci səhifəsindəki mətn oxunur, tapşırıqlar yerinə yetirilir. Uşaqlara bildirilir ki, “zəfəran doldurulmuş turp” ifadəsi ən sadə suallara düzgün cavab verməyi bacarmayan adamlar haqqında işlədilir.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 36. LEYLƏK VƏ BÜLBÜL (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Dialoji mətni səhnələşdirərkən nitqini oynadığı rolun xarakterinə uyğunlaşdırır.<br>Dialoji nitqində salamlaşma, sağollaşma, üzrxahlıq etiketlərindən istifadə edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Diqqətini oxuduğu mətnin üzərində cəmləşdirir.<br>Əsərdəki obrazların nitqini onların xarakterinə uyğun səsləndirir, jest və mimikalardan istifadə edir. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətni səhnələşdirmək üçün planını (ssenarisini) tərtib edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını müəyyən edir. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Dinlədiyini yazarkən deyilişi və yazılışı fərqlənən sözlərin düzgün yazılışını müəyyən etmək üçün lüğətdən istifadə edir. |

Çap üçün deyil

**Motivasiya**

2-ci sinifdə oxunmuş “Sehrli söz” hekayəsi xatırlanır.

**Suallar:** – *Hekayə qəhrəmanının hansı problemi var idi? Qoca kişi hekayənin qəhrəmanına nə məsləhət vermişdi? Bir istəyə nail olmaq üçün necə danışmağın əhəmiyyəti varmı?*

**Oxu** (Rollu oyun)

Şagirdlər növbə ilə mətni (dərslik, səh. 74) hissə-hissə oxuyur, dinləyənlər dərslikdən mətni izləyirlər. Müəllim təklif edir ki, mətni dram əsərinə çevirsinlər. “Dram” sözü uşaqlara anladılır (teatrda tamaşaya qoyulmaq üçün yazılan əsər; əsasən, qəhrəmanların nitqindən ibarət olur). Müəllim təklif edir ki, əvvəlcə dram əsərinin planı tutulsun və ssenari (teatr tamaşası və ya kinofilm üçün yazılmış mətn) yazılsın.

1. Quşların müzakirəsi və qərarı
2. Leyləyin musiqiçinin evinə gəlişi
3. Bülbülün musiqiçinin evinə gəlişi
4. Leylək və Bülbülün qayıdıb öz bacarıqlarını nümayiş etdirməsi

Şagirdlər 4 qrupa bölünür. Hər qrup bir səhnənin ssenarisini yazır və səhnələşdirmək üçün aktyorlar seçir.

Qruplar ardıcıl olaraq öz səhnələrini təqdim edir.

Dərsliyin 75-ci səhifəsindəki 1-2-ci tapşırıqlar yerinə yetirilir.

1-ci tapşırıq. Mətnin mövzusu nəzakətliliklə bağlıdır. İdeyası isə belə ifadə oluna bilər: “Hər kəs nəzakətli olarsa, qarşısına qoyduğu məqsədə çata bilər”.

2-ci tapşırıqda qoyulan sual oxunur. Leyləyin səhvi qapını döyməməsi, içəri girərkən salamlaşmaması, üzrxahlıq etməməsi idi.

– *Musiqiçinin evinə soxulan Leylək ona nə deməli idi?*

– *Bəs gedərkən musiqiçiyə nə söyləməli idi?*

Bülbülün qocanın evinə gəlişi hissəsi səhnələşdirilir (3-cü tapşırıq).

**İş dəftərinin** 52-ci səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir.

Dərsliyin 75-76-cı səhifələrindəki nitq etiketləri ilə bağlı olan “Salamlaşma”, “Sağollaşma”, “Üzrxahlıq” mətnləri qruplarla oxunur. Hər qrup oxuduğu hissəni “Leylək və Bülbül” mətni ilə əlaqələndirir, Leyləyə məsləhətlərini təqdim edir. Məsələn, **1-ci qrup** belə bir təqdimat edə bilər:

*“Leylək musiqiçinin evinə girib dedi: – Hər vaxtınız xeyir! Necəsiniz? Vaxtınız olarsa, mənə oxumağı öyrədərsiniz?”*

Yaxud **2-ci qrup** belə bir təqdimat edə bilər:

*“Leylək musiqiçinin evindən çıxanda dedi: – Xudahafiz!*

*Musiqiçi: “Gülə-gülə”, – deyə cavab verir”.*

**3-cü qrupun** təqdimatı belə ola bilər:

*“Leylək tələsdiyindən musiqiçinin evinə qapını döymədən soxulur. Qarşısında musiqiçini görür.*

*– Bağışlayın! Çox tələsdiyimdən qapını döyə bilmədim. Buna görə üzr istəyirəm! – deyir”.*

**Rollu oyun.** Dərsliyin 76-cı səhifəsindəki “Telefon söhbəti” mətni rollara bölünərək oxunur (4-cü tapşırıq). **Müəllim:** – *Vüqar telefon danışığında hansı səhvlərə yol verdi?*

Uşaqlar öz fikirlərini deyirlər: “Salamlaşmadı, müraciət edərkən “siz” sözündən istifadə etmədi, “bağışla” demədi, yersiz sual verdi” və s.

**İş dəftərinin** 52-53-cü səhifələrindəki 2-5-ci tapşırıqlar yerinə yetirilir.

5-ci tapşırıq. Vüqarın telefon danışığında yol verdiyi səhvlər düzəldilməklə mətn yenidən səhnələşdirilir.



Çap üçün deyil

6-cı tapşırıq. Sözlərin düzgün yazılışı müəyyənləşdirilir: *şaftalı, bitki, əriştə, küftə, bənd, tüstü, həftə.*

**Sinifdənxaric oxu.** “İtin dostluğu” (Mordva xalq nağılı).

**İmla**
Qırmızı rəngdə verilmiş sözlərin yazılışına xüsusi diqqət yetirilir.

**SARI PİŞİK (77 söz)**

Bir dəfə sarı pişik meşəyə quş ovuna getmişdi. Hündür palıd ağacının başında quş gördü. Onlar budaqdan-budağa sıçrayıb civildəşirdilər. Sarı pişiyin ağzı sulandı. Quşların birini tutub yemək istədi. Palıda yaxınlaşdı ki, yavaşca yuxarı dırmaşsın. Elə bu zaman qəribə bir hənirti duyub ayaq saxladı. Tikanlı, sıx ağacların arasından böyük bir pələng sıçrayıb pişiyin qabağında durdu. Qorxudan sarı pişiyin canına üşütmə düşdü. Tüklərini bir az da pırpızladıb müdafiəyə hazırlaşdı. Lakin pələng ona baxıb dayandı. Pişiyin onun cinsinə oxşaması pələngi təəccübləndirdi.

*M.İbrahimov*

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 37. QARAĞACIN KÖLGƏSİ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnlə bağlı faktoloji sualları cavablandırır. |
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi mətndəki hadisələrin davamını təxmin edir. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Müzakirə zamanı fikrini əsaslandırmaq üçün gündəlik həyatdan misallar gətirir. |
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Təşəkkür və arzu ilə bağlı nitq etiketlərini məqamında işlədir.<br>Dialoji mətnin səhnələşdirilməsində iştirak edir və nitqini oynadığı rolun xarakterinə uyğunlaşdırır. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir.<br>Qarşılaşdığı yeni sözlərin mənasını kontekstə görə təxmin edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətndəki əsas fikri həyatda gördükləri ilə müqayisəli şəkildə izah edir. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Tələffüz zamanı sözlərin sonunda cingiltili samitlərin kar qarşılığı ilə əvəz olunması qaydasını nitqində tətbiq edir. |

**Motivasiya**
Müəllim kiçik bir mətn nəql edir:

“Günay riyaziyyatdan ev tapşırıqlarını edirdi. Lakin bir məsələnin həllini heç cür tapa bilmirdi. O, böyük bacısı Aydana müraciət etdi. Aydan məsələnin şərtini oxudu. Bir az düşündü

Çap üçün deyil

və otaqdan çıxdı. Mətbəxə keçib məsələni anasına göstərdi. Ana məsələnin həllini Aydana dedi. Aydan da gəlib bunu Günaya çatdırdı. Günay bacısına dedi:

– Çox sağ ol, Aydan, sən mənə çox kömək etdin".

**Sual:** – *Sizcə, əslində, Günay kimə təşəkkür etməli idi?*

Şagirdlər fikirlərini bildirir və onu əsaslandırırlar.

### Oxu

Dərsliyin 77-ci səhifəsindəki "Qarağacın kölgəsi" mətni oxunur. Həmin səhifədəki tapşırıqlar yerinə yetirilir.

Müəllim daha bir sualla müraciət edir:

– *Sizcə, ağacın kölgəsində dincələn insan daha kimə təşəkkür etməlidir?* (Həmin ağacı əkən insana.)

**Söz ehtiyatı.** 7-ci tapşırıq yerinə yetirilir.

Dərsliyin 78-ci səhifəsindəki nitq etiketləri ilə bağlı olan "Təşəkkür", "Arzu" mətnləri qrup şəklində oxunur. Hər qrup müəyyən nitq etiketlərinin işləndiyi mətn yazır və ya kiçik səhnəcik hazırlayır.

**Müəllim:** – *Oxuduğunuz hissələrdən hansını "Qarağacın kölgəsi" mətni ilə əlaqələndirmək olar?*

Dərsliyin 78-ci səhifəsindəki 8-ci tapşırıq yerinə yetirilir. Cavab "A" variantıdır.

**İş dəftərinin** 54-cü səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir.

### Dil qaydaları

9-cu tapşırıq yerinə yetirilir. *Qarağac* sözündə "c" samiti "ç" kimi, *kənd* sözündə "d" samiti "t" kimi, *uşaq* sözündə "q" samiti "x" kimi tələffüz olunur.

Müəllim lövhədə sözlər yazır: *qənd, innab, qılınc, səhəng*. Şagirdlər sözləri tələffüz etdikdən sonra müəllim onların diqqətini hər bir sözdə sonuncu samitin tələffüzünə yönəldir.

**Sual:** – *"D", "b", "c", "g"* cingiltili samitlərdir. *Bəs onların kar qarşılığı hansı samitlərdir?* Müəllim çalışır ki, bu sözlərin deyilişi və yazılışı ilə bağlı qaydanı şagirdlər özləri müəyyən etsinlər: "Sözün sonunda gələn bəzi cingiltili samitlər tələffüz zamanı özünün kar qarşılığı kimi səslənir".

Şagirdlər qaydanı müəyyən edib onu dərsliyin 79-cu səhifəsindəki nəzəri materialla müqayisə edirlər. Həmin səhifədəki tapşırıqlar şifahi yolla yerinə yetirilir.

Şagirdlər 4 qrupa ayrılır. İş dəftərindəki tapşırıqlar qruplar tərəfindən yerinə yetirilir.

**I qrup.** İş dəftəri, səh. 55, 1-ci tapşırıq.

**II qrup.** İş dəftəri, səh. 55, 2-ci tapşırıq.

**III qrup.** İş dəftəri, səh. 55, 3 və 4-cü tapşırıqlar.

**IV qrup.** İş dəftəri, səh. 55, 5-ci tapşırıq.

Qrupların təqdimatından sonra 10-14-cü tapşırıqlar yerinə yetirilir.

11-ci tapşırıq.

sənət – *iş, peşə, məşğuliyyət;*

sənəd – *bir şeyi, faktı təsdiq edən rəsmi kağız.*

12-ci tapşırıq. Cavab "C" variantıdır.

13-cü tapşırıq. "Q" samitinin " x" kimi tələffüz olunduğu sözlər bunlardır: *qayıq, budaq, otaq, qulluq, sınaq.*

14-cü tapşırıq. *Bulud [bulut], bayraq [bayrax], pələng [pələnk]*

### Yazı

**Hüsnxət.** Əvvəlki dərslərdə qazanılmış bacarıqların möhkəmləndirilməsi üçün iş dəftərinin 56-cı səhifəsindəki tapşırıq yerinə yetirilir.



Çap üçün deyil

**Dinləmə**

### TƏŞƏKKÜR

Elxan ata-anası ilə qonaqlıqda idi. Onun gözü süfrədəki şirniyyatda qalmışdı. "Dişlərin xarab olar" deyə valideynləri ona şirni yeməyi qadağan etmişdilər.

Ev sahibi Elxanın nəzərlərini duyub onun nəlbəkisinə bir şokolad qoydu. Elxan:

– Minnətdaram, – deyib cəld şokoladı ağzına ötürdü.

Ev sahibi təəccübləndi:

– Oho! Nə mədəni oğlansan. Uşaqlar belə təşəkkür edəndə çox xoşum gəlir.

Elxan şokoladı çeynəyə-çeynəyə dedi:

– İstəyirsiniz bir də təkrar edim?

– Hə, hə, əlbəttə, istəyirəm...

Müəllim mətnin qavranıldığını yoxlamaq üçün suallar verir:

– *Niyə Elxan şirninin dadına baxa bilmirdi? Ev sahibini təəccübləndirən nə oldu?*

**Müəllim:** – *Yəqin, hiss etdiniz ki, mətn yarımçıq qalıb. Siz bu mətni necə bitirərdiniz? Elxan ev sahibinin xahişinə necə reaksiya verə bilər? Nəzərə alın ki, bu mətn lətifə janrındadır. Siz mətni gülməli sonluqla bitirməlisiniz.*

Mətn bir daha oxunur. Şagirdlərin variantları dinlənilir.

Orijinal variant belədir:

*Elxan dedi:*

*– Onda, zəhmət olmasa, qabıma bir dilim tort qoyun.*

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 38. ÇOX SEVİRƏM (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Mətndəki sözü uyğun gələn yaxınmənalı sözlə əvəz edir.<br>Çoxmənalı sözləri müxtəlif kontekstlərdə işlətməklə onların məna çalarları arasındakı fərqi aşkar edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndən çıxarılmış sözlərin mətndəki yerini müəyyən edir.<br>Şeiri oxuyarkən müəllifin hiss və həyəcanını intonasiya və səs tonunun köməyi ilə ifadə edir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Mətnin ideya məzmununu şəxsi həyat təcrübəsi ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.4. Cəm şəkilçisinin yazılışı və tələffüzü ilə bağlı qaydaları nitqində tətbiq edir. | Cəm şəkilçisini sözdən asılı olaraq dörd cür (-lar$^2$, -dar$^2$, -rar$^2$, -nar$^2$) tələffüz edir, lakin tələffüzdən asılı olmayaraq bir cür (-lar$^2$) yazır. |

Çap üçün deyil

**Motivasiya** (Şaxələndirmə)

**Müəllim:** – *"1 il" dedikdə nəyi başa düşürsünüz? Gəlin bu ifadəni şaxələndirək.*

Lövhənin mərkəzində "il" sözü yazılır. Ondan dörd xətt ayrılır və fəsillərin adları yazılır. Daha sonra aylar göstərilir. Müəllim hər ayda neçə gün olduğunu soruşur və təqvimlə bağlı əlavə suallar verilir.

**Oxu**

Şagirdlər dörd qrupa bölünürlər, hər qrup şeirin bir hissəsini oxuyur və söz ehtiyatı ilə bağlı tapşırıqları yerinə yetirir.

**I qrup.** Şeirin 1-ci hissəsini oxuyun, dərslik, səh. 80, 1-2-ci tapşırıqları, iş dəftəri, səh. 57, 1-ci tapşırığı yerinə yetirin.

**II qrup.** Şeirin 2-ci hissəsini oxuyun, dərslik, səh. 81, 3-6-cı tapşırıqları, iş dəftəri, səh. 57, 2-ci tapşırığı yerinə yetirin.

**III qrup.** Şeirin 3-cü hissəsini oxuyun. "Hərdən dolur, boşalır / Göydə uçan buludlar" və "Qızıl rəngli yarpaqlar / Tökülür, xəzəl olur" misralarında çoxmənalı sözləri izah edin.

İş dəftəri, səh. 57, 3-cü tapşırığı yerinə yetirin.

**IV qrup.** Şeirin 4-cü hissəsini oxuyun.

Tapşırıq: *Aşagıdakı cümlələrdə "şaxta" sözünün mənalarını lüğətin köməyi ilə müəyyənləşdirin. Hansı cümlədə bu sözün mənası oxuduğunuz hissədəki ilə eynidir?*

A) Prezident kömür *şaxtasında* fəhlələrlə görüşdü.  B) *Şaxta* hər yeri dondurmuşdu.

**İş dəftəri**, səh. 57, 4-5-ci tapşırıqları yerinə yetirin.

Qruplar araşdırmalarının nəticələrini təqdim edir. Təqdimatlar müzakirə olunur.

*Müəllimin nəzərinə:* ***Üçüncü qrup*** *tapşırığı yerinə yetirdikdən sonra müəllim altından xətt çəkilmiş sözləri başqa cümlələrdə də işlədib mənasını soruşa bilər: "Onun gözləri doldu. Onun ürəyi doludur. O, ürəyini boşaltdı. Atamın qızıl kimi ürəyi var. Qızıl payız gəldi ".*

***Dördüncü qrup*** *oxuduğu bənddə "şaxta" sözünün B variantındakı "şaxta" sözü ilə eynimənalı olduğunu qeyd edirlər. Diqqət vermək lazımdır ki, "şaxta" sözü ayrı-ayrı cümlələrdə düzgün tələffüz olunsun.3-cü sinifdə "Vurğu" bəhsi keçilməsə də, bəzən vurğusu dəyişilməklə mənası dəyişən sözlərə rast gəlinir. Bu baxımdan müəllim belə sözlərə rast gəldikcə şagirdlərə məlumat verməli, empirik (təcrübi) yolla şagirdlərdə vurğu haqqında təsəvvür yaratmalıdır.*

**İfadəli oxu müsabiqəsi.** Şeirin ifadəli oxunuşu üzrə müsabiqə keçirilir. Bunun üçün şagirdlər 1-dən 4-ə qədər sıralanırlar və hər bir şagird şeirin müvafiq hissəsini ucadan oxumaq üçün bir neçə dəqiqə hazırlaşır. Müsabiqənin nəticələri şagirdlərə paylanmış qiymətləndirmə cədvəli və ya sadə səsvermə yolu ilə müəyyənləşdirilə bilər.

**Yazı**

Ümumi müzakirə. **Müəllim:** – *Hansı ifadəni yanlış hesab edirsiniz: 1. Mən yaz fəslini sevirəm. 2. Ən yaxşı fəsil yazdır.*

Müzakirə nəticəsində şagirdlər bu qənaətə gəlirlər ki, hər fəslin öz gözəlliyi var, lakin hər bir insan öz xarakterinə uyğun olaraq müəyyən bir fəsli daha çox sevə bilər.

**Qruplarla iş.** Şagirdlər üç qrupa bölünərək **iş dəftərinin** 57-ci səhifəsindəki 6-cı tapşırığı (hər qrup bir fəsil haqqında yazmaqla) yerinə yetirirlər. Qrupların təqdimatı zamanı onların cədvəlinə başqa qrupların şagirdləri tərəfindən əlavə məlumatlar daxil edilə bilər.

**Hüsnxət**. **Müəllim:** – *2-ci sinifdə oxuduğumuz "Nə daha yaxşıdır" hekayəsini xatırlayın. Bu hekayədə balaca qız daim anasına suallar verirdi: "Top yaxşıdır, yoxsa gəlincik? Mahnı yaxşıdır, yoxsa nağıl?" O zaman anası ona nə cavab verdi? İndi verəcəyim suallardan hansı, sizin fikrinizcə, daha düzgün ifadə olunub?*

*1. Gecə yaxşıdır, yoxsa gündüz?*

*2. Gecəni daha çox sevirsən, yoxsa gündüzü?*



Çap üçün deyil

*3. Gecənin nəyi xoşuna gəlir, gündüzün hansı xüsusiyyətlərini daha çox xoşlayırsan?*

Suallar müzakirə edilir və belə bir qənaətə gəlinir ki, 3-cü sual adamı daha çox düşünməyə və fikrini əsaslandırmağa sövq edir. Şagirdlər bu sualı seçir və mövqelərini şərh edirlər.

**İş dəftərinin** 58-ci səhifəsindəki mətn oxunur və tapşırıqlar yerinə yetirilir.

Şagirdlərə aşağıdakı iş vərəqi paylanır.

**GECƏ İLƏ GÜNDÜZ**

Səhər açılırdı. Gündüz gecəni əvəz etməli idi. Gecə dedi:

– Səs salma! ☐ Uşaqlar yuxu görürlər.

Gündüz şən səslə cavab verdi:

– Yatmaqdan, yuxudan nə çıxar? ☐

– Səni istəmirlər, çalışmaqdan beziblər.

– Bəs sən onların nəyinə lazımsan? Sən gələndə hamı yatır. Yatmaq isə vaxtı itirmək deməkdir.

Bu zaman səmada Günəş göründü:

– Mübahisə etməyin! ☐ Onlar gündüzlər çalışırlar ki, həyatları xoş keçsin. Lakin yaxşı çalışmaq üçün gecələr yatıb dincəlməlidirlər.

Çıxarılmış cümlələri müvafiq boşluqlara qoymaqla mətni köçür.

- İşləmək, çalışmaq lazımdır.
- Hər ikiniz canlılara lazımsınız.
- Hamı yatır.

**İnşa.** Şagirdlər “Ən çox sevdiyim fəsil” mövzusunda inşa yazırlar. İnşanın planı tutulur:

1. İlin fəsilləri.
2. Sevdiyim fəsil haqqında məlumat.
3. Mən nəyə görə bu fəsli sevirəm.

Yazı işləri oxunur və şagirdlər bir-birinin yazı işini qiymətləndirirlər.

**Dil qaydaları**

Mətndən seçilmiş *əncirlərdən, bağbanlar, düzənlərə, yarpaqlar, buludlar, şaxtaları* sözlərinin yazılış və deyiliş formaları arasındakı fərq izah olunur.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 39. QAR DƏNƏSİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnlə bağlı faktoloji sualları cavablandırır. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Frazeoloji ifadələrdən mənasına uyğun olaraq nitqində istifadə edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Sualları cavablandıraraq mətni şüurlu oxuduğunu nümayiş etdirir.<br>Bədii mətndəki elmi məlumatları mənimsəyir.<br>Mətni bildiklərinə və təxəyyülünə uyğun davam etdirir. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Deyilişi və yazılışı fərqlənən sözləri müəyyən edir. |

Çap üçün deyil

**Motivasiya**

Müəllim kiçik bir mətn söyləyir:

*"Aynurə çaydanı qazın üstünə qoyub öz otağına getdi. Onun başı dərslərinə qarışdığından xeyli vaxt keçdi. Birdən çaydan yadına düşdü. Tez mətbəxə qaçdı. Bayaq dolu olan çaydanın dibində lap azacıq su qalmışdı. Mətbəxin tavanında isə çoxlu su damlaları var idi".*

**Sual:** – *Sizcə, çaydandakı su hara yox olmuşdu? Tavandakı su damlaları haradan peyda olmuşdu?*

Şagirdlər fikirlərini söyləyir və belə bir qənaətə gəlirlər: "Çaydandakı su istidən buxarlanmış, havaya qalxmış, tavana çatanda soyumuş və yenidən suya çevrilmişdir".

**Müəllim:** – *Bəs suyu donduranda hansı halda olur?*

**Oxu**

Mətn abzaslarla oxunur, 83-cü səhifədə verilmiş 1-3-cü tapşırıqlar yerinə yetirilir.

*Müəllimin nəzərinə: Şagirdlər 3-4-cü suallara cavab verərkən çətinlik çəkə bilərlər, çünki mətnə çəkilmiş illüstrasiya əsər qəhrəmanının məktəbli qız olduğunu göstərir. Müəllim bildirməlidir ki, onlar sualın cavabını mətndə axtarmalıdırlar. Mətndə isə qəhrəmanın qız olmasına işarə yoxdur. Lakin "Sən də o vaxt, yəqin ki, tətildə idin" cümləsi onun məktəbli olduğunu göstərir.*

**Söz ehtiyatı.** 1-2-ci tapşırıqlar. Altından xətt çəkilmiş mürəkkəb sözlərin yaranma yolları araşdırılır. Mətndəki bəzi frazeoloji ifadələrin mənası açıqlanır:

*od tutub yanırdı – bərk qızdırırdı, hərarəti artırdı;*

*göy üzü qaralırdı – göyün üzü qaranlıqlaşırdı.*

**Danışma**

Şagirdlər qar dənəsinin başına gələnləri ardıcıllıqla nəql edirlər.

**Yazı**

**Dinləmə**

"Çay" mahnısı səsləndirilir.

*Kimin ağrıyır canı,*
*Qoy çay içsin mərcanı.*
*Min bir dərdin dərmanı –*
*Çay, çay, çay...*

**Sual:** – *Mahnıda çayın hansı xüsusiyyətlərindən danışılır?*

**Dinləmə**

**ÇAY**

Çayın vətəni Çindir. Orada lap qədimdən çay becərirlər. Bizim yerlərə isə çay cəmi 200 il bundan əvvəl gətirilib. İndi bu, adi içkidir. Lakin qədimdə çay çox baha idi. Ona görə də çayı yalnız dövlətlilər içə bilərdilər.

Çay isti və susevən bitkidir. Azərbaycanda çay ölkənin cənubunda, Lənkəranda becərilir. Burada böyük çay plantasiyaları var.

Çay kollarının üstündə çoxlu yarpaq var. Amma bu yarpaqların heç də hamısı yaxşı çay hazırlamaq üçün yararlı deyil. Keyfiyyətli, ətirli çay ancaq kolun ucundakı açıqrəngli, incə, təzə üç yarpaqdan alınır. Onları dərdikdən bir müddət sonra yerində yeniləri puçurlayır.

Çay ağacları həmişəyaşıldır. Qışda da yarpaqları olur, amma qışda çay yığmırlar. Çayı may ayından oktyabr ayına kimi toplayırlar. Bu müddət ərzində hər ağacdan 10-12 dəfə çay yığmaq olar. Çay yarpaqlarını həm əllə, həm də maşınla yığırlar.

Çay çox xeyirlidir. O, gümrahlıq gətirir, insana güc verir. Xəstələrə çox zaman təzə dəmlənmiş çay içmək məsləhət görülür.



Çap üçün deyil

Şifahi sual-cavab yolu ilə mətnin qavranıldığı yoxlanılır:
– *Nə üçün qədimdə çayı yalnız dövlətlilər içə bilərdilər?*
– *Azərbaycanda çay harada becərilir?*
– *Hansı yarpaqlardan çay hazırlamaq yararlıdır?*
– *Çayın xeyri nədir?*
İş dəftərinin 58-ci səhifəsindəki "Çay" mətni oxunur və 1-ci tapşırıq yerinə yetirilir.

Çay haqqında əldə edilmiş məlumatlar ümumiləşdirilir və nəql edilir.

**Dil qaydaları**

Mətndən seçilmiş *dənələrindən, qulaq, çırpılırdıq, isti, böyüdük, çevrildik, kəsirdik, qayıtmaq, titrəyirdik, üşüyürdük, başladıq, artıq, soyuqdan, ürəyimdən, istəyimi, dost, xöşbəxtəm* sözlərinin düzgün yazılış və tələffüzü arasındakı fərq müəyyənləşdirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 40. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərsdə dərsliyin 84-cü səhifəsində verilmiş sual və tapşırıqlar yerinə yetirilir, müvafiq bölmədə tədris olunmuş materiallar təkrarlanır. Bununla yanaşı, müəllim həm özünün hazırladığı materiallardan, həm də müxtəlif qiymətləndirmə vasitələrindən istifadə edə bilər. Tapşırıqların seçimi zamanı bölmədə reallaşdırılmış standartları əsas götürmək lazımdır.

## Dərs 41. BÖLMƏ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ (2 saat)

**DİNLƏMƏ**

### HEYVANLARIN GÖRMƏ QABİLİYYƏTİ

Bəzi canlıların qeyri-adi görmə qabiliyyəti var. Bu qabiliyyət qida tapmaqda onlara kömək edir.

Qartal çox yüksəklikdə uçur. Lakin bu yüksəklikdən yerdə gəzən siçanı görür.

Timsah suda yaşasa da, əsasən, quruda gəzən heyvanları ovlayır. Buna görə də o, çayın dərinliyinə enib iri gözləri ilə sahilə yaxınlaşan heyvanları izləyir.

Cırcırama kiçik həşəratlarla qidalanır. Onun qəribə gözləri var. Bu gözlər vasitəsilə cırcırama eyni zamanda sağı, solu, qabağı, arxanı görür. Ona görə də cırcıramanın yanından uçan heç bir milçək canını ondan qurtara bilməz.

Bayquş gün işığında heç nə görmür. Ancaq qaranlıqda əla görür. O, gecələr ağacda səssizcə oturub siçan, siçovul və başqa heyvanları izləyir. Məqam tapan kimi şığıyıb onları caynağına alır.

**1. Mətndə canlıların hansı qabiliyyətindən bəhs olunur?**
A) eşitmə B) iybilmə C) görmə

**2. Hansı canlı çox uzağı görə bilir?**
A) timsah B) qartal C) bayquş

**3. Mətndə hansı suala cavab yoxdur?**
A) Cırcırama nə ilə qidalanır?
B) Canlıların görmə qabiliyyəti nəyə xidmət edir?
C) Cırcırama necə səs salır?



Çap üçün deyil

**4. Hansı canlı eyni zamanda dörd tərəfi də görə bilir?** ______________________________

**5. Mətndə hansı canlı haqqında danışılmır?**
A) tülkü B) bayquş C) qartal

**6. Hansı canlı qaranlıqda görə bilir?**
A) qartal B) timsah C) bayquş

**7. Hansı fikir səhvdir?**
A) Qartal həşəratlarla qidalanır.
B) Timsah daha çox quruda gəzən heyvanlarla qidalanır.
C) Bayquş kiçik heyvanlarla qidalanır.

**YAZI**
**İmla.** Müəllimin diktəsi ilə mətndən seçilmiş hissə yazılır.

**OXU**

## QARTAL VƏ QARĞA

**1** Bir qartal çəmənlikdə otlayan quzunu görüb onun üstünə şığıdı. Bir göz qırpımında caynağı ilə quzunu götürüb göyə qalxdı.

**2** Qarğa da uçub bir qoyunun belinə qondu. Bərk-bərk yunundan yapışdı. Qanad çaldı ki, havaya qalxsın. Amma qoyunu qaldıra bilmədi. Qarğanın caynağları qoyunun yununa dolaşdı.

**3** Bunu görən çoban özünü ora yetirdi. Qarğanın boğazından yapışıb caynağını yundan qopardı.

**4** Axşam evə gələndə çobanın balaca oğlu soruşdu:
– Ata, bu nə quşdur belə?
– Bala, bu quşun adı qarğadır, – deyə çoban cavab verdi. – ...

**1. Hansı cümlə mətnin sonluğu üçün daha məntiqəuyğundur?**
A) Onun ləzzətli əti var.
B) Onun çox gözəl səsi var.
C) Ancaq özündən soruşsan, deyəcək ki, qartalam.

**2. “Onu bir torbaya qoyub atın yəhərindən asdı” cümləsi hansı abzasın sonluğu ola bilər?**
A) 1-ci B) 2-ci C) 3-cü

**3. Aşağıdakı abzası mətnin hansı abzasları arasında yerləşdirmək düzgün olar?**
Bir qarğa bunu görüb öz-özünə düşündü: “Mənim bu quşdan nəyim əskikdir? Qoy mən də bir qoyun oğurlayım”.
A) 1-ci və 2-ci B) 2-ci və 3-cü C) 3-cü və 4-cü

**4. Hansı atalar sözü mətnin ideyasına uyğun gəlmir?**
A) Gücünə bax, şələni bağla.
B) Ayağını yorğanına görə uzat.
C) Qarğadan gözəl quş istədilər, balasını göstərdi.

**5. Altından xətt çəkilmiş sözlərdən hansı səhv yazılıb?**
A) caynağı B) caynağları C) qopardı

Çap üçün deyil

## SÖZ EHTİYATI

**1. Cümlələrin məzmununa görə buraxılmış sözü müəyyən et.**

1. Qürbət görməyən adam ... qədri bilməz.
2. Könlü ... istəyən quyruğunu suya vurar.
3. Yayda kölgədə yatan qışda ... üstə yatar.

A) 1 – ata, 2 – kabab, 3 – ot
B) 1 – vətən, 2 – balıq, 3 – qar
C) 1 – yaxşılıq, 2 – konfet, 3 – palaz

**2. Cümlədə hansı nitq etiketi buraxılıb?**
..., bu haqda bütün yarış iştirakçılarına xəbər verin.
A) tez olun B) cəld olun C) zəhmət olmasa

**3. Hansı atalar sözündə əksmənalı sözlər var?**
A) Qocadan demək, cavandan əmək.
B) Bilməmək eyib deyil, soruşmamaq eyibdir.
C) Dövlətdə dəvə, övladda nəvə.

**4. Hansı cümlədə "yumşaq" sözü həqiqi mənada işlənmişdir?**
A) Yumşaq söz qəzəbi yatırır.
B) Babanın yumşaq rəftarı hamıya xoş gəlirdi.
C) Yumşaq döşəkdə yatmaq Kərimə ləzzət verirdi.

**5. Hansı söz birləşməsində"üz" sözü həqiqi mənada işlənib?**
A) yorğanın üzü B) körpənin üzü C) kitabın üzü

## DİL QAYDALARI

**1. Hansı söz səhv yazılıb?**
A) həşərat B) qabiliyyət C) siçoul

**2. Hərf sırasında qoşa samitlə bitən bir neçə söz verilib. Həmin sözləri tap.**
afənnusirrasseşşuxəttezzothissəinnüqrahaqqifparr

**3. Buraxılmış hərfləri əlavə edərək sözləri tamamla.**
*söyü..., balı..., armu..., qatı..., qoru..., ağa...*

**4. Tələffüz forması verilmiş sözləri orfoqrafik qaydalara uyğun yaz.**
[yamaç], [mürəkgəp], [qatıx], [sakqız], [kobut]

Çap üçün deyil

# IV bölmə

# SEVİMLİ QƏHRƏMANLARIM

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | İş dəftəri səh. | MMV səh. |
|---|---|---|---|---|---|---|
| 42. | **Fitnə**<br>*Mürəkkəb sözlərin yazılışı* | 1.1.2, 1.2.1, 1.2.2, 2.2.1, 2.2.4, 3.1.1, 3.1.3, 4.1.3 | 4 | 86-88 | 62-63 | 107 |
| 43. | **Şahzadə və dilənçi**<br>*Hekayə xəritəsi* | 2.2.1, 2.2.3, 2.2.4, 3.1.4, 4.1.7 | 2 | 89-91 | 64 | 109 |
| 44. | **Göyçək Fatma**<br>*İsim – ad bildirən sözlər* | 1.1.2, 1.2.1, 2.1.2, 2.2.1, 2.2.3, 3.1.2, 3.1.4, 4.1.5 | 6 | 92-95 | 65-66 | 111 |
| 45. | **Alı kişinin qisası** | 1.2.1, 2.2.1, 2.2.3, 2.2.5, 3.1.3, 4.1.5 | 4 | 96-97 | 67 | 114 |
| 46. | **Qaraca Çoban**<br>*Xüsusi isimlərin böyük hərflə yazılışı* | 2.1.2, 2.2.1, 2.2.3, 2.2.5, 3.1.4, 4.1.2 | 4 | 98-100 | 68-69 | 116 |
| 47. | **Qavroş** | 1.1.2, 1.2.1, 2.2.1, 2.2.3, 3.1.1, 3.1.3, 4.1.3 | 6 | 101-103 | 70-71 | 118 |
| 48. | **Balaca və Karlson** | 1.2.1, 2.2.1, 2.2.4, 3.1.2, 4.1.4, 4.1.5 | 4 | 104-105 | 72-73 | 120 |
| 49. | **Qazanın ölməyi**<br>*Sifət – əlamət bildirən sözlər* | 1.2.2, 1.2.3, 1.2.4, 2.1.2, 2.2.1, 4.1.3, 4.1.5 | 4 | 106-107 | 74-75 | 123 |
| 50. | **Qaraca qız** | 2.2.1, 2.2.3, 2.2.5, 3.1.3, 4.1.3 | 4 | 108-109 | 76 | 125 |
| 51. | **Ümumiləşdirici təkrar** | | 2 | 110 | | 127 |
| 52. | **Bölmə üzrə qiymətləndirmə** | | 2 | | 77-79 | 127 |
| | | **Yekun** | **42 saat** | | | |

Çap üçün deyil

## Dərs 42. **FİTNƏ** (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi mətndəki hadisələri təfərrüatı ilə təsvir edir. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları birləşdirərək ardıcıllıqla nəql edir. |
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Debat zamanı mövqeyini müdafiə etmək üçün öz səviyyəsinə uyğun arqumentlər seçir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Əsərdəki hadisələrin və qəhrəmanların hərəkətinin səbəbini müəyyən edir.<br>Buraxılmış abzasın mətndəki yerini müəyyənləşdirir.<br>Əsərdəki obrazların nitqini onların xarakterinə uyğun səsləndirir.<br>Bədii əsərdə müəyyən bir hissəni oxuduqdan sonra baş verəcək hadisələri proqnozlaşdırır. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Həyatda gördüklərindən misal gətirməklə oxuduğu əsərdəki obrazların hərəkəti haqqında fikir yürüdür. |
| 3.1.1. Hüsnxət normalarına riayət etməklə səliqəli və sürətlə yazır. | İllüstrasiyaya uyğun olan hissəni mətndən seçir və hüsnxət normalarına uyğun yazır. |
| 3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. | Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Mürəkkəb sözləri və onların yazılışını müəyyən edir. |

### Motivasiya

**Müəllim:** – *Nizami Gəncəvi haqqında nə bilirsiniz? Təxminən nə zaman yaşayıb? Əsərlərini hansı dildə yazmışdır? Hansı əsərlərinin adını eşitmisiniz? Hansı əsərinin məzmununu bilirsiniz?*

Sual-cavab bitdikdən sonra müəllim Nizaminin "Xəmsə"si, ona daxil olan "Yeddi gözəl" poeması, eləcə də poema janrı haqqında qısa məlumat verir. Bildirir ki, indi oxuyacaqları mətn (Dərslik, səh. 86-87) həmin poemadan bir parçadır.

**İfadəli oxu.** Mətn "Bu, üçmərtəbəli gözəl bir imarət idi" cümləsinə kimi oxunur. Lövhəyə 3 şagird dəvət olunur. Onlardan biri müəllifin, digərləri Fitnənin və sərkərdənin sözlərini oxuyur.

**Şüurlu oxu.** Şagirdlər *"Bəhram şah nə üçün Fitnəyə qəzəbləndi?"*, *"Nəyə görə sərkərdə Fitnəni öldürmədi?"* suallarını cavablandırırlar.

**Müəllim:** – *Sizcə, Fitnənin taleyi necə olacaq? İki variantdan birini seçin və mətni öz təxəyyülünüzə uyğun davam etdirin:*

*1-ci variant: Fitnə öz taleyi ilə barışacaq.*

*2-ci variant: Fitnə çalışacaq ki, Bəhram şaha özünün haqlı olduğunu sübut etsin.*

Mətnin davamı ilə bağlı şagirdlərin variantları dinlənilir.

**Səssiz oxu.** Şagirdlər mətnin davamını səssiz olaraq oxuyurlar. Şagirdlərin variantları ilə orijinal mətn müqayisə olunur. Dərsliyin 87-ci səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilir.

**Müəllim:** – *Kim özünü hər hansı bir sahədə məharətli, istedadlı sayır?*

Çap üçün deyil

Musiqi, idman, informatika, təsviri incəsənət və s. sahədə qeyri-adi bacarıqları olan şagirdlər aşkarlanır. Müəllim onlara belə bir sualla müraciət edir:

– *Sən bu bacarığa necə nail olmusan?*

“Uzunmüddətli məşqlər hesabına”, “İnadkarlıq”, “Zəhmətkeşlik” və bu kimi cavablar səslənə bilər.

**Danışma** (Debat)

**Debat sualı:** – *Kim haqlıdır – Fitnə, yoxsa Bəhram şah?*

Sinif iki qrupa bölünür. Hər qrup qəhrəmanlardan birinə haqq qazandırmağa çalışır. Qrup öz spikerini seçir. Şagirdlər arqumentləri formalaşdırmaqda spikerə kömək edirlər.

Müəllim şagirdləri aşağıdakı nəticələrə yönəldə bilər:

*1. Əslində, bir çox məharətlər uzunmüddətli məşqlərin, yəni vərdişin nəticəsidir.*

*2. Fitnənin tərifinə nail olmayan Bəhram şah səbirsizlik etdi. Şah öz kənizi ilə “məharət və vərdiş” mövzusunda mübahisə edib qalib gələ bilərdi. O isə öz hökmranlığından istifadə edib bu münaqişəni güc yolu ilə həll etdi.*

*3. Fitnəni də ideallaşdırmaq olmaz. İnsan başqalarının məharətini tərifləməkdə xəsislik etməməlidir. O, Bəhramın şücaətinə laqeydlik göstərməklə özünü şahın qəzəbinə düçar etdi.*

Dərslikdən 4-cü tapşırıq yerinə yetirilir.

**Müəllim:** – *Dərslikdə oxuduğunuz “Fitnə” mətnində Bəhram şahın, doğrudan da, mahir ovçu olduğunu sübut edən hər hansı bir səhnə varmı? Sizcə, bu mətndə Bəhram şahın Fitnəyə qəzəblənməsi və onu ölümə məhkum etməsi kifayət qədər əsaslandırılıbmı? Bəhram şah hansı məharəti göstərə bilərdi ki, Fitnənin ona qarşı biganəliyi şahı qəzəbləndirsin?*

Şagirdlərin fərziyyələri dinlənilir. Bundan sonra müəllim dinləmə mətnini səsləndirir.

**Dinləmə**

Bu mətn “Yeddi gözəl”dən dərslikdəki mətnə düşməyən parçadır.

### CEYRAN OVU

Bir gün Bəhram şah yenə də ova çıxmışdı. Fitnə də yanında idi. Şahın adamları düzənliyin hər tərəfindən ceyranları şaha tərəf qovurdular. Bəhram isə ona doğru qaçan heyvanları məharətlə ovlayırdı. Fitnə isə, həmişəki kimi, onun məharətinə qarşı laqeyd idi.

Birdən kolların arasından gözəl bir ceyran çıxdı. Bəhram Fitnəyə dedi:

– Odur, bax, bizə tərəf bir ceyran qaçır. İstəyirsən bu oxla o ceyranın ayağını başına tikim?

Bunu deyib Bəhram kamanına bir daş qoydu və ceyranın başını nişan aldı. Daşı elə məharətlə atdı ki, düz ceyranın qulağına dəydi. Ceyran ayağını qaldırıb ağrıyan qulağını qaşımağa başladı. Bəhram da elə bunu gözləyirdi. Cəld kamana ox keçirib atdı. Ox ceyranın dırnağından keçib başına sancıldı. Ceyran yerə yıxıldı. Bəhramın gözündə sevinc qığılcımları oynadı. O, özündən razı halda Fitnəyə baxıb tərif gözlədi. Fitnə dedi:

– Şahım, sən bu işə adət etmisən. Burada təəccüblü nə var ki?

Dinləmə mətni üzrə tapşırıqlar:

*1. Dinlədiyiniz mətni dərslikdə oxuduğunuz mətnin hansı hissəsinə əlavə edərdiniz?*

*2. Bəhram şahın məharətini sübut edən ov səhnəsini təfərrüatı ilə danışın.*

*3. Dinlədiyiniz mətni də əlavə etməklə “Fitnə” əsərinin qısa məzmununu yazın.*

**Yazı**

**Hüsnxət.** Şagirdlər **iş dəftərinin** 62-ci səhifəsində verilmiş 1-2-ci tapşırıqları yerinə yetirirlər.

**Dil qaydaları**

5-ci tapşırıq yerinə yetirilir. Cavab “A” variantıdır.

**Müəllim:** – *“Baş” sözü hansı sözlərlə birləşib mürəkkəb söz yarada bilər?*



Çap üçün deyil

Deyilən sözlər lövhədə yazılır (şagirdlərin səsləndirmədiyi sözləri müəllim özü əlavə edə bilər): başağrısı, başabaş (dəyişdirmək), başabəla, baş-ayaq (danışmaq), baş-başa (vermək), başbilən, başdan-ayağa, başdan-başa, başıaçıq, başgicəllənmə, başdaşı, başıboş, başıpapaqlı, başısoyuq, başıyuxarı, başıaşağı, başsağlığı.

Müəllim bəzi sözlərin (başabaş, baş-ayaq, başıpapaqlı və s.) mənasını soruşur və onları cümlədə işlətməyi tapşırır.

**Araşdırma. Müəllim:** – *Gördüyünüz kimi, bəzi mürəkkəb sözlər bitişik, bəziləri defislə yazılıb. Gəlin defislə yazılan sözlərə diqqət yetirək.*

Müəllimin tapşırığı ilə şagirdlər verilmiş mürəkkəb sözlərdən defislə yazılanları seçirlər.

**Müəllim:** – *Bu mürəkkəb sözlərə daxil olan sözlər haqqında nə deyə bilərsiniz?* (Baş-başa, başdan-başa – söz təkrar olunur, baş-ayaq, başdan-ayağa – əksmənalı sözlərdən ibarətdir.)

Dərsliyin 88-ci səhifəsində verilmiş "Mürəkkəb sözlərin yazılışı" nəzəri materialı oxunur, dərslikdəki 6-7-ci tapşırıqlar yerinə yetirilir.

6-cı tapşırıq. Verilmiş sözlərdən aşağıdakı mürəkkəb sözlər yaranır: *uzunsaçlı, gecə-gündüz, üzüyumşaq, dost-tanış, ayaqqabı, ana-bala.*

7-ci tapşırığın cavabı: qızılgül, bülbül. "Bülbül" sadə sözdür.

Daha sonra qruplara sözlər verilir və həmin sözlərdən mürəkkəb sözlər yaratmaq tələb olunur.

**I qrup.** Əvvəl, axır; doğru, düzgün; ikimərtəbəli; səs, soraq; paltar, yuyan. Bu sözləri birləşdirərək mürəkkəb sözlər düzəldin. Onların niyə defislə və ya bitişik yazıldığını müəyyən edin.

**II qrup.** "Əl" sözünü müxtəlif sözlərlə birləşdirərək mürəkkəb sözlər düzəldin. Onların niyə defislə və ya bitişik yazıldığını müəyyən edin.

**II qrup.** "Göz" sözünü müxtəlif sözlərlə birləşdirərək mürəkkəb sözlər düzəldin. Onların niyə defislə və ya bitişik yazıldığını müəyyən edin.

**IV qrup.** Səs, küy; sağ, salamat, qulaq, batırıcı, səhər, axşam; aş, süzən. Bu sözləri birləşdirərək mürəkkəb sözlər düzəldin. Onların niyə defislə və ya bitişik yazıldığını müəyyən edin.

**İş dəftərinin 62-63-cü** səhifələrində verilmiş qalan tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 43. ŞAHZADƏ VƏ DİLƏNÇİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Obrazların hiss və həyəcanını ifadə etmək üçün müvafiq səs tonundan, jest və mimikalardan istifadə edir.<br>Bədii əsərin müəyyən bir hissəsini oxuduqdan sonra baş verəcək hadisələri proqnozlaşdırır (təxmin edir). |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətnə əsasən hekayə xəritəsi tərtib edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətndəki hadisə və obrazları həyat haqqında düşüncələri ilə əlaqələndirir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Mətni öz təxəyyülünə uyğun davam etdirib nəqli xarakterli inşa yazır. |
| 4.1.7. Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir. | Nəqli, sual, nida, əmr cümlələrini fərqləndirir. |

Çap üçün deyil

### Motivasiya

**Müəllim:** – *12-13 yaşlı bir şahzadəni və həmin yaşda bir dilənçini təsəvvürünüzə gətirin. Onların həyat tərzi haqqında nə deyə bilərsiniz? Sizcə, şahzadə olmaq xoşbəxtlikdirmi? Şahzadənin nəyə ehtiyacı ola bilər?*

**Səssiz oxu.** Dərsliyin 89-90-cı səhifələrindəki mətn “Şahzadə Eduard Tomu özü ilə saraya apardı” cümləsinə qədər səssiz oxunur. Müəllim sual-cavab yolu ilə bu hissənin qavranıldığını yoxlayır.

**İfadəli oxu.** Müəllim II hissəni “Şahzadə otaqdan çıxıb sarayın həyətinə düşdü” cümləsinə qədər səsləndirmək üçün üç şagird (aparıcı, müəllif, Eduard, Tom) dəvət edir. Şagirdlər səhnələşdirilmiş oxunu təqdim edirlər.

**Sual:** – *Sizcə, bundan sonra nə baş verəcək?*

Şagirdlərin fərziyyələri dinlənilir. Mətnin son hissəsi oxunur və fərziyyələrlə müqayisə olunur.

Mətnin **planı** tutulur:

1. Dünyaya göz açan Tom və Eduard.
2. Dilənçilikdən zəhləsi gedən Tom.
3. *Bu zavallı uşağı niyə incidirsiniz?*
4. Şahzadənin Toma verdiyi suallar.
5. Tom danışır, Eduardın gözləri parlayırdı.
6. Paltarlarını dəyişən şahzadə və dilənçi.
7. Gözətçinin kobudluğu.
8. Cındır paltarlı şahzadə.

Dərsliyin 91-ci səhifəsindəki 1-6-cı tapşırıqlar yerinə yetirilir. **İş dəftərindəki** (səh. 64) hekayə xəritəsi doldurulur, “Labirint” bilməcəsi vasitəsilə əsərin müəllifinin adı tapılır: *Mark Tven*.

**Söz ehtiyatı.** “Sözlük” rubrikasında izahı verilmiş sözlərlə yanaşı, “fərağat” (sakit, dinməz-söyləməz) və “peysər” (başın arxa tərəfi) sözlərini də izah etmək məqsədəuyğundur.

### Yazı

**Müəllim:** – *Şahzadə Eduardla dilənçi Tom əkiz qardaş kimi bir-birinə oxşayırdılar. Ona görə də paltarlarını dəyişdikdən sonra şahzadəni hamı dilənçi kimi, dilənçini isə şahzadə kimi qəbul etdi.*

– *Sizcə, şahzadə ilə dilənçinin savadında, davranışında hansı fərqlər ola bilərdi?*

– *Bu fərq onların alışmadığı yeni həyatda hansı çətinliklər yarada bilərdi?*

Şagirdlərin fərziyyələri dinlənilir.

Dərslikdəki 7-ci tapşırıq genişləndirilir.

Müəllim şagirdləri iki qrupa bölür. I qrupun şagirdləri dilənçi Tomun saray həyatı haqqında, II qrupun şagirdləri isə şahzadə Eduardın dilənçi həyatı haqqında hekayə (nəqli xarakterli inşa) yazırlar.

Sonda “Şahzadə və dilənçi” kitabından “Tomun ilk kral naharı” və “Xəyanət qurbanı” fəsilləri oxunur və şagirdlər öz yazdıqları ilə müəllif mətnini müqayisə edirlər.

### Dil qaydaları

**Müəllim:** – *Dərslikdə verilmiş mətndə şahzadə və dilənçinin dialoqundakı cümlələr müxtəlif növə aiddir. Bu cümlələri sizə təqdim olunmuş iş vərəqində qruplaşdırın.*

Şagirdlərə aşağıdakı iş vərəqi paylanır:

| Nəqli cümlələr |
|---|
| |
| |
| |

Çap üçün deyil

| Sual cümlələri |
|---|
| |
| **Nida cümlələri** |
| |
| **Əmr cümlələr** |
| |

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 44. GÖYÇƏK FATMA (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi mətndəki hadisələrin davamını təxmin edir. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Oxuduğu mətnin yarımçıq qalmış süjet xəttini təxəyyülünə uyğun davam etdirir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi frazeoloji birləşmənin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətni oxuyarkən müəllif mətnindən obrazların nitqinə keçid zamanı səs tonunu obrazın xarakterinə uyğun dəyişdirir.<br>Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir.<br>Mətndəki hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən edir.<br>Verilmiş illüstrasiyanın mətnin hansı hissəsinə aid olduğunu müəyyənləşdirir. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətni bitkin hissələrə ayırır və hər bir hissəni məzmuna uyğun başlıqla adlandırır. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Mətnin illüstrasiyaya uyğun hissəsini üzündən köçürür. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Oxuduğu mətndən çıxarılmış bir cümləni genişləndirərək mətn qurub yazır. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Mürəkkəb sözləri müəyyən edir.<br>Əsas nitq hissəsi olan ismi digərlərindən fərqləndirir və müvafiq terminlə adlandırır. |



Çap üçün deyil

**Motivasiya**

**Müəllim:** – *Nağıl janrının hansı xüsusiyyətləri var?* (1. Çox zaman “Biri var idi, biri yox idi” sözləri ilə başlayır, “göydən üç alma düşdü” sözləri ilə bitir. 2. Bir çox nağıllarda sehrli qüvvələr, hadisələr olur (misallar gətirilir). 3. Nağılların baş qəhrəmanı çox zaman müsbət qəhrəman olur. Onlar şər qüvvələrlə mübarizə aparırlar. Bu işdə qəhrəmanlara xeyirxah qüvvələr kömək edir.)

**İfadəli oxu.** Mətn (dərslik, səh. 92-94) şagirdlər tərəfindən hissə-hissə oxunur.

**Şüurlu oxu.** Mətnin geniş planı tutulur:

1. Fatmanın ögey anası
2. Meşədə azan uşaqlar
3. Fatmanın inəyə dönən qardaşı
4. Bacısını sakitləşdirən qardaş
5. Evə qayıdan Fatma və inək
6. Ögey ananın fikri
7. Fatma və qarı
8. Ögey ana inəyi kəsdirmək istəyir
9. İnəyin dönüb xoruz olması
10. Toya hazırlaşan ögey ana və bacı
11. Bəzənib toya gedən göyçək Fatma
12. Suya düşən başmaq
13. Padşah oğlunun əmri
14. Ögey ananın hiyləsi
15. Şahzadənin kədəri
16. Xoruzun köməyi.
17. Şahzadə ilə göyçək Fatmanın toyu.

Şagirdlər növbə ilə plandakı hər başlığa aid bir neçə cümlə deməklə mətni nəql edirlər.

Dərsliyin 92-95-ci səhifələrindəki 1-4-cü tapşırıqlar yerinə yetirilir və iş dəftərinin 65-ci səhifəsindəki “Səbəb-nəticə” cədvəli doldurulur.

1-ci tapşırıq. Göz verib işıq vermirdi – çox incidirdi.

Şagirdlərə iş vərəqi paylanır.

Aşağıdakı cümlələri əsərdəki ardıcıllığa görə nömrələyin:

- ❍ Padşahın adamları axtarıb Fatmanı tapdılar.
- ❍ Fatma qarı nənəyə kömək etdi.
- ❍ Toydan qayıdanda Fatma başmağının bir tayını salıb itirdi.
- ❍ Uşaqlar meşədə azdılar.
- ❍ Fatmanın qardaşı bulağın suyunu içib inəyə döndü.
- ❍ Bir gün Fatma inəyi otararkən bir qarı nənəyə rast gəldi.
- ❍ Analığı Fatmanı təndirə saldı.
- ❍ Padşahın oğlunun toyu idi.
- ❍ Padşahın oğlu göyçək Fatma ilə evləndi.
- ❍ Fatmanın atası oğlu ilə qızını meşəyə apardı.
- ❍ Şahzadə Fatmanın başmağını tapdı.

**Yazı** (Nəqli xarakterli inşa)

Cümlələrdən birini seçib mətnə (dərslik, səh. 92-94) əsasən genişləndirmək və yazmaq tapşırılır.

**Hüsnxət.** İş dəftərinin 65-ci səhifəsindəki 2-ci tapşırıq yerinə yetirilir.

**Danışma**

**Müəllim:** – *Gəlin xatırlayaq, “Göyçək Fatma” nağılında hansı obrazlar var? Onların taleyi necə oldu?* (Şagirdlər obrazların taleyi haqqında danışırlar.) *Əsərdə hansı obrazın taleyi na-*



Çap üçün deyil

*məlum qaldı?* (Fatmanın qardaşının) *Göyçək Fatmanın qardaşı əvvəlcə inəyə, sonra xoruza döndü. Əsərdə onun taleyi ilə bağlı heç bir məlumat verilmir. Bununla bağlı əsəri təxəyyülünüzə uyğun davam etdirin və Fatmanın qardaşının sonrakı taleyi haqqında danışın.*

Şagirdlər verilmiş müddət ərzində sözügedən obrazın taleyi ilə bağlı hekayə qurur, özləri üçün yazılı qeydlər aparırlar. Vaxt bitdikdən sonra şagirdlər öz hekayələrini təqdim edirlər.

**Dinləmə**

Müəllim aşağıdakı mətn parçasını səsləndirir:

*Göyçək Fatma da şahzadənin toyuna getmək istəyirdi. Analığı bunu eşidib hirsləndi. Bir qab darını götürüb yerə səpələdi. Fatmanın üstünə qışqırdı:*

*– Mən toydan qayıdana kimi yerdə bir dənə də darı qalmasın. Hamısını bir-bir yığarsan.*

*Fatma ağlamağa başladı. Sonra ögey ana iri bir kasa götürüb onun qabağına qoydu və dedi:*

*– Ağla! Çoxlu ağla! Göz yaşını bu kasaya yığarsan. Mən gələnə kimi bu kasanı göz yaşınla doldurmalısan...*

**Müəllim:** – Bəs göyçək Fatma bu vəziyyətdən necə çıxdı? Axı nağılda deyilənə görə, analığı gedəndən sonra göyçək Fatma da toya getdi. Əgər nağılın tam variantını oxumusunuzsa, dinlədiyiniz mətni və onun davamını öz sözlərinizlə danışın. Əgər oxumamısınızsa, bu səhnənin davamını öz təxəyyülünüzə uyğun danışın.

*Müəllimin nəzərinə: İş dəftərinin 65-ci səhifəsindəki 1-2-ci tapşırıqlar yerinə yetirilir. İllüstrasiya göyçək Fatmanın qarı nənə ilə tanışlığını əks etdirir. Bəzi şagirdlər onu Fatmanın meşədən evə qayıdışı ilə səhv sala bilərlər. Əgər bu variantı seçən olarsa, yazıdan sonra müzakirə açmaq, illüstrasiyadakı obrazları təhlil etmək olar: şəkildəki qadın çox qocadır, o, Fatmanın analığı ola bilməz, Fatma çox şəndir, meşədən qayıdarkən o, qəmgin olmalı idi, çünki qardaşı inəyə çevrilmişdi və s.*

**Dil qaydaları**

**Əqli həmlə. Müəllim:** – *Azərbaycan dili fənni ilə bağlı hansı terminləri xatırlayırsınız?*

Şagirdlər terminləri (sait, samit, heca, məcazi məna və s.) sadalayır və onların mənalarını izah edirlər.

Lövhədə cədvəl çəkilir:

| | | |
|---|---|---|
| şəhər | turş | oxumaq |
| teatr | əyri | getmək |
| məktəb | uzun | çalışmaq |

**Müəllim:** – *Hər sütundakı sözlərin nə bildirdiyini deyin.*

Şagirdlər öyrəndiklərini xatırlayıb “ad”, “əlamət”, “hərəkət”, deyə bilərlər. Müəllim bildirir ki, dilçilikdə bu anlayışları bildirmək üçün xüsusi terminlər var. Müəllim həmin terminləri müvafiq xanalarda yazır.

*Müəllimin nəzərinə: Dil qaydalarından bəhs edən elm dilçilik adlanır. Başqa elm sahələrində olduğu kimi, dilçilikdə də çoxlu termin var.*

*Ad bildirən sözlərə isim, əlamət bildirən sözlərə sifət, say bildirən sözlərə say, hərəkət bildirən sözlərə feil deyilir.*

*İsim, sifət, say, feil bir yerdə nitq hissələri adlanır. Başqa nitq hissələri də var.*

Müəllim nitq hissələri haqqında qısa məlumat verdikdən sonra dərsliyin 95-ci səhifəsindəki 6-7-ci tapşırıqlar yerinə yetirilir.

Çap üçün deyil

*Müəllimin nəzərinə:* **6-cı tapşırıq.** *"Yalvar-yaxar" sözündəki "yaxar" sözünün bu kontekstdə müstəqil mənası yoxdur, "arayıb-axtarmaq" sözündə "aramaq" və "axtarmaq" yaxınmənalı sözlərdir, "gözəl-göyçək" sözündə hər iki söz də yaxınmənalıdır.*

**7-cı tapşırıq.** *Saç, odun, mala – gözlə görünən, vaxt, tarix, fikir isə yalnız təsəvvür edilən varlıqlardır.*

Lövhədə müxtəlif sözlər, yaxud şəkillər nümayiş olunur.

**Sual:** – *Cədvəldəki sözlər hansı prinsip əsasında qruplaşdırılmışdır?*

Cavablardan sonra dərsliyin 95-ci səhifəsində verilmiş nəzəri material mənimsənildikdən sonra şagirdlər qruplara bölünürlər.

**Qruplarla iş.** Üç qrupa aşağıdakı sözlər yazılan iş vərəqi paylanır:

*ağac, məktəb, meşə, fəhlə, vedrə, kərpic, dağ, kərtənkələ, dibçək, çayxana, şəkil, müəllim, həkim, qələm, fırça, uşaq, dəniz, şəhər, pişik, qardaş*

**I qrup –** *Nə?* sualına cavab olanı sözü seçin və bir neçəsini cümlədə işlədin.

**II qrup –** *Kim?* sualına cavab olanı sözü seçin və bir neçəsini cümlədə işlədin.

**III qrup –** *Hara?* sualına cavab olanı sözü seçin və bir neçəsini cümlədə işlədin.

**IV qrup –** Aşağıdakı sözlər içərisində gözlə görünməyən varlıq adlarını seçin və bir neçəsini cümlədə işlədin:

*fikir, tarix, düşmən, hakim, xəyal, zənbil, məhəbbət, təmsil, kədər, kəndir*

Qrupların təqdimatı dinlənilir və müzakirə olunur.

8-9-cu tapşırıqlar yerinə yetirilir.

8-ci tapşırıq. 1-ci sıradan "B" variantı, 2-ci sıradan "A" variantı, 3-cü sıradan "Ç" variantı fərqlidir.

**İş dəftərinin** 66-cı səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 45. ALI KİŞİNİN QİSASI (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Eşitdikləri və oxuduqlarını misal gətirərək mövzu ilə bağlı fikirlərini əsaslandırır.<br>Oxuduğu və dinlədiyi mətnlərdəki məlumatları birləşdirərək vahid mətn yaradır və nəql edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndən çıxarılmış söz və cümlələrin yerini müəyyən edir.<br>Sualları cavablandırmaqla mətni şüurlu oxuduğunu nümayiş etdirir. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətni bitkin hissələrə ayırır və hər bir hissəni məzmuna uyğun başlıqla adlandırır. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Mətndəki hadisələri ardıcıllıqla nəql edir. |
| 3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. | Oxuduğu mətnin qısa məzmununu yazır. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Mürəkkəb sözün tərkibini müəyyən edir. |



Çap üçün deyil

### Motivasiya

**Müəllim:** – *Koroğlu haqqında nə eşitmisiniz (oxumusunuz)? Nəyə görə ona “Koroğlu” deyirdilər? Uşaqlıqda onun adı nə olub? “Koroğlu” deyəndə hansı sözlər yadınıza düşür?* (Misri qılınc, Qırat, Dürat, Çənlibel və s.)

Uşaqlardan Koroğlunun atının (Qırat), qılıncının (Misri), məskəninin (Çənlibel) adı soruşulur.

### Oxu

Mətn (dərslik, səh. 96-97) hissələrlə şagirdlər tərəfindən oxunur. Dərsliyin “Şüurlu oxu” rubrikasındakı tapşırıqlar yerinə yetirilir.

Mətnin məzmununa uyğun **plan** tərtib olunur:
1. Xanın qəzəbi
2. İlxıçının oğlunu sakitləşdirməsi və məsləhəti
3. Ətə-qana gələn atlar
4. Qisas vaxtı yetişdi
5. Xanın cəzasına çatması
6. “Koroğlu” ləqəbli Rövşən

Şagirdlər mətnin planını dəftərlərinə yazırlar. (İş dəftərində verilmiş “Qırat və Dürat” mətni oxunduqdan sonra bu plana qayıdılacaq.)

### Yazı

Şagirdlərə dərslikdə (səh. 96-97) verilmiş mətnin qısa məzmununu yazmaq tapşırılır. Bunun üçün vaxt təyin olunur (hazırlıq + 15-20 dəq.). Müəllim yazı işində cümlələrin minimum sayını da təyin edə bilər (12-15).

**Dinləmə-danışma** (müzakirə). Bir neçə şagirdin yazı işi dinlənilir və müzakirə olunur. Şagirdlər bir-birinin yazısını qiymətləndirirlər.

**Müəllim:** – *Alı kişinin Həsən xanın qonağı üçün seçdiyi atlar çəlimsiz idi. Bəs necə oldu ki, bu atlar məşhur Qırat və Dürata çevrildilər?*

İş dəftərinin 67-ci səhifəsində verilmiş mətn üzrə iş aparılır. Mətnin abzaslarının ardıcıllığı müəyyən olunur. Şagirdlərlə birlikdə “səyirtdi” (çapdı) sözünün izahı tapılır.

Şagirdlər ardıcıllıqla abzasları bir cümlə ilə ifadə edib “Qırat və Dürat” mətninin planını tuturlar. Daha sonra bu mətn dərslikdən oxunmuş mətnlə sintez olunur. Hər iki plan birləşdirilir və tam mətnin məzmunu vahid plana əsasən nəql olunur.

### Dil qaydaları

Dərsliyin 97-ci səhifəsindəki <u>4-cü tapşırıq</u> yerinə yetirilir.

*<u>Müəllimin nəzərinə:</u> Şagirdlər 2-ci sinifdən “mürəkkəb söz” termini ilə tanışdırlar. Mətndəki mürəkkəb sözlərdən “kasıb-kusub” sözündəki “kusub”un müstəqil mənası yoxdur.*

**Sinifdənxaric oxu.** “Heraklın Nemey şirini öldürməsi” (qədim yunan əsatiri).

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

## Dərs 46. **QARACA ÇOBAN** (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Obrazların hiss və həyəcanını ifadə etmək üçün müvafiq jest və mimikalardan istifadə edir. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətnin hissələrini məzmuna uyğun başlıqla adlandırır. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Mətni tutduğu plana əsasən nəql edir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Mətnin ideyasını şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları məqamına uyğun istifadə edir. | Xüsusi isimləri böyük hərflə yazır. |

**Motivasiya**
Şagirdlərə iş dəftərində (səh. 68, tap. 1) verilmiş rebusu həll etmək tapşırılır:
*Rəngli fiqurların altındakı xanalarda hansı sözlər yazılmışdır? (Dədə Qorqud)*




Bilməcənin cavabı tapıldıqdan sonra "Dədə Qorqud" filmindən kadr da göstərilə bilər.
**Müəllim:** – *"Dədə Qorqud" dedikdə hansı qəhrəmanların adları yadınıza düşür?* (Basat, Beyrək, Domrul, Qazan və b.) *Bu gün biz "Kitabi-Dədə Qorqud" dastanının qəhrəmanlarından biri olan Qaraca Çoban haqqında oxuyacağıq.*

**Söz ehtiyatı.** Dərsliyin 98-99-cu səhifələrində verilmiş mətnin ilk iki abzası oxunur. "Dəmirqapı Dərbənd", "Oğuz eli", "yağmaladılar", "başına ələdi", "dabanlarına tüpürüb" ifadələri müzakirə olunur. Müəllim Dərbənd şəhəri və oğuz tayfaları haqqında əlavə məlumatlar verir.

Sonrakı iki abzas oxunur. İş dəftərinin 68-ci səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilməklə "sapand" sözünün mənası açıqlanır.

**İfadəli oxu.** Düşmənlə Qaraca Çobanın qarşılaşması iki şagirdin iştirakı ilə səhnələşdirilir.

Müəllim şagirdlərin diqqətini göy rənglə verilmiş "Qar-yağış yağanda çaxmaqlı çoban! Südü, pendiri bol, qaymaqlı çoban!" ifadələrinə yönəldir və onların mənasını soruşur. (Qədimdə od qalamaq üçün kibrit, alışqan yox idi. Ona görə həmişə çöllərdə olan çobanlar qar, yağış yağanda isinmək üçün çaxmaqdaşının köməyi ilə tonqal qalayırdılar.)

**Şüurlu oxu** (Cütlərlə iş). İş dəftərinin 68-ci səhifəsindəki 1-ci tapşırığa əsasən, mətnin məzmununu əhatə edən cümlələrin ardıcıllığı müəyyən olunur. İş dəftərinin 68-ci səhifəsindəki 2-ci tapşırıq yerinə yetirilir.

Çap üçün deyil

*Müəllimin nəzərinə: İş dəftərindəki 2-ci test sualı bir qədər çətin olsa da, şagird mətnin ayrı-ayrı cümlələrindən düzgün nəticə çıxarmaqla diqqətli oxuduğunu nümayiş etdirməlidir. Mətndə Qazan xan Qaraca Çobana deyir: "Var-dövlətimi qaytara bilsəm, bu sədaqətinə, cürətinə görə səni baş ilxıçı edəcəyəm".*

Beləliklə, bu sualın düzgün cavabı "C" bəndidir.

### Danışma

**Müəllim:** – *Biz mətnin qısa məzmununu yazarkən və ya nəql edərkən, adətən, onun planını tuturuq. Sizcə, bu nə üçün lazımdır?* (Mətni anladarkən plan bizə kömək edir.)

Fikirlər dinlənilir və müzakirə olunur.

Şagirdlər "Qaraca Çoban" mətninin planını tuturlar.

1. Giriş (əsərin qəhrəmanları və hadisələrin baş verdiyi yer haqqında ümumi məlumat)
2. Əsas hissə

2.1. Düşmənlərin hücumu

2.2. Düşmənlərlə Qaraca Çobanın qarşılaşması

2.3. Qazan xanla Qaraca Çobanın qisası

2.4. Qazan xanın qisası və Qaraca Çobanın ona köməyi

3. Sonluq (Oğuz elində səadət, baş qəhrəmanın taleyi)

Şagirdlər mətnin məzmununu plana uyğun olaraq nəql edirlər (hər hissəni bir şagird də danışa bilər).

### Yazı

"Dostluqda sədaqətli olmaq gərəkdir" mövzusunda inşa yazılır. İnşada Qaraca Çobanın igidliyindən, dosta sədaqətindən də nümunə gətirilir.

### Dil qaydaları

3-cü tapşırıq yerinə yetirilir: *Dəmirqapı Dərbənd, Qaraca Çoban, Oğuz, Burla xatun, Qazan xan, Salur Qazan, Dədə Qorqud.*

Müəllim lövhədə cümlələr yazır:

1. Bacarıqlı pianoçu olmaq Sevincin ən böyük arzusu idi.
2. Səhnədəki çıxışından sonra Arzunun anasının gözlərində sevinc yaşları görünürdü.

**Sual:** – *Verilmiş cümlələrdə eyni sözləri tapın. Sizcə, niyə eyni söz müxtəlif cür, yəni həm böyük, həm də kiçik hərflə yazılıb?*

Sual cavablandırıldıqdan sonra dərsliklə iş aparılır.

Dərsliyin 100-cü səhifəsindəki nəzəri material oxunur və həmin səhifədəki suallar müzakirə yolu ilə cavablandırılır.

**Qruplarla iş**

**I qrup.** *"Durna", "Kamal", "Səadət"* sözlərini həm ümumi, həm də xüsusi isim kimi cümlədə işlədin.

**II qrup.** Məkan, yer adları (ölkə, şəhər, kənd – hər birindən 5 dənə) bildirən isim yaz.

**III qrup.** Dəniz, çay, göl adları yazın.

**IV qrup.** Tarixi gün, bayram günlərini bildirən xüsusi isimlər yazın.

Qrupların təqdimatı dinlənilir və müzakirə olunur.

İş dəftərinin 69-cu səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

*Müəllimin nəzərinə: İş dəftərinin 69-cu səhifəsindəki 7-ci tapşırığın cavabları:*

**ümumi isimlər:** *şal, səhər, ər, liman, bal, nar, ev, qar, ev, ana;*

**həm ümumi, həm xüsusi isimlər:** *sevinc, lalə, vüqar, aslan;*

**xüsusi isimlər:** *Səlim, Tural, Əli, Şuşa, Xəzər, Xəlil, Rübabə, Anar, Azər.*

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.



Çap üçün deyil

## Dərs 47. QAVROŞ (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiklərində ilk dəfə eşitdiyi sözlərin mənasını müəyyənləşdirərək nitqində tətbiq edir. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Oxuduğu və dinlədiyi mətnlərdəki epizodları birləşdirərək vahid mətn yaradır və nəql edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Oxuduqları ilə bağlı faktoloji sualları cavablandırır.<br>Əsərdəki obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətnə əsasən hekayə xəritəsi tərtib edir. |
| 3.1.1. Hüsnxət normalarına riayət etməklə səliqəli və sürətlə yazır. | Mətni hüsnxət normalarına uyğun olaraq köçürür. |
| 3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. | Dinlədiyi və ya oxuduğu mətni ümumiləşdirərək qısa məzmununu yazır. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Yazdığı imla mətnini orfoqrafik cəhətdən yoxlamaq üçün lüğətdən istifadə edir.<br>Mürəkkəb sözlərin defislə, yoxsa bitişik yazıldığını lüğətin köməyi ilə müəyyən edir. |

**Motivasiya**

**Müəllim:** – *Bəzən kobud ifadələr işlədən uşaqlara rast gəlirik. Belə uşaqlara münasibətiniz necədir? Onların hamısına pis uşaq demək olarmı?*

**Oxu** ("Ziqzaq")

Müəllim dərsliyin 101-103-cü səhifələrindəki mətni dörd hissəyə bölür və şagirdlər bu mətni "ziqzaq" üsulu ilə oxuyurlar. Dərsliyin 103-cü səhifəsindəki 1-4-cü sualların (müəllim başqa suallar da tərtib edə bilər) köməyi ilə şagirdlərin oxuyub anlama bacarıqları yoxlanılır. Daha sonra rollu oyun üçün üç nəfər şagird seçilir və onlar mətni üzündən oxumaqla səhnələşdirirlər.

**Ümumi müzakirə.** Dərsin motivasiya hissəsində qoyulmuş suala cavab axtarılır: hər bir insanın mənfi və müsbət keyfiyyətləri ola bilər. Yaxşı tanımadığın adam haqqında ilk baxışdan fikir yürütmək düzgün deyil.

**Araşdırma.** Şagirdlər iş dəftərinin 70-ci səhifəsində verilmiş hekayə xəritəsini doldururlar.

**Dinləmə**

Müəllim şagirdlərlə birlikdə "epizod" sözünün mənasını araşdırır (bədii mətndə bitkin hissə, səhnə, hadisə, qəhrəmanın hərəkəti).

**Sual:** – *"Qavroş" mətnində hansı epizodlar var?* (Dəlləyin uşaqları qovması, Qavroşun uşaqlarla tanış olması, Qavroşun dükandan çörək alması və s.)

Həmin epizodlar dərslikdəki mətndən bir daha oxunur.

**Yaradıcılıq.** Tapşırıq: – *Qavroş uşaqları gecələməyə apararkən yolda başqa hansı hadisələr baş verə bilərdi? Hərəniz bir epizod düşünün.*

Bu tapşırığın şagirdlər tərəfindən fərdi şəkildə yerinə yetirilməsi daha məqsədəuyğundur.

Uşaqların düşündüyü mətnlər dinlənilir. Əsərdəki obrazların xarakterini geniş açan mətnlər müəllim tərəfindən daha yüksək qiymətləndirilir.

Müəllim şagirdlərə bildirir ki, onların dərslikdə oxuduğu mətndən iki epizod çıxarılmışdı. O, həmin epizodları oxuyur.



Çap üçün deyil

**I epizod**

Qavroş yolda yalın ayağı ilə palçıqlı suyu şappıldadıb bir adamın ayaqqabısını bulaşdırdı. Adam qəzəbləndi:

– Haramzadə!

Qavroş bu adama altdan-yuxarı baxıb dilləndi:

– Möhtərəm cənab, siz kimdən şikayətlənirsiniz?

– Kimdən olacaq, səndən!

– İdarə bağlıdır, daha şikayət qəbul etmirəm!

Qavroşun bu zarafatı yoldan ötənin xoşuna gəlmədi. İstədi uşağı tutub bir-iki şapalaq ilişdirsin. Amma paltarının bulaşacağından qorxub bu fikirdən vaz keçdi.

**II epizod**

Qavroş uşaqlarla Bastiliya meydanına tərəf gedirdi. Yolda, bir hasarın dibində on üç-on dörd yaşlarında bir dilənçi qız oturmuşdu. O, soyuqdan titrəyirdi. Paltarı elə kökdə idi ki, dizləri görünürdü. Qavroş boğazından şərfini çıxarıb qızın çiyninə saldı. Qız başını qaldırıb minnətdarlıqla ona baxdı.

**Dinləyib anlama. Sual:**

– *1-ci epizodda Qavroşun hansı xüsusiyyəti özünü göstərir? 2-ci epizodu oxuduqdan sonra Qavroşun xarakteri haqqında nə demək olar? Bu epizodları dərslikdəki mətnin hansı hissəsinə yerləşdirmək olar?*

Tapşırıq: – *Dinlədiyiniz mətndən çıxış edərək iş dəftərindəki hekayə xəritəsinə yeni məlumatlar əlavə edin.*

## Danışma

Şagirdlər “Qavroş” əsəri ilə bağlı oxuduqları və dinlədiklərini ümumiləşdirib danışırlar. Əsərdən Qavroşun kobud olduğunu göstərən hissələri və xeyirxahlığını bildirən parçaları seçib oxumaqla bu obraza münasibət bildirirlər.

Müəllim şagirdlərin diqqətini Qavroşun nitqindəki kobud ifadəyə yönəldir: “Çırpışdırmışam”. Bu sözü ədəbi dilin normalarına uyğun yaxınmənalı ifadə ilə əvəz etməyi tapşırır. (“Xəlvətcə götürmüşəm”.)

## Yazı

Müəllimin tapşırığı ilə şagirdlər “Qavroş” mətni üzrə oxuduqlarını, dinlədiklərini və düşündüklərini 12-15 cümlə ilə ifadə edirlər.

**Hüsnxət.** İş dəftərinin 71-ci səhifəsindəki 2-ci tapşırıq yerinə yetirilir.

## Dil qaydaları

5-ci tapşırıq yerinə yetirilir. *“İkiəlli”* sözü bitişik yazılan mürəkkəb sözdür. Altından xətt çəkilən digər sözlərin tərkibi haqqında müəllim suallar verir:

– *Bu sözlərdən hansıları bir sözün təkrarından yaranıb?* (çəp-çəp, ağlaya-ağlaya, bir-birinə, mışıl-mışıl)

– *Bu sözlərdən hansı əksmənalı sözlərdən yaranıb?* (ora-burasında)

– *Bu sözlərdən hansılarında bir sözün mənası yoxdur?* (kələ-kötür, cır-cındırdan)

**Sinifdənxaric oxu.** “Koroğlu və Dəli Həsən” (“Koroğlu” dastanından)

**İmla**

*Müəllimin nəzərinə: 4.1.4 standartına uyğun olaraq şagirdlər cəm (-lar²) şəkilçisinin deyilişi və yazılışı ilə bağlı məlumat almışlar. Bu dərsdə müəllim bir sıra digər şəkilçilərin də (-lı⁴, -la², -laş², -dan²) yazılışı və tələffüzü ilə bağlı şagirdlərə ilkin məlumat verə bilər.*

**Müəllim:** – *Gəlin -lar²* şəkilçisinin müxtəlif sözlərdə necə tələffüz olunduğunu xatırlayaq. Lövhədə sözlər yazılır: *müəllimlər, şagirdlər, müdirlər, oğlanlar.* Şagirdlər sözləri tələffüz edir və *-lar²* şəkilçisinin dörd cür deyilişini bir daha mənimsəyirlər.

**Müəllim:** – *Deyilişi və yazılışı fərqlənən başqa şəkilçilər də var. Aşağıdakı sözləri kök və şəkilçiyə ayırın və hər bir sözdə şəkilçinin necə tələffüz edildiyinə diqqət yetirin:*

*qızdan [qızdan], oğlandan [oğlannan], dostumla [dostumnan]*



Çap üçün deyil

**İmla** mətni səsləndirilir.

**QARACA QIZ**

*Usta Zeynalın altı yaşında Tutu adlı bircə qızı vardı. Tutu çox qarayanız bir qız idi. Anası ona körpə vaxtından "Qaraca qız" deyib əzizlədiyinə görə əsl adı unudulmuşdu, hər kəs onu bu adla çağırırdı. Qaraca qız çox nadinc idi. Qız uşağı olsa da, qızlarla oynamağı sevmirdi, həmişə oğlanlarla oynayırdı. Uşaqlar Qaraca qızdan qorxardılar, çünki o, çox cürətli idi.*

İmla mətnində ehtimal olunan orfoqrafik səhvlər:

*adlı – addı, vaxtından – vaxtınnan, əzizlədiyinə – əzizdədiyinə, əsl – əsil, adla – adnan, qızlarla – qızdarnan, oğlanlarla – oğlannarnan, oynayırdı – oynuyurdu, cürətli – cürətdi.*

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 48. BALACA VƏ KARLSON (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Verilmiş situasiya ilə bağlı təxəyyülünə uyğun mətn qurub nəql edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Hamının eşidə biləcəyi aydın səslə, ifadəli oxuyur.<br>Obrazların hiss və həyəcanını ifadə etmək üçün müvafiq səs tonu seçir, jest və mimikalardan istifadə edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını həyat haqqında düşüncələri ilə əlaqələndirərək fikir yürüdür. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Tərkibində yazılışı və tələffüzü fərqlənən sözlər olan cümlələri üzündən köçürür. |
| 4.1.4. Cəm şəkilçisinin yazılışı və tələffüzü ilə bağlı qaydaları nitqində tətbiq edir. | Mətndən cəm şəkilçisi fərqli tələffüz olunan sözləri seçir. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Sifətlə ismi bir-birindən fərqləndirir və xüsusiyyətlərini izah edir. |

### Motivasiya

**Müəllim:** – "Şahzadə və dilənçi" və "Ələddinin sehrli çırağı"nı xatırlayın. *Həyatda bunlardan hansı daha az mümkündür: saray keşikçisinin şahzadə ilə dilənçini səhv salması, yoxsa lampanın içindən cinin çıxması?*

Daha sonra şagirdlər müəllimin köməyi ilə "adi" və "qeyri-adi" sözlərini izah edirlər (adi – həyatda tez-tez rast gəlinən, başqalarından heç nə ilə fərqlənməyən, qeyri-adi – həyatda mövcudluğu az mümkün olan və ya heç mümkün olmayan).

### Oxu

Əvvəlcə mətnin (səh. 104-105) giriş hissəsi oxunur. **Müəllim**:

– *Sizcə, nəyə görə müəllif giriş hissədə "adi" sözünü vurğulayır?*

Şagirdlər öz versiyalarını söyləyirlər. Düzgün versiya: oxucunu qeyri-adi hadisələrə hazırlayır.

Mətnin sonrakı hissələri oxunur. Dərslikdə "Şüurlu oxu" rubrikasında verilmiş tapşırıqlar yerinə yetirilir.

Çap üçün deyil

### Danışma

**Sual:** – *Sizcə, niyə insanlar nağıllar uydurur, uçan xalça, div, cin, əjdaha kimi obrazlar yaradırlar?*

Şagirdlər bu qənaətə gəlirlər ki, hər gün adi şeylərlə qarşılaşmaq darıxdırıcıdır, ona görə də insanlar həmişə qeyri-adilik axtarışındadırlar.

**Qruplarla iş.** Şagirdlər üç qrupa bölünürlər. Verilmiş situasiya ilə bağlı hekayə düşünüb yazılı qeydlər aparırlar və hekayələrini danışmaqla sinfə təqdim edirlər.

**I qrup.** Meşədə gəzən zaman başqa planetdən gəlmiş bir adamla qarşılaşırsan...

**II qrup.** Evdə tək olarkən qədim sandığı açırsan və oradan bir cin çıxır...

**III qrup.** Səhər məktəbə gələrkən həmişə parkda gördüyün kimsəsiz it birdən-birə sənə yaxınlaşıb dil açır...

İş dəftərinin 72-73-cü səhifələrindəki tapşırıqlar yerinə yetirilir.

*Müəllimin nəzərinə:* *Dərslikdə dinləmə və danışma bacarıqları haqqında məlumatlar öz əksini tapıb. Bu baxımdan yaxşı olardı ki, "Oxu bacarığı" haqqında məlumat da şagirdlərə yaddaş vərəqi kimi verilsin.*

**Müəllim:** – *Oxumaqla biz nə edirik – anlayırıq, yoxsa anladırıq? Oxu dinləmədən nə ilə fərqlənir?* (Oxu yazılı, dinləmə şifahi nitqə aiddir.) *Oxu ilə yazının hansı oxşar və fərqli cəhətləri var?* (Oxu anlama, yazı isə anlatma bacarığıdır, lakin hər ikisi yazılı nitqə aiddir.)

Şagirdlərə aşağıdakı yaddaş vərəqi paylanılır.

**OXU BACARIĞI**

Oxumaqla biz məlumat alırıq, başqalarının yazıya aldığı hiss və düşüncələrlə tanış oluruq.

Mətni ucadan oxuyarkən dinləyənlərin eşidə biləcəyi səslə oxumalı, sözləri aydın tələffüz etməli, cümlələrdəki nöqtə və vergüllərə diqqət yetirməliyik.

Kitab oxuyarkən aşağıdakı qaydalara əməl etmək lazımdır:

– dik oturmalı, belimizi əyməməliyik. Kitabla göz arasında təxminən 30 santimetr məsafə olmalıdır;

– diqqətlə oxumalı, oxuduğumuzun fərqinə varmalıyıq. Mətnin müəyyən hissəsində diqqətimiz yayınıbsa, həmin hissəni bir daha oxumalıyıq;

– oxuduqlarımızı dərindən anlamaq üçün təsəvvürümüzdə canlandırmalıyıq;

– barmağımızla sətirləri izləməməliyik;

– yanımızda lüğət və qeyd dəftərçəsi olmalıdır. Başa düşmədiyimiz sözləri lüğətdə axtarmalıyıq.

Təqdim olunmuş mətn oxunur və mənimsənilir. Şagirdlərə aşağıdakı tapşırıq verilir:

***Biz nə üçün oxuyuruq?***

*A) Dərslikləri* *B) Bədii kitabları*

*C) Qəzetləri* *Ç) Lüğət və ensiklopediyaları*

- *Xəbərlərlə tanış olmaq üçün* — *A B C Ç*
- *Sözlərin mənasını araşdırmaq üçün* — *A B C Ç*
- *Bilik və bacarıqlarımızı artırmaq üçün* — *A B C Ç*
- *Dünyagörüşümüzü genişləndirmək və zövq almaq üçün* — *A B C Ç*

Müəllim oxunun məqsədini və xüsusiyyətlərini uşaqlara başa salır: *Ucadan oxuyarkən aydın səslə, ifadəli, intonasiya ilə oxumalıyıq. Səssiz oxu zamanı sürətli və diqqətlə oxumalı, mətni dərindən qavramalıyıq.* Müəllim bildirir ki, indi şagirdlərin səsli və səssiz oxu bacarığını yoxlayacaq (müsabiqə də elan etmək olar).



Çap üçün deyil

Əvvəlcə səssiz oxu bacarığı yoxlanılır. Bunun üçün şagirdlərə 150 sözdən ibarət aşağıdakı mətn paylanır və mətni oxumaq üçün sinfin orta səviyyəsinə uyğun müddət elan olunur. Şagirdlərə bildirilir ki, onlar mətni oxuduqdan sonra suallara cavab verməlidirlər.

### ƏLİBABA
(I hissə)

Bir dəfə Əlibaba meşədə ağac kəsirdi. Birdən qulağına at tappıltısı, adam səsləri dəydi. Tez ağaca dırmaşıb ətrafa baxdı. Bir də gördü yaxınlıqdakı qayaya tərəf bir dəstə yaraqlı atlı gəlir. Dəstənin qabağında, ağ atın belində uzun qara saqqallı, bir gözü sarıqlı qorxunc bir adam gedirdi.

Əlibaba başa düşdü ki, bu, quldur dəstəsidir, gözü sarıqlı da quldurbaşıdır. Səsini çıxarmayıb budaqların arasından onları izləməyə başladı.

Quldurlar atdan düşdülər. Hərəsi bir torba götürüb qayalığa yaxınlaşdı. Əlibaba onları bir-bir saydı. Dəstədə qırx adam var idi. Quldurbaşı qayaya yaxın gəlib böyük bir daşın qabağında dayandı və ucadan dedi:

– Sim-sim, açıl!

Bunu deyən kimi daş yerindən tərpənib qayanın içinə tərəf aralandı. Sən demə, bura mağara imiş. Quldurlar qayanın içinə girdilər. Onlar mağaranın qaranlığında yox olan kimi daş gəlib yenidən mağaranın ağzını tutdu.

Əlibaba bu möcüzədən lap heyrətə gəlmişdi. Qorxusundan nəfəsini də çəkmirdi. Bir azdan daş yenidən aralandı. Quldurlar boş torbalarla bayıra çıxdılar. Hərəsi öz atına minib yola tərəf çapdı.

Müəllim bu müddət ərzində şagirdlərin səssiz oxu qaydalarına (mətnlə göz arasındakı məsafəyə, barmaqları ilə sətirləri izləmələrinə) riayət etmələrinə diqqət yetirir və özü üçün qeydlər aparır. Oxu müddəti bitdikdən sonra mətn yazılmış vərəqlər yığışdırılır və müəllim həmin mətn üzrə test vərəqləri paylayır. Tapşırıqların yerinə yetirilməsi üçün yenə də müəyyən vaxt verilir.

**1. Əlibaba meşədə nə edirdi?**
A) göbələk yığırdı B) başqa kəndə gedirdi C) ağac kəsirdi

**2. Quldurbaşının təsviri hansı bənddə dəqiq verilib?**
A) uzun qara saçlı, yanağı çapıq
B) uzun qara saqqallı, bir gözü sarıqlı
C) ağ saqqallı, boynu sarıqlı

**3. Quldurbaşının atı nə rəngdə idi?**
A) ağ B) qara C) boz

**4. Quldurlar qayalığa tərəf gedəndə özləri ilə nə götürdülər?**
A) sandıq B) zənbil C) torba

**5. Dəstədə neçə quldur var idi?**
A) qırx B) qırx dörd C) yüz qırx

**6. Quldurbaşı qayalığa yaxınlaşanda nə dedi?**
A) Cin-cin, açıl B) Sim-sim, açıl C) Sim-sim, salam

**7. Quldurlar mağaraya girdikdən sonra Əlibaba nə etdi?**
A) Nəfəsini dərmədən onları izləməkdə davam etdi.
B) Onların dalınca mağaraya girdi.
C) Ağacdan düşüb kəndə qaçdı.

Beləliklə, səssiz oxu üzrə fəaliyyət başa çatır. Müəllim şagirdlərin işini qiymətləndirir.



Çap üçün deyil

Səsli oxu fəaliyyəti üçün müəllim eyni əsərin başqa bir parçasından istifadə edir. Bu parçada dialoq üstünlük təşkil etdiyindən yaxşı olar ki, mətni üç şagird oxusun (aparıcı, Əlibaba, Zeynəb).

### ƏLİBABA
(II hissə)

Əlibaba evə çatanda qaranlıq düşmüşdü. Zeynəb onun yolunu gözləyirdi. Ərini görən kimi özünü onun üstünə atıb ağlamağa başladı:

– Ay Əlibaba, indiyə kimi haradasan?! Mən dedim, yəqin, səni meşədə qurd-quş yedi.

Əlibaba arvadını sakitləşdirdi:

– Zeynəb, səs salma. Kömək elə, bu kisələri evə daşıyaq. Sonra hər şeyi danışaram.

Əlibaba ilə arvadı qızıl dolu kisələri evə daşıdılar. Zeynəb kisələrdən birini açıb qızıl dinarları görəndə rəngi ağappaq ağardı:

– Evin yıxılsın, Əlibaba! Sən kimi qarət eləmisən?!

– Ay qız, sənə dedim ki, qışqırma. Qonşuları oyadarsan.

O hər şeyi olduğu kimi Zeynəbə danışdı. Ər-arvad çox götür-qoy elədikdən sonra qərara gəldilər ki, kisələri bağda yerə basdırsınlar. Sonra hər gün bir az götürüb xırdalasınlar. Ər-arvad bağda bir xəndək qazıb kisələri ora basdırdılar.

Səhər açılanda Əlibaba, həmişəki kimi, ulaqlarını qabağına salıb meşəyə tərəf üz tutdu.

**Yazı**

Mətndən cəm şəkilçisinin yazılışı və deyilişi fərqli olan sözlər işlənmiş cümlələr seçilir və dəftərə köçürülür *(şəhərlərdən, onların, şalvarlarının, pərləri, karandaşları, divarları və s.)*.

**Dil qaydaları**

3-cü tapşırıq. *“Alçaqboy”* sözü sifətlə ismin birləşməsindən yaranıb.

4-cü tapşırıq. Göy rənglə verilmiş “balaca” sözü 1-ci halda isim kimi, ikinci halda isə varlığın əlaməti kimi işlənmişdir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 49. QAZANIN ÖLMƏYİ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Debat zamanı mövqeyini müdafiə etmək üçün müvafiq arqumentlər gətirir. |
| 1.2.3. Fikirlərini aydın və obrazlı etmək məqsədilə bədii ifadələrdən istifadə edir. | Mətnin ideyasını ifadə edərkən atalar sözlərindən istifadə edir. |
| 1.2.4. Ədəbi-bədii nümunələri ifadə edərkən müvafiq situasiyaya uyğun jest və mimikalardan istifadə edir. | Lətifə danışarkən komik məqamları qabartmaq məqsədi ilə uyğun jest və mimikalardan istifadə edir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Frazeoloji ifadələrin mənasını kontekstdən çıxış edərək izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Lətifə janrında yazılmış mətndəki yumoru duyur. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Yazdığı imla mətnini orfoqrafik cəhətdən yoxlamaq üçün lüğətdən istifadə edir. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Əsas nitq hissələrini fərqləndirir və müvafiq terminlərlə adlandırır. |

Çap üçün deyil

## Motivasiya

**Müəllim:** – *Lətifə janrı haqqında nə bilirsiniz? Yumor hissi nə deməkdir? Molla Nəsrəddin lətifələrindən hansıları eşitmisiniz? Əgər dinlədiyiniz lətifə gülməli deyilsə, buna necə reaksiya verirsiniz?*

Sonuncu sualla bağlı kiçik bir debat keçirmək olar.

Bəzi adamlar lətifə darıxdırıcı olsa da, nəzakət xətrinə gülümsəyirlər. Bir başqaları isə lətifə danışanı utandırmağa çalışırlar *("Hə, qurtardın? İndi gülmək olar?"). Bu reaksiyalardan hansı ilə razısınız?*

**Şüurlu oxu.** Şagirdlər ayrılmış vaxt ərzində səssiz oxuyub mətnin (dərslik, səh. 106) məzmunu ilə tanış olurlar. Müəllim şifahi sual-cavab yolu ilə mətnin oxunub qavranıldığına əmin olur.

**Söz ehtiyatı.** Mətndəki "dişində şirə qalmaq", "dil-ağız eləmək" frazeoloji ifadələrinin mənaları izah edilir: *dadanmaq (öyrəşmək), üzrxahlıq etmək.*

Şagirdlər bu ifadələri başqa cümlələrdə mənasına uyğun işlədirlər.

2-ci tapşırıq. "Çox istəyən azdan da olar", "Artıq tamah baş yarar".

**Mətnin səhnələşdirilməsi.** Şagirdlər cütlükdə işləyərək mətni səhnələşdirməyə hazırlaşırlar. Bunun üçün onlar mətni bir daha oxuyub öz rollarının nitqini yadda saxlamağa çalışırlar. Daha sonra bir neçə cüt növbə ilə hazırladığı səhnəciyi təqdim edir.

*Müəllimin nəzərinə: Şagirdlərə tapşırmaq lazımdır ki, obrazların nitqini dərslikdəki kimi təkrar etməyə çalışmasınlar. Əsas məqsəd lətifənin məzmununu çatdırmaq və dinləyiciləri güldürməkdir.*

## Danışma

*Müəllimin nəzərinə: Lətifə müsabiqəsinə hazırlıq iki cür keçirilə bilər: 1. Şagirdlər evdə lətifələr oxuyub birini seçirlər və sinfə təqdim etmək (danışmaq) üçün hazırlaşırlar.*
*2. Müəllim dərsin əvvəlində şagirdlərə lətifə kitabları paylayır və oxuyub bir lətifə seçməyi tapşırır. 1-ci üsul daha səmərəlidir, çünki uşaqlar lətifə danışmaq üçün evdə güzgü qabağında məşq edə, ailə üzvləri qarşısında özlərini sınaqdan çıxara bilərlər.*

**İş dəftərinin** 74-cü səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Müəllim:** – *Fikir vermisinizmi, eyni lətifəni bir adam danışanda çox gülməli alınır, başqa birisi danışanda özündən başqa heç kim gülmür. Sizcə, bunun səbəbi nədir?*

Şagirdlər versiyalarını söyləyirlər:

1. Bu, adamın danışma bacarığından asılıdır.
2. Əgər lətifə danışan adam utancaqdırsa, sıxıla-sıxıla danışırsa, heç kim gülmür.
3. Adam sərbəst olanda, rola girəndə danışdığı lətifə maraqlı və gülməli alınır.

Şagirdlər öz lətifələrini təqdim edirlər.

Şagirdlərin lətifə danışmaq bacarığı bir neçə üsulla qiymətləndirilə bilər.

1. Dinləyicilərin reaksiyası. Sinifdə gülüş səslərinin azlığı və ya çoxluğu.
2. Holistik qiymətləndirmə:

| Səviyyələr | Lətifə danışmaq bacarığı |
|---|---|
| I səviyyə | Cümlələri aydın və səlis ifadə edir. |
| II səviyyə | Öz sözləri ilə danışır, mətni olduğu kimi təkrar etməyə çalışmır. |
| III səviyyə | Özünü sərbəst aparır, dinləyicilərdən nəzərini qaçırmır. |
| IV səviyyə | Rola girir. Lətifə qəhrəmanlarının nitqini onların xarakterinə uyğun ifadə edir. |



Çap üçün deyil

### Dil qaydaları

**Əqli həmlə. Müəllim:** – *Əlamət bildirən sözlər necə adlanır?* (sifət) *Bir neçə sifət deyin.*
Şagirdlər xatırladıqları sifətləri sadalayırlar. Sözlər lövhədə yazılır.

**Müəllim:** – *Bu xüsusiyyətlərdən hansıları gözlə görmək olur? Hansıları görmək olmur?*

Şagirdlər fikirlərini bildirdikdən sonra dərsliyin 107-ci səhifəsindəki nəzəri material mənimsənilir. 5-ci tapşırıqda verilmiş sxem şərh olunur.

**Qruplarla iş.**
**I qrup:** dərslik, səh. 107, tap. 4, 6;
**II qrup:** iş dəftəri, səh. 75, tap. 5;
**III qrup:** iş dəftəri, səh. 75, tap. 6;
**IV qrup:** iş dəftəri, səh. 75, tap. 7.

**Sinifdənxaric oxu.** Astrid Lindqren. "Karlson oğruları ifşa edir" ( "Karlson və Balaca" əsərindən).

**İmla**

**QARA KÖPƏK** (63 söz)

Bağı oğrudan qorumağa Piri kişinin bircə köməkçisi vardı. O da Qaraca qızı mağaradan çıxaran qara köpək idi. Qara köpək çox heybətli və hünərli bir it idi. Onun qorxusundan heç kəs bağa girə bilməzdi. Bu köpəkdə bir qəribə xasiyyət vardı. Hər kəs ki Piri kişiyə düşmən idi, köpək onu yaxına qoymazdı. Piri kişi dost bir adamla görüşəndə köpək də quyruq bulayıb o adama yaxınlaşardı.

İmla mətnində ehtimal olunan orfoqrafik səhvlər:
*heybətli – heybətdi, hünərli – hünərri, qorxusundan – qorxusunnan, xasiyyət – xasiyət, adamla – adamnan, bulayıb – buluyub, yaxınlaşardı – yaxınnaşardı.*

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 50. QARACA QIZ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndən çıxarılmış hissələrin mətndəki yerini müəyyən edir. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətnə əsasən hekayə xəritəsi tərtib edir. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Mətnin giriş, əsas, sonluq hissələrini müəyyənləşdirir. |
| 3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. | Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Mürəkkəb sözün bitişik, yoxsa defislə yazıldığını lüğətin köməyi ilə müəyyənləşdirir. |

**Motivasiya**. "Qaraca qız" filmindən Qaraca qızın ayıdan qaçması kadrı göstərilir.
Müəllim Süleyman Sani Axundov haqqında şagirdlərə qısa məlumat verir.
– *Süleyman Sani Axundovun hansı əsərlərini tanıyırsınız?* ("Qaraca qız", "Nurəddin", "Abbas və Zeynəb" əsərlərinin adları sadalanır. Müəllim bildirir ki, bu əsərlər S.S.Axundovun "Qor-



Çap üçün deyil

xulu nağıllar" silsiləsinə daxildir.) *İndicə baxdığınız kadr hansı əsər üzrə çəkilmiş filmdəndir? Gələcək dərslərin birində "Sinifdənxaric oxu" kitabından "Əhməd və Məleykə" hekayəsini keçəcəyik. Bu əsərin də müəllifi Süleyman Sani Axundovdur.*

### Oxu

Dərslikdə (səh. 108-109) verilmiş "Qaraca qız" mətni oxunur, çıxarılmış abzasların yeri müəyyənləşdirilir (1-ci tapşırıq), əsərin hekayə xəritəsi tərtib edilir (2-ci tapşırıq).

### Danışma

Şagirdlər Hüseynqulu ağa, Piri baba, Pəricahan xanım obrazlarına münasibət bildirirlər.

*Müəllimin nəzərinə: Yaxşı olar ki, müəllim "müsbət obraz", "mənfi obraz", "ziddiyyətli obraz" anlayışları haqqında məlumat versin. Daha sonra lövhədə "Cütləri müəyyən et" tipli tapşırıq yazılır:*

| | |
|---|---|
| *Piri baba* | *ziddiyyətli obraz* |
| *Hüseynqulu ağa* | *mənfi obraz* |
| *Pəricahan xanım* | *müsbət obraz* |

*Daha sonra müəllim "Nəyə görə Piri babanı müsbət obraz hesab edirsiniz?", "Hüseynqulu ağanın hansı müsbət və mənfi cəhətləri var?", "Hansı cəhətinə görə Pəricahan xanımı mənfi obraz hesab etmək olar?" sualları ilə şagirdlərə müraciət edir.*

"Qaraca qız" mətninin planı tutulur:

1. Giriş (əsas obrazlar haqqında məlumat)
2. Əsas hissə
2.1. Ağca xanımla Qaraca qızın dostlaşması
2.2. Hüseynqulu ağanın evində qonaqlıq
2.3. Hüseynqulu ağa ilə Pəricahan xanımın mübahisəsi
3. Sonluq

**Müəllim:** – *Gəlin xatırlayaq, "Sevimli qəhrəmanlarım" bölməsində hansı qəhrəmanlar haqqında əsərlər oxuduq?* (Fitnə, Əlibaba, şahzadə Eduard, dilənçi Tom, göyçək Fatma, Koroğlu, Qaraca Çoban, Karlson, Qaraca qız, Molla Nəsrəddin, Qavroş) Ekspress-sorğu ilə bu qəhrəmanların başına gələn hadisələr və onların xarakteri xatırlanır.

**Müəllim:** – *Ən çox xoşunuza gələn bir qəhrəmanı seçin və onun haqqında ətraflı danışın. Niyə məhz bu qəhrəmanı seçdiyinizi əsaslandırın.*

*Müəllimin nəzərinə: Məruzələr qrup şəklində də hazırlana bilər. Bu halda eyni qəhrəmanı seçmiş şagirdlər bir qrupda toplaşıb spiker seçirlər və məruzə hazırlamaqda ona kömək edirlər.*

### Yazı

Şagirdlər mətnin qısa məzmununu tutulmuş plan əsasında yazırlar.

Müəllimin nəzərinə: Müəllim sinfin səviyyəsindən asılı olaraq yazı işinin həcmini də təyin edib şagirdlərə elan edə bilər: aşağı səviyyə – 10-12 cümlə, orta səviyyə – 13-15 cümlə, yuxarı səviyyə – 16-18 cümlə.

Yazı işləri bu meyarlar üzrə qiymətləndirilir:

1) hüsnxət normalarına riayət;
2) orfoqrafik normalara riayət;
3) mətnin əsas hissələrinin yazıda əhatə olunması.

Vaxt qalarsa, bir neçə şagirdin yazısı oxunub sinif tərəfindən qiymətləndirilə bilər.

### Dil qaydaları

3-cü tapşırıq yerinə yetirilir: *yerbəyerdən, gözucu, bir-birinə.*

4-cü tapşırıq yerinə yetirilir: *Hüseynqulu, Pəricahan.*

Çap üçün deyil

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 51. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərsdə dərsliyin 110-cu səhifəsində verilmiş sual və tapşırıqlar yerinə yetirilir, müvafiq bölmədə tədris olunmuş materiallar təkrarlanır. Bununla yanaşı, müəllim həm özünün hazırladığı materiallardan, həm də müxtəlif qiymətləndirmə vasitələrindən istifadə edə bilər. Tapşırıqların seçimi zamanı bölmədə reallaşdırılmış standartları əsas götürmək lazımdır.

## Dərs 52. BÖLMƏ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ (2 saat)

**DİNLƏMƏ**

**PADŞAH BİR QIZIL VERMƏZ**

Günlərin birində Teymurləng Mollanın oğlunu saraya gətirtdirir. Baxır ki, uşaq lap atasına oxşayır. Boy-buxunu, sir-sifəti, ağız-burnu lap Molla Nəsrəddindi ki durub. Fikirləşir ki, görəsən, uşaq sözdə-söhbətdə də atasına çəkib, ya yox? Çıxarıb ona bir qızıl bağışlayır. Mollanın oğlu qızılı əli ilə itələyir. Teymur soruşur:

– Niyə pulu almırsan?

Uşaq deyir:

– Anamdan qorxuram. O mənə tapşırıb ki, tanımadığım əmilərdən pul almayım.

Teymur deyir:

– Ay sağ ol, ancaq mən ananın dediyi əmilərdən deyiləm. Mən padşaham.

Uşaq deyir:

– Mən görürəm ki, sən padşahsan. Ancaq anam inanmaz ki, sən padşahsan.

Teymur soruşur:

– Niyə inanmaz?

Uşaq deyir:

– Ona görə inanmaz ki, padşah pul bağışlayanda bircə dənə bağışlamaz, çoxlu bağışlayar.

**1. Əsərdə söhbət kimlərin arasında gedir?**

A) Teymurlənglə Molla Nəsrəddinin

B) Teymurlənglə Molla Nəsrəddinin oğlunun

C) Teymurlənglə oğlunun

**2. *“Fikirləşir ki, görəsən, uşaq söz-söhbətdə də atasına çəkib, ya yox?”* cümləsində “çəkib” sözü hansı mənada işlənmişdir?**

A) dartıb B) oxşayıb C) təsvir edib

**3. “Gətirtdirir” sözünün düzgün mənası hansı sırada verilib?**

A) gedib gətirir B) çağırır C) tapşırır ki, gətirsinlər

**4. Tapşırıqları yerinə yetirməklə mətn parçasını köçür.**

- Cümlələrin düzgün ardıcıllığını müəyyən et.
- Nöqtələrin yerinə obrazların adını yaz.
- Boş xanalarda müvafiq durğu işarəsini yaz.

.................. : – Niyə pulu almırsan □

.................. : – Anam inanmaz ki, sən padşahsan □

.................. : – Ona görə inanmaz ki □ padşah pul bağışlayanda bircə dənə bağışlamaz.



Çap üçün deyil

................. : – Mən ananın dediyi əmilərdən deyiləm. Mən padşaham.
................. : – Anam tapşırıb ki, tanımadığım əmilərdən pul almayım.
................. : – Niyə inanmır □

**OXU**

**MİSRİ QILINC**

Hələ uşaqkən Rövşən çöldə oynadığı vaxt yerdən bir daş tapmışdı. Daş çox ağır idi. Özü də işım-işım işıldayır, par-par yanırdı. Rövşən daşı yerdən götürüb örüşdə otlayan buzovlardan birinə atdı. Daş buzova dəymədi, amma yelindən buzov yıxılıb öldü. Rövşən daşı evə gətirib əhvalatı Alı kişiyə danışdı.

Alı kişi baxdı ki, bu, göydən düşmüş ildırım parçasıdır. Səhərisi gün daşı bir ... yanına apardı. Ondan qılınc düzəltməsini istədi.

**A)** Alı kişi qılıncı ustadan götürüb evə gətirdi. **B)** Usta yeddi günə həmin daşdan bir qılınc düzəltdi. **C)** Gün kimi yanır, Ay kimi işıq saçırdı. **Ç)** Adını da Misri qılınc qoydu. **D)** Qılınc, nə qılınc!

**1. Bu mətn hansı əsərdəndir?**
A) "Kitabi-Dədə Qorqud" dastanından
B) Nizaminin "Yeddi gözəl" poemasından
C) "Koroğlu" dastanından

**2. 2-ci abzasda nöqtələrin yerinə hansı söz uyğun gəlir?**
A) dəmirçinin B) dərzinin C) dülgərin

**3. Sonuncu abzasda cümlələrin ardıcıllığı necə olmalıdır?**
A) C, D, A, Ç, B
B) Ç, A, B, D, C
C) B, D, C, A, Ç

**4. 1-ci abzasda altından xətt çəkilmiş sözü hansı sözlə əvəz etmək olar?**
A) tövlə B) ağıl C) otlaq

**5. "Misri qılınc" mətnindəki hadisə "Alı kişinin qisası" mətnindəki hadisələrdən:**
A) əvvəl baş verib
B) sonra baş verib
C) eyni vaxtda baş verib

**YAZI**

**Mətnin birinci abzası şagirdlər tərəfindən köçürülür.**

**DİL QAYDALARI**

**1. Hansı sıradakı xüsusi isimlər ölkə adlarını bildirir?**
A) Xəzər, Kür, Araz
B) Rusiya, Türkiyə, Özbəkistan
C) Moskva, Ankara, Daşkənd

**2. Verilmiş cümlələrdə altından xətt çəkilmiş sözləri müvafiq sətirlərdə yaz.**
1. Şəhərdə istilər düşmüşdü, adamlar bağlara, yaylaqlara getməyə hazırlaşırdılar. 2. Gülnar



Çap üçün deyil

yavaş-yavaş ceyrana yaxınlaşdı. 3. Dənizdə güclü fırtına başlamışdı. 4. Göygöl Azərbaycanın gözəl guşələrindən biridir. 5. Büllur çilçıraq otağı işığa qərq etmişdi. 6. Gürcüstanda xeyli azərbaycanlı yaşayır.

Kim? ________________________________________
Nə? ________________________________________
Hara? ________________________________________
Necə? ________________________________________

**3. Verilmiş sözlərdə *-lar* hissəciyi necə tələffüz olunur?**
A) buludlar B) yarpaqlar C) fincanlar Ç) qatarlar

- [nar] kimi tələffüz olunur: A B C Ç
- [dar] kimi tələffüz olunur: A B C Ç
- [rar] kimi tələffüz olunur: A B C Ç
- yazıldığı kimi tələffüz olunur: A B C Ç

**4. Hansı rayon adı mürəkkəb sözdür?**
A) Yardımlı B) Ağsu C) Şəmkir

**5. Cümlələri dəftərinə köçür, əlamət bildirən sözlərin altından bir, keyfiyyət bildirən sözlərin altından iki xətt çək.**

1. Məktəbimizin arxasında böyük futbol meydançası var. 2. Onun atası qayğıkeş, həm də tələbkar insandır. 3. Ağıllı düşmən ağılsız dostdan yaxşıdır. 4. Biliksiz insan qanadsız quş kimidir. 5. Kəndimizdə təcrübəli bir ovçu yaşayır. 6. Qartal sıldırım qayadan yaşıl meşəyə doğru şığıdı. 7. Şəhərin enli küçələrində yaraşıqlı maşınlar şütüyürdü. 8. Hirsli başda ağıl olmaz.

**6. Hansı söz birləşməsində sifət əlamət bildirir?**
A) vəfalı dost
B) xəsis kişi
C) geniş mənzil

**7. Hansı sözlər birləşdikdə mürəkkəb söz defislə yazılır?**
A) aş, süz
B) qapı, pəncərə
C) ürək, açıq

**8. Əlamət və ad bildirən sözlərin birləşməsindən yaranmış mürəkkəb söz hansıdır?**
A) Altıağac B) suçiləyən C) Alabaş

**9. Hansı mürəkkəb sözün yazılışı səhvdir?**
A) söz-söhbətdə B) sirsifəti C) ağız-burnu

**10. Hansı mürəkkəb sözün tərkibindəki sözlərdən birinin müstəqil mənası yoxdur?**
A) boy-buxunu B) ağız-burnu C) söz-söhbətdə

Çap üçün deyil

# V bölmə

# TARİXİ ŞƏXSİYYƏTLƏR

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | İş dəftəri səh. | MMV səh. |
|---|---|---|---|---|---|---|
| 53. | **Müdrik rəhbər** | 1.2.1, 2.1.2, 2.2.1, 2.2.4, 3.1.4, 4.1.2, 4.1.5 | 2 | 112-113 | 80 | 131 |
| 54. | **Atatürk niyə ağladı?** | 1.1.1, 2.1.2, 2.2.1, 3.1.2, 4.1.5 | 2 | 114 | 81 | 132 |
| 55. | **Şair və hökmdar** *Say – miqdar və sıra bildirən sözlər* | 2.1.4, 2.2.1, 3.1.5, 4.1.5 | 4 | 115-116 | 82-83 | 133 |
| 56. | **Onluq say sistemi** | 2.2.2, 2.2.4, 3.1.2, 4.1.3 | 4 | 117 | 84 | 135 |
| 57. | **Rəqəmlərin tarixi** *Terminlər* | 2.1.3, 2.2.1, 2.2.2, 3.1.5 | 2 | 118-119 | 85-87 | 136 |
| 58. | **Müəllimdən hədiyyə Üzeyir Hacıbəyli** | 1.2.1, 2.1.3, 2.2.1, 2.2.2, 2.2.3, 2.2.4, 2.2.5, 3.1.2, 4.1.2 | 4 | 120-121 | 88 | 137 |
| 59. | **Şah İsmayıl Xətai** | 1.1.1, 1.1.2, 2.1.2, 2.2.1, 2.2.4, 2.2.5, 4.1.3 | 4 | 122 | 89 | 140 |
| 60. | **Hacı Zeynalabdin Tağıyev** | 1.1.1, 2.1.2, 2.2.2, 2.2.3, 2.2.4, 2.2.5, 3.1.2, 3.1.3 | 4 | 123-124 | 90 | 142 |
| 61. | **Makedoniyalı İsgəndər** | 1.1.1, 2.1.2, 2.2.1, 2.2.5, 3.1.4, 4.1.2 | 2 | 125-126 | 91 | 143 |
| 62. | **İstedadlı şagird** *Əvəzlik* | 1.1.2, 1.2.3, 2.1.2, 2.1.4, 2.2.1, 4.1.5 | 4 | 127-128 | 92 | 145 |
| 63. | **Sabirin ilk uşaq şeiri** | 1.1.1, 1.2.2, 2.2.1, 2.2.2, 3.1.4 | 2 | 129 | 93 | 148 |
| 64. | **Cütçü** | 1.2.1, 2.1.1, 2.2.1, 2.2.4, 3.1.3, 4.1.5 | 2 | 130 | 93 | 149 |
| 65. | **Bahalı xalça** | 1.1.1, 1.2.4, 2.1.1, 2.1.4, 2.2.4, 3.1.4 | 2 | 131 | 94 | 151 |
| 66. | **Cəfər Cabbarlı** | 1.2.2, 2.1.3, 2.2.1, 2.2.3, 2.2.4, 2.2.5, 3.1.2, 4.1.5 | 2 | 132-133 | 94 | 153 |
| 67. | **Ümumiləşdirici təkrar** | | 2 | 134 | | 154 |
| 68. | **Bölmə üzrə qiymətləndirmə** | | 2 | | 95-97 | 154 |
| | | **Yekun** | **44 saat** | | | |

Çap üçün deyil

## Dərs 53. MÜDRİK RƏHBƏR (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Verilmiş mövzu ilə bağlı məruzə hazırlayıb şifahi təqdim edir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Qarşılaşdığı yeni sözlərin məcazi mənasını kontekstdən çıxış edərək təxmin edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Əsərdəki obrazların nitqini onların xarakterinə uyğun səslə ifadəli oxuyur. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətndən əsas məlumatları seçərək fikir yürüdür. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Müəyyən mövzu ilə bağlı plan quraraq inşa yazır. |
| 4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları məqamına uyğun istifadə edir. | Coğrafi adları yerindən asılı olmayaraq böyük hərflə yazır. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Ad, əlamət, hərəkət bildirən sözləri fərqləndirir. |

**Motivasiya** (Əqli həmlə)

**Müəllim:** – *Sizcə, ölkəyə rəhbərlik edən şəxs hansı xüsusiyyətlərə malik olmalıdır?*

Şagirdlər liderə xas olan xüsusiyyətləri sadalayırlar. Müəllim deyilənlərdən dövlət başçısına şamil olanları lövhədə qeyd edir.

Heydər Əliyev haqqında müəllim əlavə məlumatlar verir. Burada onun fenomenal yaddaşı, natiqliyi, hərtərəfli dünyagörüşü, dünyanın mötəbər siyasətçiləri arasında nüfuzu, ümumiyyətlə, qeyri-adi, təkrarolunmaz xüsusiyyətləri qeyd edilir, “ulu öndər” ifadəsi açıqlanır.

**Oxu**

Dərsliyin 112-ci səhifəsindəki mətn oxunur.

1-ci tapşırıq. Altından xətt çəkilmiş “acı” sözü məcazi mənada işlənmişdir.

**İş dəftərinin 80-ci** səhifəsindəki mətnlə bağlı 1-ci tapşırıq yerinə yetirilir.

Şüurlu oxu üzrə əlavə sual: – *Bu mətni oxuduqdan sonra Heydər Əliyev haqqında bildiklərinizə nə əlavə edə bilərsiniz?* (Uşaqlara qayğı və məhəbbət, mehribanlıq, sonsuz vətən sevgisi, Azərbaycan haqqında dərin biliklərə malik olması və s.)

**Danışma**

*Müəllimin nəzərinə: Bu tapşırıq şagirdlərdən öncə hazırlıq tələb edir. Müəllim əvvəlcədən Heydər Əliyevin həyat və fəaliyyəti haqqında müxtəlif mənbələrdən toplanmış məlumatlar əsasında məruzə-referat hazırlamağı tapşırır (2-ci tapşırıq).*

Bu zaman müxtəlif üsullar tətbiq oluna bilər:

1. **Akvarium** üsulu (bax: MMV, səh. 25).
2. Fərdi çıxışlar. Bir neçə şagird hazırladığı məruzəni təqdim edir. Qalan şagirdlər məruzəyə münasibət bildirir və əlavələr edirlər.
3. Kollektiv məruzələr. Şagirdlər bir neçə qrupa bölünərək topladıqları məlumatları bölüşürlər. Daha sonra hər bir qrup öz spikerini seçir və spiker qrupun məruzəsini təqdim edir.

3-cü tapşırıq. Şagirdlər Şuşa haqqında bildiklərini ümumiləşdirərək təqdimat edirlər.

Çap üçün deyil

**Yazı**

"Mən dövlət başçısı olsaydım, nə edərdim?" mövzusunda inşa yazılır.

Siniflə birlikdə inşanın planı tərtib edilə bilər.

*1. Dövlət başçısı hansı keyfiyyətlərə malik olmalıdır?*
*2. Bu keyfiyyətlərə malik olmaq üçün nə etməliyəm?*
*3. Mən öz vətənimi, xalqımı necə görmək istəyirəm?*
*4. Bu gün vətənimin hansı problemləri var?*
*5. Mən dövlət başçısı olsaydım, bu problemləri aradan qaldırmaq üçün nə edərdim?*

İnşa üçün ayrılmış vaxt bitdikdən sonra könüllülər öz yazdıqlarını sinfə təqdim edə bilərlər. İnşaların təqdimatı və müzakirəsi aparıla bilər.

**Dil qaydaları**

4-cü tapşırıq yerinə yetirilir: *Ağdam, Qarabağ, Hacıkənd, Ağsu.*

5-ci tapşırıq yerinə yetirilir. Ad bildirən sözlər qırmızı, əlamət bildirən sözlər göy, hərəkət bildirən sözlər isə yaşıl rənglə verilmişdir. Göy rənglə verilmiş "tikir" sözü yaşıl, qırmızı rənglə verilmiş "yaşıl" sözü göy, göy rənglə verilmiş "tarla" sözü qırmızı, yaşıl rənglə verilmiş "baharın" sözü qırmızı rənglə verilməli idi. Qara rənglə verilmiş "onların" sözü "uşaqlar" sözünü əvəz edir.

**İş dəftərinin 80-ci** səhifəsindəki dil qaydaları üzrə tapşırıq yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 54. ATATÜRK NİYƏ AĞLADI (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnlə bağlı faktoloji sualları cavablandırır. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Qarşılaşdığı yeni söz və ifadələrin mənasını kontekstdən çıxış edərək izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Oxuduğu mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Tərkibində mürəkkəb sözlər olan mətni üzündən köçürür. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Əsas nitq hissələrini fərqləndirir. |

**Motivasiya**

**Müəllim:** – *Yəqin ki, Türkiyənin böyük lideri dahi Atatürkün adını eşitmisiniz. Bu şəxs haqqında nə bilirsiniz?*

Lövhədə **BİBÖ** cədvəli çəkilir:

| ATATÜRK HAQQINDA | | |
|---|---|---|
| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
| | | |

Cədvəlin birinci iki sütunu doldurulduqdan sonra müəllim dinləmə mətnini səsləndirir.



Çap üçün deyil

### ATATÜRK

Mustafa Kamal Atatürk 133 il əvvəl dünyaya gəlib. Hələ uşaqlıqdan iti ağlı və cəsarəti ilə hamını heyran edən Mustafa Kamalın ən böyük arzusu hərbçi olmaq idi. Bu arzusuna çatdıqdan sonra Mustafa Kamal Türkiyənin düşmənlərinə qarşı çoxlu döyüşdə qalib gəldi. 93 il əvvəl baş verən Qurtuluş savaşında qələbə çalan Atatürk çağdaş Türkiyə dövlətinin əsasını qoydu. 57 yaşında dünyasını dəyişən Mustafa Kamal dünya tarixinə həm böyük sərkərdə, həm də ağıllı dövlət başçısı kimi düşdü.

Mətn oxunduqdan sonra "çağdaş" sözünün mənası şagirdlər tərəfindən təxmin edilir (müasir). Mövzu ilə bağlı suallar verilir. Bundan sonra şagirdlər BİBÖ-nün 3-cü sütununda yeni məlumatları yazırlar.

**Oxu fəaliyyətindən əvvəl motivasiya** (beyin həmləsi)

**Müəllim:** – *Sizcə, insanlar niyə ağlayırlar? Həyatda gördüklərinizdən misal gətirin.*

Şagirdlər gördüklərini, eşitdiklərini yada salaraq belə bir qənaətə gəlirlər ki, insanlar yalnız acıqdan, kədərdən deyil, sevincdən, fərəhdən də ağlayırlar.

**Oxu**

Dərsliyin 114-cü səhifəsindəki mətn oxunur. Dərslikdəki tapşırıqlar yerinə yetirilir.

1-ci tapşırıq. Cavab "B" variantıdır.

2-ci tapşırıq. Cavab "C" variantıdır.

**İş dəftərinin 81-ci** səhifəsindəki 1-2-ci tapşırıqlar yerinə yetirilir.

*Müəllimin nəzərinə: Söz ehtiyatı ilə bağlı dərslikdəki tapşırıqlar yerinə yetirildikdən sonra müəllim mətndəki başqa söz və ifadələrin də mənasını soruşa bilər: "baş çəkir", "sarılmaq", "sıranı yarmaq", "seyr etmək", "örnək olmaq" və s.*

**Yazı**

Mətnin ikinci abzası dəftərə köçürülür. Üzündən köçürmə zamanı yazılışı çətin sözlərə xüsusi diqqət verilməsi tapşırılır (mühafizəçilər, Mustafa Kamal Atatürk, uzaqlaşdırarkən).

**Dil qaydaları**

**İş dəftərinin 81-ci** səhifəsindəki dil qaydaları üzrə tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 55. ŞAİR VƏ HÖKMDAR (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Mətndəki sözü uyğun gələn yaxınmənalı sözlə əvəz edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətni orfoepik normalara uyğun oxuyur. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, açıqca, elan, ərizə, dəvətnamə) yazır. | Verilmiş situasiya ilə bağlı ərizə yazır. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Sayı digər nitq hissələrindən fərqləndirir və xüsusiyyətlərini izah edir. |

**Motivasiya**

**Müəllim:** – *Hansı nitq bacarıqlarını tanıyırsınız?* (dinləmə, danışma, oxu, yazı) *Bunlardan hansılar anlatma bacarıqlarıdır?* (danışma, yazı) *Bəs bu bacarıqlardan hansı yazılı nitqə aid-*



Çap üçün deyil

*dir?* (yazı) *"Onun gözəl yazı bacarığı var" dedikdə nə nəzərdə tutulur?* (Hüsnxət normalarına uyğun yazmaq, orfoqrafik qaydalara riayət etmək, öz fikirlərini maraqlı və anlaşıqlı şəkildə ifadə etmək və s.)

### Oxu

Dərsliyin 115-ci səhifəsindəki mətn oxunur, bəzi sözlərin izahı açıqlanır.

**Müəllim:** – *Mətndə "qabil", "mirzə" sözləri kiçik hərflə yazılıb. Bu sözlər nə zaman böyük hərflə yazılır?*

Dərslikdən 1-2-ci tapşırıqlar (1-ci tapşırıq: ağıllı – aqil, məharətli – mahir, cəsarətli – cəsur), eləcə də iş dəftərinin 82-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilir

### Yazı

Mətn oxunduqdan sonra müəllim ərizənin nə olduğunu, nə məqsədlə yazıldığını soruşur. Şagirdlərə rəsmi-əməli yazının ərizə forması haqqında məlumat verilir. Daha sonra şagirdlər qruplara bölünür və hər qrupa müəyyən həyati situasiya ilə bağlı ərizə tərtib etmək tapşırılır. Qrupların ərizələri oxunur və müzakirə olunur.

*Müəllimin nəzərinə: Müəllim nümunə kimi ərizə formasını şagirdlərə təqdim edə bilər.*

*Bakı şəhəri, Nəsimi rayonu, T.Həsənov adına*
*23 №-li tam orta məktəbin rəqs dərnəyinin rəhbəri*
*Sevda Babayevaya*
*həmin məktəbin 3ª sinif şagirdi Fatimə Talıbovadan*

ƏRİZƏ

*Sizdən xahiş edirəm ki, rəqsə, musiqiyə olan həvəsimi nəzərə alıb məni rəqs dərnəyinə üzv qəbul edəsiniz.*

*İmza: Fatimə Talıbova*

*22 sentyabr 2014-cü il*

### Dil qaydaları

3-cü tapşırıq yerinə yetirilir.

**Müəllim:** – Siz minə qədər saymağı bacarırsınız. *Gəlin görək birdən minə qədər ədədləri ifadə etmək üçün bizə neçə söz lazımdır?*

Şagirdlər sayırlar (lövhədə yazılır): 1) bir, 2) iki, 3) üç, 4) dörd, 5) beş, 6) altı, 7) yeddi, 8) səkkiz, 9) doqquz, 10) on, 11) iyirmi, 12) otuz, 13) qırx, 14) əlli, 15) altmış, 16) yetmiş, 17) səksən, 18) doxsan, 19) yüz, 20) min

**Müəllim:** – Deməli, birdən minə qədər ədədləri ifadə etmək üçün bizə cəmi iyirmi söz lazımdır. Bu sözlər dilçilikdə say adlanır. Lakin ədədləri ifadə edən sözlərdən başqa da saylar var.

Dərsliyin 116-cı səhifəsindəki nəzəri material mənimsənilir və həmin səhifədəki tapşırıqlar müzakirə yolu ilə yerinə yetirilir.

**Qruplarla iş:** I qrup. İş dəftəri, səh. 83, tap. 1.
II qrup. İş dəftəri, səh. 83, tap. 2.
III qrup. İş dəftəri, səh. 83, tap. 3.
IV qrup. İş dəftəri, səh. 83, tap. 4.

Şagirdlərin təqdimatları dinlənilir və müzakirə olunur.

**İş dəftərinin 83-cü** səhifəsindəki dil qaydaları üzrə tapşırıqlar yerinə yetrilir.

*Müəllimin nəzərinə: 4-cü və 5-ci tapşırıqlar şagirdlər üçün müəyyən çətinlik yarada bilər.*

*4-cü tapşırıqda sözlərdəki hərflər müəyyən rəqəmləri, sözlər isə həmin rəqəmlərin cəmini ifadə edir. Məsələn, "un" (5) sözü ilə "yun" (6) müqayisə olunur. "Yun" sözündə y hərfi artıqdır, 6-5=1 olduğundan y hərfi 1 rəqəminə uyğun gəlir. Bu qayda ilə o (4), y (1), u (2),*



Çap üçün deyil

*n (3) hərflərinin rəqəm ifadəsi tapılır. Cavab: oyun – 10 (4+1+2+3=10) olar.*
*5-ci tapşırıqda isə yeni söz verilən sözlərin son iki hərfini birləşdirməklə əmələ gəldiyindən sonda "qala" sözü yazılmalıdır.*

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 56. ONLUQ SAY SİSTEMİ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.2.2. Bədii və elmi-kütləvi mətnləri fərqləndirir, onların xüsusiyyətlərini sadə şəkildə şərh edir. | Elmi mətndəki əsas məlumatları mənimsəyir və təcrübədə tətbiq edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını həyat haqqında düşüncələri ilə əlaqələndirərək fikir yürüdür. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Tərkibində mürəkkəb saylar olan mətni üzündən köçürür. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Yazdığı imla mətnini orfoqrafik cəhətdən yoxlamaq üçün lüğətdən istifadə edir. |

### Motivasiya
Müəllim təklif edir ki, şagirdlər "Lal-dinməz" oyunu oynasınlar. Bunun üçün qarşıya üç şagird dəvət olunur. Onların hərəsinə vərəqdə yazılmış bir cümlə verilir. Məsələn:
*1. Mənim doqquz yaşım var.*
*2. Sinfimizdə 23 şagird var.*
*3. Divardan altı portret asılıb.*
Şagirdlər cümlələri səsləndirmədən jest və mimikalarla ifadə etməyə çalışırlar. Bu zaman say bildirən sözləri barmaqları ilə ifadə edirlər.

### Oxu
Dərsliyin 117-ci səhifəsindəki mətn oxunur. Müəllim dörd şagirdi qabağa çağırır. Bunlardan biri üçrəqəmli ədəd söyləyir. Digərləri isə barmaqla göstərməklə ədədi nümayiş etdirirlər. Bu, mətnin şüurlu oxuyub anladığını nümayiş etdirir.
Daha sonra dərslikdəki tapşırıqlar yerinə yetirilir.
1-ci tapşırıq. Sayılan şeylərin miqdarı 257-dir.
2-ci tapşırıq. *On, bir, onluq, dörd, bir-bir* sözləri əşyanın dəqiq sayını bildirir.
*Çoxlu, bir neçə* sözləri əşyanın təqribi sayını bildirir.
*Birinci, ikinci, üçüncü* sözləri sıra sayıdır. Bu sözlər və *çoxlu* sözü ***hansı?*** sualına cavab verir.
*On, bir, onluq, dörd, bir-bir, bir neçə* sözləri ***neçə?*** sualına cavab verir.

**İş dəftərinin 84-cü** səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

### Yazı
Mətnin sonuncu abzası dəftərə köçürülür. Üzündən köçürmə zamanı rast gələnən say bildirən sözlər lazım gəldikcə ədədlə ifadə olunur.

### Dil qaydaları
**İmla mətni**
*Qırmızı rənglə verilmiş sözlərin yazılışına xüsusi diqqət yetirilir.*



Çap üçün deyil

**NƏSİRƏDDİN TUSİ** (61 söz)

Nəsirəddin Tusi 800 il əvvəl Cənubi Azərbaycanın Həmədan şəhərində anadan olmuşdur. Sonradan o, Tus şəhərinə köçmüş, təhsilini də burada almışdır. Öz çalışqanlığı və səyi nəticəsində Nəsirəddin müəllimlərin rəğbətini qazanmışdı. O, güclü hafizəyə malik idi. Oxuduğunu və eşitdiyini mütləq öz mühakiməsi ilə yoxlayırdı. Yeni düsturlar, nəzəriyyələr, alətlər yaratmağı sevirdi.

Tusinin ən böyük xidmətlərindən biri Marağa şəhərində rəsədxananın və kitabxananın yaradılması olmuşdur.

**Sinifdənxaric oxu.** "Bostançı və Şah Abbas" (nağıl).

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 57. RƏQƏMLƏRİN TARİXİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.3. Öyrəndiyi yeni söz və terminlərdən məqamında istifadə edir. | Öyrəndiyi terminin hansı elm sahəsinə aid olduğunu müəyyən edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndəki hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnləri fərqləndirir, onların xüsusiyyətlərini sadə şəkildə şərh edir. | Elmi mətndəki əsas məlumatları əvvəl bildikləri ilə müqayisə edir. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, açıqca, elan, ərizə, dəvətnamə) yazır. | Tədbirlə bağlı elan yazır. |

**Motivasiya**

Müəllim lövhədə bir üçrəqəmli ədəd yazır (məsələn, 517) və onu sözlə ifadə etməyi tapşırır.
**Sual:** – *Niyə "beş, bir, yeddi" yox, "beş yüz on yeddi" dediniz?*
Şagirdlərin fikirləri dinlənilir və müzakirə olunur.

**Oxu** (Sual müsabiqəsi)

Dərsliyin 118-ci səhifəsindəki mətn oxunur və "Sual müsabiqəsi" üsulu tətbiq olunur (bax: MMV, səh. 24-25).

**Müəllim:** – *"Onun sifəti qızarmışdı", "Sifət əşyanın əlamətini bildirir". Bu cümlələrdən hansında "sifət" sözü dilçilik elmi ilə bağlıdır?*

Müəllim bildirir ki, elmin müxtəlif sahələri ilə əlaqədar olan sözlərə termin deyilir.

2-ci tapşırıq yerinə yetirildikdən sonra dərsliyin 119-cu səhifəsindəki nəzəri material mənimsənilir və həmin səhifədəki tapşırıqlar müzakirə yolu ilə yerinə yetirilir. Sualların düzgün cavabı tapıldıqca müəllim cavabı əsaslandırmağı və müvafiq termini cümlədə işlətməyi tapşırır.

5-ci tapşırığın cavabı: siçan.

7-ci tapşırıq. Birinci sətirdə "Ç" variantı, ikinci sətirdə isə "B" variantı fərqlidir. Birinci sətirdəki *oktava, pauza, forte* sözləri musiqi, ikinci sətirdəki *dekor, natürmort, illüstrasiya* sözləri təsviri incəsənət fənlərinə aiddir.

**Müəllim:** – *Sizcə, terminlər daha çox hansı mətnlərdə işlənir: bədii, yoxsa elmi? Cavabınızı əsaslandırın.*



Çap üçün deyil

**Qruplarla iş.**
I qrup. İş dəftəri, səh. 85, tap. 1, 2.
II qrup. İş dəftəri, səh. 85, tap. 3.
III qrup. İş dəftəri, səh. 85, tap. 4.
IV qrup. İş dəftəri, səh. 85, tap. 5.
Qruplar təqdimat zamanı tapşırıqların cavablarını şərh edir və əsaslandırır.

**Yazı**

**Müəllim:** – *Hər hansı tədbirlə bağlı elə bir elan yazın ki, orada həm "ərəb rəqəmləri", həm də "Roma rəqəmləri" işlənsin.*

**İş dəftərinin 86-87-ci** səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 58. MÜƏLLİMDƏN HƏDİYYƏ. ÜZEYİR HACIBƏYLİ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Mövzu ilə bağlı məlumat toplayaraq məruzə şəklində təqdim edir. |
| 2.1.3. Öyrəndiyi yeni söz və terminlərdən məqamında istifadə edir. | Terminin mənşəyini araşdırır və mənası ilə əlaqəni müəyyən edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətni oxuyarkən qəhrəmanların nitqini onların xarakterinə uyğun səsləndirir.<br>Mətnə aid sualları cavablandırmaqla mətni şüurlu oxuduğunu nümayiş etdirir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnləri fərqləndirir, onların xüsusiyyətlərini sadə şəkildə şərh edir. | Yaxın mövzularda yazılmış bədii və elmi mətnləri xüsusiyyətlərinə görə fərqləndirir. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətni məzmunca bitkin hissələrə ayıraraq plan tutur. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətndəki əsas fikri şəxsi həyatı ilə əlaqələndirir. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Əsərin müəyyən hissəsini oxuduqdan sonra baş verəcək hadisələri proqnozlaşdırır.<br>Mətndəki hadisələri ardıcıllıqla nəql edir.<br>Mətni plan üzrə nəql edir. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Çətin sözlərin düzgün yazılışını müəyyənləşdirməklə mətni köçürür. |
| 4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları məqamına uyğun istifadə edir. | Xüsusi isimləri böyük hərflə yazır.<br>Bəzi mürəkkəb adların yazılış qaydasını bilir və yazıda tətbiq edir. |

*Müəllimin nəzərinə: Bu dərs dərsliyin 120-121-ci səhifələrində verilmiş "Müəllimdən hədiyyə" və "Üzeyir Hacıbəyli" mətnlərini əhatə edir.*

**Motivasiya**

Lövhədə BİBÖ cədvəli çəkilir:

| ÜZEYİR HACIBƏYLİ HAQQINDA | | |
|---|---|---|
| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
| | | |

Çap üçün deyil

Şagirdlər Ü.Hacıbəylini bəstəkar və Azərbaycan Respublikası Dövlət himninin müəllifi kimi tanıdıqlarını deyə bilərlər.

Cədvəlin birinci iki sütunu doldurulduqdan sonra müəllim böyük bəstəkar haqqında müəyyən məlumat verir və onun musiqisindən parçalar səsləndirir.

**Oxu** (Proqnozlaşdırma)

Dərsliyin 120-ci səhifəsindəki "Müəllimdən hədiyyə" mətni "Ümidini itirmə" cümləsinə qədər oxunur. Şagirdlər hekayənin ardını öz təxəyyüllərinə uyğun davam etdirirlər. Daha sonra hekayə tam oxunur və söylənilmiş versiyalarla müqayisə olunur.

**Suallar:**

– *Nəyə görə hədiyyəni verən özünü tanıtmaq istəmədi?*
– *Mətndə hansı nitq etiketlərindən istifadə olunmuşdur?*
– *Sizcə, Üzeyir bəy köməkçisinin qulağına nə pıçıldamışdı? (1-ci tapşırıq)*
– *Qıza pianonu kim göndərmişdi?*
– *Niyə assistent qıza tərcümeyi-halını yazmağı tapşırdı?*
– *Mətndə Üzeyir Hacıbəylinin hansı keyfiyyətindən danışılır? (Gözəl insan və pedaqoq olmağından) (2-ci tapşırıq)*

Mətndəki hadisələr ardıcıllıqla nəql olunur.

Daha sonra "Üzeyir Hacıbəyli" mətni abzaslarla oxunur. Hər abzas oxunduqdan sonra şüurlu oxunu yoxlamaq məqsədilə suallar verilir.

***I abzas*:**
– *Üzeyir Hacıbəyli kim olmuşdur?*
– *O nə vaxt və harada anadan olmuşdur?*
– *Üzeyir Hacıbəylinin valideynləri haqqında nə deyə bilərsiniz?*

***II abzas*:**
– *Üzeyir Hacıbəyli təhsilini harada almışdır?*
– *Üzeyir müəllimlərini nə ilə heyran edirdi?*

***III abzas*:**
– *Seminariyanı bitirdikdən sonra Üzeyir Hacıbəyli haraya gəlmişdir?*
– *Üzeyir Hacıbəyli harada və hansı işdə çalışmışdır?*

***IV abzas*:**
– *Üzeyir Hacıbəyli Moskvaya nə üçün getmişdir?*
– *Şərqdə opera sənətinin əsası hansı əsərlə və kim tərəfindən qoyulmuşdur?*

***V abzas*:**
– *Üzeyir Hacıbəylinin hansı xidmətləri olmuşdur?*
– *Himnin müəllifi olan Üzeyir Hacıbəyli həm də nəyin banisi sayılır?*

***VI abzas*:**
– *Üzeyir Hacıbəyli yaradıcılığının zirvəsi hansı əsərlə qoyuldu?*
– *Bu əsər nə vaxt və harada tamaşaya qoyuldu?*

***VII abzas*:**
– *Üzeyir Hacıbəyli nə vaxt vəfat etmişdir?*

Bundan sonra hər abzasa plan tutulur və mətnin əsas hissələri nəql olunur.

Plan:

1. *Ziyalı ailədə həyata göz açan Üzeyir*
2. *Üzeyir Hacıbəylinin təhsil aldığı yerlər*
3. *Üzeyir Hacıbəylinin çalışdığı sahələr*
4. *Şərqdə ilk opera*
5. *Üzeyir Hacıbəyli Azərbaycan operettasının banisi*
6. *Üzeyir Hacıbəylinin yaradıcılıq zirvəsi*



Çap üçün deyil

*7. Üzeyir Hacıbəylinin vəfatı*

1-ci tapşırıq. *"Müəllimdən hədiyyə" mətni bədii, "Üzeyir Hacıbəyli" mətni isə elmi mətndir.*

2-ci tapşırıq. Şagirdlər musiqi terminləri haqqında məlumatla musiqi fənnindən tanışdırlar, onlar bu terminlər haqqında məlumat toplayıb təqdim edirlər. Musiqi dərsi keçməyən müəllimlər üçün bu sözlərin izahı aşağıda verilir.

*Opera* (ital. *opera* – hadisə, əsər) – orkestrin müşayiətilə səhnədə ifa olunan musiqili dram. Əvvəldən sona qədər musiqi ilə ifa olunan səhnə əsəridir.

*Marş* – kollektiv yürüşü müşayiət etmək üçün addımlara uyğun ölçüsü olan gümrah, aydın ritmli musiqi əsəri. Marş xarakterinə görə müxtəlif növlərə bölünür: təntənəli, hərbi, idman, matəm və s.

*Kantata* (ital. *cantata*, *cantare* – oxumaq) – 1) XVII əsrin əvvəllərində (İtaliyada) sonatadan fərqli olaraq oxumaq üçün müşayiətli əsər; 2) solist müğənnilər, orkestr, həmçinin xor üçün yazılmış, bitmiş nömrələrdən ibarət olan və konsert planında ifa edilməsi nəzərdə tutulan əsər.

*Mahnı* – vokal musiqisinin formalarından biri olub xalq musiqisi yaradıcılığında, musiqi məişətində, həmçinin professional musiqidə geniş yayılmışdır.

*Romans* (ispan. romanse – roman dilində, yəni ispanca) – 1) instrumental müşayiətlə solo səs üçün yazılan lirik mahnı; 2) fortepiano və ya başqa musiqi alətinin müşayiəti ilə oxunan kiçik vokal əsəri; 3) kamera – vokal musiqisinin əsas janrlarından biri; 4) vokal musiqisidən iqtibas olunmuş lirik xarakterli instrumental pyes.

*Kamera musiqisi* – böyük olmayan musiqi ifaçıları qrupu üçün bəstələnmiş instrumental və ya vokal musiqi.

*Xor* – səs üçün yazılmış musiqinin kollektiv ifası.

*Himn* – nəyisə və yaxud kimisə vəsf edən təntənəli nəğmə.

*Operetta* – musiqili parçalar və səhnə danışığından ibarət, simfonik orkestrlə müşayiət olunan komik xarakterli musiqili səhnə əsəri.

**İş dəftərinin 88-ci** səhifəsindəki mətnlərlə bağlı tapşırıqlar yerinə yetirilir.

### Danışma

Üzeyir Hacıbəylinin musiqi yaradıcılığı haqqında konfrans təşkil olunur.

*Müəllimin nəzərinə: Bu dərs şagirdlərdən öncə hazırlıq tələb edir. "Müəllimdən hədiyyə" dərsini keçdikdən sonra müəllim Ü.Hacıbəylinin musiqi əsərləri haqqında müxtəlif mənbələrdən toplanmış məlumatlar əsasında məruzə-referat hazırlamağı tapşırır. Bəstəkarın musiqi yaradıcılığını tam əhatə etmək məqsədilə müəllim əvvəlcədən şagirdləri qruplara bölüb hər qrupa ayrıca tapşırıq verə bilər:*

*I qrup. Ü.Hacıbəyli Azərbaycan Respublikası Dövlət himninin müəllifi kimi*
*II qrup. Ü.Hacıbəylinin operaları ("Leyli və Məcnun", "Koroğlu")*
*III qrup. Ü.Hacıbəylinin musiqili komediyaları ("Məşədi İbad", "Arşın mal alan")*
*IV qrup. Ü.Hacıbəylinin romansları ("Sənsiz", "Sevgili canan")*

Kollektiv məruzələr dinlənilir. Hər qrup öz spikerini seçir və spiker qrupun məruzəsini təqdim edir.

### Yazı

"Üzeyir Hacıbəyli" mətnindən yazılışı çətin olan sözlər, cümlələr seçilir və dəftərə köçürülür (romans, operetta, seminariya, musiqişünas, valideyn və s.).

### Dil qaydaları

Böyük hərflə yazılan sözlər seçilir və onların hər birinin nə üçün böyük hərflə yazıldığı izah olunur. Məsələn, "Koroğlu" – operanın adı olduğu üçün böyük hərflə və dırnaq içində yazılır.

**İş dəftərinin 88-ci** səhifəsindəki dil qaydalarına aid tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

Çap üçün deyil

## Dərs 59. ŞAH İSMAYIL XƏTAİ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətndəki məlumatlarla bağlı fikir yürüdür. |
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi mətndəki hadisələrin davamını təxmin edir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mövzu ilə bağlı mətndə öz əksini tapmayan məlumatları müəyyən edir.<br>Mətni oxuyarkən qəhrəmanların nitqini onların xarakterinə uyğun səsləndirir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını həyat haqqında düşüncələri ilə əlaqələndirərək fikir yürüdür. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Özünü əsər qəhrəmanının yerinə qoyaraq əsəri interpretasiya edir.<br>Mətnin qısa məzmununu nəql edir. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Yazdığı imla mətnini orfoqrafik cəhətdən yoxlamaq üçün lüğətdən istifadə edir. |

**Motivasiya**

**Müəllim:** – *Şah İsmayıl Xətai haqqında nə bilirsiniz?*

Lövhədə BİBÖ cədvəli çəkilir:

| ŞAH İSMAYIL XƏTAİ HAQQINDA | | |
|---|---|---|
| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
| | | |

Müəllimin yönəldici sualları ilə cədvəlin 1-ci sütununu doldurmaq üçün şagirdlər Şah İsmayılın hökmdar, sərkərdə, şair olduğunu, qədimdə yaşadığını deyə bilərlər.

**Oxu** (Proqnozlaşdırma)

Müəllim Şah İsmayıl Xətai haqqında ümumi məlumat verdikdən sonra dərsliyin 122-ci səhifəsindəki mətnin birinci iki abzası oxunur.

**Müəllim:**

– *Siz Gilan hakiminin yerinə olsaydınız, nə edərdiniz?* – sualı ilə müraciət edir. Şagirdlərin fərziyyələri dinlənilir və mətnin davamı oxunaraq fərziyyələrlə müqayisə olunur.

Dərslikdəki tapşırıqlar yerinə yetirilir.

**İş dəftərinin** 89-cu səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir.

**Dinləmə**

Dərsliyin 33-cü səhifəsindəki "Qələm" şeiri xatırlanır. Müəllim belə bir məlumat verir:

– Bacarıqsız adam günahı istifadə etdiyi alətdə gördükdə belə bir ifadə işlədirlər: "Qılınc həmin qılıncdır, qol o qol deyil". İndi bu ifadənin tarixçəsi ilə bağlı bir mətnə qulaq asacaqsınız.

Mətni səsləndirməzdən əvvəl müəllim uşaqlara bildirir ki, dinlədikdən sonra onlar mətni öz sözləri ilə danışmalıdırlar.

Çap üçün deyil

## QILINC HƏMİN QILINCDIR...

Azərbaycanın böyük hökmdarı və şairi Şah İsmayıl Xətai istedadlı olmaqla yanaşı, həm də çox qüvvətli imiş. Bir dəfə döyüşlərdən birində o, qılıncını çəkərək düşmən topunun lüləsini iki yerə bölür. Bunu eşidən türk sultanı Şah İsmayıldan həmin qılıncı istəyir. Şah qılıncını ona göndərir.

Türk sultanı qılıncı götürərək atın üstündə öz qoşununun qarşısına çıxır. Bir topa yaxınlaşaraq var gücü ilə qılıncı topun lüləsinə endirir. Zərbədən sultanın biləyi ağrıyır, amma topa heç nə olmur.

Sultan Şah İsmayıldan inciyir, elə bilir ki, onu aldadıb, həmin qılıncı göndərməyib. Bunu eşidən Şah İsmayıl sultana xəbər göndərir: “Hökmdar sağ olsun, qılınc həmin qılıncdır, qol o qol deyil”.

**Danışma**. Şagirdlərdən biri dinlədiyi mətnin qısa məzmununu nəql edir. Qalan şagirdlər orijinal mətnlə müqayisədə yeni dinlənilən mətndə hansı vacib məqamların buraxıldığını aşkar etməyə çalışırlar. Müəllim lazım bildikdə mətnin müəyyən hissələrini və şagirdin diktofona yazılmış nitqini yenidən səsləndirir.

Dinləmə mətni ilə bağlı şagirdlərə iş vərəqləri paylanılır.

**1. Mətndə Şah İsmayıl Xətainin hansı xüsusiyyətindən danışılır?**
A) şairlik istedadından
B) ədalətli hökmdar olmağından
C) fiziki gücündən

**2. Türk sultanı Şah İsmayıl Xətaidən qılıncı niyə istədi?**
A) Elə bilirdi ki, qılınc sehrlidir.
B) Elə bilirdi ki, Şah İsmayıl Xətainin gücü onun qılıncındadır.
C) Şah İsmayılı alçaltmaq istəyirdi.

**3. Hansı fikir doğrudur?**
A) Şah İsmayıl Xətai sultanı aldatdı.
B) Şah İsmayıl Xətainin qılıncı qızıldan idi.
C) Şah İsmayıl Xətai türk sultanından daha güclü idi.

**4. Mətndə “top” sözü hansı mənada işlənib?**
A) odlu silah növü
B) bir çox oyunlarda istifadə olunan idman aləti
C) nazik taxtaya sarınmış parça

**5. Bu sözlərin hansında səslərin sayı hərflərin sayından çoxdur?**
A) qılınc B) hökmdar C) sultan

**Sinifdənxaric oxu.** “Şirvanşah İbrahim” (elmi-kütləvi mətn).

### Yazı

**İmla** (qırmızı rənglə verilmiş sözlərin yazılışına xüsusi diqqət yetirilir)

**BABƏK** (51 söz)

Babək Ərdəbil yaxınlığında, Bilalabad kəndində anadan olmuşdu. Uşaq ikən atasını itirmiş, varlıların mal-qarasını otarmış, sənətkar yanında şagird olmuşdu. Dəvə karvanının sarbanı olarkən o, çox yerlər, ölkələr gəzmişdi. Hər yerdə xalqın ağır vəziyyətini, bədbəxtliklərini, yerli varlıların ərəblərlə birləşdiyini öz gözləri ilə görmüşdü. Buna görə də onda ərəb işğalçılarına qarşı dərin nifrət yaranmışdı.

### Dil qaydaları.

**İş dəftərinin 88-ci** səhifəsindəki dil qaydaları üzrə tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

# Dərs 60. HACI ZEYNALABDİN TAĞIYEV (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnlə bağlı faktoloji sualları cavablandırır. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Qarşılaşdığı yeni sözlərin mənasını kontekstdən çıxış edərək təxmin edə bilir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnləri fərqləndirir, onların xüsusiyyətlərini sadə şəkildə şərh edir. | Verilmiş faktlara əsaslanaraq elmi-bioqrafik mətn hazırlayır. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətni bitkin hissələrə bölərək plan tutur. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Oxuduqlarına dair gündəlik həyatdan misallar gətirir. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Mətni plan üzrə nəql edir. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Tərkibində yazılışı çətin olan sözlərin işləndiyi cümlələri seçir və dəftərinə köçürür. |
| 3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. | Dinlədiyi mətnin qısa məzmununu yazır. |

**Motivasiya**

**Müəllim:** – *Kimə xeyriyyəçi deyirlər? Elə bir adam haqqında eşidibsinizmi?*

Şagirdlər mülahizələrini deyir, eşitdikləri haqda danışırlar. Müəllim müzakirəyə xeyriyyəçilərin cəmiyyətdə rolu barədə fikirləri ilə yekun vurur.

**Dinləmə**

**XEYRİYYƏÇİ TAĞIYEV**

Bütün dünyada tanınmış neft milyonçusu Hacı Zeynalabdin Tağıyevin atası Tağı kişi İçərişəhərdə başmaqçı işləyirdi. O, çox kasıb bir adam idi. Tağı kişi on iki yaşlı Zeynalabdini bənna yanına şagird qoydu. O, ustaya palçıq daşıyır və kərpic verirdi. Gündə altı qəpik əməkhaqqı alır, qazancını atasına verirdi. İşə hamıdan tez gəlir, hamıdan gec gedirdi. Ona görə də artıq on səkkiz yaşında Zeynalabdın bənnalıq sənətinə yiyələndi və müstəqil usta kimi işləməyə başladı.

Bir gün məlum oldu ki, Zeynalabdinin Abşerondakı torpaq sahəsində zəngin neft yatağı var. Bundan istifadə edən bacarıqlı Zeynalabdin həmin sahədə neft buruqları saldı və çıxardığı nefti satmaqla az müddət ərzində Azərbaycanın ən varlı adamlarından birinə çevrildi.

Lakin Hacı Zeynalabdin Tağıyev xalqın yaddaşında sadəcə olaraq neft milyonçusu kimi qalmayıb. O, var-dövlətinin böyük bir hissəsini Azərbaycan mədəniyyətinin inkişafı üçün xərcləyirdi: teatr binası, qızlar üçün məktəb tikdirir, bir çox istedadlı gənclərin xaricdə təhsil haqqını ödəyirdi.

İş vərəqləri və ya şifahi sual-cavab yolu ilə mətnin tam qavranıldığı yoxlanılır.

**Yazı** (ifadə)

Şagirdlər dinlədikləri mətn əsasında ifadə yazırlar.

Müəllim evdə araşdırma üçün tapşırıqlar verə bilər:

1. *Bakıda Tağıyevin tikdirdiyi hansı binalar indi də qalmaqdadır?*
2. *Tağıyevin tikdirdiyi qızlar seminariyasının binasında indi hansı təşkilat yerləşir?*
3. *Tağıyevin şəxsi evində indi hansı muzey yerləşir?*



Çap üçün deyil

**Oxu**

**Müəllim:** – *"Yaxşılıq elə, at dəryaya, balıq bilməsə də, Xaliq bilər" atalar sözünün mənasını izah edin.*

Şagirdlər öz fikirlərini söyləyirlər. Əlavə suallar vasitəsilə şagirdlər belə bir nəticəyə yönəldilir:

*– Hər bir insan öz vicdanının hökmü ilə yaxşılıq etməlidir, yaxşılıqdan yaxşılıq gözləməməlidir.*

**Proqnozlaşdırma.** Dərsliyin 123-cü səhifəsindəki mətn "Ertəsi gün faytona minib balıq vətəgələrindən birinə getdi" cümləsi də daxil olmaqla oxunur. "Vətəgə" sözünün mənası açıqlandıqdan sonra *(vətəgə – çay, göl və dəniz balıqlarını ovlamaq üçün sahildə yerləşən məntəqə, müəssisə)* müəllim soruşur:

*– Sizcə, Hacı Zeynalabdin nə üçün vətəgəyə getmişdi?*

Şagirdlər öz versiyalarını söylədikdən sonra mətnin qalan hissəsi oxunur və həmin versiyalarla müqayisə olunur.

Mətnin geniş planı tutulur və əsas hissələr seçilib nəql olunur.

**Plan**

*1. Hacı Zeynalabdin haqqında qısa məlumat*
*2. Bazardan əliboş qayıdan aşpaz*
*3. Hacı ilə dükan sahibinin söhbəti*
*4. Hacı balıq vətəgəsində*
*5. Yenidən dənizə buraxılan balıq*
*6. Qarnında üzük gəzdirən balıq ovuna çıxan balıqçılar.*
*7. Bazarlarda balıq bolluğu.*

Dərsliyin 124-cü səhifəsindəki sual və tapşırıqlar yerinə yetirilir.

4-cü tapşırığa əsasən şagirdlər Hacı Zeynalabdin Tağıyev haqqında elmi mətn hazırlayıb təqdim edirlər.

**Sual:** – *Müasir dövrdə tanıdığınız, eşitdiyiniz adamlar içərisində Hacı Zeynalabdın Tağıyev kimi xeyriyyəçi olan tanıyırsınızmı? Onun haqqında danışın.* (Bu, ev tapşırığı kimi verilə bilər.)

**Yazı**

Mətndən yazılışı çətin olan sözlər işlənmiş cümlələr seçilir və dəftərə yazılır *(məşhur, Hacı Zeynalabdin Tağıyev, aşpaz, brilyant və s.).*

**İş dəftərinin 90-cı** səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 61. MAKEDONİYALI İSGƏNDƏR (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətndəki məlumatlardan çıxış edərək məntiqi nəticə çıxarır. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Obrazı səciyyələndirmək üçün mətnin müvafiq epizodlarına istinad edir. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Mətni bitkin hissələrə bölərək nəql edir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Dinlədiyi və ya oxuduğu mətndəki məlumatlardan çıxış edərək obraz haqqında təsviri xarakterli inşa yazır. |
| 4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları məqamına uyğun istifadə edir. | Xüsusi isimləri böyük hərflə yazır. |



Çap üçün deyil

**Motivasiya**

**Müəllim:** – *Sərkərdə kimdir? Hansı sərkərdələri tanıyırsınız?* (Keçilən mövzulardan şagirdlərin Şah İsmayıl haqqında məlumatları var. Ola bilsin, onlar Babək, Cavanşir, Teymurləng haqqında da eşidiblər.) *Dünyanın ən məşhur sərkərdələrindən biri də Makedoniyalı İsgəndər olub. Bu gün biz onunla bağlı bir mətn oxuyacağıq.*

**Oxu** (**Ziqzaq**, **Sual müsabiqəsi**)

Dərsliyin 125-126-cı səhifələrindəki mətn bitkin hissələrə bölünərək əvvəlcə **Ziqzaq** üsulu ilə oxunur (bax: MMV, səh. 26):

**I hissə.** Balaca İsgəndərin tərbiyəsi (1-ci iki abzas)

**II hissə.** Təkəbbürlü şahzadə (3-cü abzas)

**III hissə.** İsgəndərin atı ram etməsi

**IV hissə.** İsgəndər və Dara

Sonda qrupların nümayəndələri mətni öz sözləri ilə sinfə danışırlar və bu dəfə **Sual müsabiqəsi** metodu tətbiq olunur (bax: MMV, səh. 24-25).

Dərsliyin 126-cı səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

*Müəllimin nəzərinə: 4-cü tapşırığa daha çox vaxt ayırıb onu ümumi müzakirə obyektinə çevirmək olar. Bundan əlavə, şagirdlərin diqqətini İsgəndərin nitqindəki söz oyununa yönəltmək yaxşı olardı:*

*Parmenion dedi:*

*– Mən İsgəndər olsaydım, razılaşardım.*

*İsgəndər dedi:*

*– Mən də razılaşardım, əgər İsgəndər olmasaydım.*

*Və ya:*

*– Mən İranın hamısını yarısına dəyişmək fikrində deyiləm.*

Şagirdlərdən sonuncu ifadənin mənasını soruşmaq lazımdır.

**Dinləmə**

**Müəllim:** – *Gəlin "Makedoniyalı İsgəndər" mətnində adları çəkilən şəxsiyyətlər haqqında biliklərimizi yoxlayaq*.

İş dəftərinin 91-ci səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir.

**Müəllim:** – *Mətnin 1-ci abzasına diqqət yetirin. Orada "İsgəndər" sözündən sonra üç nöqtə qoyulub. Bilmək istəyirsinizmi, İsgəndərin tam adı Şərqdə necədir?*

İş dəftərinin 91-ci səhifəsindəki 2-ci tapşırıq yerinə yetirilir. ("Zülqərneyn" sözü tapılır)

İsgəndərin atı ram etməsi səhnəsi xatırlanır. Müəllim əlavə məlumat verir:

*– İsgəndərin bu atı Hindistan yürüşü zamanı öldü. Böyük sərkərdə öz atını o qədər sevirdi ki, onun öldüyü yerdə şəhər saldırıb həmin şəhəri atın adı ilə adlandırdı. Bu atın adını bilmək üçün iş dəftərindəki 3-cü tapşırığı yerinə yetirin.*

Şagirdlər tapşırığı yerinə yetirib atın adının Bukefal olduğunu öyrənirlər.

**Dinləmə mətni**

### İSGƏNDƏRİN HƏRBİ YÜRÜŞÜ

İsgəndərin hərbi yürüşləri barədə çoxlu rəvayət söyləyirlər. Onlardan biri belədir.

Hərbi səfəri zamanı Makedoniyalı İsgəndər növbəti şəhəri mühasirəyə alır. Lakin şəhər əhalisi təslim olmur, Makedoniya ordusuna müqavimət göstərirdi. Şəhər yaxınlığında düşərgə salan İsgəndər sərkərdələrinə tapşırır ki, hücumları davam etdirib müqaviməti qırsınlar və şəhəri qarət etsinlər.

Bu şəhərdə Anaksimen adlı bir filosof alim yaşayırmış. O, vaxtilə İsgəndərin müəllimi olmuşdu. Taqətdən düşmüş şəhər əhalisi qərara gəlir ki, Anaksimeni İsgəndərin yanına göndərib rəhm diləsin. Anaksimen razılaşır. Təkbaşına şəhərdən çıxıb İsgəndərin düşərgəsinə yollanır.



Çap üçün deyil

İsgəndər uzaqdan müəllimini görən kimi onun gəlişinin məqsədini başa düşür və qışqırır:
– Müəllim, and içirəm ki, bu dəfə sənin dediklərin keçməyəcək, çünki mən sənin xahişinə əməl etməyəcəyəm!
Dünyagörmüş filosof sakit səslə deyir: «….»
Bundan sonra İsgəndər öz ordusuna geri çəkilmək əmri verir.

**Sual:** – *Sizcə, filosof İsgəndərə nə dedi ki, böyük sərkərdə şəhərdən əl çəkməli oldu?*
Cavab variantları:
A) Sən müəllimin xahişini yerə sala bilməzsən.
B) Bu mənim səndən son xahişimdir.
C) Mən səndən xahiş edirəm, bu şəhəri tut və qarət et.
*Müəllimin nəzərinə: Düzgün cavab variantı "C" bəndidir, çünki İsgəndər and içmişdi ki, müəlliminin xahişinə əməl etməyəcək.*

**Yazı**
Şagirdlər oxunmuş və dinlənmiş mətnlərdəki materialdan istifadə edərək Makedoniyalı İsgəndərin şəxsiyyəti haqqında təsviri xarakterli inşa yazırlar.

**Dil qaydaları**
Həm dərslikdəki, həm də iş dəftərində böyük hərflə yazılan sözlər seçilib dəftərə yazılır.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 62. İSTEDADLI ŞAGİRD (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi şeirdəki bədii ifadələrli sadə şəkildə təhlil edir. |
| 1.2.3. Fikirlərini aydın və obrazlı etmək məqsədilə bədii ifadələrdən istifadə edir. | Şeirdən bədii ifadələri (bənzətmələri) seçir və cümlədə işlədir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Qarşılaşdığı məcazi mənalı söz və ifadələrin mənasını kontekstdən çıxış edərək təxmin edə bilir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Mətndəki sözü uyğun gələn yaxınmənalı sözlə əvəz edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətni orfoepik normalara uyğun oxuyur. Mətnin məzmununa uyğun gələn fikirləri müəyyənləşdirir. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Əvəzliyi digər nitq hissələrindən fərqləndirir və hansı nitq hissəsini əvəz etdiyini müəyyənləşdirir. |

**Motivasiya**
**Müəllim:** – *Səməd Vurğunun hansı şeirlərini bilirsiniz?*
Şagirdlər bildikləri şeirləri oxuyurlar. Şeirlər qısaca təhlil olunur. Şagirdlər bu şeirlərin müəllifini, onun xarakterini təsəvvür etməyə çalışırlar.
**Oxu**
Dərsliyin 127-ci səhifəsindəki "İstedadlı şagird" mətni hissə-hissə oxunulur. Sözlərdə orfoepik qaydalara uyğun tələffüz edilməyə xüsusi diqqət yönəldilir. Fikirlər dinlənilir. "Firidun



Çap üçün deyil

bəy, siz haradan biləsiniz ki, bu arıq bədəndə necə böyük ürək döyünür" cümləsindən sonra oxuya fasilə verilir.

Müəllim: – *Sizcə, Səmədin o sözlərindən sonra direktor onu məktəbə götürər?*

Şagirdlərin bu sual ətrafında fikirləri dinlənilir. Müzakirələr aparılır.

Mətnin qalan hissəsi oxunur, dərslikdəki sual və tapşırıqlar yerinə yetirilir.

**Dinləmə**

**Əqli həmlə. Müəllim:** – *"Süzmək" sözünü cümlələrdə müxtəlif mənalarda işlədin.* Şagirdlər cümlələri dedikcə müəllim lövhədə bu sözün mənalarını əks etdirən ifadələr yazır: çay süzmək, aş süzmək, gözünü süzmək, quş kimi göydə süzmək və s.

Sonra müəllim S.Vurğunun **"Ceyran"** şeirini oxuyur.

Yerdən ayağını quş kimi üzüb,
Yay kimi dartılıb, ox kimi süzüb,
Yenə öz sürüsün nizamla düzüb,
Baş alıb gedirsən hayana, ceyran?

Əzəldən meylini salıb çöllərə,
Bəxtini tapşırdın bizim ellərə,
O qara gözlərin düşdü dillərə,
Dişlərin oxşayır mərcana, ceyran!

Bir məsəl qalmışdır ata-babadan:
"Uçarda turacdır, qaçarda ceyran".
Bir mən deyiləm ki hüsnünə heyran,
Şöhrətin yayılıb hər yana, ceyran!

Altından xətt çəkilmiş ifadələrin, eləcə də "mərcan", "hüsn" sözlərinin mənası araşdırılır. Şeirdə təsvir olunmuş ceyranın şəklini çəkmək tapşırılır. Müəllim şagirdlərin diqqətini şeirdəki bənzətmələrə (quş kimi, yay kimi, ox kimi) yönəldir və bir neçə bənzətmə düşünüb cümlədə işlətməyi tapşırır.

**Yazı**

Şeirdən bir neçə obrazlı ifadə seçilib lövhədə yazılır və şagirdlərə tapşırılır ki, bu ifadələri cümlələrdə işlətsinlər.

**İş dəftərinin 92-ci** səhifəsindəki tapşırıq yerinə yetirilir.

**Dil qaydaları**

5-ci tapşırıq yerinə yetirilir. Göy rənglə verilmiş "o" sözü "Səməd" sözünü əvəz edir.

Bundan sonra müəllimin diktəsi ilə şagirdlər cümlələr yazırlar:

*1. Mən yay tətilini babamın yanında keçirəcəyəm.*
*2. O söz verdi ki, dərslərdə diqqətli olacaq.*
*3. Bu mətn çox mürəkkəbdir.*
*4. Müəllim bayaqdan sizi gözləyir.*
*5. İşlər belə getsə, hər şey yaxşı olacaq.*

Şagirdlərə tapşırılır ki, *mən, o, bu, siz, belə* sözlərinin altından xətt çəksinlər və bu sözlərin hansı nitq hissəsinə aid olduğunu aydınlaşdırmağa çalışsınlar.

Müxtəlif cavab variantları ola bilər. Şagirdlər *mən, o, siz* sözlərini isim, *bu, belə* sözlərini sifət kimi qəbul edə bilərlər. Müəllim bildirir ki, *mən, o, siz* sözləri *kim?* sualına cavab versə də, varlığın adını bildirmir. Həmin sözlər cümlədə ad bildirən sözləri əvəz edir. Eyni fikri *bu, belə* əvəzliklərinə də şamil etmək olar.

**Qruplarla iş.** Şagirdlər 4 qrupa bölünürlər.

**I qrup**: iş dəftəri, səh. 92, tap. 3 yerinə yetirilir.



Çap üçün deyil

**II qrup**: iş dəftəri, səh. 92, tap. 4 yerinə yetirilir.
**III qrup**: iş vərəqindəki tapşırıqlar yerinə yetirilir.

İŞ VƏRƏQİ

Verilmiş əvəzlikləri mətndə nöqtələrin yerinə yazın.

*belə, biz, bu, onlar, elə*

... günə gəlib çatmış qədim qalalar, körpülər və digər tikililər tarixi abidələrimizdir. ... abidələr var ki, yaşı min ildən çoxdur. Keçmişimizi öyrənməkdə ... abidələrin böyük rolu var. ... tarixin yadigarıdır. ... tarixi abidələrimizi göz bəbəyi kimi qorumalıyıq.

**IV qrup:** iş vərəqindəki tapşırıqlar yerinə yetirilir.

İŞ VƏRƏQİ

Verilmiş mətndə əvəzliklərin altından xətt çəkin.

*Kamal hərdənbir yuxuda özünü həmin qəhrəmanlar kimi görərdi. O da zümrüd quşların qanadlarında uçar, divlər, əjdahalarla vuruşardı. Belə yuxulardan sonra o, gündüzlər də həmin qəhrəmanlardan ayrılmaz, onların xəyalı ilə yaşayardı.*

(M.Rzaquluzadə)

Qrupların təqdimatları dinlənilir və müzakirə olunur. Dərslikdə verilmiş nəzəri material (səh. 128) mənimsənilir və tapşırıqlar yerinə yetirilir.

5-ci tapşırıq. Elşən yaxşı şahmatçıdır. Keçən ay o, respublika şahmat yarışında qalib gəldi. Heç kəs gözləmirdi ki, Elşən bu yarışda belə nəticə göstərəcək. İndi biz sinif yoldaşımızla fəxr edirik.

6-cı tapşırıq Cavab “B” variantıdır.

7-ci tapşırıq. “Həmin” sözü sıra sayının yerinə işlənmişdir.

8-ci tapşırıq “Belə” sözü sifətin yerinə işlənmişdir.

**İmla mətni**

Qırmızı rəngdə verilmiş sözlərin yazılışına xüsusi diqqət yetirilir.

**KƏND MƏNZƏRƏSİ** (39 söz)

Kəndin qərb tərəfindəki hündür təpələrin zirvəsi narıncı rəngə boyanmışdı. Sahildəki söyüd ağaclarının budaqları qızılı rəngə çalırdı. Lap uzaqda bir oğlan at çapırdı. Ətrafa sərinlik gətirən kölgə çökürdü... O hərdənbir ayaq saxlayır, Kürün balıq qoxusu verən nəm havasını ciyərlərinə doldururdu.

*(İsmayıl Şıxlı)*

**Sual və tapşırıqlar:**

**1. Mətndə günün hansı vaxtı təsvir olunur?**

A) səhər B) günorta C) axşam

**3. Sifətlərin altından xətt çəkin.**

**Sinifdənxaric oxu.** Homer. “Odissey və Təpəgöz” (“İliada” və “Odiseyya” əsərindən).

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

## Dərs 63. SABİRİN İLK UŞAQ ŞEİRİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnlə bağlı faktoloji sualları cavablandırır. |
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Mətndə situasiyaya uyğun gələn nitq etiketini müəyyən edir və nitqində işlədir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Dialoji mətni oxuyarkən müəllif mətnindən obrazların nitqinə keçid zamanı səs tonunu dəyişir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnləri fərqləndirir, onların xüsusiyyətlərini sadə şəkildə şərh edir. | Bədii mətndəki elmi məlumatları müəyyənləşdirir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Əldə etdiyi məlumatlar əsasında inşa yazır. |

### Motivasiya

**Müəllim:** – *Hansı uşaq şeirlərini bilirsiniz?* (“Xoruz”, “Keçi”, “Uşaq və buz”, “Dovşan” və s.) *Bu şeirlərin müəllifləri kimdir? Uşaq şairlərindən kimləri tanıyırsınız?*

Yönəldici sualların köməyi ilə şagirdlər Sabirin adını çəkirlər.

**Müəllim:** – *Bəs necə olub ki, Sabir uşaqlar üçün şeir yazmağa başlayıb?*

### Oxu

Dərsliyin 129-cu səhifəsindəki mətn oxunur. Sözlərin orfoepik qaydalara uyğun tələffüz edilməsinə diqqət yetirilir. **Suallar verilir**:

– *Mətndə hansı nitq etiketləri işlənib?*

– *Mətndə altından xətt çəkilmiş sözlər hansı mənada işlənib? Bu sözləri hansı sözlərlə əvəz edə bilərsiniz?*

– *Sabir ilk uşaq şeirini harada yazdı?*

Həmin səhifədəki tapşırıqlar yerinə yetirilir.

### Dinləmə

**Müəllim:** – *Heç şeir yazmısınızmı və ya yazmaq istərdinizmi? Necə olur ki, adam şeir yazmağa başlayır? Keçən dərsdə böyük şairin ilk uşaq şeirini necə yazdığı barədə məlumat aldınız. İndi dinləyəcəyiniz mətndən isə balaca Ələkbərin şeir yazmağa necə başladığını biləcəksiniz.*

**Dinləmə mətni**

**SABİRİN UŞAQLIĞI**

Mirzə Ələkbər Sabir 1862-ci ildə Şamaxıda anadan olmuşdur. Onun atası Zeynalabdinin kiçik bir baqqal dükanı vardı. O istəyirdi ki, oğlu böyüyüb molla olsun. Ona görə də balaca Ələkbəri mollaxanaya qoymuşdu. Səkkizyaşlı uşaq səhərdən axşama kimi başa düşmədiyi ərəb dilində Quran oxumalı idi. Amma Ələkbərin daha çox yazmaqdan xoşu gəlirdi. O, gün ərzində gördüklərini, eşitdiklərini, düşüncələrini qələmə almağı sevirdi.

Çap üçün deyil

Bir dəfə Quran oxumaq əvəzinə yazı yazdığına görə molla balaca Ələkbəri kötəklədi. Elə ilk şeirini də Sabir o zaman yazdı. Bu, üç misradan ibarət bir şeir idi:

Tutdum orucu irəmazanda,
Qaldı iki gözüm qazanda,
Mollam da döyür yazı yazanda.

Bir müddət sonra böyük şair Seyid Əzim Şirvani balaca Ələkbərin istedadını görüb onu öz məktəbinə apardı. Lakin Zeynalabdin kişi oğlunu məktəbdən çıxarıb öz baqqal dükanında alış-verişlə məşğul olmağa məcbur etdi. Ələkbər dükanda işləyəndə də oğrun-oğrun şeir yazırdı. Atası bunu bilib bir dəfə onun dəftərini cırdı. Onda Ələkbər evdən qaçıb şəhərləri, kəndləri dolaşmağa, şeirlər yazmağa başladı və bir müddət sonra böyük şair kimi məşhurlaşdı.

**Sual:** – *Oxuduğunuz və dinlədiyiniz mətnlərdən hansı elmi məlumatları əldə etdiniz?*

### Yazı

Şagirdlər oxuduqları və dinlədikləri mətnlər əsasında M.Ə.Sabir haqqında inşa yazırlar. Öz yazılarında böyük şairə və adıçəkilən digər şəxslərə münasibət bildirirlər.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 64. CÜTÇÜ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Verilmiş mövzu ilə bağlı oxuduqlarını və həyatda gördüklərini ümumiləşdirərək danışır. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, onların xarakterik əlamətlərini adlandırır. | Ümumişlək olmayan sözlərin ifadə etdiyi anlayışları müəyyənləşdirir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Şeiri oxuyarkən müəllifin hiss və həyəcanını intonasiya və səs tonu ilə ifadə edir, vəznin tələblərinə riayət edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasına uyğun gələn atalar sözləri seçir. |
| 3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. | Şeiri yazıda nəsrlə ifadə edir.<br>Şeiri nəsrə çevirərkən cümlədəki sözlərin düzgün ardıcıllığını müəyyən edir. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Cümlələrdə hərəkət bildirən sözləri müəyyən edir. |

### Motivasiya

Müəllim qədim və müasir kənd təsərrüfatı alətlərinin şəkillərini nümayiş etdirir (*bağban qayçısı, bel, dəryaz, dırmıq, kotan, oraq, toxa, yaba və s.*). Onların adları soruşulur, bu alətlərlə bağlı şagirdlərin bilikləri yoxlanılır. “Qələm” mətnindən kotan haqqında verilmiş məlumat xatırladılır və bir qədər genişləndirilir:

Çap üçün deyil

*Kotan – kənd təsərrüfatında yer şumlamaq üçün tətbiq olunan mexaniki alətdir. O, işçi heyvanlara və ya maşınlara qoşularaq mexanikləşdirilmiş şəkildə işlədilə bilər. Kotanın bir çox üstün cəhətləri vardır. Onun əsas məqsədi yerin üst qatının çevrilməsindən ibarətdir. Bu, yerin münbit hissəsinin yumşaq və daha məhsuldar olmasına və səpinin asanlaşdırılmasına şərait yaradır.*

*– "Torpaqda izi olmayanın süfrədə üzü olmaz" atalar sözünü necə başa düşürsünüz?*

### Oxu

Dərsliyin 130-cu səhifəsindəki "Cütçü" şeiri düzgün, ifadəli oxunur. Oxu zamanı durğu işarələrinə uyğun oxuya, məntiqi vurğudan yerli-yerində istifadəyə, müəllifin hiss və həyəcanının intonasiya və səs tonu ilə ifadə olunmasına xüsusi diqqət yetirilir.

Sözlükdən istifadə edilməklə şeirdə işlənən çətin sözlər izah olunur. "Cüt" sözünün şeirdəki mənası izah olunur və həmin sözün digər mənası (iki, qoşa) ilə əlaqələndirilir.

1-ci tapşırıq. Şeir tarlada yer şumlayan cütçünün ağır zəhmətindən bəhs edir. Şeirin məzmunu nəzmə çevrilib danışılır. Bu zaman müəllim hər misranın şagirdlərin öz sözləri ilə danışılmasına xüsusi diqqət verir .

2-ci tapşırıq. Şeirin 5-ci misrasından başlayaraq qalan misralar cütçünün zəhmətkeş, qeyrətli, ailəsini, elini sevən bir insan olmasından xəbər verir.

3-cü tapşırıq. "Yayda işləməyən qışda dişləməz", "İstəyirsən bal-çörək, al əlinə bel-kürək", "Torpaq deyər: – Öldür məni, dirildim səni", "Torpaqda izi olmayanın süfrədə üzü olmaz" və s.

**Müəllim:** – *"Şumladığı tarlaları tumlayır" misrasını necə başa düşürsünüz?* (toxum səpir)

*– "Cütçü" şeirinin sonuncu iki misrası ilə şair nə demək istəyir? Bu misralar cütçünün hansı keyfiyyətindən söhbət açır?*

### Danışma

**Qruplarla iş**. Müəllim hər qrupa müəyyən əmək sahəsinin adını verir. Qruplar bu sahələrdə çalışan hər hansı bir işçinin birgünlük işini sözlə təsvir edir.

**I qrup.** Pambıq tarlasında
**II qrup.** Taxıl zəmisində
**III qrup.** Çörək sexində
**IV qrup.** Meyvə bağında

### Yazı

Şeirin qısa məzmunu nəsrə çevrilib dəftərə yazılır.
**İş dəftərinin 93-cü** səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

### Dil qaydaları

4-cü tapşırıq yerinə yetirilir: çıxdı, doldu, sürür, verir, yürüyür, yıxılır, durur.

**Tapşırıq:** – Şeirdə işlənən felləri aşağıdakı cədvəl üzrə qruplaşdırıb yazın:

| İndiki zamanda işlənən feillər | Keçmiş zamanda işlənən feillər | Gələcək zamanda işlənən feillər |
|---|---|---|
| | | |

*– Həmin feillərdən hansılarına əksmənalı sözlər deyə bilərsiniz?* (batdı, boşaldı, alır, dayanır, durur, yıxılır və s.)

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.



Çap üçün deyil

## Dərs 65. BAHALI XALÇA (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Mətni dinləyərkən vacib məqamları qeyd edir. |
| 1.2.4. Ədəbi-bədii nümunələri ifadə edərkən müvafiq situasiyaya uyğun jest və mimikalardan istifadə edir. | Ədəbi-bədii nümunəni səhnələşdirərkən obrazların nitqinə uyğun səs tonundan, jest və mimikalardan istifadə edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, onların xarakterik əlamətlərini adlandırır. | Sözün aid olduğu məna qrupunu və əlamətlərini müəyyən edir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Çoxmənalı sözləri müxtəlif kontekstlərdə işlətməklə onların məna çalarları arasındakı fərqi aşkar edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin məzmununa uyğun fərqli başlıq seçir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Şəxsiyyət haqqında təsvir xarakterli inşa yazır. |

**Motivasiya**

**Müəllim:** – *“Əl tutmaq” ifadəsinin hansı mənaları var?* (1. Görüşmək, salamlaşmaq; 2. Yardım etmək)

**Oxu**

Dərsliyin 131-ci səhifəsindəki mətn oxunur, həmin səhifədəki tapşırıqlar yerinə yetirilir. Əlavə suallar:

**1. Hekayəni sən necə adlandırardın?**
A) Kasıb kişi  B) Dilənçiliyin sonu  C) Böyük ürəkli insan

**2. Kasıb kişi nə üçün Axundzadəni “böyük adam” adlandırırdı?**
A) Ucaboylu, dolubədənli olduğuna görə
B) Çox dövlətli olduğuna görə
C) Məşhur yazıçı və dramaturq olduğuna görə

Şagirdlər test suallarına “smayliklər” qaldırmaqla cavab verirlər.

**Dinləmə**

**Müəllim**: – *Bəstəkarlardan kimləri tanıyırsınız? Rəssamlardan kimləri tanıyırsınız? Şairlərdən kimləri tanıyırsınız? Yazıçılardan kimləri tanıyırsınız?*

Uşaqlar tanıdıqları şəxslərin adlarını sadalayırlar.

Müəllim şagirdlərə bildirir ki, bu gün oxuduqları “Bahalı xalça” mətnində adı çəkilən M.F.Axundzadə böyük dramaturq olmuşdur (“dramaturq”, “dram” sözlərinin mənaları açıqlanır). Bu dahi şəxsiyyət haqqında şagirdlər növbəti bölmədə də məlumat alacaqlar. İndi Mirzə Fətəli Axundzadənin həyat və yaradıcılığı ilə bağlı elmi-bioqrafik mətn dinləyəcəklər. Şagirdlərə tapşırılır ki, vərəq, qələm götürüb mətndə onlara vacib və maraqlı görünən məlumatları qeyd etsinlər.

Mətn müəllim tərəfindən aramla oxunur.



Çap üçün deyil

### Mirzə Fətəli Axundzadə

Görkəmli Azərbaycan yazıçısı Mirzə Fətəli Axundzadə 200 il əvvəl Şəkidə dünyaya gəlmişdir. 2 yaşında olarkən onun ailəsi Təbrizə köçmüşdür. Mirzə Fətəli 13 yaşınadək orada, Güney Azərbaycanda yaşamışdır.

Axundzadə hələ uşaqlıqdan elm və ədəbiyyatla maraqlanmış, gəncliyində “Səbuhi” təxəllüsü ilə şeirlər yazmışdır. O, Azərbaycanda ilk dəfə olaraq dram əsərləri yazmışdır. Dram əsəri – teatrlarda tamaşaya qoyulmaq üçün yazılan əsərlərə deyilir. Dram əsərlərində yalnız qəhrəmanların danışığı qələmə alınır.

Axundzadə Azərbaycanın işıqlı gələcəyini elmdə və təhsildə görürdü. Ona görə də xalqın savadlanması üçün ömrünün sonunadək əlindən gələni etməyə çalışırdı. Cəmi 66 il ömür sürən Mirzə Fətəli Tiflisdə dünyasını dəyişmiş və burada da dəfn olunmuşdur.

Mətn oxunduqdan sonra bir neçə şagird öz qeydlərini təqdim edir. Müəllim suallarla sinfə müraciət edir:

*1. Sizcə, M.F.Axundzadə təxminən neçənci illərdə yaşayıb?*
*2. Təbriz şəhəri harada yerləşir?*
*3. Mətndə eşitdiyiniz “təxəllüs” sözünü izah edin.*
*4. Dinlədiyiniz mətnlə bağlı şəhərlərin hansı ardıcıllığını düzgün qəbul edirsiniz?*
*A) Şəki–Tiflis–Təbriz B) Tiflis–Şəki–Təbriz C) Şəki–Təbriz–Tiflis*
*5. Dram əsərinin adi hekayədən fərqi nədədir?*
*6. Axundzadənin məzarı haradadır?*

*Müəllimin nəzərinə:* *Müəllim teatr, teatr tamaşası, ssenari haqda məlumatlar verərək nümunələr sadalaya bilər.*

**İş dəftərinin** 94-cü səhifəsindəki mətnlə bağlı tapşırıqlar yerinə yetirilir.

**Danışma**

**Rollu oyun.** Şagirdlərə bu mətni dram əsərinə çevirmək təklif olunur. Bunun üçün şagirdlər qruplarda işləyərək mətnin süjeti əsasında dram əsəri yazırlar. Müəllim bildirir ki, onlar əsas məzmunu saxlayaraq qəhrəmanların nitqini bir qədər genişləndirə də bilərlər. Bundan sonra hər qrup yazdığı ssenari əsasında tamaşanı təqdim edir.

**Yazı**

“Böyük adam” mövzusunda inşa yazılır. Müəllim şagirdlərə başa salır ki, inşada özləri üçün böyük saydıqları hər hansı şəxsdən yaza bilərlər. Bu, valideynlərindən, qohumlarından, tanıdıqlarından, müəllimlərindən biri, ya da oxuduqları hər hansı əsərin qəhrəmanı və ya müəllifi ola bilər.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

## Dərs 66. CƏFƏR CABBARLI (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Dialoji mətndə işlənmiş nitq etiketlərini müəyyən edir və nitqində istifadə edir. |
| 2.1.3. Öyrəndiyi yeni söz və terminlərdən məqamında istifadə edir. | Çoxmənalı sözün terminoloji mənasını müəyyənləşdirir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Sualları cavablandırmaqla mətni şüurlu oxuduğunu nümayiş etdirir. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətnin əsas hissələrini müəyyən edib müvafiq başlıqla adlandırır. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Obrazları xarakterizə etməklə mətnin ideyası haqqında fikir yürüdür. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Mətni plana uyğun nəql edir. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Mətndən yazılışı çətin sözlər olan cümləələri seçib yazır. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Əsas nitq hissələrini fərqləndirir və müvafiq terminlə adlandırır. |

**Motivasiya**

**Müəllim:** – *Siz bu bölmədə Z.Tağıyev, Ü.Hacıbəyli, M.F.Axundzadə kimi görkəmli insanlar haqqında mətnlərlə tanış oldunuz. Bu şəxsiyyətlər haqqında nə deyə bilərsiniz? Onları birləşdirən hansı xüsusiyyətlər var?*

Söylənilən xüsusiyyətlər içərisində sadəlik, qayğıkeşlik kimi keyfiyyətlər xüsusi vurğulanır.

**Oxu** (Proqnozlaşdırma)

Mətnin (dərslik, səh. 132) 1-ci abzası oxunur. **Sual:** – *Siz Cəfər Cabbarlının yerinə olsaydınız, nə edərdiniz? Sizcə, o nə edəcək?*

Şagirdlər fərziyyələrini söylədikdən sonra mətni oxumaqda davam edirlər. Orijinal mətnlə şagirdlərin fərziyyələri müqayisə olunur.

Dərsliyin 133-cü səhifəsindəki sual və tapşırıqlar yerinə yetirilir.

<u>2-ci tapşırıq</u>. Cavab “C” variantıdır.

<u>3-cü tapşırıq.</u> Plan:

*1. Teatra buraxılmayan müəllif*
*2. İşdən azad edilən nəzarətçi qadın*
*3. Cəfərin qayıtması*
*4. Cəfərin onu teatra buraxmayan qadınla maraqlanması*
*5. Qətiyyətli Cəfər*
*6. Qadının üzrxahlığı*
*7. Qəbahətə yol vermiş rəhbərlik*
*8. Mütəəssir olan qadın*

Çap üçün deyil

**İş dəftərinin 94-cü** səhifəsindəki mətnlə bağlı tapşırıqlar yerinə yetirilir.

**Yazı**

Mətndən tərkibində yazılışı çətin sözlər (pyes, teatr, müəllif, direktor, dramaturq, mütəəssir, qəbahət və s.) olan cümlələr seçilib dəftərə köçürülür.

**Dil qaydaları**

6-8-ci tapşırıqlar yerinə yetirilir.
7-ci tapşırıq. Göy rənglə verilmiş "o" əvəzliyi "direktor" sözünü əvəz edir.
8-ci tapşırıq. Cavab "B" variantıdır.

**İş dəftərinin** 94-cü səhifəsindəki dil qaydası üzrə tapşırıq yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 67. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərsdə dərsliyin 134-cü səhifəsində verilmiş sual və tapşırıqlar yerinə yetirilir, müvafiq bölmədə tədris olunmuş materiallar təkrarlanır. Bununla yanaşı, müəllim həm özünün hazırladığı materiallardan, həm də müxtəlif qiymətləndirmə vasitələrindən istifadə edə bilər. Tapşırıqların seçimi zamanı bölmədə reallaşdırılmış standartları əsas götürmək lazımdır.

## Dərs 68. BÖLMƏ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ (2 saat)

**DİNLƏMƏ**

### QIZILGÜL DƏSTƏSİ

Qarabağda qızılgülün təzəcə çiçəklədiyi vaxt idi. Bir kasıb kişi Natəvanın evinə gəlib qulluqçuya bildirir ki, Xan qızı ilə görüşmək istəyir. Natəvan gələndə kişi ona bir dəstə qızılgül hədiyyə edir. Xan qızı təşəkkür edib kişiyə on manat pul verir. Kişi xanıma dua edə-edə xudahafizləşib gedir.

Kasıb getdikdən sonra Natəvanın qulluqçusu ona deyir:

– Xanım, icazə versəniz, sizə bir söz demək istəyirəm.

– Eşidirəm.

– Xanım, o kişi sizə bir dəstə qızılgül gətirdi. Bu gül dəstəsinin qiyməti ən çoxu iki şahı olar. Bir dəstə gülə on manat verməyiniz məni çox təəccübləndirdi. Səxavətin də bir sərhədi var.

– Bizim yerlərdə gülü pulla ölçməzlər. Sən gördün ki, o kişi ehtiyac içində boğulur. Gülü bəhanə edərək mənim yanıma gəlmişdir. Onu əliboş yola salmaq olmazdı. Hər kasıbı sevindirəndə aldığım həzzin dərəcəsi ölçüyə gəlmir.

**1. Kasıb kişi Natəvana qızılgül dəstəsini nə vaxt gətirdi?**
A) Novruz bayramında
B) qızılgülün solduğu vaxt
C) qızılgülün təzəcə çiçəklədiyi vaxt

**2. Mətnin məzmunu ilə bağlı deyilənlərdən hansı doğrudur?**
A) Kasıb kişi Natəvana sevgisini bildirmək üçün gül bağışladı.
B) Kasıb kişi gülü bəhanə edərək Xan qızından kömək umurdu.
C) Kasıb kişi Natəvanın verdiyi puldan narazı qaldı.



Çap üçün deyil

**3. Natəvan niyə bir dəstə gülə görə kişiyə 10 manat verdi?**
A) xırda pulu olmadığına görə
B) gül gətirən adama kömək etmək istədiyinə görə
C) qızılgülü çox sevdiyinə görə

**4. Hər dəfə bir kasıb adamı sevindirəndə Natəvan nə hiss edirdi?**
a) Böyük həzz alırdı.
B) Səxavəti ilə öyünürdü.
C) Özü də öz hərəkətinə mat qalırdı.

**5. Hansı sıradakı feil məcazi mənada işlənmişdir?**
A) qızılgül gətirir
B) yüz manat bağışlayır
C) ehtiyac içində boğulur

**6. Bir şahı beş qəpikdirsə, Natəvan kasıba verdiyi pula neçə dəstə gül ala bilərdi?**
A) 100 dəstə B) 50 dəstə C) 10 dəstə

**7. 1 abbası 20 qəpikdirsə, onda hansı daha çoxdur?**
A) 6 şahı B) 2 abbası C) 1 abbası 1 şahı

**OXU**

## KƏNDLİ VƏ ALİM

Bir alimlə bir kəndli yol yoldaşı olurlar. Yol uzun olduğundan qərara gəlirlər ki, vaxtları tez keçsin deyə bir-birinə sual versinlər. __________ Kəndli alimə deyir:

– Sən alim adamsan, məndən bilikli olarsan. Ona görə də mən uduzsam, sənə <u>üç</u> manat verəcəyəm. Yox, əgər sən mənim sualıma cavab verə bilməsən, <u>on</u> manat verməlisən.

Alim razılaşır. <u>Birinci</u> sualı kəndli verir:

– O hansı quşdur ki, beş ayağı var?

Alim çox fikirləşir, tapa bilmir. Danışdıqları kimi,kəndliyə **A** manat verir və deyir:

– Sən Allah, de görüm, o hansı quşdur? Maraqdan bağrım çatladı.

Kəndli alimin verdiyi puldan **B** manat sayıb ona qaytarır və deyir:

– Mən də bilmirəm. Al, bu da mənim borcum.

**1. Mətndən hansı nəticəni çıxarmaq olar?**
A) Alim quşlar haqqında heç nə bilmir.
B) Kəndli hiyləgərdir.
C) Kəndli alimdən biliklidir.

**2. Nömrələnmiş boşluqların yerinə hansı sözlər uyğun gəlir?**
A) A – on, B – üç B) A – üç, B – on C) A – on, B – beş

**3. 1-ci abzasda çəhrayı rəngli boşluğun yerinə hansı cümlə uyğun gəlir?**
A) Maraqlı olması üçün puldan mərc gəlirlər.
B) Bu zaman onlara 3-cü adam qoşulur.
C) Alimin cəmi beş manat pulu var idi.

Çap üçün deyil

**4. Nəticədə kəndli alimdən nə qədər pul uddu?**
A) üç manat B) on manat C) yeddi manat

## DİL QAYDALARI

**1. Altından xətt çəkilmiş sözlərdən hansı:**

| | | | |
|---|---|---|---|
| 1) sıra sayıdır? | A) üç | B) on | C) birinci |
| 2) iki rəqəmlə ifadə olunur? | A) üç | B) on | C) birinci |

**2. Hansı cümlədə "qızılgül" sözü xüsusi isim kimi işlənmişdir?**
A) Qızılgül ləçəklərindən mürəbbə bişirdim.
B) Qızılgül may ayında çiçəkləyir.
C) Qızılgül başına güllü yaylıq bağladı.

**3. Həm ümumi, həm də xüsusi isim kimi işlənə bilər:**
A) qayıq B) sevinc C) Elnur

**4. Hansı cümlədə "mürəkkəb" sözü termin kimi işlənib?**
A) Mürəkkəb sözlərin tərkibində iki söz olur.
B) Bu məsələ çox mürəkkəb idi.
C) Onun köynəyində bənövşəyi rəngli mürəkkəb ləkəsi var idi.

**5. Nöqtələrin yerinə uyğun gələn əvəzlikləri yaz.**
1. ... bilirdin ki, belə havada dənizə çıxmaq qorxuludur.
2. ... etdiyim hərəkətdən utandım.
3. ... elə ev tikdirdi ki, ... ailəmiz rahat yaşasın.

**6. Cümlələrdən birində keyfiyyət bildirən sifət işlənib:**
A) Yolun hər iki tərəfi yaşıl ağaclarla örtülmüşdü.
B) Baharın cırıq papağı yolda qar üstündə qalmışdı. (Mir Cəlal)
C) Sağlam bədəndə sağlam ruh olar.

**7. Sıra sayı hansıdır?**
A) yeddinci B) otuz üç C) minlərlə

**8. "VIII" sayının sözlə ifadəsi hansı sırada düzgün verilmişdir?**
A) səkkizinci B) səkkiz C) on üçüncü



Çap üçün deyil

# VI bölmə

# BAYRAMLAR VƏ TARİXİ GÜNLƏR

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | İş dəftəri səh. | MMV səh. |
|---|---|---|---|---|---|---|
| 69. | **18 Oktyabr – Dövlət Müstəqilliyi Günü** | 2.1.2, 2.1.4, 2.2.1, 2.2.4, 3.1.2, 3.1.5, 4.1.5 | 2 | 136-137 | 98 | 158 |
| 70. | **Yaşasın hüquqlarımız!** *Şəxs əvəzlikləri* | 1.1.2, 1.2.1, 1.2.2, 2.1.3, 2.2.1, 2.2.4, 3.1.2, 4.1.5 | 4 | 138-139 | 99 | 160 |
| 71. | **Bayram payı** | 1.2.1, 2.1.4, 2.2.1, 2.2.4, 3.1.5, 4.1.3, 4.1.5 | 4 | 140-141 | 100-101 | 162 |
| 72. | **İlaxır çərşənbələri** | 1.2.1, 2.2.4, 3.1.1, 3.1.4 | 2 | 142 | 100-101 | 164 |
| 73. | **Bahar bayramı** | 2.1.2, 2.2.1, 2.2.2, 2.2.5, 3.1.5 | 2 | 143 | 100-101 | 165 |
| 74. | **Dini bayramlarımız** *Feil – hərəkət bildirən sözlər* | 1.1.1, 1.2.1, 2.2.4, 3.1.4, 4.1.5 | 4 | 144-145 | 102-103 | 167 |
| 75. | **Milli Musiqi Günü** | 1.1.1, 2.1.3, 2.2.1, 2.2.4, 3.1.2, 4.1.2, 4.1.4 | 4 | 146 | 104 | 169 |
| 76. | **Ana dili** | 1.1.1, 1.2.1, 1.2.2, 1.2.3, 2.1.4, 2.2.1, 3.1.4 | 2 | 147 | 105 | 171 |
| 77. | **10 mart – Milli Teatr Günü** *Feilin zamana görə dəyişməsi* | 1.1.2, 1.2.1, 1.2.4, 2.1.1, 2.2.1, 3.1.5, 4.1.5 | 4 | 148-149 | 106-107 | 173 |
| 78. | **Qorxulu yanvar gecəsi** | 1.2.1, 2.1.2, 2.2.1, 3.1.1 | 2 | 150-151 | 108 | 175 |
| 79. | **Azərbaycanda ilk milli qəzet** *Feilin şəxsə görə dəyişməsi* | 1.1.1, 1.2.2, 2.1.1, 2.2.4, 3.1.2, 4.1.3, 4.1.5 | 4 | 152-153 | 109-110 | 176 |
| 80. | **Çərpələng** | 2.1.2, 2.2.1, 2.2.4, 3.1.5, 4.1.5, 4.1.7 | 4 | 154-156 | 111 | 178 |
| 81. | **Gülüş Günü** | 1.2.1, 2.1.1, 2.2.1, 4.1.5 | 2 | 157 | 112 | 179 |
| 82. | **Ümumiləşdirici təkrar** | | 2 | 158 | | 180 |
| 83. | **Bölmə üzrə qiymətləndirmə** | | 2 | | 113-115 | 180 |
| | | **Yekun** | **44 saat** | | | |

Çap üçün deyil

# Dərs 69. 18 OKTYABR – DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Qarşılaşdığı yeni söz və ifadələrin mənasını kontekstdən çıxış edərək təxmin edir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Mətndəki sözün eynimənalı və əksmənalı qarşılığını müəyyən edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Sualları cavablandırmaqla mətni şüurlu oxuduğunu nümayiş etdirir.<br>Mətndən çıxarılmış sözün mətndəki yerini kontekstə görə müəyyən edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Oxuduqlarına dair gündəlik həyatdan misallar gətirir. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Yazılışı çətin olan sözləri cümlədə işlədərək yazır. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, açıqca, elan, ərizə, dəvətnamə) yazır. | Tədbirlə bağlı elan yazır. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Say bildirən sözləri fərqləndirir. |

**Motivasiya** (BİBÖ)

**Müəllim:** – *Hər bir bayramın tarixi kökləri var. 18 Oktyabr – Dövlət Müstəqilliyi Gününün tarixçəsi haqqında nə bilirik?*

Müəllimin köməyi ilə şagirdlərin cavab almaq istədikləri suallar ifadə olunur:

– *Müstəqillik günümüzlə bağlı 18 oktyabr dedikdə hansı il nəzərdə tutulur?*
– *Dövlət müstəqilliyi nə deməkdir?*
– *Müstəqillikdən qabaq kimdən asılı idik?*
– *Müstəqilliyimizi necə qazandıq?* və s.

**Söz ehtiyatı.** Müəllim aşağıdakı sözləri yazır:
*əlamətdar, imperiya, parlament, Sovet hakimiyyəti, məhrumiyyət.*
Şagirdlər sözləri səsləndirirlər. Bu sözlərin mənaları açıqlanır.

Tapşırıq 1. "Müstəqillik" sözü ilə eynimənalı söz "azadlıq", əksmənalı söz isə "asılılıq" sözüdür.

Tapşırıq 2. Cavab "B" variantıdır.

**Oxu** (Sual müsabiqəsi)

"18 oktyabr – Dövlət Müstəqilliyi Günü" (dərslik, səh.136) mətni oxunur. MMV, səh.24-25-də verilmiş "sual müsabiqəsi" metodu tətbiq olunur. "Şüurlu oxu", "Şifahi nitq" rubrikalarındakı sual və tapşırıqlar yerinə yetirilir.

**Dinləmə**

**Müəllim:** – *Azərbaycan xalqı öz dövlət müstəqilliyini nə zaman əldə etmişdir?* (18 oktyabr 1991-ci ildə) *Bəs əvvəllər müstəqil dövlətimiz olubmu?*

**Diaqnostik qiymətləndirmə.** Şagirdlərin sonuncu sual ətrafında fikirləri dinlənir. Əgər Azərbaycan Demokratik Respublikası haqqında fikirlər səslənərsə, müəllim bu fikri genişləndirməyə, şagirdlərin ADR haqqında ilkin biliklərini yoxlamağa çalışmalıdır: 28 May Azərbaycanda rəsmi dövlət bayramlarından biridir. *Həmin gün necə adlanır?* (Respublika Günü) *Bu bayram haqqında nə bilirsiniz?*



Çap üçün deyil

*Müəllimin nəzərinə: Müzakirə zamanı şagirdlər Şah İsmayılın yaratdığı Səfəvilər dövlətinin, Azərbaycan ərazisində mövcud olmuş müxtəlif xanlıqların adını çəkə bilərlər. Müəllim bu fikirləri də alqışlamalı, həmin dövlətlər haqqında bildiyi məlumatları verməlidir.*

**Dinləmə**

**28 MAY – RESPUBLİKA GÜNÜ**

Hər bir xalqın ən böyük sərvəti onun azadlığıdır. Azadlığı olmayan xalq heç vaxt xoşbəxt və firavan yaşaya bilməz.

Azərbaycan da müxtəlif dövrlərdə yadellilərin əsarəti altında olmuşdur. Nəhayət, 1918-ci il mayın 28-də xalqımız öz müstəqil dövlətini yaratdı. Bu dövlət Azərbaycan Demokratik Respublikası adlanırdı.

Demokratik dövlətdə bütün xalq dövlətin idarə olunmasında iştirak edir. Bunun üçün parlament – xalq məclisi yaradılır. Parlamentə xalqın ən bilikli və namuslu nümayəndələri toplaşır. Onlar dövləti idarə etmək üçün mühüm qanunlar hazırlayırlar. Parlament üzvləri xalqın səsi ilə seçilir. Ona görə də bütün xalq onların qəbul etdiyi qanunlara tabe olur.

1918-ci ildə Azərbaycan xalqı belə bir dövlət yaratmışdı. ADR-in parlamentində Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri təmsil olunurdu.

Amma təəssüf ki, ADR-in ömrü az oldu. Yaranandan iki il sonra Rusiya ordusu yenidən Azərbaycana hücum etdi. İlk müstəqil dövlətimiz **süqut etdi**. Bu işğal 70 il çəkdi. Amma tarix sübut etdi ki, heç bir yadelli işğalı xalqımızın azadlıq arzularını məhv edə bilməz. 20 il əvvəl Azərbaycan xalqı yenidən mübarizəyə qalxdı və öz müstəqilliyinə qovuşdu. Bugünkü müstəqil Azərbaycan dövləti ADR-in açdığı cığırla irəliləməkdə və güclənməkdədir.

**Söz ehtiyatı.** Müəllim “süqut etdi” (yıxıldı, dağıldı) sözünün mənasını açıqlamağı tapşırır. Bunun üçün mətndən həmin sözün iştirak etdiyi cümlə bir daha oxunur. Şagirdlər bu sözü başqa cümlələrdə işlətməklə mənasını anladıqlarını nümayiş etdirirlər.

Müəllim sonuncu cümləni bir daha səsləndirir və soruşur: – Bu cümlədə “cığır” sözü hansı mənada işlənib: *həqiqi, yoxsa məcazi mənada?* Həmin sözü başqa cümlədə həqiqi mənada işlədin.

**İş dəftərindəki** (səh. 98) sual və tapşırıqlar yerinə yetirilir.

**Yazı**

1. Şagirdlərə aşağıdakı sözlərin düzgün yazılışını müəyyən etmək və cümlələrdə işlətmək tapşırılır: *xoşbəxt, firavan, dövlət, demokratik respublika, süqut, üzv, hücum, məhv.*

2. Müəllim şagirdləri qruplara bölür. Hər qrupa Müstəqillik günü ilə bağlı tədbir haqqında elan hazırlamaq tapşırır.

**Dil qaydaları**

Mətndən say bildirən sözlərin işləndiyi cümlələr seçilib dəftərə yazılır. Say bildirən sözlərin hərflərlə düzgün yazılışına diqqət verilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

# Dərs 70. YAŞASIN HÜQUQLARIMIZ! (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi mətndəki faktları həyatda gördükləri ilə müqayisə edərək nəticələr çıxarır. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Eşitdikləri, gördükləri və oxuduqlarını misal gətirərək mövzu ilə bağlı fikirlərini əsaslandırır. |
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Debat zamanı mövqeyini müdafiə etmək üçün arqumentlər irəli sürür. |
| 2.1.3. Öyrəndiyi yeni söz və terminlərdən məqamında istifadə edir. | Terminin mənşəyini araşdırır və mənası ilə əlaqəni müəyyən edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Obrazların hiss və həyəcanını ifadə etmək üçün müvafiq jest və mimikalardan istifadə edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideya məzmununu şəxsi həyatı ilə əlaqələndirərək fikir yürüdür. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Yazılışı çətin olan sözlərin işləndiyi cümlələri üzündən köçürür. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Şəxs əvəzliyini digər nitq hissələrindən fərqləndirir və xüsusiyyətlərini sadalayır. |

### Motivasiya

**Müəllim:** – *Gəlin "Həyat bilgisi" dərslərində öyrəndiyimiz hüquq və vəzifələrimiz haqqında bilikləri xatırlayaq.*

Müəllim lövhədə aşağıdakı cədvəli çəkir və köməkçi suallar vasitəsilə cədvəl doldurulur.

| Hüquqlarımız | Vəzifələrimiz |
|---|---|
| | |

– Pulsuz təhsil almaq;
– Dərsliklərdən pulsuz istifadə etmək;
– Məktəbin daxili nizam-intizam qaydalarına əməl etmək;
– Məktəb kitabxanasından istifadə etmək;
– Ev tapşırıqlarını yerinə yetirmək;
– İstirahət etmək;
– Məktəbin idman zalından istifadə etmək.

**Müəllim:** – *Hüquqlar nə zaman pozulur?*
– İnsan təhqir olunanda;
– Azyaşlı uşaqlar işləməyə məcbur ediləndə;
– Ayrı-seçkiliyə yol veriləndə.

**Şüurlu oxu.** Mətn (dərslik, səh. 138) şagirdlər tərəfindən bir dəfə səssiz oxunduqdan sonra müəllim şagirdlərlə birlikdə hekayənin ideyasını araşdırır: *Hər bir insan öz hüquqları ilə yanaşı vəzifələrini də bilməli, başqalarının hüquqlarına hörmətlə yanaşmalıdır.*

**İfadəli oxu** (Rollu oyun). Şagirdlərin iştirakı ilə mətn səhnələşdirilir.

### Dinləmə

**Müəllim:** – *"Yaşasın hüquqlarımız" hekayəsində "Uşaq Hüquqları Konvensiyası" xatırlanır. Bu sənəd haqqında nə bilirsiniz?*

Çap üçün deyil

Müzakirəyə keçməzdən əvvəl iki ifadə şagirdlərlə birlikdə izah olunur:
**Konvensiya** – müxtəlif ölkələrin qəbul etdiyi beynəlxalq saziş, müqavilə
**Birləşmiş Millətlər Təşkilatı (BMT)** – dünya ölkələrinin yaratdığı beynəlxalq təşkilat, birlik
*Müəllimin nəzərinə: Konvensiya sözünün izahı verilərkən bu sözün termin olduğu qeyd olunur.*

**Dinləmə**

**UŞAQ HÜQUQLARI KONVENSİYASI**

Uşaq Hüquqları Konvensiyası bir çox ölkələrin, o cümlədən Azərbaycanın qəbul etdiyi beynəlxalq sənəddir. Bu sənəddə uşaqların bir çox hüquqları öz əksini tapıb. Onları 4 qrupa bölmək olar:

1. **Uşaqların inkişafı ilə bağlı hüquqlar.** Bura təhsil almaq, oynamaq, istirahət etmək, məlumat əldə etmək kimi hüquqlar aiddir.
2. **Müdafiə hüquqları.** Uşaqlara qarşı zorakılıq işlətmək, onları fiziki cəzalandırmaq, ağır əməyə cəlb etmək olmaz. Qaçqın uşaqlara qayğı göstərilməlidir.
3. **İştirak hüquqları.** Bu hüquqlar imkan verir ki, uşaqlar yaşadıqları cəmiyyətdə fəal həyat sürsünlər: azad fikir söyləsinlər, mədəni tədbirlərdə iştirak etsinlər, birləşərək öz cəmiyyətlərini yaratsınlar.
4. **Yaşamaq hüququ.** Uşaqlar ac qalmamalı, xəstələndikdə onlara tibbi yardım göstərilməlidir.

Şagirdlər mətni dinlədikdən sonra müəllimin tapşırığı ilə 4 vərəq götürüb üzərində 1) **inkişaf**, 2) **müdafiə**, 3) **iştirak**, 4) **yaşamaq** sözlərini yazırlar.
Müəllim hüquqları sadaladıqca uşaqlar müvafiq vərəqi qaldırırlar:
– uşaqlara qarşı zorakılıq olmaz;
– tibbi yardım hüququ;
– təhsil almaq hüququ;
– azad fikir söyləmək hüququ və s.

**Danışma**

**Debat:** I qrup. *"Böyük olan yerdə kiçik danışmaz".*
II qrup. *"Böyüklərlə yanaşı, kiçiklərin də fikir bildirmək hüquqları var".*

**Yazı**

Mətndən yazılışı çətin olan sözlərin işləndiyi cümlələr seçilib dəftərə köçürülür (kompüter, beynəlxalq, konvensiya, müdafiə və s.).

**Dil qaydaları**

2-ci tapşırıq yerinə yetirilir.
Müəllim aşağıdakı cümləni səsləndirir:
*O, fikirli halda küçə ilə gedirdi.*
**Sual:** – *Bu cümlədə "o" əvəzliyi hansı suala cavab verir?* (kim?)

**Sual müsabiqəsi.** Dərsliyin 139-cu səhifəsindəki "Şəxs əvəzlikləri" nəzəri hissə oxunur. Qaydanın dərindən mənimsənilməsi üçün MMV-nin 24-25-ci səhifələrində nümunəsi verilmiş sual müsabiqəsi metodu tətbiq olunur.

3-cü tapşırıq yerinə yetirilir. Nöqtələrin yerinə uyğun olaraq *mən, biz, sən, o, onlar* şəxs əvəzlikləri yazılmaqla cümlələr dəftərə köçürülür.

Tapşırıq 4. Cavab "C" variantıdır.

**İş dəftərindəki** (səh. 99) sual və tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

Çap üçün deyil

# Dərs 71. BAYRAM PAYI (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Nitqini əsaslandırmaq üçün gündəlik həyatdan misallar gətirir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Mətndəki sözü kontekstə uyğun gələn yaxınmənalı sözlə əvəz edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Bədii əsərin müəyyən hissəsini oxuduqdan sonra hadisələrin davamını proqnozlaşdırır. Əsərdəki obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını həyat haqqında düşüncələri ilə əlaqələndirərək fikir yürüdür. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, açıqca, elan, ərizə, dəvətnamə) yazır. | Bayram münasibətilə açıqca yazır. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Yazdığı imla mətnini orfoqrafik cəhətdən yoxlamaq üçün lüğətdən istifadə edir. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Mürəkkəb sözlərin düzgün yazılış qaydasını müəyyənləşdirir. |

**Motivasiya** (Beyin həmləsi)

**Müəllim:** – *Bayramları nəyə görə sevirsiniz? Hansı bayram mərasimindən daha çox xoşunuz gəlir?*

**Oxu**

Mətn (dərslik, səh. 140-141) "Yox, ay xala, sənin işin olmasın, bu saat onların başına oyun açacağam, – Pakizə dedi" sözlərinə qədər səssiz oxunur. Müəllim sual-cavab vasitəsilə mətnin bu hissəsinin qavranıldığını yoxlayır.

Müəllim şagirdlərdən soruşur: – *Uşaqlar, təxmin edə bilərsinizmi, Pakizə bayram payına gəlmiş oğlanların başına nə oyun açmaq istəyirdi?* Şagirdlərin variantları dinlənir.

**İfadəli oxu** (**Rollu oyun**). Mətnin davamının oxunması üçün müəllim MMV-dəki "Rollu oyun" üsulundan (səh. 26) istifadə edir.

Dərsliyin 141-ci səhifəsindəki 1-3-cü tapşırıqlar cavablandırılır.
Tapşırıq 1. Cavab "B" variantıdır.
Tapşırıq 2. *"Qəşş edib"* sözünü *"gülməkdən özündən gedib"* ifadəsi ilə əvəz etmək olar.

Əlavə suallar: *1) İndi bu bayramda bacadan heybə atırlarmı? 2) Əgər atmırlarsa, bunun səbəbi nədədir? 3) Bəs indi bayram payını necə yığırlar?* 4) "Pakizənin xalası evin ortasındakı stolun üstünə şirniyyatla dolu iri bir sini qoymuşdu" cümləsinə diqqət yetirin. *Sizcə, həmin sinidə hansı şirniyyatlar var idi?*

**Danışma**

**Müəllim:** – *Gəlin "Bayram payı" mətnindəki son cümlələri xatırlayaq: "Aradan illər ötdü, neçə bayram gəlib-keçdi, amma Pakizə həmin bayram axşamını heç vaxt unutmadı. Elə Əşrəf də…" Sizin də həyatınızda Novruzla bağlı elə bir hadisə olubmu ki, onu həmişə xatırlayasınız?*



Çap üçün deyil

**Müsabiqə** (qruplarla iş). Şagirdlər dörd qrupa bölünür. Birinci mərhələdə hər qrupa daxil olan şagirdlər bir-birinə Novruz adət-ənənələri ilə bağlı başlarına gələn bir hadisəni danışırlar. Sonra bu hadisələrdən ən maraqlı olanını müəyyənləşdirirlər. İkinci mərhələdə hər qrupda ən maraqlı əhvalatı danışmış şagird həmin əhvalatı bütün şagirdlər qarşısında nəql edir. Üçüncü mərhələdə isə şagirdlər birgə müzakirələr və səsvermə yolu ilə dörd əhvalatdan ən maraqlısını seçirlər və həmin şagirdi "Novruz qalibi" elan edirlər.

İş dəftərinin 100-cü səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

### Yazı

*Müəllimin nəzərinə: Bu yazı dərsinin 8 Mart – Beynəlxalq Qadınlar Günü ərəfəsində də keçilməsi məqsədəuyğundur.*

**Müəllim:** – *Uşaqlar, bayram günlərində siz kimləri təbrik edərdiniz? Kimlər sizin qayğınıza qalır? Bu bayramda siz mütləq onları təbrik etməlisiniz?*

Şagirdlər fikirlərini söyləyirlər.

**Müəllim:** – *Bayram günündə ürək sözlərimizi gəlin birlikdə açıqca şəklində analarımıza (yaxud nənələrimizə və s.) çatdıraq.*

Müəllim tapşırır ki, şagirdlər ürək sözləri ilə yanaşı açıqcanın bədii tərtibatı haqqında da düşünsünlər. Öz hislərini ifadə etmək üçün şəkil də çəksinlər.

Şagirdlər tapşırığı yerinə yetirdikdən sonra öz təbrik mətnlərini oxuyurlar və açıqcalar sinfə nümayiş olunur.

#### TƏBRİK MƏTNİNİN NÜMUNƏSİ

Əziz ana! Səni dünyalar qədər çox istəyirəm. Bu bayram münasibətilə səni ürəkdən təbrik edir, sənə cansağlığı, uzun ömür arzu edirəm. Arzum budur ki, üzündən heç vaxt təbəssüm əskik olmasın.

Səni çox sevən oğlun (qızın):

*Müəllimin nəzərinə: Müəllim uşaqları həvəsləndirməlidir ki, onlar bayağı söz və ifadələrdən qaçsınlar, səmimi arzularını, ürəkdən gələn fikirlərini bildirsinlər.*

İş dəftərinin 101-ci səhifəsindəki açıqca nümunəsi işlənir.

### Dil qaydaları

**İmla**

#### EL BAYRAMI (51 söz)

El dədə-baba adətincə bayram edirdi. Yurdun hər bucağından ox atan, at oynadan igid cavanlar, adlı-sanlı pəhləvanlar axışıb gəlmişdilər. Onların şərəfinə məşhur ozanlar saz çalıb, söz qoşurdular. Dağların döşündə qoyunlar, quzular otlayırdı. Allı-güllü geyinib bəzənmiş uzunsaç, qaragöz qızlar, gəlinlər də yığışıb gəlmişdilər. Onlar da çəmənlikdə gözəl bir məclis düzəltmişdilər.

*(M.Rzaquluzadə)*

Deyilişi və yazılışı fərqlənən sözlər: bucağından (bucağınnan), cavanlar (cavannar), adlı-sanlı (addı-sannı), pəhləvanlar (pəhlivannar), ozanlar (ozannar), otlayırdı (otduyurdu), gözlü (gözdü), sözlü (sözdü), qızlar (qızdar), gəlinlər (gəlinnər), çəmənlikdə (çəmənnikdə)

**Suallar:**

**1. Hansı cümlənin mətnin məzmunu ilə bağlılığı yoxdur? Altından xətt çəkin.**

**2. Hansı sözlər birləşəndə mürəkkəb söz bitişik yazılır?**

A) dədə, baba B) adlı, sanlı C) qara, göz



Çap üçün deyil

**Sinifdənxaric oxu.** E.Cabbarov. “Ad günü”.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 72. İLAXIR ÇƏRŞƏNBƏLƏRİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Nitqini əsaslandırmaq üçün gündəlik həyatdan misallar gətirir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Fikirlərini mətndəki müvafiq məlumatlarla əsaslandırır. |
| 3.1.1. Hüsnxət normalarına riayət etməklə səliqəli və sürətlə yazır. | Mətni təyin olunmuş müddət ərzində hüsnxət normalarına uyğun köçürür. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Mətnin ideyasını şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |

**Motivasiya** (Beyin həmləsi)

**Müəllim:** – *Novruz şənlikləri nə vaxt başlanır?* (martın 21-nə 4 həftə qalmış). *İlaxır çərşənbələr haqqında nə bilirsiniz?*

*Müəllimin nəzərinə: İlaxır çərşənbələri haqqında Azərbaycan dilindən 2-ci sinif müəllim üçün metodik vəsaitdə dinləmə mətni şəklində müəyyən məlumat verilmişdir. Novruz bayramı milli adət-ənələrimizi əks etdirir, onları qoruyub saxlamaq, gələcək nəsillərə ötürmək hər bir azərbaycanlının mənəvi borcudur. Bu baxımdan dərsliyə ilaxır çərşənbələri haqqında daha geniş elmi-kütləvi mətnin salınması məqsədəuyğun hesab edilmişdir.*

**Oxu** (Sual müsabiqəsi). “İlaxır çərşənbələri” (dərslik, səh. 142) mətni oxunur. MMV-nin 24-25-ci səhifələrində verilmiş “Sual müsabiqəsi” metodu tətbiq olunur.

**Söz ehtiyatı.** Şagirdlərin iştirakı ilə sonuncu abzasdakı “üzərlik” sözünün mənası və tələffüz qaydası (üzərrik) müəyyənləşdirilir.

Dərslikdə mətnə qoyulmuş suallar cavablandırılır, şagirdlərə mətnlə bağlı əlavə suallar əks olunmuş iş vərəqi paylanır.

**1. Hansı suala mətndə cavab yoxdur?**
A) Su çərşənbəsində nə edirlər?
B) Od çərşənbəsində nə edirlər?
C) Yel çərşənbəsində nə edirlər?

**2. “Süfrəyə … dağılması aydınlıqdır” cümləsində nöqtələrin yerinə hansı sözü artırmaq olar?**
A) su B) od C) torpaq

**3. “Ocağın nurlu olsun”, “Ocağın qaralmasın” alqışları hansı çərşənbə ilə bağlıdır?**
A) torpaq çərşənbəsi ilə B) su çərşənbəsi ilə C) od çərşənbəsi ilə

**4. “…… itki olmaz, kötüksüz bitki olmaz” atalar sözü hansı sözlə başlamalıdır?**
A) suda B) torpaqda C) yeldə

**5. Çərşənbə axşamı həftənin neçənci günüdür?**
A) 2-ci gün B) 3-cü gün C) 4-cü gün



Çap üçün deyil

**Yaradıcı tapşırıq.** Novruz adətlərinə aid şəkil çəkmək.

**Yazı. Hüsnxət. İş dəftərinin 101-ci** səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir.

"Biz (ailəmiz, kəndimiz, məhəlləmiz) Novruz bayramını necə keçiririk?" mövzusunda inşa yazılır.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 73. BAHAR BAYRAMI (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Qarşılaşdığı yeni sözün məcazi mənasını kontekstdən çıxış edərək təxmin edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Oxuduğu mətndə ona maraqlı görünən fikirləri qeyd edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnləri fərqləndirir, onların xüsusiyyətlərini sadə şəkildə şərh edir. | Eyni mövzuda olan elmi və bədii mətnləri fərqləndirir. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Şeirin bəndlərini məzmuna uyğun başlıqla adlandırıb öz sözləri ilə nəql edir. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, açıqca, elan, ərizə, dəvətnamə) yazır. | Tədbirlə bağlı elan və dəvətnamə yazır. |

**Motivasiya**

**Müəllim:** – *Artıq bir neçə dərsdir ki, Novruz bayramı haqqında mətnlər oxuyursunuz. Gəlin, BİBÖ cədvəlində bildikləriniz və öyrənmək istədiklərinizi qeyd edək.*

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |

**Oxu**

**Qruplarla iş**

Şeirin hər bəndi bir qrupa verilir. Qruplar şeiri ifadəli, düzgün oxumalı, həmin hissəyə başlıq verməli, onlara təqdim olunmuş bənddə bahar bayramı ilə bağlı olan məlumatları nəsrə çevirib danışmalıdır. I qrup dərsliyin 143-cü səhifəsindəki 2-ci tapşırığı, II qrup 3-cü tapşırığı, III qrup 4-cü tapşırığı, IV qrup 5-ci tapşırığı yerinə yetirir.

*Müəllimin nəzərinə: I bəndə "Ətraf aləmin bahar bayramını qarşılaması", II bəndə "Evlərdə bahar bayramını qarşılanması", III bəndə "Süfrələrin bahar bayramı üçün bəzənməsi", IV bəndə "Bağların bahar bayramı üçün bəzənməsi" başlıqları verilə bilər.*

Təqdimatlardan sonra BİBÖ cədvəlinin "Öyrəndiklərim" hissəsi doldurulur.

**Yazı**

**Müəllim:** – *Adətən, bayramla bağlı müxtəlif tədbirlər keçirilir. Bu tədbiri təşkil edənlər,*



Çap üçün deyil

*əlbəttə, istəyirlər ki, başqaları da həmin tədbirdə tamaşaçı kimi iştirak etsinlər. Bəs tədbir haqqında adamları necə məlumatlandırmaq olar?*

Şagirdlər müzakirə nəticəsində belə bir qənaətə gəlirlər ki, tədbirə qonaqları elan və dəvətnamə vasitəsilə cəlb etmək olar.

Şagirdlər Novruz bayramı ilə bağlı tədbirin ssenarisini tərtib edirlər (Müəllim “ssenari” sözünü uşaqlara başa salır). Bundan sonra şagirdlər 1-ci və 2-ci cütlərə bölünürlər. 1-ci cütlər bayram tədbiri ilə bağlı elan, 2-cilər dəvətnamə yazırlar. Müəllim xatırladır ki, elanda və dəvətnamədə aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

1. Tədbirin məzmunu
2. Tədbirin təşkilatçıları
3. Tədbirin yeri
4. Tədbirin vaxtı

Əvvəlcə 1-ci cütlərin yazdığı elanlar oxunur, müzakirə olunur. Elanlardakı ən yaxşı məqamlar ümumiləşdirilərək qüsursuz elan nümunəsi tərtib olunur. Eyni qaydada ikincilərin yazdığı dəvətnamələr müzakirə olunur.

**ELAN NÜMUNƏSİ**

20 mart 2015-ci ildə saat 15:00-da 3ª sinfinin hazırladığı “Novruz milli bayramımızdır” mövzusunda tədbir keçiriləcək.

Tədbirin proqramı:

1. Milli adət-ənənələrimizin qorunub saxlanması haqqında məruzə
2. Keçəl və Kosanın iştirakı ilə tamaşa
3. Maraqlı oyunlar və viktorinalar

Tədbir məktəbin akt zalında keçiriləcək.
Arzu edənlər iştirak edə bilərlər.

**DƏVƏTNAMƏ NÜMUNƏSİ**

Hörmətli ________________________

Sizi “Novruz milli bayramımızdır” mövzusunda bayram tədbirinə dəvət edirik.

Tədbirin proqramı:

1. Milli adət-ənənələrimizin qorunub saxlanması haqqında məruzə
2. Keçəl və Kosanın iştirakı ilə tamaşa
3. Maraqlı oyunlar və viktorinalar

Tədbir 20 mart 2015-ci ildə saat 15:00-da məktəbin akt zalında keçiriləcək.

Təşkilatçı: 3a sinfi

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

# Dərs 74. DİNİ BAYRAMLARIMIZ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnlə bağlı faktoloji sualları cavablandırır. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Şifahi nitq zamanı fikirlərini əsaslandırmaq üçün gündəlik həyatdan misallar gətirir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Oxuduğu mətndəki əsas məlumatları seçir və təhlil edir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Mətnin ideyasını şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Feilləri digər nitq hissələrindən fərqləndirir və xüsusiyyətlərini izah edir. |

**Motivasiya**

*Nəyə görə Ramazan və Qurban bayramlarını hər il fərqli günlərdə qeyd edirik?*

**Oxu**

Mətn (dərslik, səh. 144) abzaslarla səsli oxunur. Şagirdlər yerlərində paralel olaraq mətni izləyirlər. Birinci üç abzasdan sonra fasilə edilir və həmin hissə ilə bağlı suallar verilir. Sonrakı hər bir abzasdan sonra müəllim şagirdlərə faktoloji suallarla müraciət edir. Şagirdlərin cavab verə bilmədiyi suallar lövhədə yazılır. Bundan sonra müəllim şagirdlərə tapşırır ki, həmin suallarla bağlı hissələri bir daha oxusunlar. Yenidən həmin suallara cavab axtarılır.

Müəllim aşağıdakı suallar vasitəsilə şagirdlərin mətni necə qavradıqlarını yoxlayır:

1. Müsəlman ayları niyə Günəş təqvimindəki aylarla üst-üstə düşmür?
2. Orucluq bayramına bəzən Ramazan bayramı da deyilir. Nəyə görə?

**Venn diaqramı.** Günəş təqvimi ilə Ay təqviminin hansı oxşar və fərqli cəhətləri var? (Hər iki təqvim 12 aydan ibarətdir.)

**Dinləmə**

– *Azərbaycan bayrağındakı yaşıl rəng nəyin rəmzidir?*
– *Dini bayramların adətləri haqqında nə bilirsiniz? (3-cü tapşırıq)*
– *Ramazan və Qurban bayramları haqqında nə bilirik?* (BİBÖ tətbiq olunur)

Müəllim aşağıdakı mətnləri növbə ilə oxuyur və hər bir mətndən sonra oradakı məlumatların şagirdlər tərəfindən mənimsənildiyinə əmin olur. Daha sonra Venn diaqramı (və klaster) tətbiq edir.

**QURBAN BAYRAMI**

Qurban bayramında müsəlmanlar Allah yolunda qurban kəsirlər. Sonra qurbanlıq əti qonşulara, qohumlara, imkansızlara paylayırlar.

Qurban kəsmək hər bir müsəlmanın borcudur. Ancaq əgər kiminsə buna imkanı çatmırsa, günah sayılmır. Qurbanlığın mənası da elə budur: varlı öz ruzisini yoxsulla bölüşür, hamı sevinir.

**RAMAZAN BAYRAMI**

Müsəlmanların ən əziz bayramı Ramazandır. Bu bayram bir ay davam edir. Həmin ay müsəlmanlar Allah yolunda oruc tuturlar. Onlar günəş çıxmamış yemək yeyir, axşama

Çap üçün deyil

kimi ac-susuz qalırlar. Gün batandan sonra şam süfrəsinə əyləşirlər. Buna iftar deyilir.

Ramazan müsəlmanların birlik, həmrəylik bayramıdır. Bu bayramda zəngin adamlar kasıblara əl tutur, ehtiyacı olanlara kömək edirlər.

Klaster yolu ilə bayramların xüsusiyyətlərinin araşdırılması




Şagirdlərlə birlikdə “Dini bayramlarımız” haqqında olan mətnlərdən aşağıdakı nəticə çıxarılır: Milli adət-ənənələri bilmək və onları yaşatmaq borcumuzdur.

**İş dəftərinin 102-ci** səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

*Müəllimin nəzərinə:* *İş dəftərində bu mövzuya dair məntiq çalışmasının doğru cavabı 29 fevraldır. Fevral ayında dörd ildən bir 29 gün olduğundan Tələtin ad günü də hər dörd ildən bir qeyd olunur. Beləcə, 20 yaşınadək Tələtin payına cəmi 5 ad günü düşür.*

**Yazı**

“Ən çox sevdiyim bayram” mövzusunda inşa yazılır.

**Dil qaydaları**

4-cü tapşırıq yerinə yetirilir. Cavab “B” variantıdır.

**Müəllim:** – *Hansı nitq hissələrini tanıyırsınız?*

Şagirdlər əvvəlki bölmədə keçdikləri nitq hissələri (isim, sifət, say, əvəzlik), onların xüsusiyyətləri haqqında biliklərini xatırlayırlar.

Lövhədə yazılır:

| | |
|---|---|
| Ad bildirən söz | isim |
| Əlamət bildirən söz | sifət |
| Miqdar və sıra bildirən söz | say |
| Bəzi nitq hissələrini əvəz edən söz | əvəzlik |
| Hərəkət bildirən söz | ? |

Dərsliyin 145-ci səhifəsindəki “Feil – hərəkət bildirən söz” nəzəri hissə oxunur. Qaydaların dərindən mənimsənilməsi üçün MMV-nin 24-25-ci səhifələrində nümunəsi verilmiş sual müsabiqəsi metodu tətbiq olunur.

Dərslikdə verilmiş tapşırıqlar yerinə yetirilir.

**İş dəftərinin 103-cü** səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

# Dərs 75. MİLLİ MUSİQİ GÜNÜ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnlə bağlı faktoloji sualları cavablandırır. |
| 2.1.3. Öyrəndiyi yeni söz və terminlərdən məqamında istifadə edir. | Mətndə rast gəldiyi terminlərin hansı sahəyə aid olduğunu müəyyən edir və cümlədə işlədir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Kontekstdən çıxış edərək mətndən çıxarılmış sözlərin yerini müəyyən edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını həyat haqqında düşüncələri ilə əlaqələndirərək fikir yürüdür. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Yazılışı çətin olan sözlərin işləndiyi cümlələri üzündən köçürür. |
| 4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları məqamına uyğun istifadə edir. | Xüsusi isimləri böyük hərflə yazır. |
| 4.1.4. Cəm şəkilçisinin yazılışı və tələffüzü ilə bağlı qaydaları nitqində tətbiq edir. | Cəm şəkilçisini sözdən asılı olaraq dörd cür (-lar$^2$, -dar$^2$, -rar$^2$, -nar$^2$) tələffüz edir, lakin tələffüzdən asılı olmayaraq bir cür (-lar$^2$) yazır. |

### Motivasiya

Müəllim lövhədə sözlər yazır: “Azərbaycan Respublikasının Dövlət himni”, “bəstəkar”, “opera”, “Arşın mal alan”.

**Sual:** – *Bu sözlər sizə nəyi və kimi xatırladır?*

Variantlar arasından “Üzeyir Hacıbəyli” və “musiqi” sözləri seçilir.

**Müəllim:** – Belə çıxır ki, “Üzeyir Hacıbəyli” dedikdə təsəvvürümüzdə musiqi canlanır və əksinə, “musiqi” dedikdə bu böyük bəstəkar haqqında düşünürük.

Üzeyir Hacıbəylinin əsərlərindən parçalar səsləndirilir.

### Oxu

Dərslikdəki mətn (səh. 146) hissələrlə oxunur, tapşırıqlar yerinə yetirilir.

Tapşırıq 1. 1-ci boşluğa – “dahi”, 2-ci boşluğa – “görkəmli”, 3-cü boşluğa – “böyük”, 4-cü boşluğa – “təntənəli” sözləri uyğun gəlir.

Tapşırıq 2. ***Dirijor*** – orkestri, xoru, opera, ya balet tamaşasını idarə edən şəxs;

***Yubiley*** – bir hadisənin, yaxud bir şəxsin fəaliyyətinin və s.-nin təntənəli surətdə qeyd edilən ildönümü.

Tapşırıq 3. 15 sentyabr – Bilik günü, 20 sentyabr – Azərbaycan Nefçiləri günü, 27 sentyabr – Ümumdünya Turizm günü və s.

Əlavə suallar vasitəsilə mətnin qavranılması yoxlanır.

– *Milli Musiqi Günü niyə məhz sentyabrın 18-də qeyd olunur?*

– *Bu günün qeyd olunmasında hansı dirijorun rolu olub?*

– *18 sentyabr – Üzeyir Hacıbəylinin ad günü necə və kim tərəfindən rəsmiləşdi?*

Bundan sonra müəllim Azərbaycan Respublikasının Dövlət himninin musiqisinin və sözlərinin müəllifləri haqqında qısa məlumat verir, himni səsləndirir və bildirir ki, bu himn həm də 1918-ci ildə yaranmış Azərbaycan Demokratik Respublikasının dövlət himni olmuşdur.

### Dinləmə

Şagirdlər “Tarixi şəxsiyyətlər” bölməsində Üzeyir Hacıbəyli haqqında ətraflı məlumat almışlar. Lakin bu dahi şəxsiyyətin fəaliyyəti yalnız musiqi ilə məhdudlaşmayıb. Aşağıdakı mətn onun jurnalistika və təhsil sahəsindəki fəaliyyətini əks etdirir.



Çap üçün deyil

## ÜZEYİR HACIBƏYLİ

Biz Üzeyir Hacıbəylini dahi bəstəkar kimi tanıyırıq. Amma çoxumuz bilmirik ki, Üzeyir bəy yaradıcılığa bəstəkar kimi yox, jurnalist olaraq başlamışdır. Onun ilk məqalələri dövrünün tanınmış qəzetlərində işıq üzü görmüşdür. Üzeyir bəyin bir çox məqaləsi isə "Molla Nəsrəddin" jurnalında çap olunmuşdur. Həmin məqalələrdə böyük bəstəkarımız dövrünün eybəcərliklərinə – savadsızlığa, ədalətsizliyə qarşı çıxırdı. Üzeyir bəy məqalələrinin bir hissəsini gizli imzalarla çap etdirmişdir. Həmin gizli imzalardan bəziləri bunlardır: "Filankəs", "Bəhmənkəs", "Bisavad", "Avara", "Ü". Ümumiyyətlə, böyük bəstəkarımızın 60-dan çox gizli imzası olmuşdur.

Üzeyir Hacıbəylinin fəaliyyət dairəsi bununla da bitmir. O, həm də dərslik müəllifi olmuşdur. Müəllifin "Hesab məsələləri" kitabı üç hissədən ibarətdir. Birinci hissədə birrəqəmli ədədlərdən, ikincidə yuvarlaq onluqlardan, üçüncüdə isə ikirəqəmli ədədlərdən bəhs olunur. Kitabda 352 məsələ və dörd hesab əməlinə aid çoxlu misal vardır. Ü.Hacıbəylinin kitabında məsələlərin dili sadə, məzmunu çox maraqlıdır.

## İŞ VƏRƏQİ

**1. Ü.Hacıbəyli yaradıcılığa hansı əsərlərlə başlayıb?**
A) musiqi əsərləri ilə B) qəzet məqalələri ilə C) elmi əsərlərlə

**2. Ü.Hacıbəylinin məqalələri daha çox harada çap olunub?**
A) "Hesab məsələləri" kitabında
B) "Göyərçin" jurnalında
C) "Molla Nəsrəddin" jurnalında

**3. Məqalələrində Ü.Hacıbəyli nəyə qarşı çıxırdı?**
A) ədalətə və fədakarlığa B) savadsızlığa və ədalətsizliyə C) dostluğa və sədaqətə

**4. Ü.Hacıbəyli hansı dərsliyin müəllifidir?**
A) "Hesab məsələləri" B) "Ana dili" C) "Həyat bilgisi"

**İş dəftərinin** 104-cü səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Yazı**

Mətnin ikinci abzası üzündən köçürülür. Şagirdlərə yazılışı çətin olan sözləri yazarkən diqqətli olmaları tapşırılır (ümumxalq, bəstəkar, musiqisevərlər, prezident və s.).

**Dil qaydaları**

Mətndən böyük hərflərlə yazılan sözlər seçilir, nə üçün böyük hərflə yazıldığı araşdırılır.

**İmla mətni**

*Qırmızı rəngdə verilmiş sözlərin yazılışına xüsusi diqqət verilir.*

## QƏHRƏMAN ÇİNGİZ

Xocalı qırğınından sonra bu xəbəri bütün dünyaya çatdırmaq üçün Çingiz Mustafayev misilsiz hünər göstərdi. O zaman Çingiz Azərbaycan televiziyasının müxbiri idi. Bu qanlı cinayətin üstünü açmaq üçün o, həyatını təhlükə qarşısında qoyaraq hadisə yerinə ilk gələnlərdən biri oldu. Çingizin hadisə yerində çəkdiyi kadrlar bütün televiziya ekranlarını gəzdi və Xocalı soyqırımını dünya xalqlarına nümayiş etdirdi. Ölümündən sonra Çingiz Mustafayev Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü.

**Sinifdənxaric oxu.** A.Şaiq. "Tülkü həccə gedir".

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.



Çap üçün deyil

# Dərs 76. ANA DİLİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnlə bağlı faktoloji sualları cavablandırır. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Eşitdiklərini və oxuduqlarını misal gətirərək mövzu ilə bağlı fikirlərini əsaslandırır. |
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Debat zamanı mövqeyini müdafiə etmək üçün müvafiq arqumentlər irəli sürür. |
| 1.2.3. Fikirlərini aydın və obrazlı etmək məqsədilə bədii ifadələrdən istifadə edir. | Mətndən bədii ifadələri seçir və cümlədə işlədir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Mətndəki sözü yaxınmənalı sözlə əvəz edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətnə qoyulmuş sualları cavablandırmaqla şüurlu oxuduğunu nümayiş etdirir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Müəyyən mövzu ilə bağlı inşa yazır. |

**Motivasiya**

Müəllim Nəbi Xəzrinin şeirindən bir bənd söyləyir:

*Ucalır bağçada bülbülün səsi,*
*Çay susur, əsməyir çəməndə yel də.*
*Nə qədər doğmadır onun nəğməsi*
*Bülbül də elə bil ötür bu dildə.*

– *Şair hansı dili nəzərdə tutur?*

“Ana dili” cavabı alındıqdan sonra müəllim növbəti sualı verir:

– *Nə üçün insan həyatında dil qədər lazımlı heç nə yoxdur?* (Məhz dilin köməyilə biliklərə yiyələnir, onun vasitəsilə öz sevinc və arzularımızı, sevgi və məhəbbətimizi bildirir, ünsiyyət qurur, fikirlərimizi çatdırırıq.)

Şagirdlər artıq bir çox dahi yazıçı və şairlərin əsərləri ilə tanışdırlar, həm də onlar haqqında müəyyən məlumata malikdirlər. Bugünkü dərsdə onlar böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığı haqqında qısa məlumatı dinləyəcək, “Ana dili” şeiri ilə tanış olacaqlar.

**Oxu**

Dərsliyin 147-ci səhifəsindən şeir düzgün, ifadəli oxunur. Suallar verilir. Müəllim çalışmalıdır ki, şagirdlər suallara cavab verməklə şeiri nəsrə çevirib nəql etsinlər. Məsələn:

*İlk dəfə dil açanda “ana” kəlməsi söyləyirik, ilk dərsliyimiz “Ana dili” adlanır. Bu dillə bir-birimizə sevgimizi bildiririk. Bu dillə dünyagörüşümüzü artırırıq. Analarımız bizə layla çalanda bu dilin şirinliyini damla-damla ruhumuza içirib. Ulu babalarımızın bizə qoyub getdiyi ən qiymətli miras ana dilidir. Bu dili gözlərimiz tək qorumalı, bizdən sonra gələn nəsillərə ötürməliyik.*

**– Şeirdə işlənmiş “qiymətli” sözünü hansı sözlə əvəz etmək olar?**

A) bahalı B) ucuz C) dəyərli

– *“Əcdad”, “əhd-peyman” sözlərini necə başa düşürsünüz?* *(ata-babalar, ulu babalar; bir-birinə təntənəli surətdə söz vermə, əhdləşmə)*

Tapşırıq 1. “Ruhumuza içirmək” – canımıza, qanımıza hopdurmaq; “ana dilini gözümüztək qorumaq” – ana dilimiz doğma, əziz olduğu üçün onu gözümüztək qorumalıyıq.



Çap üçün deyil

Tapşırıq 2. 21 fevral dünyada Beynəlxalq Ana dili Günü kimi qeyd olunur. 1 avqust isə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür. Şagirdlər ensiklopediyalardan, müxtəlif kitablardan, internet səhifələrindən istifadə etməklə bu tarixi günlər haqqında məlumat toplayırlar.

**Dinləmə**

**Müəllim:** – *Hərf nəyin işarəsidir: sözün, səsin, yoxsa cümlənin?*

Cavablar dinlənildikdən sonra: – *Sizcə, hərf olmadan sözləri və cümlələri yazıda necə işarə etmək olar?* (Şəkillər vasitəsilə)

## ƏLİFBANIN TARİXİ

Çox qədimdə insanlar öz fikirlərini yazıda əks etdirə bilmirdilər. Onlar ən sadə məlumatları şəkillər vasitəsilə çatdırırdılar. Lakin şəkil çəkmək çox vaxt aparırdı və fikir dəqiqliklə ifadə olunmurdu.

Sonra insanlar hər söz üçün bir yazı işarəsi düşündülər. Zaman keçdikcə dildəki sözlərin sayı artırdı və hər bir söz üçün bir işarə düşünmək lazım gəlirdi. Bu qədər işarəni yadda saxlamaq çətin idi.

Nəhayət, insanlar başa düşdülər ki, on minlərlə sözün hər birini işarə etməkdənsə, nitqdə olan 25-30 səsi hərflərlə işarə edib söz və cümlələr yazmaq daha asan olar. Beləliklə, əlifba yarandı.

Bu gün dünyada bir çox əlifbalar var: ərəb, latın, kirill, hind və s. Bir çox Avropa xalqları, o cümlədən türk qardaşlarımız latın əlifbasından istifadə edirlər. Azərbaycan əlifbası da latın əlifbası əsasında yaradılmışdır.

Ümummilli lider Heydər Əliyevin 2001-ci ildə imzaladığı fərmana əsasən, avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur.

**İş dəftərinin** 105-ci səhifəsindəki sual və tapşırıqlar yerinə yetirilir.

**Yazı**

“Mənim ana dilim” mövzusunda inşa yazılır.

**Danışma**

Müəllim şagirdlərə iki sualla müraciət edir. Şagirdlər bu suallar ətrafında debat, yaxud diskussiya da keçirə bilərlər.

1. – Bəzən elə azərbaycanlılarla rastlaşırıq ki, onlar öz doğma ana dilində düzgün danışa bilmirlər, hətta düzgün danışmaq üçün cəhd də etmirlər. Belə adamlara münasibətinizi bildirin və fikrinizi əsaslandırın.

2. – Bəzən elə xarici ölkə vətəndaşları ilə rastlaşırıq ki, onlar Azərbaycan dilində öz doğma dilində danışdıqları kimi danışa bilirlər, hətta daha da düzgün və gözəl danışmağa cəhd edirlər. Belə adamlara münasibətinizi bildirin və fikrinizi əsaslandırın.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

# Dərs 77. 10 MART – MİLLİ TEATR GÜNÜ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi mətndəki əsas məlumatları seçib təhlil edir. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Şifahi nitq zamanı fikirlərini əsaslandırmaq üçün gündəlik həyatdan misallar gətirir. |
| 1.2.4. Ədəbi-bədii nümunələri ifadə edərkən müvafiq situasiyaya uyğun jest və mimikalardan istifadə edir. | Fikirlərini jest və mimikaların köməyi ilə ifadə edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, onların xarakterik əlamətlərini adlandırır. | Ümumişlək olmayan sözlərin ifadə etdiyi anlayışları müəyyənləşdirir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətni müəyyən edilmiş vaxtda oxuyaraq faktoloji suallara cavab verir. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, açıqca, elan, ərizə, dəvətnamə) yazır. | Tədbirlə bağlı elan yazır. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Feili digər nitq hissələrindən fərqləndirir və zamanını müəyyən edir. |

**Motivasiya**
Ölkəmizdə fəaliyyət göstərən hansı teatrları tanıyırsınız? Hansı tamaşalara baxmısınız?

**Oxu**
Mətn (səh. 148) sürətli və şüurlu oxunur. “Peşəkar” və “komediya” sözlərinin izahı açıqlanır, 1-2-ci tapşırıqlar yerinə yetirilir.Sonra şagirdlərə iş vərəqi paylanır.

**Danışma (Akvarium).** Müəllim lövhəyə “dramaturq”, “aktyor”, “rejissor” sözlərini yazır və onların teatr tamaşasının hazırlanmasında hansı funksiyanı yerinə yetirdiyini soruşur. Şagirdlərin variantları dinlənildikdən sonra müəllim onlara əlavə biliklər verməyə çalışır.

Müəllim şagirdlərə üzərində iki xanada “Ən çox sevdiyim aktyor” və “Ən çox sevdiyim aktrisa” sözləri yazılmış vərəqlər paylayır. Şagirdlər 30 saniyə ərzində hər iki xananı doldurub müəllimə qaytarırlar. Müəllim şagirdlərin cavablarını toplayaraq sinfin ən sevimli aktyor və aktrisasının adını elan edir. Bundan sonra həmin aktyor və aktrisaların adlarını vərəqə qeyd etmiş şagirdlər öz seçimlərini əsaslandırmağa çalışırlar.

**Müəllim:** – *Elə cizgi filmləri var ki, orada obrazlar danışmasalar da, onların hərəkətindən və mimikasından hər şeyi başa düşmək olur. Belə cizgi filmlərinə misal gətirə bilərsinizmi?* Filmlər sadalandıqdan sonra sözsüz cizgi filmlərindən biri nümayiş olunur. Şagirdlər filmin məzmununu danışırlar.

**Sual:** – *Pantomima tamaşası nədir?*

Şagirdlərin versiyaları dinlənildikdən sonra izah verilir: – Pantomima – teatr tamaşasıdır. Lakin başqa tamaşalardan fərqli olaraq, burada aktyorlar hiss və fikirlərini danışıqla yox, yalnız jest və mimika ilə ifadə edirlər.

Bunu nümayiş etdirmək üçün müəllim bir neçə şagirdə müxtəlif tapşırıqlar verə bilər:
– Sözlərdən istifadə etmədən dostundan qələm istə.
– Jest və mimikalarla parta yoldaşına bildir ki, onunla dost olmaq istəyirsən.

**Pantomima oyunu.** Müəllim şagirdlərə tapşırır ki, baxdıqları filmlərin adlarını çəksinlər. Filmlərin adları lövhədə yazılır. Sonra qarşıya bir şagird dəvət olunur. O, siyahıdan bir filmi

Çap üçün deyil

seçib jest və mimikalarla həmin filmdən epizodlar nümayiş etdirir. Qalan şagirdlər göstərilən jestlərin hansı filmə aid olduğunu tapmalıdırlar. Filmin adı tapıldıqdan sonra qarşıya başqa şagird dəvət olunur.

**Dinləmə**

Müəllim lövhədə sxem çəkir:




**Sual:** – *Sual işarəsinin yerinə hansı sözü yaza bilərik?*

## TEATRIN TARİXİ

"Teatr" yunan sözüdür. Onun dilimizə tərcüməsi isə "tamaşa yeri" mənasını verir. Teatrın vətəni də Yunanıstan hesab olunur. Qədim yunanlar teatrı çox sevir, onu "böyüklər üçün məktəb" adlandırırdılar. Əvvəllər tamaşalar açıq havada, təpənin ətəyində göstərilirdi. Tamaşaçılar isə yamacda yer tutub otururdular. Teatr üçün yazılan əsərlərin iki növü vardı: tragediyalar və komediyalar. Tragediyalarda qəhrəmanlar bir-biri ilə amansız mübarizə aparır, çox əzablarla üzləşməli olurdular. Şən və məzəli səhnəciklərə isə "komediya" deyilirdi.

Zaman keçdikcə teatr Yunanıstandan digər ölkələrə də yayılmağa başladı.

Təxminən əlli il bundan əvvəl dünyanın teatr xadimləri bir yerə toplaşdı. Onlar təklif etdilər ki, hər il martın 27-si bütün planetimizdə Beynəlxalq Teatr Günü kimi qeyd olunsun. Təklif hamı tərəfindən qəbul olundu. Beynəlxalq Teatr Gününün məhz martın 27-də qeyd edilməsinin səbəbi isə bu barədə qərarın həmin gün qəbul edilməsi ilə əlaqədardır.

Müəllim şifahi şəkildə "Doğru, yoxsa yanlış" çalışma modelindən istifadə edir. Şagirdlər hər cümlədən sonra "D" və ya "Y" kartoçkalarını qaldırırlar.

**Doğru, yoxsa yanlış?**

1. "Teatr" sözü ingilis sözüdür.
2. "Teatr" yunan dilindən tərcümədə "tamaşa yeri" mənasını verir.
3. Teatrın vətəni Yunanıstandır.
4. Qədim yunanlar teatrı "Uşaqlar üçün əyləncə" adlandırırdılar.
5. Əvvəllər tamaşalar açıq havada göstərilirdi.
6. Tamaşa üçün səhnə təpənin başında qurulurdu.
7. Tamaşaçıların yeri təpənin yamacında olurdu.

**İş dəftərinin** 106-cı səhifəsindəki tapşırıqlar yerinə yetirilir. Bayramla əlaqədar elan nümunəsi hazırlanır.

**Dil qaydaları**

4-cü tapşırıq yerinə yetirilir.

**Müəllim:** – "Çalışmaq" feilinin üç formasına diqqət yetirin: 1) çalışdım, 2) çalışıram, 3) çalışacağam. Bu feillər arasında hansı məna fərqi var?

Şagirdlər müzakirə edərək bu feillərdəki formaca fərqin zamanla bağlı olduğunu müəyyən edirlər.

Dərslikdə verilmiş nəzəri material (səh. 149) oxunduqdan sonra həmin səhifədəki tapşırıqlar ümumi müzakirə yolu ilə yerinə yetirilir.

**Qruplarla iş.** Şagirdlər 4 qrupa bölünürlər.

**I qrup:** "Qurmaq", "aparmaq", "sancmaq", "dayanmaq" feillərini cümlələrdə keçmiş zamanda işlədin.

Çap üçün deyil

**II qrup:** “İstəmək”, “tullamaq”, “səsləmək”, “anlamaq” feillərini cümlələrdə indiki zamanda işlədin.

**III qrup:** “Gətirmək”, “dərmək”, “oturmaq”, “yazmaq” feillərini cümlələrdə gələcək zamanda işlədin.

**IV qrup:** “Öyrənmək” feilini cümlələrdə hər üç zamanda təsdiqdə və inkarda işlədin.

Şagirdlər işlərini təqdim edərkən cümlələrə hər hansı zaman bildirən söz (dünən, keçən il, indi, bu saat, sabah, axşam və s.) əlavə etmək tapşırılır. II qrupun nümayəndəsi cümlələri lövhədə yazaraq saitlə bitən indiki zaman feillərinin düzgün yazılışını nümayiş etdirir.

**İş dəftərinin** 107-ci səhifəsindəki sual və tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 78. QORXULU YANVAR GECƏSİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Oxuduğu mətndəki məlumatlara əvvəl əldə etdiyi bilikləri də əlavə edərək mövzu ilə bağlı fikirlərini əsaslandırır. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi məcazi mənalı ifadəni kontekstə görə izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. |
| 3.1.1. Hüsnxət normalarına riayət etməklə səliqəli və sürətlə yazır. | Təyin olunmuş vaxt müddətində mətni hüsnxət normalarına uyğun köçürür. |

### Motivasiya

Arxasında “20 Yanvar” yazılmış kart lövhədən asılır. Şagirdlər bu sözü tapmalıdırlar. Bunun üçün müəllim kartın üzərində həmin sözlə bağlı bir neçə hadisəni (məsələn, “rus tankları Bakıya hücuma keçdi”, “əliyalın insanlara atəş açıldı”, “1990-cı ilin bu günü xalqımızın tarixinə qəhrəmanlıq səhifəsi kimi yazıldı” və s.) yazır.

Şagirdlər kartın arxasında 20 Yanvar yazıldığını müəyyənləşdirirlər.

### Oxu

**Səssiz oxu**. Mətn (dərslik, səh. 150) “İlqar da yıxıldı” sözlərinədək səssiz oxunur. Müəllim sual-cavab yolu ilə bu hissənin şagirdlər tərəfindən necə qavranıldığını yoxlayır.

– *Mətndə təsvir olunmuş hadisə nə vaxt baş verdi?*
– *Əhali nəyə ümid edirdi?*
– *İlqar nə toplayırdı?*
– *Tahir əmi meydana toplaşanlara nə üçün odun aparırdı?*
– *İlqar nə üçün Tahir əmi ilə getdi?*
– *İlqar nə üçün tanklara maraqla tamaşa edirdi?*

**İfadəli oxu.** Mətn “Ata-ana kor-peşman evə qayıtdılar” cümləsinədək oxunur. Bunun üçün müəllim üç şagirdi lövhəyə dəvət edir. Şagirdlərdən biri müəllifin, ikincisi Rəşid dayının, üçüncüsü isə əsgərlərin sözlərini oxuyur.

Mətnin davamı səssiz oxunur. Müəllim sual-cavab yolu ilə mətnin bu hissəsinin qavranıldığını yoxlayır.



Çap üçün deyil

*– Nə üçün İlqarın ata-anası oğullarını axtara bilmədilər?*
*– "Rəşid dayı həmin gecə İlqarı "tapdı və həmişəlik itirdi" ifadəsini necə başa düşürsünüz?*
*– "Şəhidlərin qanı yerdə qalmayacaq" ifadəsini necə başa düşürsünüz?*

Dərsliyin 151-ci səhifəsində verilmiş söz ehtiyatı və şüurlu oxu ilə bağlı sual və tapşırıqlar yerinə yetirilir.

5-ci tapşırıqla bağlı müəllim əlavə məlumat verə bilər: *1990-cı il 20 Yanvar hadisəsindən sonra xalqımız müstəqillik uğrunda mübarizəsini davam etdirdi və 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini elan etdi. 20 Yanvar hadisələri xalqımızın milli mənliyinə, milli azadlıq ruhuna qarşı təcavüz idi. Azərbaycan xalqına qarşı törədilmiş cinayət, tökülmüş nahaq qanlar, insanlarımızın vəhşicəsinə qətlə yetirilməsi xalqımızın müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə qüdrətini bütün dünyaya bəyan etdi. Məhz bu fədakarlıq və iradə sayəsində xalqımız müqəddəs arzusuna çatdı, milli azadlığına qovuşdu. Azərbaycan qısa müddət ərzində müstəqil, sürətlə inkişaf edən dövlət kimi dünya birliyində özünün layiqli yerini tutmağa nail oldu.*

**Yazı**

**Hüsnxət. İş dəftərinin 108-ci** səhifəsindəki hüsnxət tapşırığı yerinə yetirilir.

**Dil qaydaları.**

**İş dəftərinin 108-ci** səhifəsindəki qrammatik tapşırıq yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 79. AZƏRBAYCANDA İLK MİLLİ QƏZET (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Debat zamanı opponentinin sözünü kəsmədən dinləyir və onun fikirlərinə qarşı arqumentlər irəli sürür. |
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Şifahi nitq zamanı dinləyicilərin suallarını cavablandırır. Debat zamanı mövqeyini müdafiə etmək üçün arqumentlər gətirir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, onların xarakterik əlamətlərini adlandırır. | Sözün aid olduğu məna qrupunu müəyyən edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətndəki məlumatlardan nəticə çıxarır və onu həyat haqqında düşüncələri ilə əlaqələndirərək fikir yürüdür. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Yazılışı çətin olan sözlərin işləndiyi cümləri üzündən köçürür. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Yazdığı imla mətnini orfoqrafik cəhətdən yoxlamaq üçün lüğətdən istifadə edir. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Feilin şəxsə görə dəyişməsini izah edir. |

Çap üçün deyil

### Motivasiya

Müəllim lövhədə sxem çəkir. **Sual:** – *Sual işarəsinin yerinə hansı sözü yaza bilərik?*




*<u>Müəllimin nəzərinə:</u> Bu dərs qabaqcadan hazırlıq tələb edir*. Şagirdlər evdə uşaq qəzetlərindən birinin son nömrəsini oxuyub onun icmalını hazırlamalıdırlar. Müəllim bu tapşırığı verərkən "qəzet icmalı" ifadəsinin mənasını (qəzetdə dərc olunmuş materialların qısa məzmunu, şərhi, xülasəsi) və icmalı hazırlamağın qaydalarını başa salmalıdır:

– əsas məqalələrin adlarını və hansı səhifədə olduğunu qeyd etməli;

– materialların mövzu baxımından təsnifatını aparmalı (mədəniyyət xəbərləri, idman xəbərləri, tədbirlər barədə xəbərlər və s.);

– hər bir məqalədə əks olunmuş fikirləri ayrıca vərəqdə qeyd etməli.

Evdə hazırlanmış hər bir qəzet nömrəsinin icmalı üçün 5 dəqiqə vaxt ayrılır. Şagird məruzəsini etdikdən sonra dinləyicilərin suallarına cavab verir.

**Oxu.** Mətnin (dərslik, səh. 152) birinci üç abzası oxunur. Müəllim sual-cavab yolu ilə bu hissənin qavranıldığını yoxlayır və şagirdlərə müraciət edir:

– *Siz bilirsiniz ki, Həsən bəy Zərdabi ilə Mirzə Fətəli Axundzadə həmfikir olmuşlar. Axundzadə Azərbaycanda ilk qəzetin çıxdığını biləndə Zərdabiyə məktub yazmışdı. Sizcə, o öz məktubunda nə yazmışdı?*

Şagirdlərin versiyaları dinlənir və mətnin davamı oxunur.

Dərslikdəki suallar cavablandırılır.

**Müəllim:** – *İnsanlar ölkədə və dünyada baş verən hadisələr haqqında necə xəbər tuturlar?*

Şagirdlər əsas informasiya vasitələrini sadalayırlar: qəzet, radio, televiziya, internet.

### Danışma

**Debat**. Şagirdlər iki qrupa bölünür.

I qrup. Televiziyaya çox baxmağın xeyri

II qrup. Televiziyaya çox baxmağın ziyanı

### Dil qaydaları

<u>4-cü tapşırıq</u> yerinə yetirilir.

Müəllim lövhədə mübtədası buraxılmış cümlə yazır: *... bu kitabı oxumuşuq.*

**Sual:** – *Nöqtələrin yerinə uyğun gələn sözü yazın.*

Şagirdlər nöqtələrin yerinə "biz" sözünü yazdıqdan sonra müəllim soruşur: – Niyə məhz bu sözü yazdınız? Şagirdlər bunu feilin forması ilə (şəkilçisi ilə) izah edirlər. Dərsliyin 153-cü səhifəsindəki nəzəri material mənimsənildikdən sonra şagirdlər qruplarla işləyirlər.

**Qruplarla iş**. Şagirdlər 3 qrupa bölünürlər.

I qrup: dərslik, səh. 153, tap.5 yerinə yetirilir.

II qrup: iş dəftəri, səh. 109, tap. 2 yerinə yetirilir.

III qrup: iş dəftəri, səh. 109, tap. 3 yerinə yetirilir.

### Yazı

İş dəftərinin 110-cu səhifəsində verilmiş "6 noyabr – Televiziya və Radio işçiləri Günü" mətni tapşırıqları yerinə yetirilməklə köçürülür. Mətndən yazılışı çətin olan sözlərin işləndiyi cümlələr seçilib dəftərə köçürülür (televiziya, informasiya, təbiətşünas, maariflənməsinə, elmsizlik, savadsızlıq, camaatımız, teatr və s.).

Çap üçün deyil

**İmla**

**BAYRAM GECƏSİ** (71 söz)

Həmin gün kənd yerlərində uşaqlar tonqal qalayır, qapı-qapı gəzib, bayram hədiyyələri toplayır, yumurta döyüşdürürlər. Şənliklər gecə səhərə qədər davam edir. Onlar oynayır, oxuyur, əylənirlər. Qızlar, oğlanlar ürəklərində niyyət tutub, qapı-bacanı pusur, qulaq falına çıxırlar. Yaxşı söz, xoş söhbətlər eşitdikdə sevinir, gözəl niyyətlərinin baş tutacağına ümid edir, pis söz eşitdikdə narahatlıq keçirirlər. Odur ki, həmin axşam hamı çalışır ki, evdə dedi-qoduya yol verməsin, ürəkaçan söhbətlər eləsin, şən əhvali-ruhiyyə yaratsın.

**Sual və tapşırıqlar:**
1. Mətndə hansı bayramdan danışılır?
2. Mürəkkəb sözləri sadalayın. Onlardan hansı bitişik yazılır?

**Sinifdənxaric oxu.** "Molla və dövlətli" (lətifə).

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 80. ÇƏRPƏLƏNG (4saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndən çıxarılmış cümlələrin mətndəki yerini müəyyən edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mövzu üzrə əvvəl qazandığı biliklərə əsaslanaraq mətndəki əsas faktlarla bağlı fikir yürüdür. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, açıqca, elan, ərizə, dəvətnamə) yazır. | Əsərin qəhrəmanına məktub yazır. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Əsas nitq hissələrini fərqləndirir və xüsusiyyətlərini izah edir. |
| 4.1.7. Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir. | Cümlədə sual mənası yaradan sözləri müəyyənləşdirir. |

**Motivasiya** (Söz assosiasiyası)

**Müəllim:** – *"Qarabağ" dedikdə yadınıza hansı sözlər düşür?* (müharibə, qaçqın, şəhid, ölüm, vətən, torpaq)

Müəllim "şəhid" sözünün üzərində dayanır və bu sözün mənasını soruşur. "Şəhid" və "şahid" sözləri arasındakı fərq izah olunur:

***Şəhid*** *– yüksək amal, məslək, əqidə yolunda ölən, həlak olan, canını fəda edən adam;*
***Şahid*** *– bir hadisəni, əhvalatı, işi öz gözü ilə görmüş və ya görən adam* (1-ci tapşırıq).

**Oxu**

Mətn (dərslik, səh. 154-155) "Bu sözü eşidən Aslanın ağlına bir fikir gəldi" cümləsinə qədər oxunur.

**Müəllim:** – *Səhifədəki şəkillərə baxın və mətni öz təxəyyülünüzə uyğun davam etdirin.*

Şagirdlərin variantları dinləndikdən sonra mətnin qalan hissəsi oxunur və səslənmiş variantlarla müqayisə edilir. Şagirdlər birlikdə mətnin planını tutur və plana görə nəql edirlər.



Çap üçün deyil

Dərsliyin 156-cı səhifəsindəki sual və tapşırıqlar yerinə yetirilir.

**Yazı**

9-cu tapşırıq: Şagirdlər uşaqlara məktub yazaraq öz arzu və istəklərini ifadə edirlər.

**Dil qaydaları**

Mətndə yer və şəxs adları bildirən sözlər əlifba sırası ilə dəftərə yazılır. Bundan sonra dil qaydaları ilə bağlı verilmiş 10-14-cü tapşırıqlar yerinə yetirilir.

**İş dəftərinin 111-ci** səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 81. GÜLÜŞ GÜNÜ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Şifahi nitq zamanı gündəlik həyatdan misallar gətirir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, onların xarakterik əlamətlərini adlandırır. | Məntiqə və araşdırmalara əsaslanaraq rast gəldiyi yeni anlayışı ifadə edən sözü müəyyənləşdirir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətnə aid sualları cavablandırmaqla şüurlu oxuduğunu nümayiş etdirir. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Əvəzliyin əvəz etdiyi nitq hissəsini müəyyənləşdirir. |

**Motivasiya**

**Müəllim:** – *1 aprel başqa günlərdən nə ilə fərqlənir? Həmin gün siz nə edirsiniz?* (Aprelin 1-də hamı bir-biri ilə zarafat edir, bir-birini aldatmağa çalışır.)

Şagirdlər 1 aprellə bağlı xatirələrini danışırlar, başqalarını necə aldatdıqlarını, özləri nə cür aldandıqlarını yada salırlar.

**Müəllim:** – *Bəli, 1 aprel zarafat, gülüş günüdür. Bəs nəyə görə məhz 1 aprel?*

**Oxu**

Mətn (dərslik, səh. 157) şagirdlər tərəfindən hissə-hissə oxunur.

Mətnin qavranıldığını yoxlamaq üçün suallar verilir:

*1. 1 apreli Gülüş Günü kimi keçirmək ənənəsi nə zaman, harada yaranmışdır?*
*2. Əvvəllər fransız xalqı o günü hansı bayram kimi qeyd edirdi?*
*3. Fransız xalqı kralın hansı qərarı ilə razılaşmırdı? Bunun üçün onlar nə etdilər?*

Dərsliyin 157-ci səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir.

*Müəllimin nəzərinə: 1-ci tapşırıq üzərində işləyərkən müəllim bildirməlidir ki, birinci sütunda ölkə, ikinci sütunda həmin ölkədə yaşayan millət adları yazılmışdır. İran əhalisinin çox hissəsi farslardır.*

**İş dəftərinin** 112-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Dil qaydaları.** 2-ci tapşırıq yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

## Dərs 82. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərsdə dərsliyin 158-ci səhifəsində verilmiş sual və tapşırıqlar yerinə yetirilir, müvafiq bölmədə tədris olunmuş materiallar təkrarlanır. Bununla yanaşı, müəllim həm özünün hazırladığı materiallardan, həm də müxtəlif qiymətləndirmə vasitələrindən istifadə edə bilər. Tapşırıqların seçimi zamanı bölmədə reallaşdırılmış standartları əsas götürmək lazımdır.

## Dərs 83. BÖLMƏ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ (2 saat)

**DİNLƏMƏ**

### TELEKANALIN ZARAFATI

Bu əhvalat 50 il bundan əvvəl baş verib. Günlərin bir günü İsveç telekanallarından biri belə bir məlumat yayır ki, televizorların rəngli göstərməsinin yolu tapılıb. Bunun üçün televizorun ekranına neylon corab keçirmək kifayətdir.

Dərhal minlərcə insan neylon corab almaq üçün mağazalara axışır. Amma televizorlar rəngli göstərmir ki, göstərmir. Məlumatı yayan telekanala tamaşaçılardan aramsız zənglər başlayır. Oradan isə belə cavab alırlar ki, bir daha sınayın, televizorunuz mütləq rəngli göstərəcək!

Yalnız günün sonunda həmin telekanal bunun bir zarafat olduğunu deyir. İsveç xalqı hər şeyi başa düşür. Düzdür, bu zarafatdan əsəbiləşənlər də olur. Amma hətta onlar da sonradan özlərini gülməkdən saxlaya bilmirlər.

**1. Hadisə hansı ölkədə baş verib?**
A) Rusiyada B) Fransada C) İsveçdə

**2. Səncə, hadisə ilin hansı günü baş verib?**
A) yanvarın 1-də B) aprelin 1-də C) iyunun 1-də

**3. Mətndən hansı nəticəni çıxarmaq olar?**
A) Xalqı aldatmaq olmaz.
B) Telekanallar tez-tez yalançı məlumatlar yayırlar.
C) 50 il əvvəl televizorlar ağ-qara göstərirdi.

**4. Nəyə görə telekanal tamaşaçılara məhz neylon corab almağı məsləhət görmüşdü?**
A) Neylon corab asanlıqla genişlənir.
B) Neylon corab pis satılırdı.
C) Neylon corab ucuz idi.

**YAZI**

"Telekanalın zarafatı" mətninin qısa məzmunuşagirdlər tərəfindən yazılır.

**OXU**

Kənd uşaqları səbirsizliklə axşamın düşməsini gözləyirdilər. Tez-tez xırman **(A)** yerinə topladıqları ota baxırdılar. Arabir qucaqlarında küləş **(B)**, saman gətirib otun üstünə atırdılar. Bundan başqa, əllərinə keçən quru çırpıları **(C)**, odun qırıntılarını da xırman yerinə yığırdılar.



Çap üçün deyil

Onlar şər qarışan kimi tonqal yandıracaqdılar. Meşədən uzun payalar **(Ç)** da kəsib gətirmişdilər ki, axşam damların üstünə çıxıb lopa **(D)** yandırsınlar.

Qızlar özlərinə təzə paltar tikir, gəlinlər yumurta boyayır, bayram plovu dəmləmək üçün düyü arıtlayırdılar. Səmənilər süfrələrə düzülürdü. Varlı da, kasıb da çalışırdı ki, bu axşam süfrəsi boş qalmasın. Aylarla yığdıqlarını bu axşam üçün xərcləyənlər də vardı.

*İsmayıl Şıxlı ("Dəli Kür" romanından)*

**1. Altından xətt çəkilmiş sözlərə diqqət yetir. Aşağıdakı izahların hansı sözə aid olduğunu müəyyən et (müvafq hərfi dairəyə al).**

| | |
|---|---|
| Taxıl döyüldükdən sonra qalan quru çöplər | A B C Ç D |
| Ucunda neft hopdurulmuş əsgi olan budaq | A B C Ç D |
| Taxılı təmizləmək üçün ayrılmış meydança | A B C Ç D |
| Quru nazik budaqlar, kol qırıntısı | A B C Ç D |
| İri ağac budağı, tir, dirək | A B C Ç D |

**2. Kənd camaatı nəyə hazırlaşırdı?**
A) düşməni qarşılamağa
B) Novruz şənliklərinə
C) toya

**3. Hansı başlıq mətnin məzmununa uyğun gəlir?**
A) Kənddə bayram axşamı
B) Yanğının səbəbi
C) Bir kəndin sakinləri

**4. Altından xətt çəkilmiş ifadəni hansı ifadə ilə əvəz etmək olmaz?**
A) toranlıq düşən kimi
B) qaş qaralan kimi
C) dan yeri sökülən kimi

**DİL QAYDALARI**

**1. Hansı söz həm say, həm də feil kimi işlənə bilər?**
A) beş B) düş C) min

**2. *"Soruşmaq"*, *"yazmaq"*, *"üzmək"* feillərini zamana və şəxsə görə dəyiş.**

**3. "Bilirsiniz" feili haqqında deyilənlərdən hansı yanlışdır?**
A) II şəxsin cəmindədir.
B) Gələcək zamanda işlənmişdir.
C)Təsdiq formasındadır.

**4. Hansı cümlədə "o" əvəzliyi şəxs əvəzliyi deyil?**
A) O, şəhərdə gördüklərindən söhbət açdı.
B) O yaşlı kişi bayaqdan sizə fikir verir.
C) Bilirdim ki, o, dünənki hərəkətinə görə peşman olacaq.

Çap üçün deyil

**5. Verilmiş feilləri keçmiş, indiki, gələcək zamanlarda işlət.**

*çıxmaq, demək, gülmək, oxumaq, anlamaq*

**6. “Qaz”, “aş”, “qarış”, “qız” sözlərini cümlədə feil kimi işlət.**

**7. Altından xətt çəkilmiş feillərin zamanını müəyyən et.**

1. Əsgər cəld irəli atıldı.
2. Hava bürkü olduğu üçün həyətdə oturacağıq.
3. Sabah valideyn iclası olacaq.
4. Körpə sevinclə qışqırır.
5. Usta alnını əsəbiliklə ovuşdururdu.
6. Xarici ölkədə yaşayan dostuma məktub yazıram.

Çap üçün deyil

# VII bölmə

# HİKMƏT XƏZİNƏSİ

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | İş dəftəri səh. | MMV səh. |
|---|---|---|---|---|---|---|
| 84. | **Kərpickəsən qocanın hekayəti** | 1.1.2, 1.2.1, 1.2.4, 2.1.2, 2.2.4, 3.1.4, 4.1.5, 4.1.6 | 2 | 160-161 | 116 | 184 |
| 85. | **Güc birlikdədir** | 1.1.1, 2.1.2, 2.1.4, 2.2.4, 4.1.4 | 2 | 162-163 | 117 | 186 |
| 86. | **Əkinçi və oğlu** *Səbəb-nəticə əlaqəsi* | 1.1.2, 1.2.1, 1.2.2, 2.1.4, 2.2.1, 2.2.4, 4.1.3 | 4 | 164-166 | 118 | 187 |
| 87. | **Tamahkar ağa ilə çoban** *Cümlə üzvləri* | 1.1.2, 2.1.2, 2.1.4, 2.2.1, 2.2.3, 2.2.4, 2.2.5, 4.1.3, 4.1.6 | 6 | 167-168 | 119-120 | 189 |
| 88. | **Ata sözünün qiyməti** *Cümlənin baş üzvləri – mübtəda, xəbər* | 1.1.1, 1.2.3, 2.2.4, 3.1.2, 4.1.6 | 4 | 169-170 | 121 | 191 |
| 89. | **Dəniz qorxusu** | 1.1.2, 1.2.1, 2.1.2, 2.2.1, 2.2.4, 4.1.6 | 2 | 171 | 122 | 192 |
| 90. | **Atanın nəsihəti** *Cümlənin ikincidərəcəli üzvləri* | 1.1.2, 1.2.1, 1.2.3, 2.1.2, 2.2.1, 2.2.4, 4.1.3, 4.1.4, 4.1.6, 4.1.7 | 4 | 172-173 | 123 | 193 |
| 91. | **Qarabatdaq və xərçəng** | 1.1.1, 1.2.1, 2.1.4, 2.2.1, 2.2.3, 2.2.4, 2.2.5, 4.1.6 | 4 | 174-175 | 124 | 195 |
| 92. | **Siçan və dəvə** | 1.2.1, 2.1.2, 2.2.1, 2.2.4, 3.1.4, 4.1.5, 4.1.6 | 2 | 176-177 | 124 | 197 |
| 93. | **Köhnə dərs** | 1.1.2, 1.2.1, 1.2.2, 2.1.2, 2.2.1, 2.2.4, 4.1.3, 4.1.6 | 4 | 178-179 | 125 | 198 |
| 94. | **Tacir və dostu** *Durğu işarələri* | 1.1.2, 1.2.1, 2.1.2, 2.1.4, 2.2.1, 2.2.3, 2.2.4, 4.1.7 | 2 | 180-182 | 125 | 200 |
| 95. | **Daha mənə ehtiyac yoxdur** | 2.1.2, 2.2.1, 3.1.2 | 2 | 183 | 126 | 202 |
| 96. | **Ümumiləşdirici təkrar** | | 2 | 184 | | 203 |
| 97. | **Bölmə üzrə qiymətləndirmə** | | 2 | | 127-129 | 203 |
| | | **Yekun** | **42 saat** | | | |

Çap üçün deyil

## Dərs 84. KƏRPİCKƏSƏN QOCANIN HEKAYƏTİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi mətndən çıxan nəticəni ifadə edir və ona münasibət bildirir. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Əsərin qəhrəmanına münasibət bildirir və onu həyatda gördükləri ilə müqayisə edir. |
| 1.2.4. Ədəbi-bədii nümunələri ifadə edərkən müvafiq situasiyaya uyğun jest və mimikalardan istifadə edir. | Dialoji mətni səhnələşdirərkən oynadığı rolun xarakterinə uyğun səs tonu seçir, jest və mimikalardan istifadə edir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Qarşılaşdığı yeni sözlərin mənasını kontekstdən çıxış edərək təxmin edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Obrazların hərəkətlərindən və xarakterindən çıxış edərək mətndəki əsas fikri müəyyən edir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Oxuduğu mətnin ideyası ilə bağlı inşa yazır. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Əvəzliyi digər nitq hissələrindən fərqləndirir. |
| 4.1.6. Cümlənin formalaşmasında baş və ikincidərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir. | Söz birləşmələrini cümlə üzvü kimi işlədir. |

**Motivasiya**

**Dinləmə**

Dərsdən sonra Seymur dostu ilə kompüterdə "Hörümçək adam" oyunu oynayırdı. Elə maraqlı idi ki, əl çəkə bilmirdi. Bir də baxdı ki, axşam düşüb. Riyaziyyatdan ev tapşırıqlarını yerinə yetirməmişdi. Dərsliyi açıb məsələlərə baxdı. Hər yerdə gözünə hörümçək adam görünürdü. Heç bir məsələnin şərtini anlaya bilmədi. "Eh, eybi yoxdur, sabah tənəffüsdə Nərgizdən köçürərəm," – deyə düşündü.

Ertəsi gün o, birinci dərsdən sonra Nərgizə yaxınlaşdı, məsələlərin həllini istədi. Amma Nərgiz dəftərini vermədi:

– Özün eləyəydin də. Sənin üçün çalışmıram ki!...

– Paxılın biri paxıl! – Seymur donquldandı.

O, Vaqifə, sonra İmrana yalvardı ki, köçürmək üçün dəftəri versinlər. Axırda Elman köməyinə gəldi:

– Al, köçür. Yazıqsan. Müəllim ananı çağırar, yenə başlayarsan ağlamağa.

Seymur dəftəri alıb məsələləri köçürdü. Amma o özünü alçalmış hiss edirdi.

Müəllim şagirdlərdən əsərdəki obrazlara münasibətini soruşur və sonda belə bir sualla müraciət edir:

– *Hansı yaxşıdır: əziyyət çəkib alnıaçıq, üzüağ olmaq, yoxsa tənbəllik edib sonra alçalmaq?*

Şagirdlər öz fikirlərini deyir və həyatdan misallar gətirirlər.

**Oxu**

"Kərpickəsən qocanın hekayəti" (dərslik, səh. 160) əvvəlcə səssiz oxunur. Sonra qoca ilə cavanın dialoqu səhnələşdirilir.

Oxu mətni ilə dinləmə mətni arasındakı ideya-məzmun yaxınlığı araşdırılır, obrazlar müqayisə olunur. Müəllim əmək, zəhmət haqqında bir neçə atalar sözü deyir və onlardan hansıların mətnin məzmununa uyğun gəldiyini soruşur:

1. Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar.
2. Adamı qeyrət işlədər, dəyirmanı su.
3. Torpaq deyər: "Öldür məni, dirildim səni".



Çap üçün deyil

4. Əmək insanı ucaldar.
5. Qayış nə bilir öküz nə çəkir.
6. İstəyirsən bal-çörək, al əlinə bel-kürək.

**Söz ehtiyatı.** 1-ci tapşırıq yerinə yetirilir. “Qoca bir anlığa əl saxlayıb diqqətlə cavanı süzdü”, “Şərəflə yaşayan bu qoca onun gözündə ucaldı” cümlələrində “əl saxlayıb”, “süzdü”, “ucaldı” sözlərinin həqiqi və məcazi mənaları araşdırılır.

2-4-cü tapşırıqlar yerinə yetirilir.

3-cü tapşırıq. Tapşırıqda verilmiş parça mətndə qocanın sonda cavana acıqla söylədiyi hissəyə uyğun gəlir.

Mətnin əsas hissələri şagirdlər tərəfindən nəql olunur. Yaxşı olar ki, qocanın cavabı 3-cü tapşırıqda verilmiş nəzm parçası ilə ifadə olunsun.

4-cü tapşırıq. Dərslikdəki mətn nəsr, 3-cü tapşırıqdakı mətn isə nəzm formasında yazılmışdır.

**İş dəftərinin** 116-cı səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir.

**Yazı**

“Əmək insanı ucaldır” mövzusunda inşa yazılır.

**Dil qaydaları**

7-ci tapşırıq. “Kərpickəsən” sözü isimlə feilin birləşməsindən əmələ gəlib.

8-ci tapşırıq. Mətnin sonuncu cümləsindəki göy rənglə verilmiş “o” əvəzliyi *kim?* sualına cavab verir.

**Müəllim:** – *“Rəng” dedikdə nə təsəvvür edirsiniz?* (Şagirdlər rəngləri sadalayırlar.)

Müəllim sinfin divarını göstərib soruşur:

– *Bəs “divarın rəngi” desəm?* (Şagirdlər divarın rəngini adlandırırlar.) *İndi deyə bilərsinizmi, dediyim sözlə söz birləşməsi arasında nə fərq var?*

Müəllimin yönəldici sualları ilə şagirdlər bu qənaətə gəlirlər ki, sözlə müqayisədə söz birləşməsi daha dəqiq və konkret məna bildirir.

**Cütlərlə iş.** Şagirdlər cütlükdə işləyirlər. Biri bir söz deyir, digəri bu sözə başqa söz qoşaraq söz birləşməsi yaradır.

*Müəllimin nəzərinə: Şagirdlər söz birləşməsi deyil, “kitab və dəftər”, “kitab oxuyur” kimi ifadələr işlətsələr, müəllim düzəliş verib bildirməlidir ki, 1) söz birləşməsi bitmiş fikir yox, məna bildirir, 2) söz birləşməsində bir sözün mənası başqa sözün hesabına dəqiqləşir.*

**Klaster** (şaxələndirmə). Müəllim bildirir ki, söz birləşməsi iki yox, bir neçə sözdən də ibarət ola bilər. Birləşmədəki sözlərin sayı nə qədər çox olsa, söz birləşməsinin mənası bir o qədər dəqiq və konkret olur. Müəllim misal çəkir: *alma ağacı – alma ağacının budağı – alma ağacının qurumuş budağı – atamın əkdiyi alma ağacının qurumuş budağı.*

Şagirdlər dörd qrupa bölünürlər. I qrup bir söz deyir, digər qruplar növbə ilə sözlər artıraraq söz birləşmələri yaradır. Daha sonra şaxələndirmə 2-ci qrupdan başlanır və s.

9-cu tapşırıq. Verilmiş sözlərdən aşağıdakı söz birləşmələri düzəlir: *əlin zəhməti, zəhmətin bəhrəsi, bərəkətli torpaq, şərəfli həyat.*

10-cu tapşırıq. Mətnin 1-ci cümləsindəki söz birləşmələri aşağıdakılardır: *Şam şəhərində, qoca bir kişi.*

**İş dəftərinin** 116-cı səhifəsindəki 2-5-ci tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.



Çap üçün deyil

## Dərs 85. GÜC BİRLİKDƏDİR (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnin ideyasını oxuduğu mətndəki ilə müqayisə edir və fikir yürüdür. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Qarşılaşdığı yeni sözlərin mənasını kontekstdən çıxış edərək təxmin edir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Frazeoloji birləşmələri yaxınmənalı söz və ifadələrlə əvəz edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətndəki əsas fikri şəxsi həyatı ilə əlaqələndirərək fikir yürüdür. |
| 4.1.4. Cəm şəkilçisinin yazılışı və tələffüzü ilə bağlı qaydaları nitqində tətbiq edir. | Cəm şəkilçisini sözdən asılı olaraq dörd cür (-lar$^2$, -dar$^2$, -rar$^2$, -nar$^2$) tələffüz edir, lakin tələffüzdən asılı olmayaraq bir cür (-lar$^2$) yazır. |

**Motivasiya**

İ.Krılovun “Xərçəng, ördək və balıq” təmsili xatırlanır. (Gölün kənarında arabada yem tapmış xərçəng, ördək və balıq hərəsi bir tərəfə dartdığına görə arabanı yerindən tərpədə bilmirlər.)

**Sual:** – *Niyə onlar bir arabanı dartıb apara bilmədilər?*

**Oxu** (**Ziqzaq**)

Dərsliyin 162-163-cü səhifələrindəki “Güc birlikdədir” mətni **Ziqzaq** üsulu ilə oxunur (bax: MMV, səh. 26).

**Söz ehtiyatı.** Dərsliyin 163-cü səhifəsindəki söz ehtiyatı ilə bağlı tapşırıqlar yerinə yetirilir.

*Müəllimin nəzərinə: 1-ci tapşırıqda verilmiş ifadələrin mənası əvvəlcə kontekstə görə təxmin edilir, sonra isə lüğətlə dəqiqləşdirilir. “Qarabaqara izləmək” – gözdən itirməmək. Müəllim bu ifadəni “qarasınca danışmaq” ifadəsi ilə müqayisə edib burada “qara” sözünün “kölgə” mənasında işləndiyini deyə bilər. “Əl-ayağına dolaşmaq” ifadəsinin həm həqiqi (tor əl-ayağına dolaşdı), həm də məcazi (mane olmaq) mənası var. Mətndə məcazi mənada işlənmişdir. “Gücü bir yerə qoymaq” – qüvvələri toplamaq, cəmləmək deməkdir. “Nicat yolu tapmaq” – çıxış yolu, çarə, əlac deməkdir.*

Mətnin ideya məzmununu açıqlamaq üçün 3-cü tapşırıq yerinə yetirilir (“El bir olsa, dağ oynadar yerindən”).

**Dinləmə**

**Müəllim:** – *“Tək əldən səs çıxmaz” atalar sözünü necə başa düşürsünüz?*

### MÜDRİK QOCA

Bir qoca kəndli gördü ki, oğlanları yola getmirlər, tez-tez dalaşırlar. Bir gün o, yeddi çubuqdan dəstə bağlayıb oğlanlarına dedi ki, kim bu çubuqları ortadan sındıra bilsə, ona bir at bağışlayacaq.

Oğlanlar çox çalışdılar, amma sındıra bilmədilər.

Ata dəstənin bağını açdı və hər çubuğu bir-bir ortadan bölüb yerə tulladı. Uşaqları dedilər ki, biz də bir-bir sındıra bilərdik. Ata cavab verdi ki, əgər bu çubuq dəstəsi kimi birliyiniz olarsa, sizə heç kəs zərər yetirə bilməz. Ayrılıb bir-birinizlə ədavət aparsanız, düşmən sizə qalib gələr. Bundan sonra oğlanlar bir-birinə qayğı göstərdilər və yumruq kimi birləşib xoşbəxt və firavan yaşadılar.

Müəllim mətnin diqqətlə dinlənildiyini yoxlamaq üçün suallar verir:

*– Qoca kəndlini narahat edən nə idi?*
*– Ata oğullarına ağıl vermək üçün hansı yola əl atdı?*
*– Atanın dərsi nəticə verdimi?*

Çap üçün deyil

Bundan sonra şagirdlərə aşağıdakı iş vərəqi paylanır (müəllim iş vərəqinə başqa tapşırıqlar da əlavə edə bilər).

## İŞ VƏRƏQİ

**1. Hansı atalar sözü mətndəki əsas fikrə uyğundur?**

☐ Ağıl gücdən üstündür. ☐ Güc birlikdədir. ☐ Uşaq atasından güclüsünü bilməz.

**2. Səhv yazılmış sözləri düzgün yaz.**

oğlannar__________________ çubux __________________

xöşbəxt __________________ birrəşmək __________________

**Yazı**

Dərslikdəki mətnin 3-cü abzası dəftərə köçürülür. Bu abzasda tərkibində cəm şəkilçisi olan sözlər çoxluq təşkil edir. Deyilişi və yazılışı fərqli olan sözləri müəllim şagirdlərə ayrıca tələffüz etdirir (göyərçinlər [göyərçinnər], quşlar [quşdar], onlar [onnar], canlarını [cannarını]).

**İş dəftərinin 117-ci** səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Dil qaydaları**

**Əlavə tapşırıqlar:**

**1. Hansı bənddə söz birləşməsi verilib?**

A) Alabaxta B) gücü bir yerə qoymaq C) Azadlıq yaxşıdır

**2. Dəftərə köçürülmüş abzasda tərkibində cəm şəkilçisi olan sözlərin tələffüz qaydası qeyd olunur:**

*göyərçinlər – [göyərçinnər], gördülər – [gördülər], endilər – [endilər], başlamışdılar – [başdamışdılar], quşlar – [quşdar], onlar – [onnar], canlarını – [cannarını], dolaşırdılar – [dolaşırdılar].*

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 86. ƏKİNÇİ VƏ OĞLU (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədikləri ilə bağlı öz həyatından və ətrafda gördüklərindən nümunələr gətirir. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Eşitdikləri və gördüklərini misal gətirərək mövzu ilə bağlı fikirlərini əsaslandırır. |
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Debat zamanı mövqeyini müdafiə etmək üçün arqumentlər irəli sürür. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Mətndəki sözü uyğun gələn yaxınmənalı sözlə əvəz edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndəki hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən edir.<br>Bədii əsərin müəyyən hissəsini oxuduqdan sonra baş verəcək hadisələri proqnozlaşdırır. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətndəki əsas fikri şəxsi həyatı ilə əlaqələndirərək fikir yürüdür. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Deyilişi və yazılışı fərqlənən sözləri müəyyən edir. |

Çap üçün deyil

**Motivasiya**

**Müəllim:** – *Bir gün ana oğluna dedi ki, gedib un alsın. Oğlan getmədi, dedi ki, vaxtım yoxdu. Ancaq ana qoğal bişirəndən sonra oğlan gəlib tez bir qoğal götürüb yedi. Sizcə, oğulun buna mənəvi haqqı çatırdımı?*

Şagirdlər öz fikirlərini bildirirlər. Müzakirə aparılır.

**Oxu** (Proqnozlaşdırma)

Dərsliyin 164-cü səhifəsindəki mətn "Şəhərdən kəndə qayıdanda..." cümləsinə qədər oxunur. **Tapşırıq**: – *Mətnin davamı ilə bağlı öz fikirlərinizi söyləyin.*

Şagirdlərin versiyaları dinlənilir. Sonra mətnin davamı oxunur və versiyalarla müqayisə olunur.

**Söz ehtiyatı.** Sual: – *"Albalının birini gizlicə yerə saldı" cümləsində "gizlicə" sözünü hansı sözlə əvəz etmək olar?* (Müəllim variantlar təklif edə bilər: A) bilə-bilə, B) xəlvətcə, C) qəflətən)

**"Şüurlu oxu"** rubrikasındakı suallar cavablandırılır.

**Əlavə suallar:** – *Oğul nə üçün nalı götürmədi? Ata nə üçün albalını yola atırdı?*

**1-ci tapşırıq.** Cavab "A" variantıdır.

**2-ci tapşırıq.** Albalının kiloqramı 3 qəpiyə idi (6 : 2 = 3).

**"Düşün və cavab ver"** rubrikasındakı suallar cavablandırılır.

**3-cü tapşırıq.** Cavab "B" variantıdır.

**4-cü tapşırıq.** *Nal – atın ayağının altını zədələnməkdən qorumaq üçün xüsusi düzəldilmiş dəmir parçasıdır. At çox çapdığına görə dırnağı yeyilir, bu da ona ağrı verir, nəticədə o, ayağını yerə qoymaq istəmir. Bu səbəbdən atların ayağına nal vururlar.*

**Danışma** (debat)

**Müəllim:** – *Sizcə, oğulun hansı hərəkəti daha pis idi?*

A) atasının məsləhətinə qulaq asmaması

B) atasının əyilib nalı götürməsinə razı olması

Şagirdlər iki qrupa bölünür və hər qrup bir cavab variantını müdafiə edir.

**Müəllim:** – Hansı cümlə "Mən xəstələnmişdim" cümləsinin səbəbini bildirir:

A) Anam evə həkim çağırdı.

B) Çoxlu dondurma yemişdim.

C) Mən məktəbə getmədim.

Müzakirələrdən sonra şagirdlər "B" variantının səbəb, digər variantların nəticə bildirdiyini söyləyirlər.

**Qruplarla iş.** Dərsliyin 165-ci səhifəsindəki nəzəri material mənimsənildikdən sonra qruplarla iş aparılır.

I qrup. Dərslik, səh. 165, tap. 5.

II qrup. Dərslik, səh. 165, tap. 6.

III qrup. Dərslik, səh. 165, tap. 7.

IV qrup. Dərslik, səh. 166, tap. 8.

Təqdimatlardan sonra dərsliyin 166-cı səhifəsindəki "Sağlamlığın səbəbi" mətni oxunur. Mətndəki *"təzim edib"* ifadəsinin mənası açıqlanır (*baş əyib*). Mətnlə bağlı tapşırıq yerinə yetirilir:

1. **Səbəb:** *Həkimə heç kim müraciət etmirdi.*
   **Nəticə:** *Həkim Məhəmməd peyğəmbərə şikayətləndi.*
2. **Səbəb:** *Bu ölkədə adamlar lazım olandan artıq yemirdilər.*
   **Nəticə:** *Burada yaşayanlar sağlam idi.*



Çap üçün deyil

**İş dəftərinin** 118-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Hüsnxət.** Müəllim tərəfindən mətn verilir və şagirdlərə tapşırılır ki, bu mətni təyin olunmuş vaxt müddətində tamamlasınlar.

**Dil qaydaları**
"Müalicə", "müraciət" sözlərinin deyilişi ilə yazılışı arasındakı fərq müəyyən edilir.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 87. TAMAHKAR AĞA İLƏ ÇOBAN (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədikləri ilə bağlı öz həyatından və ətrafda gördüklərindən nümunələr gətirir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni sözlərin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Əksmənalı sözləri müəyyənləşdirir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Bədii əsərin müəyyən hissəsini oxuduqdan sonra davamını təxmin edir. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətni bitkin hissələrə bölür və hər hissəyə başlıq verir.<br>Mətnin hekayə xəritəsini tərtib edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin məzmununa uyğun gələn atalar sözünü müəyyən edir. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Mətndəki hadisələri ardıcıllıqla nəql edir. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Yazdığı imla mətnini orfoqrafik cəhətdən yoxlamaq üçün lüğətdən istifadə edir. |
| 4.1.6. Cümlənin formalaşmasında baş və ikincidərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir. | Cümlə üzvlərini fərqləndirir və müvafiq terminlə adlandırır. |

**Motivasiya** ("Əqli həmlə")
Lövhədə atalar sözləri yazılır:

*Kələklə gələn küləklə gedər.*
*Çox istəyən azdan da olar.*

**Tapşırıq:** – *Həyatdan misallar gətirməklə bu atalar sözlərinin mənalarını açıqlayın.*
Şagirdlər öz fikirlərini deyirlər. Müzakirə aparılır.

**Oxu** (Proqnozlaşdırma)
Dərsliyin 167-ci səhifəsindəki mətnin birinci iki abzası oxunur. **Müəllim**: – *Sizcə, ağanın bu tamahkarlığı nə ilə nəticələnəcək?*

Şagirdlər mətnin davamı ilə bağlı öz fikirlərini söyləyirlər. Bundan sonra mətnin davamı oxunur və şagirdlərin fərziyyələri ilə müqayisə olunur.

**Söz ehtiyatı.** Lövhədə "Cütləri müəyyən et" tipli tapşırıq verilir:



Çap üçün deyil

| | |
|---|---|
| qoyun | ilxı |
| inək | sürü |
| at | naxır |

Verilmiş söz cütləri arasından əksmənalıları tapmaq tapşırılır:
A) tamahkar, acgöz B) öyüd, nəsihət C) dərə, təpə Ç) sellər, sular

2-ci tapşırıq. Mətnin sonuncu cümləsini "Çox istəyən azdan da olar", "Sən saydığını say, gör fələk nə sayır", "Sonrakı peşmançılıq fayda verməz" kimi atalar sözləri ilə bitirmək olar.
3-cü tapşırıq. Südün çəkisini artırıb daha çox pul qazanmaq üçün ağa südə su qatırdı.

**İş dəftərinin** 119-cu səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Dil qaydaları**
4-cü tapşırıq yerinə yetirilir: *Ağa tamahının qurbanı oldu.*
Sonra müəllim lövhədə belə bir cümlə yazır:
*"Yaşıl çəmənlikdə bir dəstə göyərçin uçurdu".*
**Sual:** – *Bu cümlədə hansı sözlər və söz birləşmələri var?*
Şagirdlər sözlərin hansı nitq hissəsinə aid olduğunu, söz birləşmələrinin hansı suala cavab verdiyini deyirlər.
Dərsliyin 168-ci səhifəsindəki nəzəri material mənimsənilir. Müəllim şagirdlərə belə bir tapşırıq verir:
*Verilmiş sözlərə hissəciklər əlavə etməklə cümlələr qurun:*
1. Ağac yaşıl budaq yer əyilmək
2. Elmar park sinif yoldaş rast gəlmək

Tapşırıq belə yerinə yetirilir:
1. Ağacın yaşıl budaqları yerə əyilmişdi.
2. Elmar parkda sinif yoldaşına rast gəldi.

Dərslikdən 5-7-ci tapşırıqlar ümumi müzakirə yolu ilə yerinə yetirilir.
5-ci tapşırıq. 1. Çalışqan oğlan dərslərini hazırladı. 2. Şən mahnı göylərə ucaldı. 3. Güclü külək ağacları yıxdı.
**İş dəftərinin** 120-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilir.
**İmla mətni**
*Qırmızı rəngdə verilmiş sözlərin yazılışına xüsusi diqqət yetirilir.*

**FƏXRƏNDƏ QARI (65 söz)**

Qırxbuğumlu düzündə cərgə ilə çadırlar qurulmuşdu. Onların birində Fəxrəndə qarı Bakıdan gəlmiş nəvələri Araz və Afaqla qalırdı. Qırx il müəllim işləmiş Fəxrəndə qarının yaşı yetmişə çatmışdı. Amma özünü gümrah hiss edirdi. Hər il yay ayları gələndə yaylağa köçərdi. İçdiyi bulaq suyu, təzə süd, yediyi qatıq, göy-göyərti olardı.
Fəxrəndə nənə nəvələrinə hər səhər nehrə yağı, dadlı qaymaq, beçə balı yedizdirər, tez-tez qırxbuğum, quzuqulağı, gicitkən kətəsi hazırlayardı.

*Əli Vəliyev*

**Sinifdənxaric oxu.** "Qızılın bəkməzə dönməsi" ("Bəhlul Danəndə" lətifələrindən).

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

## Dərs 88. ATA SÖZÜNÜN QİYMƏTİ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Debat zamanı mövqeyini müdafiə etmək üçün öz səviyyəsinə uyğun arqumentlər gətirir. |
| 1.2.3. Fikirlərini aydın və obrazlı etmək məqsədilə bədii ifadələrdən istifadə edir. | Danışarkən fikrini əsaslandırmaq üçün atalar sözlərindən istifadə edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Obrazların hərəkətlərindən və xarakterindən çıxış edərək mətndəki əsas fikri müəyyən edir. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Çətin sözlərin düzgün yazılışını müəyyənləşdirməklə mətni köçürür. |
| 4.1.6. Cümlənin formalaşmasında baş və ikincidərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir. | Cümlənin baş üzvlərini müəyyən edir. |

**Motivasiya** (Əqli həmlə)

**Müəllim:** – *Böyüyə hörmətlə bağlı hansı atalar sözlərini bilirsiniz?*

Şagirdlər bildikləri atalar sözlərini deyirlər (“Qocaya hörmət elə, sən də qocalacaqsan”, “Qocanın biliyi, cavanın biləyi”, “Böyüksüz evdə xeyir-bərəkət olmaz”, “Böyük olan yerdə kiçik danışmaz”, “Ulu sözünə baxmayan ulaya-ulaya qalar”, “Ataya itaət Allaha itaət deməkdir” və s.).

**Oxu** (Rollu oyun)

Dərsliyin 169-cu səhifəsindəki mətn oxunur və səhnələşdirilir.

1-ci tapşırıq yerinə yetirilir. 1 – Ç, 2 – C, 3 – A, 4 – B.

**İş dəftərinin 121-ci** səhifəsindəki mətnlə bağlı tapşırıq yerinə yetirilir.

**Danışma**

**Müəllim:** – *Böyüklərin göstərişlərini müzakirə etmək lazımdırmı, yoxsa onlara sözsüz əməl edilməlidir?*

Müəllim keçən dərsin əsasında debat təşkil edir.

**Debat.** Dərsin əvvəlində qoyulmuş sual mətnin məzmunu əsasında debat şəklində davam etdirilir. **Sual:** – *Kiçik qardaşın qiymətli cavahiri yerə vurub qırıq-qırıq etməsini böyük qardaşlar ağılsız hərəkət hesab etdilər. Sizcə, kim haqlıdır?*

**I qrup:** – Böyüklərin sözünə həmişə əməl etmək lazımdır.

**II qrup:** – Kimin nə deməyindən asılı olmayaraq adam öz ağlı ilə hərəkət etməlidir.

**Yazı**

Mətndən yazılışı çətin olan sözlər seçilir və dəftərə köçürülür (paxıllıq, cavahir, hüzuruna, çağırtdırdı, vəziyyətdə, ehtiramla və s.).

**Dil qaydaları**

3-cü tapşırıq yerinə yetirilir.

Müəllim lövhədə iki cümlə yazır: 1. Dostum Mahir məktəbimizdə ən güclü şahmatçıdır.

2. Gələn ay Mahir şahmat yarışında iştirak etmək üçün Gəncəyə gedəcək.

Tapşırıq: – *Hər bir cümlədə əsas fikri ifadə edən iki söz seçin* (1 – Mahir şahmatçıdır, 2 – Mahir gedəcək). Şagirdlər tapşırığı müzakirə edirlər. Düzgün qərar verildikdən sonra müəllim həmin sözlərə sual qoymağı tapşırır.

**Qruplarla iş**. Dərsliyin 170-ci səhifəsindəki nəzəri material mənimsənildikdən sonra qruplarla iş aparılır.

**I qrup.** Dərslik, səh. 170, tap. 4.; **II qrup**. Dərslik, səh. 170, tap. 5.; **III qrup**. İş dəftəri, səh. 121, tap. 3.; **IV qrup**. İş dəftəri, səh. 121, tap. 5.



Çap üçün deyil

**İş dəftərinin 121-ci** səhifəsindəki qalan tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 89. DƏNİZ QORXUSU (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədikləri ilə bağlı öz həyatından və ətrafda gördüklərindən misallar gətirir. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Şifahi nitqi zamanı gündəlik həyatdan misallar gətirir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni sözlərin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Bədii əsərin müəyyən hissəsini oxuduqdan sonra baş verəcək hadisələri proqnozlaşdırır. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Oxuduqlarına dair gündəlik həyatdan misallar gətirir. |
| 4.1.6. Cümlənin formalaşmasında baş və ikincidərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir. | Cümlənin baş üzvlərini müəyyən edir. |

**Motivasiya**

**Müəllim:** – *“Pis günü görməyən yaxşı günün qədrini bilməz” atalar sözünü necə başa düşürsünüz?*

Şagirdlər eşitdiklərindən, gördüklərindən misal gətirməklə atalar sözünü izah edirlər.

**Oxu** (Proqnozlaşdırma)

Dərsliyin 171-ci səhifəsindəki mətn “Bu adam əmr etdi...” cümləsinə qədər oxunur.

**Müəllim**: – *Sizcə, bu adam qulu necə sakitləşdirmək fikrində idi?*

Şagirdlərin fikirləri dinlənilir. Mətnin davamı oxunur və şagird versiyaları ilə müqayisə olunur.

**Söz ehtiyatı.** 171-ci səhifədəki tapşırıqlar yerinə yetirilir.

**Dinləmə** (Ümumi müzakirə)

**Müəllim:** – *Xəyalpərəst olmaq nə deməkdir? Siz də xəyallara dalırsınızmı? Bu zaman nə haqda düşünürsünüz?*

*Müəllimin nəzərinə: Şagirdlər I bölmədə dinlədikləri “Xəyalpərəst” hekayəsini (6-cı dərs) xatırlayıb bunu tamamilə mənfi keyfiyyət kimi qəbul edə bilərlər. Bir çox şagirdlər öz xəyallarından utanıb onu dilə gətirməyə bilər. Buna görə də müəllim şagirdləri səmimi söhbətə dəvət etməlidir. Bildirməlidir ki, müəyyən mənada xəyallara dalmaq heç də pis keyfiyyət deyil. Hətta böyük sərkərdələrdən biri demişdir ki, general olmaq istəməyən əsgər pis əsgərdir. Lakin xəyalpərəstliyin arxasında çalışqanlıq, zəhmətkeşlik dayanmalıdır.*

**Dinləmə**

### BİR DOLÇA SÜD

Bir kəndli qızı südlə dolu dolçanı çiyninə alıb bazara satmağa gedirmiş. Gedə-gedə öz-özünə fikirləşirmiş: “Bu südü satıb 100 dənə yumurta alacağam. Yumurtaları toyuqların altına qoyacağam. Ən azı doxsan cücəm olacaq. Cücələr bir az böyüyəndən sonra onları satıb bir qoyun alacağam. Qoyunun iki balası olacaq. Quzuları satıb bir dana alacağam. Bəh-bəh!



Çap üçün deyil

Gözəl danam çəmənlikdə o yana qaçacaq, bu yana qaçacaq, hərdən də şıllaq atacaq”. Bunu deyib qız yerində hoppanmağa başladı. Birdən çiynindəki dolça yerə düşüb qırıldı...

*<u>Müəllimin nəzərinə:</u> Mətn rəqəm və əşya adları ilə zəngin olduğundan şagirdlər yazıya başlamazdan əvvəl onlara faktoloji suallar vermək olar (“Dolça nədir?”, “Qız südü satıb nə almaq istəyirdi?”, “Neçə cücəyə bir qoyun almaq istəyirdi?”, “Nəyi satıb dana almaq istəyirdi?” və s.). Lövhədə cədvəl çəkib onu şagirdlərlə bir yerdə doldurmaq olar:*

| Say | 1 | 100 | 90 | 1 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| Varlıq | dolça süd | yumurta | cücə | qoyun | quzu | dana |

Bundan sonra şagirdlər cədvələ baxaraq dinlədikləri mətnin qısa məzmununu danışırlar.

**Müəllim:** – *Sizcə, insana həyatda hansı bacarıqlar daha çox lazımdır?*

Şagirdlərin fikirləri dinlənilir. Onların söylədikləri arqumentlər həyatla, şəxsi təcrübə ilə əlaqələndirilir.

**Yazı**

**Hüsnxət.** İş dəftərinin 122-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilməklə köçürülür.

**Dil qaydaları**

Müəllim tərəfindən mətndən bir neçə cümlə seçilir, bu cümlələrdəki mübtəda və xəbər tapılır. İş dəftərinin 122-ci səhifəsində verilmiş qrammatik tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 90. ATA NƏSİHƏTİ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi mətnin ideyasını müəyyən edir. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. |
| 1.2.3. Fikirlərini aydın və obrazlı etmək məqsədilə bədii ifadələrdən istifadə edir. | Nitqində frazeoloji ifadələrdən istifadə edir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni sözlərin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Şeiri oxuyarkən vəznə uyğun ritmi gözləyir, qafiyəli sözləri vurğulayır. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideya məzmununu şəxsi həyatı ilə əlaqələndirərək fikir yürüdür. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Yazdığı imla mətnini orfoqrafik cəhətdən yoxlamaq üçün lüğətdən istifadə edir. |
| 4.1.4. Cəm şəkilçisinin yazılışı və tələffüzü ilə bağlı qaydaları nitqində tətbiq edir. | Cəm şəkilçisini sözdən asılı olaraq dörd cür (-lar$^2$, -dar$^2$, -rar$^2$, -nar$^2$) tələffüz edir, lakin tələffüzdən asılı olmayaraq bir cür (-lar$^2$) yazır. |
| 4.1.6. Cümlənin formalaşmasında baş və ikincidərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir. | Cümlənin ikincidərəcəli üzvlərini baş üzvlərdən fərqləndirir. |
| 4.1.7. Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir. | Nəqli, sual və əmr cümlələrini fərqləndirir. |



Çap üçün deyil

**Motivasiya**

Müəllim indiyədək keçirilən bir neçə mövzunun adını çəkir: “Ata sözünün qiyməti”, “Kərpickəsən qocanın hekayəti”, “Əkinçi və oğlu”.

– *Bu əsərlərdən hansı nəticəyə gəldiniz?*

Şagirdlər oxuduqları əsərlərdən gəldikləri nəticəni söylədikdən sonra müəllim növbəti sualı verir:

– *Nəsihətə nə üçün qulaq asmaq, əməl etmək lazımdır?*

Cavablardan sonra **cütlərlə iş** aparılır. Hər cüt müəyyən olunmuş vaxt ərzində bir neçə nəsihəti qeyd etməlidir. Təqdimat zamanı isə yalnız bir nəsihət söylənilir. Təkrara yol verməmək əsas şərt kimi irəli sürülür.

**Oxu**

Dərsliyin 172-ci səhifəsindəki şeir əsərdəki obrazın hiss və həyəcanını ifadə etmək üçün müvafiq jest və mimikalardan istifadə edilməklə oxunur.

**Söz ehtiyatı** ilə bağlı 1-3-cü tapşırıqlar yerinə yetirilir.

1-ci tapşırıq. “ Aciz” sözünün mənası əvvəlcə şagirdlərin təxmininə görə, sonra isə lüğətdən istifadə edilməklə izah olunur: *əlindən iş gəlməyən, bacarıqsız, zəif.*

2-ci tapşırıq. Şeirdə göy rənglə verilmiş misralar belə izah edilə bilər:

*Canavar ziyan verən heyvandır, vaxt gəlir, pələng canavarı parçalayır, onun həyatına son qoyur. Əgər insan da canavar kimi xalqına ziyan verərsə, bir gün kimsə onun niyyətini anlar, onu məhv edər, pisliklərə son qoyular.*

**Şüurlu oxu** ilə bağlı 4-6-cı tapşırıqlar yerinə yetirilir.

4-cü tapşırıq. Oğulun özündən gücsüzləri incitməyi atanın xoşuna gəlmir.

6-cı tapşırığın cavabı müəllimin dərsin motivasiya hissəsində adını çəkdiyi əsərlər ola bilər.

**Dinləmə**

**HƏYATIN DƏYƏRİ**

Bir yazıçı qayıqla dənizdə səyahətə çıxmışdı. O, qayıqçıdan soruşdu:

– Sən heç ömründə kitab oxumusan?

– Xeyr! – deyə qayıqçı cavab verdi.

– Elə hesab et ki, ömrünün yarısını itirmisən.

Qayıqçı yazıçının bu təkəbbürünə hirsləndi, amma bir söz demədi.

Bir azdan dənizdə tufan başladı. Qayıqçı yazıçıdan soruşdu:

– Üzməyi bacarırsan?

– Yox, – deyə yazıçı təəssüflə bildirdi.

– Onda elə hesab et ki, ömrünün hamısını itirdin.

Mətnlə bağlı müəllim aşağıdakı sualları verir:

– *Nə üçün yazıçı qayıqçıya kitab oxumadığı üçün “ömrünün yarısını itirmisən” dedi?*

– *Bəs nə üçün üzməyi bacarmayan yazıçıya qayıqçı “ömrünün hamısını itirdin” dedi?*

– *Dərslikdə oxuduğunuz mətnlə dinlədiyiniz mətn arasında hansı bağlılıq var?*

**Danışma**

7-cı tapşırığa əsasən, şeir nəsrə çevrilərək şagirdlərin sözləri ilə danışılır.

**“Mətni dəyiş”. Cütlərlə iş.** Müəllim cütlərə belə bir tapşırıq verir: – *Dinləmə mətnində olan obrazlara “Ata hansı nəsihəti verərdi?” sualına cavab hazırlayın.*

İş dəftərinin 123-cü səhifəsindəki mətnlə bağlı tapşırıqlar yerinə yetirilir.

**Dil qaydaları**

8-ci tapşırıq yerinə yetirilir.

Lövhədə cümlə yazılır: “Sabir səhər kənd uşaqları ilə mehribancasına görüşdü”.



Çap üçün deyil

**Müəllim:** – *Bu cümlədə mübtəda və xəbəri tapın.* (Sabir görüşdü.) *Qalan sözləri və söz birləşmələrini sadalayın. Onlar hansı suallara cavab verirlər?* (Səhər – nə zaman? kənd uşaqları ilə – kimlə? mehribancasına – necə?) *Bu sözlər cümlənin ikincidərəcəli üzvləri sayılır.*

**Qruplarla iş.** Dərsliyin 173-cü səhifəsindəki nəzəri material mənimsənildikdən sonra qruplarla iş aparılır.

**I qrup.** Dərslik, səh. 173, tap. 9.; **II qrup**. Dərslik, səh. 173, tap. 10-11.; **III qrup**. İş dəftəri, səh. 123, tap. 2-3.; **IV qrup**. İş dəftəri, səh. 123, tap. 4.

İş dəftərinin 123-cü səhifəsindəki digər tapşırıqlar yerinə yetirilir.

**İmla mətni**

Müəllim bu imlanı diktə edərkən mətnin abzaslarla yazılmasına və qırmızı rəngdə verilmiş sözlərin yazılışına xüsusi diqqət yetirir.

**NAĞILLAR** (71 söz)

Balaca Kamal nənəsinin nağıllarını çox xoşlayardı. Bu nağıllarda adamlar qəribə xalçalara minib göydə uçardılar. Quşlar qəhrəmanları qanadlarına alıb yeddiillik yolu bir göz qırpımında gedərdilər.

Kamal anasından, nənəsindən soruşardı:

– Xalça necə uçur? Bəs bizim xalçamız niyə uçmur? Nağıllardakı quşlardan bizim meşələrdə, dağlarda varmı? Bəs adamın niyə qanadları yoxdur?

Ancaq onların cavabı o qədər də aydın olmazdı. Başları qarışıq olanda isə Kamala heç cavab verməzdilər, ona acıqlanardılar:

– Mane olma, get işinlə məşğul ol!

*Mikayıl Rzaquluzadə*

**Sinifdənxaric oxu.** Redyard Kiplinq. “Mauqli”

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 91. QARABATDAQ VƏ XƏRÇƏNG (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Debat zamanı opponentini dinləyir və əks-arqumentlər hazırlayır. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Şifahi nitqi zamanı gündəlik həyatdan misallar gətirir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Mətndəki sözü uyğun gələn yaxınmənalı sözlə əvəz edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndəki hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən edir.<br>Bədii əsərin müəyən hissəsini oxuduqdan sonra baş verəcək hadisələri proqnozlaşdırır. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətnin planını və hekayə xəritəsini tərtib edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Oxuduqlarına dair gündəlik həyatdan misallar gətirir. |
| 2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir. | Mətni bitkin hissələrə bölür və hadisələrin ardıcıllığına uyğun nəql edir. |
| 4.1.6. Cümlənin formalaşmasında baş və ikincidərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir. | Cümlənin baş üzvlərinə ikincidərəcəli üzvlər əlavə edərək cümlələri genişləndirir. |

Çap üçün deyil

**Motivasiya**

**Müəllim:** – *"Özgəsinə quyu qazan özü düşər" atalar sözünü necə başa düşürsünüz? Sizcə, özgəsinə quyu qazan hansı keyfiyyətlərə malik olur?*

Şagirdlər eşitdiklərindən, gördüklərindən misal gətirməklə atalar sözünü izah edirlər.

**Oxu**

Mətn (dərslik, səh. 174-175) hissə-hissə oxunub təhlil olunur. (Qarabatdaqla xərçəngin dialoqundan sonra oxunu dayandırıb şagirdlərə tapşırmaq olar ki, mətnin davamını təxmin etsinlər.)

**Söz ehtiyatı** ilə bağlı 1-3-cü tapşırıqlar yerinə yetirilir.

1-ci tapşırıq. Cavab "B" variantıdır.

2-ci tapşırıq. Cavab "A" variantıdır.

3-cü tapşırıq. Mətndəki *"arif"* sözünü *"ağıllı"* sözü ilə əvəz etmək olar.

**Şüurlu oxunu** yoxlamaq məqsədilə 175-ci səhifədəki 4-5-ci tapşırıqlar yerinə yetirilir.

4-cü tapşırıq. Cavab "B" variantıdır.

5-ci tapşırıqda səbəb-nəticə əlaqəsi yaratmaqla cümlələr tamamlanır:

1. ... , çünki onun yemi ancaq balıqlar idi.
2. Qarabatdaq qocalıb əldən düşmüşdü, artıq ova çıxa bilmirdi, ona görə də ...
3. Qarabatdaq onları aldatmışdı, ona görə də ...

Bu dərsin davamı olaraq "Qarabatdaq və xərçəng" əsərinin **hekayə xəritəsi** və geniş **planı** tərtib edilir.

**Dinləmə-danışma**

Plan əsasında mətnin məzmunu nəql olunur.

Müəllim şagirdlərə "Həyatda qarabatdaq quşu kimi insanları aldadanlar, öz mənafeyini güdənlər də olur. Bu cür insanlara münasibətinizi bildirin" deməklə onları **müzakirəyə** dəvət edir.

**Debat**

*Müəllimin nəzərinə: Bu dərs şagirdlərdən öncə hazırlıq tələb edir. Onlar əvvəlcədən iki qrupa bölünürlər. Dostluğu yüksək qiymətləndirənlər I qrupda, dostluğun boş və mənasız bir şey olduğunu düşünənlər II qrupda birləşirlər.*

**Müəllim:** – *Dostlar bir-birinə qarşı necə olmalıdır? Əsl dostluğa inanırsınızmı? Heç dost hesab etdiyiniz adam sizə arxa çeviribmi? "Balta ağacı kəsməzdi, sapı ağacdan olmasaydı" atalar sözünü necə başa düşürsünüz?*

Şagirdlərin fikirləri dinlənildikdən sonra debat başlanır.

I qrup dostluğun insan üçün vacib olduğunu göstərmək üçün aşağıdakı atalar sözlərindən istifadə edə bilər:

– *Dost min isə – azdır, düşmən bir isə – çoxdur.*
– *Dostunun dostu sənin də dostundur.*
– *Dostsuz insan qanadsız quş kimidir.*
– *Dostla su iç, düşmənlə bal yeməyə oturma.*
– *Dost yolunda boran olar, qar olar və s.*

II qrup həyatda əsl dostluğun olmadığını sübut etməyə çalışmalıdır:

– *Ağıllı düşmən nadan dostdan yaxşıdır.*
– *Dostdan özünü qoru, düşmənlə hesablaşmağa nə var.*
– *Sirrini dosta demə, dostunun da dostu var.*
– *Dostam səninlə pulun qurtaranacan.*
– *Dost min olar, candan yanan bir və s.*

Hər iki qrup atalar sözlərindən başqa, həyatda gördüklərindən, eşitdiklərindən də misal gətirməlidir.

**Yazı**

Debat bitdikdən sonra müəllim sinfə müraciət edir:



Çap üçün deyil

*– Təsəvvür edin ki, dostunuz başqa bir adamla mübahisə edir. Onlar sizi bu mübahisəni həll etməyə dəvət edirlər. Qulaq asdıqda görürsünüz ki, dostunuz haqsızdır. Nə edərsiniz? Bu haqda kiçik bir esse yazın.*

**İş dəftərinin** 124-cü səhifəsindəki 1-2-ci tapşırıqlar yerinə yetirilir.

**Dil qaydaları**

Müəllim mübtəda və xəbərdən ibarət olan bir neçə cümlə deyir. Şagirdlər ikincidərəcəli üzvlər artırmaqla cümlələri genişləndirirlər; məsələn:

*1. Xərçəng danışdı. 2. Balıqlar sevindilər. 3. Qarabatdaq quşu oturdu və s.*

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 92. SİÇAN VƏ DƏVƏ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Həyatda gördüklərini, oxuduqlarını misal gətirərək mövzu ilə bağlı fikirlərini əsaslandırır. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni sözlərin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Əsərdəki obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını şəxsi həyatı ilə əlaqələndirərək fikir yürüdür. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Atalar sözündə və ya aforizmdə ifadə olunmuş kəlamla bağlı öz fikirlərini yazır. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Cümlənin baş üzvlərini fərqləndirir. |
| 4.1.6. Cümlənin formalaşmasında baş və ikincidərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir. | Söz birləşməsi ilə ifadə olunmuş cümlə üzvlərini müəyyən edir. |

**Motivasiya** (Ümumi müzakirə)

Müəllim iki atalar sözü deyir:

*1. Dili varsa, dilçəyi də var.*

**Sual:** *– Bu atalar sözünü hansı adam haqqında işlədirlər? Belə adamlara münasibətinizi bildirin.*

*2. Lovğalığın axırı xəcalətdir.*

**Sual:** *– Bəs bu atalar sözü kimə aid ola bilər? Bu cür adamlara münasibətinizi bildirin.*

Müzakirələr nəticəsində şagirdlər belə bir qənaətə gəlirlər ki, 1-ci atalar sözü lovğa, lakin bacarıqlı adamlar, 2-cisi isə əlindən heç nə gəlməyən lovğalar haqqında işlədilir və ikincilər həmişə gülünc vəziyyətdə qalırlar.

**Oxu**

Dərsliyin 176-cı səhifəsindəki mətn hissə-hissə oxunur. Dərslikdə və iş dəftərində (səh. 124) mətnlə bağlı verilmiş tapşırıqlar yerinə yetirilir.

**Yazı**

**Müəllim:** *– Bədii əsərləri oxuduqdan sonra çox zaman onun ideya məzmununu atalar sözü ilə ifadə etməyə çalışırıq. Sizcə, bunun səbəbi nədir?* (Bədii əsərlərin ideya məzmunu hər hansı müdrik fikirlə bağlı olur, atalar sözü isə müdrik fikri bədii şəkildə ifadə edir.)



Çap üçün deyil

Şagirdlər mülahizələrini söylədikdən sonra müəllim bildirir ki, bugünkü fəaliyyət əks istiqamətdə olacaq, yəni onlar verilmiş atalar sözü ilə mətn yazmalıdırlar.

Sinif 3 qrupa bölünür. Hər qrupa 1 atalar sözü verilir.

I – "Ayağını yorğanına görə uzat"; II – "Ağac bar gətirdikcə başını aşağı salır"; III – "Alim olmaq asandır, insan olmaq çətin".

Tapşırıq: – *Elə bir mətn yazın ki, bu kəlamlardan biri həmin mətnin ideyasını təşkil etsin.*

*Müəllimin nəzərinə: Tapşırıqla bağlı müəllim şagirdləri bir qədər təlimatlandırmalıdır. Belə ki, onlar müvafiq kəlamla bağlı həyatda gördükləri, eşitdikləri, təsəvvürlərinə gətirdikləri və ya düşündükləri haqda yaza bilərlər.*

**Dil qaydaları**

Dərsliyin 177-ci səhifəsindəki dil qaydaları ilə bağlı verilmiş 5-9-cu tapşırıqlar yerinə yetirilir.

5-ci tapşırıq. Günəşin parlaq şüaları adamın gözlərini qamaşdırırdı.
Vüsalın qardaşı idman yarışında qalib gəldi.

6-cı tapşırıq. Cavab: *yay vaxtı*

7-ci tapşırıq. Cavab: *istidən*

9-cu tapşırıq. 1. Mübtəda – *ağıl*; xəbər – *satılmaz.*
2. Mübtəda – *qurd*; xəbər – *yeyər.*
3. Mübtəda – *qonaq*; xəbər – *gətirər*

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 93. KÖHNƏ DƏRS (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi mətnin ideyasını müəyyən edir. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Eşitdikləri və gördüklərini misal gətirərək mövzu ilə bağlı fikirlərini əsaslandırır. |
| 1.2.2. Dialoji nitqində situasiyaya uyğun etiketlər seçir və mövzu ilə bağlı fikirlərini bildirir. | Dialoji mətnin səhnələşdirilməsində iştirak edir və nitqini oynadığı rolun xarakterinə uyğunlaşdırır. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni sözlərin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndəki hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən edir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını şəxsi həyatı ilə əlaqələndirərək fikir yürüdür. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Deyilişi və yazılışı fərqlənən sözləri müəyyən edir.<br>Yazdığı imla mətnini orfoqrafik cəhətdən yoxlamaq üçün lüğətdən istifadə edir. |
| 4.1.6. Cümlənin formalaşmasında baş və ikincidərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir. | Cümlənin baş üzvlərini fərqləndirir və müvafiq terminlə adlandırır.<br>Cümlə üzvlərinin suallarını müəyyən edir. |

Çap üçün deyil

**Motivasiya**

**Müəllim:** – *Həyatda nəyəsə nail olmaq üçün necə olmaq lazımdır?*

Şagirdlərin mülahizələri dinləndikcə müəllim onları lazımi versiyaya istiqamətləndirir.

Fikirlər ümumiləşdirilir: – *Həyatda nəyəsə nail olmaq üçün bilik və savadla yanaşı, arzu, səbir, məsuliyyət, çalışqanlıq, əməksevərlik də olmalıdır.*

**Oxu** (Rollu oyun)

Dərsliyin 178-ci səhifəsindəki mətn bir dəfə səssiz oxunduqdan sonra şagirdlərin iştirakı ilə səhnələşdirilir (4-cü tapşırıq).

Şagirdlər şüurlu oxu ilə bağlı 1-2-ci tapşırıqları yerinə yetirərək əsərin ideya məzmununu atalar sözü ilə ifadə edirlər ("*Əməlsiz ağıldan fayda yoxdur*").

6-cı tapşırıq qruplarla iş şəklində yerinə yetirilir. Qruplardan biri 179-cu səhifədəki şəkil əsasında kiçik hekayə qurur. Digər qrup şəkil əsasında qurduqları hekayəni səhnələşdirir. Üçüncü qrup dailoji mətni yazır, dördüncü qrup isə şəkil əsasında nitq etiketlərindən istifadə etməklə dialoq qurub səhnələşdirir.

**İş dəftərinin** 125-ci səhifəsindəki 1-3-cü tapşırıqlar yerinə yetirilir.

**Dinləmə**

**Müəllim:** – *Dostlar arasında münasibətləri hansı sözlərlə ifadə edə bilərsiniz?*

Sözlər sadalanır və lövhədə yazılır. Yönəldici suallarla müəllim çalışmalıdır ki, "etibar" və "sədaqət" sözləri də səslənsin. Bundan sonra şagirdlər həyatdan misallar gətirməklə həmin sözləri açıqlayırlar.

**Dinləmə**

**GİROV DOST**

Bir şəhərdə Adil və Kamil adlı iki dost yaşayırdı. Kamilin şəhər hakiminə xeyli borcu var idi. Vaxt yetişəndə şəhər hakimi Kamilin evinə gəlib borcunu tələb etdi. Bu zaman Kamillə Adil evdə oturub söhbət edirdilər. Kamil şəhər hakiminə dedi:

– Mənə axşama kimi vaxt ver. Axşam borcunu qaytaracağam.

Şəhər hakimi onun bu sözlərinə güldü. Onda Kamil dedi:

– Qoy borcu gətirənə kimi dostum Adil girov qalsın.

Şəhər hakimi Kamilə inanmasa da, bu təklifə razı oldu.

Axşam düşürdü, amma Kamildən bir xəbər yox idi. Şəhər hakimi əsgərlərlə gəlib Adili həbsxanaya aparmaq istəyirdi ki, Kamil qaça-qaça gəlib çıxdı:

– Al, bu sənə borcum. Ləngidiyimə görə bağışla.

Şəhər hakimi dedi:

– Sən və dostun cəzadan azad olunursunuz. Mən isə xahiş edirəm ki, bu gündən məni də özünüzə dost sayasınız.

Mətn səsləndirildikdən sonra şagirdlərə aşağıdakı iş vərəqi paylanılır.

**Cümlələri ardıcıllığa görə nömrələ.**

- ☐ Şəhər hakimi Kamil və Adillə dost olmaq istədi.
- ☐ Kamil borc müqabilində Adili girov qoydu.
- ☐ Şəhər hakimi Kamildən borcunu tələb etdi.
- ☐ Adili həbs edəndə Kamil borcu gətirib çıxardı.
- ☐ Kamillə Adil evdə oturub söhbət edirdilər.

**Dil qaydaları**

Dərslikdəki dialoqun əvvəlində işlənmiş *"müəllim"* və *"Sadiq"* sözlərinə diqqət yetirilir. Müəllim bu sözlərin yazılışı və tələffüzü arasındakı fərqi müəyyən etməyi tapşırır. Sonra mətndən seçilmiş *günləri, dərslərimizi, işlər* sözlərinin yazılışı və tələffüzü arasındakı fərqi müəyyən etməyi tapşırır.

Çap üçün deyil

**İmla**

*Qırmızı rəngdə verilmiş sözlərin yazılışına xüsusi diqqət yetirilir.*

**YAZDA TƏBİƏT** (61 söz)

Doğrudur, yaz hər yerdə yaxşıdır. Amma bizim yerlərin yazı daha səfalıdır. Adam həyətə çıxanda ətirdən valeh olur. Meyvə ağaclarının çiçəyi, qızılgül qönçələri rəngdən-rəngə çalır. Torpaqdan yenicə baş qaldıran bitkilər yerin sirlərindən xəbər verir.

Qarlı-buzlu yamaclardan sızıb birləşən bahar suları axdıqca qüvvətlənir, ətrafa səs salır. Quşların cəh-cəhi, arıların çiçəklər arasındakı vızıltısı, kəhriz suyunun şırıltısı, yoldan gələn ayaq və təkər səsləri bir-birinə qarışır.

*Mir Cəlal*

**Sinifdənxaric oxu.** “Ələddinin sehrli çırağı” (“Min bir gecə” nağıllarından).

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 94. TACİR VƏ DOSTU (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri təhlil etməklə mövqeyini şərh edir. | Dinlədiyi bədii mətnin ideyasını müəyyən edir. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Oxuduğu mətnləri müqayisə edərək ümumi nəticələr çıxarır. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni sözlərin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Frazeoloji ifadələri yaxınmənalı söz və ifadələrlə əvəz edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndəki hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən edir. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətni bitkin hissələrə bölərək planını tutur. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını şəxsi həyatı ilə əlaqələndirərək fikir yürüdür. |
| 4.1.7. Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir. | Nəqli, sual, əmr cümlələrini fərqləndirir. |

**Motivasiya**

**Müəllim:** – *Dost, dostluq haqqında kifayət qədər mətn oxumusunuz. Bəs sizcə, insanların hansı xüsusiyyətləri dostluğun pozulmasına gətirib çıxarır?* (yalan, xəbərçilik, yaltaqlıq, ikiüzlülük, xəyanət, etibarsızlıq) Müəllim sadalanan fikirlər arasında inamın, etibarın dost münasibətində önəmli olduğunu açıqlayır.

**Oxu** (Proqnozlaşdırma)

Dərsliyin 180-ci səhifəsindəki mətnin I hissəsi oxunur, təhlil olunur.

**Müəllim:** – *Sizcə, tacirlə dostu arasındakı münasibətlər necə davam edəcək?*

Şagirdlər öz fikirlərini söyləyirlər. Öz təxəyyüllərinə görə mətni davam etdirirlər. Sonra mətnin II hissəsi oxunub təhlil olunur. Əvvəlki mülahizələrlə müqayisə olunur.

Söz ehtiyatı və şüurlu oxunu yoxlamaq məqsədilə dərsliyin 181-ci səhifəsindəki 1-5-ci tapşırıqlar yerinə yetirilir.

5-ci tapşırıq. Əmanətə xəyanət etmək olmaz.



Çap üçün deyil

**Dinləmə**

**Müəllim:** – *Təsəvvür edin ki, çox acsınız. Bu zaman dostunuz gəlib sizə isti, ətirli bir kökə verir və xahiş edir ki, o, idman məşqindən çıxana qədər kökəni saxlayasınız. Tamah sizə güc gəlir və siz... kökəni yeyirsiniz. Bu hərəkəti necə adlandırmaq olar?*

Fərziyyələr dinlənilir və müzakirə olunur.

**Söz ehtiyatı.** "Əmanət" sözünün mənası izah olunur: müvəqqəti olaraq saxlamaq üçün verilmiş, etibar edilmiş pul, əşya.

**Dinləmə mətni**

**ƏMANƏTƏ XƏYANƏT OLMAZ**

Bir kişi səhərin gözü açılmamış evdən çıxıb hamama gedirmiş. Yolda bir nəfərə rast gəlir. Səhərin alaqaranlığında onu köhnə dostuna oxşadır. Cibindəki pulları çıxarıb ona verir və deyir:

– Qardaş, hamama gedirəm. Birdən orada oğru olar, pulumu cibimdən çıxarar. Al bu əmanəti, hamamdan çıxandan sonra qaytararsan.

Sən demə, bu adam oğru imiş.

**Proqnozlaşdırma.** Müəllim fasilə verir və sualla müraciət edir: – *Sizcə, bu oğru nə edəcək? Siz olsaydınız, nə edərdiniz?*

Şagirdlər öz versiyalarını söyləyirlər. Müəllim mətni oxumağa davam edir:

O, pulu götürüb kişinin dalınca düşür. Pul yiyəsi hamamdan çıxana qədər qapının ağzındaca onu gözləyir. Kişi hamamdan çıxanda ona yaxınlaşıb deyir:

– Ay kişi, pulunu al. Sənin əmanətin üzündən bu gün avara oldum.

Kişi oğrunun dediklərini eşidib ayaq saxlayır. Soruşur:

– Bu nə puldur, əmanət nədir, sən özün kimsən?

– Mən oğruyam, sən özün hamama girməzdən əvvəl bu pulu mənə tapşırmışdın.

– Oğrusansa, bəs pulumu niyə aparmamısan?

– Əgər mən oğurluqla bu pulları ələ keçirsəydim, sənə qara qəpik də qaytarmazdım. Amma sən onu mənə əmanət olaraq öz əlinlə vermisən. Əmanətə xəyanət etməkdən də böyük insafsızlıq olar?

Müəllim suallarla sinfə müraciət edir:

*1. Mətnin birinci cümləsindəki "səhərin gözü açılmamış" ifadəsini hansı ifadə ilə əvəz etmək olar?*

*2. Əsərdəki oğru obrazına münasibətinizi açıqlayın.*

*3. Əgər həmin oğru pul kisəsini yerdən götürsəydi, sizcə, onu yiyəsinə qaytarardımı?*

*4. Siz əmanətin yiyəsinin yerində olsaydınız, oğruya nə cavab verərdiniz?*

Şagirdlərin mülahizələri dinlənilir və müzakirə olunur.

Müəllim insanlar arasında etibar, inam, sədaqət haqqında danışır, şagirdlər də öz fikirlərini söyləyirlər. Sonda nəticə çıxarılır: *İnsan inamı damla-damla qazanır. Onu itirmək çox asan, saxlamaq isə çətindir. Çünki sənə etibar olunan hər şey əmanətdir. Bu etibarı itirmək, əmanətə xəyanət etmək olmaz.*

İş dəftərinin 125-ci səhifəsindəki qalan tapşırıqlar yerinə yetirilir.

**Dil qaydaları**

7-ci tapşırıq yerinə yetirilir.

Müəllim bir cümləni müxtəlif intonasiyalarla səsləndirir:

– *Hava gözəldir.*

– *Hava gözəldir?*

– *Ah, hava necə də gözəldir!*

**Sual:** – Bu cümlələrdəki intonasiya arasındakı fərqi hiss etdinizmi? Bəs necə edək ki, bu fərqi həmin cümlələri yalnız dinləyən deyil, həm də yazıda oxuyan adam hiss etsin?

Çap üçün deyil

Şagirdlər cümlələri lövhədə yazır və müvafiq durğu işarəsi ilə tamamlayırlar.
**Müəllim:** – *Bəzən vergülün yerindən asılı olaraq cümlənin mənası da dəyişə bilər.* Məsələn:
1. Çalış qardaşın kimi, tənbəl olma!
2. Çalış, qardaşın kimi tənbəl olma!
Dərsliyin 182-ci səhifəsindəki nəzəri material mənimsənilir, 8-ci tapşırıq əvvəlcə şifahi, sonra isə yazılı şəkildə yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

## Dərs 95. DAHA MƏNƏ EHTİYAC YOXDUR (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni sözlərin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndə sətiraltı ifadə olunmuş fikri izah edir. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Tərkibində yazılışı çətin olan sözləri seçib yazır. |

**Motivasiya**
**Müəllim:** – *Yəqin, böyüklərdən belə bir ifadə eşitmisiniz: "Hər şey halallıqla olmalıdır". Halal-haram ifadələrini necə başa düşürsünüz?*
Şagirdlərin mülahizələri dinlənilir və müzakirə olunur. Halallığın bilavasitə insanın düzgünlüyü, saflığı, vicdanı ilə bağlı olduğu uşaqların nəzərinə çatdırılır.

**Oxu** (Proqnozlaşdırma)
Dərsliyin 183-cü səhifəsindəki mətn "Xəlifəyə xəbər çatdırırlar ki..." cümləsinə qədər oxunur. **Müəllim:**
– *Sizcə, Bəhlul niyə işə çıxmırdı?*
Şagirdlərin fərziyyələri dinlənilir. Mətnin oxunması davam etdirilir və sonluq şagirdlərin fərziyyələri ilə müqayisə olunur.

**Söz ehtiyatı.** Sözlükdə verilmiş izahlardan əlavə, müəllim həmin sözlər haqqında əlavə məlumat verə və "xəlifə", "darğa" sözlərinin köhnəlmiş söz olduğunu şagirdlərin nəzərinə çatdıra bilər.
**İş dəftərinin 126-cı** səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Danışma**
**"Nağılı dəyiş"**
Müəllim şagirdləri qruplara ayırır. Hər qrup təqdim olunmuş iş vərəqindəki fikrə görə dərslikdəki mətni dəyişir.
**I qrup**
Xəlifə Bəhlul Danəndəyə deyir:
– *Bu gündən səni özümə vəzir təyin edirəm...*
**II qrup**
Xəlifə Bəhlul Danəndəyə deyir:
– *Bu gündən səni sarayın xəzinədarı təyin edirəm...*



Çap üçün deyil

**III qrup**
Xəlifə Bəhlul Danəndəyə deyir:
– *Bu gündən səni saraya cəllad təyin edirəm...*
**IV qrup**
Xəlifə Bəhlul Danəndəyə deyir:
– *Bu gündən səni saraya münəccim təyin edirəm...*

**Yazı**
Mətndən yazılışı çətin olan sözlərin işləndiyi cümlələr seçilir və dəftərə köçürülür (*xəlifə, haqq-hesab, qəssab, əskik, əhvalat və s.*).

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 96. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərsdə dərsliyin 184-cü səhifəsində verilmiş sual və tapşırıqlar yerinə yetirilir, müvafiq bölmədə tədris olunmuş materiallar təkrarlanır. Bununla yanaşı, müəllim həm özünün hazırladığı materiallardan, həm də müxtəlif qiymətləndirmə vasitələrindən istifadə edə bilər. Tapşırıqların seçimi zamanı bölmədə reallaşdırılmış standartları əsas götürmək lazımdır.

## Dərs 97. BÖLMƏ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ (2 saat)

**DİNLƏMƏ**

### DƏVƏÇİ VƏ FİLOSOF

Bir filosof yol gedərkən kəndli ilə rastlaşdı. Kəndli dəvənin belinə iki yekə çuval yükləmişdi. Filosof dəvəçidən soruşdu:
– Bu çuvallara nə doldurmusan? Yazıq dəvə ayağını güclə çəkir.
– Birinə buğda, digərinə isə qum doldurmuşam, – deyə kəndli cavab verdi.
– Buğdanı başa düşdüm, bəs qum nəyinə lazımdır?
– Qum tarazlıq üçündür. O olmasa, buğda çuvalı dəvənin belində durmaz.
– Tarazlığı saxlamaq üçün buğdanı iki çuvala doldursaydın, dəvənin yükü yüngül olardı.
Kəndli bu ağıllı adama heyranlıqla baxdı və dedi:
– Sən ya padşahsan, ya da ki vəzir. Bu qədər ağıl yalnız onlarda ola bilər.
Filosof dedi:
– Xeyr, mən nə padşaham, nə də ki vəzir.
– Elə isə çox zəngin bir tacirsən.
– Xeyr, səhv edirsən. Mən kasıb bir filosofam. Dünyanı ac-yalavac dolanıram.
Kəndli bu cavabı eşidəndə bərk qəzəbləndi:
– Çıx get, – dedi. – Sənin ağlının faydası olsaydı, özünə bir gün ağlayardın. Mənim çuvalımın biri isə qoy elə qumla dolu qalsın.

**1. Hekayədəki dialoq kimlərin arasında baş verir?**
A) kəndli ilə tacir arasında
B) filosofla dəvə arasında
C) kəndli ilə filosof arasında

Çap üçün deyil

**2. Kəndli niyə qumla dolu çuvalı dəvəyə yükləmişdi?**
A) dəvəni cəzalandırmaq üçün
B) buğda çuvalı ilə tarazlıq yaratmaq üçün
C) evin tikintisində istifadə etmək üçün

**3. Filosof kəndliyə məsləhət gördü ki:**
A) qumu bərabər çəkidə iki çuvala töksün.
B) qumu özü aparsın ki, dəvənin yükü azalsın.
C) qumu boşaltsın, buğdanı bərabər çəkidə iki çuvala töksün.

**4. Nəyə görə kəndli filosofun məsləhətinə əməl etmədi?**
A) Fikirləşdi ki, kasıb adam ağıllı məsləhət verə bilməz.
B) Filosof məsləhətinə görə çox pul istədi.
C) Filosofun məsləhəti ağlabatan deyildi.

**5. Dialoqda buraxılmış durğu işarələrini yerinə qoy.**
Filosof dəvəçidən soruşdu:
– Bu çuvallara nə doldurmusan ☐ Yazıq dəvə ayağını güclə çəkir.
– Birinə buğda, digərinə isə qum doldurmuşam, – deyə kəndli cavab verdi.
– Buğdanı başa düşdüm, bəs qum nəyinə lazımdır ☐
– Qum tarazlıq üçündür ☐ O olmasa, buğda çuvalı dəvənin belində durmaz ☐

**OXU**

## ŞAHIN VƏFASI
*(Nizami Gəncəvidən)*

**A.** Bir gün şahın nökərə acığı tutdu. Cəllada əmr elədi ki, onu itlərə atsın. Nökər nə qədər and-aman eləyib günahsız olduğunu desə də, şah sözündən dönmədi. Cəllad əmri yerinə yetirdi.

**B.** Şahın bir ağıllı nökəri var idi. O, imkan düşən kimi gizlicə itlərin yanına gedir, onlara ət atırdı. Bu gedişlə itlər yavaş-yavaş ona öyrəşdilər. Onu görəndə quyruqlarını bulayır, səs salmırdılar.

**C.** Səhəri gün itlərə baxan qulluqçu şahın yanına qaranəfəs gəlib dedi ki, nökər sağ-salamatdır, itlər ona toxunmur. Şah əmr etdi ki, nökəri hüzuruna gətirsinlər. Nökər gələndə hökmdar ondan sağ qalmağının sirrini soruşdu. Nökər dedi ki, itlərə tez-tez ət atırdım deyə, yaxşılığımı itirmədilər. Ancaq sənin qapında illər boyu qulluq elədim, bir it qədər vəfanı görmədim.

**Ç.** Keçmiş zamanlarda bir zalım şah var idi. Bu şah qəfəsdə yırtıcı itlər saxlayırdı. Kimə acığı tutsa, cəllada əmr edirdi ki, onu itlərin qəfəsinə atsın. Vəhşi itlər bir andaca həmin adamı parçalayırdı.

**1. Abzasların düzgün ardıcıllığını müəyyən et.**
A) Ç, B, A, C B) B, C, Ç, A C) C, Ç, A, B

**2. Mətndə hansı suala cavab var?**
A) Nəyə görə itlər nökərə toxunmadılar?
B) Şah nökəri hansı əməlinə görə cəzalandırmaq istəyirdi?
C) Şah itlərini harada saxlayırdı?



Çap üçün deyil

## YAZI

Şagirdlər "C" abzasını dialoq şəklində yazırlar.

## DİL QAYDALARI

**1. Hansı sözlər birləşib həm mürəkkəb söz, həm də söz birləşməsi yarada bilər?**
A) yer, kök    B) dəvə, daban    C) kəklik, ot

**2. Hansı birləşmədəki "itirmək" sözü məcazi mənada işlənib?**
A) pul itirmək    B) ağlını itirmək    C) dost itirmək

**3. Hansı cümlənin sonunda yalnız sual işarəsi ola bilər?**
A) Ən yüksək dağların zirvələrində qar görünürdü
B) Bulaq necə əmələ gəlir
C) Quzey yerlərdə qar gec əriyir

**4. Hansı sırada cümlə üzvləri harada? nə? necə? nə edirdi? suallarına cavab verir?**
A) Kosmik gəmi enməyə başladı.
B) İstanbuldakı təmizliyə heyran qaldım.
C) Səhrada dəvə vüqarla irəliləyirdi.

**5. "Qocanın sözləri padşahı düşündürdü" cümləsində II dərəcəli cümlə üzvü hansı suala cavab verir?**
A) kimi?    B) nə?    C) nə etdi?

**6. Verilmiş cümlələrdə mübtəda və xəbəri müəyyən et.**
1. Ən böyük arzum torpaqlarımızı azad görməkdir.
2. İynəyarpaqlı ağacların yarpaqları qışda tökülmür.
3. Qurddan qorxan meşəyə girməz.
4. Ən şirin nəğməmiz ana laylasıdır.

**7. Hansı cümlə aşağıdakı sxemə uyğundur?**

| Kim? | Nə zaman? | Haraya? | Nə etdi? |
|---|---|---|---|

A) İsrafil dibçəkləri eyvana daşıdı.
B) Alpinist axşamçağı zirvəyə çatdı.
C) Balıqçılar qayığı suya saldılar.

Çap üçün deyil

# VIII bölmə
# MƏDƏNİ İRSİMİZ

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | İş dəftəri səh. | MMV səh. |
|---|---|---|---|---|---|---|
| 98. | Peşələr necə yaranıb? | 1.2.1, 2.1.2, 2.2.1, 3.1.4, 4.1.1 | 4 | 186-187 | 130 | 207 |
| 99. | Ayaqdöymə | 2.1.2, 2.1.3, 2.2.1, 4.1.3, 4.1.4, 4.1.5 | 2 | 188-189 | 131 | 209 |
| 100. | Qobustan | 1.2.1, 2.1.2, 2.2.1, 2.2.4, 4.1.1, 4.1.3 | 4 | 190-191 | 132 | 210 |
| 101. | "Yallı" rəqsi | 2.1.4, 2.1.2, 2.2.1, 2.2.4 | 2 | 192-193 | 132 | 212 |
| 102. | Gəncə darvazası | 1.1.1, 1.2.1, 2.1.1, 2.2.1, 2.2.3, 4.1.4, 4.1.5 | 4 | 194-195 | 133 | 213 |
| 103. | Şirvanşahlar sarayı | 1.1.1, 1.2.1, 2.1.2, 2.2.2, 3.1.3, 4.1.3 | 4 | 196 | 134 | 215 |
| 104. | 2500 yaşlı xalça | 1.2.1, 2.1.1, 2.1.2, 2.1.3, 2.2.2, 4.1.5 | 4 | 197 | 135 | 218 |
| 105. | Buta | 2.1.4, 2.2.1, 3.1.2 | 2 | 198 | 135 | 220 |
| 106. | Balaban | 2.1.2, 2.2.1, 3.1.3, 4.1.1 | 2 | 199 | 136 | 221 |
| 107. | Qədim kitablar | 1.1.1, 1.2.1, 2.1.2, 3.1.1, 4.1.2, 4.1.5 | 4 | 200 | 137-138 | 222 |
| 108. | Kitab | 1.2.1, 1.1.2, 2.1.4, 2.2.1, 2.2.4, 3.1.3, 4.1.2, 4.1.3, 4.1.5, 4.1.7 | 2 | 201-202 | 137-138 | 224 |
| 109. | Hop-hop | 2.1.2, 2.2.1, 3.1.4, 4.1.2 | 2 | 203 | 139-140 | 226 |
| 110. | Xalqın malını xalqa satmazlar | 1.1.1, 2.1.4, 2.2.1, 3.1.4, 4.1.3 | 2 | 204-205 | 139-140 | 227 |
| 111. | Ümumiləşdirici təkrar | | 2 | 206-207 | | 229 |
| 112. | Bölmə üzrə qiymətləndirmə | | 2 | | 141-143 | 229 |
| | | Yekun | 42 saat | | | |

Çap üçün deyil

## Dərs 98. PEŞƏLƏR NECƏ YARANIB (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Verilmiş mövzu üzrə müxtəlif mənbələrdən məlumat toplayaraq məruzə hazırlayıb çıxış edir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndən çıxarılmış sözlərin mətndəki yerini müəyyən edir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Mətnin ideyasını şəxsi həyat təcrübəsi ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Səslərin növlərinə görə təsnifatını müəyyən edir. |

**Motivasiya** (BİBÖ)
**Müəllim:** – *Siz hansı sənət, peşə adlarını bilirsiniz? Valideynləriniz, yaxınlarınız hansı peşədə çalışır? Peşə seçmək haqqında heç düşünmüsünüz?*

**İfadəli oxu.** Şagirdlərin diqqəti mətndə tez-tez rast gəlinən vergül işarəsinə yönəldilir. Vergül işarəsinin fasilə məqsədilə qoyulduğu bildirilir.

**Şüurlu oxu.** Dərsliyin 186-187-ci səhifəsindəki 1-2-ci tapşırıqlar yerinə yetirilir. Şagirdlər *“Peşələr necə yarandı?”, “İnsanlar üçün müxtəlif peşələrin əhəmiyyəti nədədir?”* suallarına cavab verirlər.

**İş dəftərinin 130-cu** səhifəsindəki mətn ilə bağlı tapşırıqlar yerinə yetirilir.

**Yazı**
Şagirdlər *“Mən böyüyəndə hansı peşəni seçəcəyəm”* mövzusunda inşa yazırlar.
İnşanın planı tutulur:
Giriş. Bütün peşələr vacibdir.
Əsas hissə. Mən nəyə görə bu peşəni seçirəm? (Seçdiyim peşənin özəllikləri)
Sonluq. Bu peşəyə dərindən yiyələnməklə vətənim və xalqım üçün gərəkli vətəndaş olacağam.

**Danışma *(Akvarium)***
Şagirdlər *“Hansı peşə daha vacibdir?”* mövzusunda müzakirə aparırlar. Bunun üçün **Akvarium** üsulundan istifadə oluna bilər (bax: MMV, səh. 25).

Sonda müəllim Mikayıl Müşfiqin şeirindən bir parça söyləyir:

*İstər bəstəkar ol, istər nəqqaş ol,*
*Şair ol, rəssam ol, heykəltəraş ol.*
*Yaratdığın şeyi sevərək yarat,*
*Hamıdan yüksək ol, hamıdan baş ol.*
**Sual:** – *Bu şeirdə müəllif insanlara nəyi tövsiyə edir?*



Çap üçün deyil

### Danışma

*Müəllimin nəzərinə: Bu dərs şagirdlərdən öncə hazırlıq tələb edir. Onlar verilmiş dörd mövzudan birini seçib bu haqda müxtəlif mənbələrdən məlumatlar toplamalıdırlar:*
*1) müəllimlik sənəti qədimdə və bu gün; 2) həkimlik sənəti qədimdə və bu gün; 3) inşaatçı sənəti qədimdə və bu gün; 4) qədimdə olmayan yeni peşələr (kosmonavt, kompüter mühəndisi, elektrotexnik və s.)*

**Müəllim:** – *"Qədim zamanlarda insanlar indiki kimi yaşamırdılar" cümləsindəki fikrə münasibətinizi bildirin.*
– *Qədim insanlarla müasir insanların yaşayış tərzi arasında hansı fərqləri görürsünüz?*
– *Bu gün qədim sənətlərlə yanaşı, hansı yeni peşələr mövcuddur?*

Şagirdlər dörd qrupa bölünüb məlumat mübadiləsi aparırlar.
**I qrup.** Müəllimlik sənəti qədimdə və bu gün
**II qrup.** Həkimlik sənəti qədimdə və bu gün
**III qrup.** İnşaatçı sənəti qədimdə və bu gün
**IV qrup.** Qədimdə olmayan yeni peşələr (kosmonavt, kompüter mühəndisi, elektrotexnik və s.)
Hər qrup öz spikerini seçir və məlumat mübadiləsi bitdikdən sonra spiker qrupun məruzəsini təqdim edir.
Şagirdlər spikerlərin çıxışını qiymətləndirirlər (bax: MMV, səh. 23, "Danışma bacarığı üzrə bir-birini qiymətləndirmə cədvəli").

### Dil qaydaları

Müəllim 9 sait və bir neçə samit səsi tələffüz edir: – *Bu səslərdən hansı müstəqil söz kimi işlənə bilər? (o) Digər səslər birləşərək müxtəlif sözlər əmələ gətirir.*

Dərsliyin 187-ci səhifəsindəki tapşırıqlar müzakirə yolu ilə yerinə yetirilir.

Müəllim şagirdlərə məntiqə əsaslanmış tapşırıq verir: – *Nöqtələrin yerinə hansı saylar olmalıdır?*
*1) altı, 2) beş, 3) bir, 4) doqquz, 5) ..., 6) iki, 7) ..., 8) ..., 9) yeddi.*

*Müəllimin nəzərinə: Burada rəqəm adları əlifba sırası ilə düzülüb. Nöqtələrin yerinə "dörd", "səkkiz", "üç" sözləri olmalıdır.*

**Araşdırma.** Müəllim belə bir tapşırıq verir: şagirdlər adlarındakı sait və samitlərin sayına görə 3 qrupa bölünürlər: 1) adında saitin sayı çox olanlar; 2) adında saitin sayı az olanlar; 3) adında sait və samitlərin sayı eyni olanlar. Birinci qrup ikinci qrupdakı şagirdlərin adındakı samitlərin, ikinci qrup isə digər qrupun adındakı saitlərin xüsusiyyətlərini müəyyənləşdirir. 3-cü qrup isə yazılışı və deyilişi fərqlənən adları müəyyən edir.

**İş dəftərinin 131-ci** səhifəsindəki qalan tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

Çap üçün deyil

## Dərs 99. AYAQDÖYMƏ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Qarşılaşdığı yeni sözlərin mənasını kontekstdən çıxış edərək təxmin edir. |
| 2.1.3. Öyrəndiyi yeni söz və terminlərdən məqamında istifadə edir. | Rast gəldiyi terminin hansı elm sahəsinə aid olduğunu müəyyən edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Oxuduğu mətndə ona maraqlı görünən fikirləri qeyd edir və onları izah edir. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Sözlərin düzgün yazılış qaydasını müəyyənləşdirmək üçün lüğətdən istifadə edir. |
| 4.1.4. Cəm şəkilçisinin yazılışı və tələffüzü ilə bağlı qaydaları nitqində tətbiq edir. | Cəm şəkilçisini sözdən asılı olaraq dörd cür tələffüz edir, lakin tələffüzdən asılı olmayaraq bir cür yazır. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Mürəkkəb sözün hansı nitq hissələrindən yarandığını müəyyən edir. |

**Motivasiya**

Ritmik musiqi parçası səsləndirilir. Şagirdlər musiqini dinlədikdən sonra müəllim sualla müraciət edir: – *Sizcə, bu musiqinin səsləndirilməsində hansı musiqi alətlərindən istifadə olunub? Danışıq səsləri hansı musiqi alətinin səsinə bənzəyir? Hansı musiqi alətinin səsini çıxarmaq üçün masadan da istifadə etmək olar?*

**Oxu** ("Sual müsabiqəsi")

Dərsliyin 188-ci səhifəsindəki "Ayaqdöymə" mətni oxunur. **Sual müsabiqəsi** üsulu tətbiq olunur (bax: MMV, səh. 24-25). Dərslikdə və iş dəftərində (səh.132) verilmiş sual və tapşırıqlar yerinə yetirilir.

**Söz ehtiyatı.** *"Zərb aləti", "nəfəs aləti", "simli alət", "qoşanağara", "qaval"* terminlərinin mənşəyi, onların hansı elm sahəsinə aid olduğu araşdırılır.

2-ci tapşırıq. Ayaqdöymə zamanı qazılmış quyunun üzərinə quru ağac döşənir, üstü dəri ilə örtülürdü.

**Dil qaydaları**

Mətndən cəm şəkilçisi *(- lar²)* ilə işlənən sözlər seçilib tələffüz olunur:
– *Alətlər, insanlar, vəsaitlər, ritmlər, əcdadlar, dərilər, ayaqlar, səslər, alimlər, adlar, onlar. Hansı sözlərdə cəm şəkilçisinin deyilişi ilə yazılışı fərqlidir?*

**Qruplarla iş.**

Qruplara lüğətdən istifadə etməklə sözlərin düzgün yazılışını müəyyənləşdirmək üçün tapşırıq verilir.
I qrup. Dərslik, səh. 189, tap. 7.
II qrup. Dərslik, səh. 189, tap. 9.



Çap üçün deyil

III qrup. İş dəftəri, səh. 132, tap. 6.
IV qrup. İş dəftəri, səh. 132, tap. 7.
Qrupların təqdimatları dinlənir və müzakirə olunur.
Dərslikdəki 6, 8-ci tapşırıqlar və iş dəftərinin 131-ci səhifəsindəki dil qaydaları üzrə digər tapşırıqlar yerinə yetirilir.

*Müəllimin nəzərinə: Dərslikdəki 8-ci tapşırığı yerinə yetirərkən nəzərə almaq lazımdır ki, "bəli" sözü ilə əksmənalı söz "xeyr", "şər" sözü ilə əksmənalı söz "xeyir"dir. Deməli, cavab "A" variantıdır.*

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

## Dərs 100. QOBUSTAN (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Eşitdikləri və gördüklərini misal gətirərək mövzu ilə bağlı fikirlərini əsaslandırır. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Oxuduğu mətn üzrə faktoloji suallar tərtib edir və özü verilən sualları cavablandırır. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını həyat haqqında düşüncələri ilə əlaqələndirərək fikir yürüdür. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Qalın və incə saitləri fərqləndirir. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Yazdığı imla mətnini orfoqrafik cəhətdən yoxlamaq üçün lüğətdən istifadə edir. Mürəkkəb sözlərin bitişik, yoxsa defislə yazıldığını müəyyənləşdirir. |

**Motivasiya** (BİBÖ)
**Müəllim:** – *Qobustan haqqında nə bilirsiniz? Qobustanla bağlı daha hansı məlumatları bilmək istərdiniz?*
Müəllimin köməyi ilə şagirdlərin bilmək istədikləri müəyyənləşdirilir:
– *Qobustanın tarixi nə vaxtdan başlanır?*
– *Qobustan nə ilə məşhurdur?*
– *Qobustanda məskən salan insanlar nə ilə məşğul olmuşlar?*

**Söz ehtiyatı.** *"Simvol", "yallı", "mağara", "memarlıq"* sözlərinin mənaları araşdırılır.
– *Bu sözlərin leksik mənalarını ifadə etməyə çalışın.*

**Oxu** (sual müsabiqəsi)
"Qobustan" mətni (dərslik, səh.190-191) oxunur. MMV-nin 24-25-ci səhifələrində verilmiş "sual müsabiqəsi" metodu tətbiq edilir. Dərslikdə və iş dəftərindəki (səh. 133) tapşırıqlar yerinə yetirilir.
1-ci tapşırıq. "*Simvol*" sözünü "*rəmz*" sözü ilə əvəz etmək olar.



Çap üçün deyil

2-ci tapşırıq. Yaşıl rənglə verilmiş sözlərin yeri səhv düşüb.
3-cü tapşırıq. Cavab “B” variantıdır.

**Dil qaydaları**
Dərslikdən 5-7-ci tapşırıqlar yerinə yetirilir.
5-ci tapşırıq. Cavab “A” variantıdır.
6-cı tapşırıq. Cavab “C” variantıdır.

*Müəllimin nəzərinə: Siniflə Qobustana ekskursiya təşkil edilməsi məqsədəuyğun olardı.*
*Şagirdlər ekskursiya zamanı əvvəlcə Qobustan dövlət qoruğundakı muzeyi gəzəcək, məlumat monitorlarından istifadə edərək Qobustan qayalarının tarixi haqqında məlumat əldə edəcək, oyun monitorlarından istifadə edərək qədim təsvirlərlə müasir təsvirləri eyniləşdirə biləcək, muzeydəki eksponatlarla yaxından tanış olacaqlar. Muzeylə tanışlıqdan sonra şagirdlər Qobustan qayalarını gəzəcək və qayaüstü rəsmləri seyr edəcəklər.*

**İmla mətni**
Qırmızı rəngdə verilmiş sözlərin yazılışına xüsusi diqqət yetirilir.

**NEFT FONTANI (80 söz)**

Mədəndə şiddətli yanğın vardı. Bu, əsl təbii fəlakət idi. Bir neçə gün əvvəl qazılmış quyu neçə saat idi ki, fontan vururdu. Neft fəvvarəsi qeyri-adi bir qüvvətlə daşı, torpağı göyə sovururdu. Müəyyən tədbirlər görülsə də, fontanı bağlamaq mümkün olmurdu. Buruğun ətrafında neftdən gölməçələr əmələ gəlmişdi. Alovun onlara keçməməsi üçün çox diqqətli olmaq lazım idi. Bunun üçün gölməçələrin ətrafına torpaqdan sədd çəkilmişdi.

Dənizdən əsən soyuq dekabr küləyi alovu üfürdükcə yanğının dairəsi genişlənirdi. Belə yanğınlar səkkiz-doqquz gün, hətta bir neçə həftə davam edirdi.

*Mehdi Hüseyn*

**Sinifdənxaric oxu.** C.Məmmədquluzadə. “Quzu”.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

Çap üçün deyil

## Dərs 101. “YALLI” RƏQSİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Yaxınmənalı və əksmənalı sözləri müəyyən edir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Nəzm nümunəsini vəznə uyğun ritmlə oxuyur və qafiyəli sözləri vurğulayır. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideya məzmununu şəxsi həyatı ilə əlaqələndirərək fikir yürüdür. |

**Motivasiya**

“Yallı” rəqsi səsləndirilir. Şagirdlər musiqi sədaları altında rəqs edirlər. Müəllim bu musiqi və rəqslə bağlı şagirdlərin təəssüratlarını soruşur, birlik, kollektivçilik barədə müzakirə aparılır.

Sual: – *Şeirlə musiqi arasında hansı fərqlər var?*

Venn diaqramı tətbiq oluna bilər. Oxşar cəhət: ritm, vəznin olması, insanın hislərinə təsiri.

**Oxu** (ifadəli oxu müsabiqəsi)

Şagirdlər “Yallı” rəqsi” şeirini (dərslik, səh. 192) bənd-bənd ifadəli oxuyurlar. Qalan şagirdlər onların oxusunu qiymətləndirir və müzakirə edirlər.

1-ci tapşırıq yerinə yetirilir: *silsilə – bir-birinə çox yaxın və ya bitişik sıra.*

2-ci tapşırıq. Tapşırıqda *“nəqş edib”* səhv izah olunub. Bu ifadə şeirdə *“həkk etmək”*, *“yazmaq”* mənasında işlənib.

Dərslikdəki tapşırıqlar yerinə yetirilir. Şeirin vəzn və qafiyə sistemi müzakirə olunur.

3-cü tapşırıq. 3-cü bənddə *“yağan”* və *“çaxan”* sözlərinin yeri dəyişik düşüb.

4-cü tapşırıq. Cavab “B” variantıdır.

**İş dəftərinin 133-cü** səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

*Müəllimin nəzərinə: İş dəftərindəki 4-cü tapşırıq söz ehtiyatı ilə bağlıdır. Burada müxtəlif variantlar ola bilər: çay – say – sal – sel; çay – çiy – çil – sil – sel və s.*

**Müəllim:** – *“Əlvida” sözünü hansı sözlərlə əvəz etmək olar?* (“Sağ ol”, “Sağlıqla qal”, “Xudahafiz”) *Siz hər gün məktəbdən çıxıb xudahafizləşərkən bu sözlərdən hansını işlədirsiniz?* Şagirdlər sualı müzakirə edib bu qənaətə gəlirlər ki, yaxınmənalı sözlərdən hər birinin öz məna çaları var və bu sözlər heç də hər yerdə bir-birini əvəz edə bilmir. Buna misal olaraq iş dəftərinin 132-ci səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilir və şagirdlər “ləqəb” və “təxəllüs” sözləri arasındakı fərqi araşdırırlar.

**Qruplarla iş.**

I qrup. Dərslik, səh. 193, tap. 7.
II qrup. Dərslik, səh. 193, tap. 8.
III qrup. İş dəftəri, səh. 133, tap. 4.
IV qrup. İş dəftəri, səh. 133, tap. 5.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

Çap üçün deyil

## Dərs 102. GƏNCƏ DARVAZASI (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnlə bağlı faktoloji sualları cavablandırır. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Oxuduqlarını və eşitdiklərini misal gətirərək mövzu ilə bağlı fikirlərini əsaslandırır. Eyni mövzuda oxuduğu və dinlədiyi mətnləri sintez edərək məlumatları ümumiləşdirir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, onların xarakterik əlamətlərini adlandırır. | Sözün aid olduğu məna qrupunu müəyyən edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Oxuduğu mətndə ona maraqlı görünən fikirləri qeyd edir. |
| 2.2.3. Mətnin geniş planını tutur. | Mətnin abzaslarına başlıq verir. |
| 4.1.4. Cəm şəkilçisinin yazılışı və tələffüzü ilə bağlı qaydaları nitqində tətbiq edir. | Cəm şəkilçisini sözdən asılı olaraq dörd cür tələffüz edir, lakin tələffüzdən asılı olmayaraq bir cür yazır. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Əsas nitq hissələrini fərqləndirir və xüsusiyyətlərini sadalayır. |

### Motivasiya

Müəllim lövhədə Nizami Gəncəvinin adını yazır. Bu adın tərkibindəki *Gəncəvi* sözünün nə olduğunu soruşur: soyad, ad, təxəllüs və s. Şagirdlərin cavabları alındıqdan sonra müəllim bu sözün şairin doğulduğu yerlə bağlı olduğu haqqında məlumat verir (müqayisə üçün: Xaqani Şirvani, Məhsəti Gəncəvi və s.).

### Dinləmə

Dinləmə mətni səsləndirilir.

#### GƏNCƏ NECƏ YARANDI

Rəvayətə görə, hərbi yürüşə çıxmış bir sərkərdə öz qoşunu ilə gəlib Arana yetişir. Burada dincəlmək üçün üç təpənin yanında düşərgə qurur. Gecə öz alaçığında yatarkən o, qəribə bir yuxu görür. Naməlum bir səs ona deyir: “Ortadakı təpədə xəzinə basdırılmışdır. Öz atını o təpəyə sür. At harada dırnağını yerə döysə, oranı qazdır. Böyük bir xəzinə tapacaqsan. Xəzinədəki pullarla həmin yerdə şəhər tikdir. Adını da Gəncə qoy”.

Sərkərdə səhər duranda yuxuya əhəmiyyət vermir, onu yaddan çıxarır. Amma sonrakı iki gecə yuxu təkrar olunur. Üçüncü gün sərkərdə yuxuda ona deyildiyi kimi edir. Atını ortadakı təpəyə sürür. Həqiqətən də, at bir yerdə dayanıb dırnağını yerə döyməyə başlayır. Sərkərdə həmin yeri qazdırır. Qazılan yerdən qızılla dolu küplər tapılır. Bu qızılın hesabına sərkərdə Gəncə şəhərini saldırır.

Deyilənə görə, “Gəncə” sözü də elə xəzinə deməkdir.

**İş dəftərinin 134-cü** səhifəsindəki 1-3-cü tapşırıqlar yerinə yetirilir.

Çap üçün deyil

## Oxu

| GƏNCƏ ŞƏHƏRİ HAQQINDA | | |
|---|---|---|
| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
| | | |

Dərsliyin 194-cü səhifəsindəki mətn oxunur. **Sual müsabiqəsi** üsulu tətbiq olunur (bax: MMV, səh. 24-25). Mətn oxunduqdan sonra abzasların hər biri başlıqlar altında qruplaşdırılır.

Əlavə tapşırıq: – *“Gəncə darvazası” mətnindəki sayları seçin və onları ardıcıllıqla düzün* (bir, yüz, min, 900, 2500). *Mətnin hansı abzasında say işlənməyib?*
4-cü tapşırıq. *Kral, çar, padşah* sözlərini *hökmdar* sözü əvəz edə bilər.

## Dinləmə

Müəllim Göygöl haqqında aşağıdakı məlumatı oxuyur.
Göygöl hər tərəfdən qalın şam, fıstıq, Şərq palıdı, tozağacı meşələri ilə əhatə olunmuşdur, ona görə də onun rəngi daim göyə çalır. Lakin gölün suyu şəffafdır, hətta ora atılmış bir əşyanı 10 metr dərinlikdə belə görmək olur. Göygöl dövlət qoruğudur. Bu təbiət muzeyində 423 bitki növü, maral, dağ və meşə dələsi, bülbül, kəklik və s. nadir heyvan və quşlar qorunur.

**Müəllim:** – *Bu məlumatı oxuduğunuz mətnin hansı abzasında yerləşdirərdiniz? “Təbiət muzeyi” ifadəsini necə başa düşürsünüz?*
Hər şagird öz mülahizəsini söyləyir.

**İş dəftərinin 134-cü** səhifəsindəki 4-6-cı tapşırıqlar yerinə yetirilir.

## Dil qaydaları

6-cı tapşırıq. Cavab “B” variantıdır.
7-ci tapşırıq. Deyilişi və yazılışı fərqli olan sözlər aşağıdakılardır:
*naxışlar, məlumatlar, minlərlə, qalanların, ölənlər, sakinlər, əsirlər.*
Əlavə tapşırıq. Mətndə işlənmiş xüsusi isimlər seçilir və dəftərə yazılır.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

## Dərs 103. ŞİRVANŞAHLAR SARAYI (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnlə bağlı faktoloji suallara cavab verir. Debat zamanı opponentini dinləyir və əks-arqumentlər hazırlayır. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Eyni mövzuda oxuduğu və dinlədiyi mətnləri sintez edərək məlumatları ümumiləşdirir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnləri fərqləndirir, onların xüsusiyyətlərini sadə şəkildə şərh edir. | Elmi mətndəki məlumatların təsnifatını yaradır (başlıqlar altında qruplaşdırır). |
| 3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. | Dinlədiyi mətnin qısa məzmununu yazır. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Yazdığı imla mətnini orfoqrafik cəhətdən yoxlamaq üçün lüğətdən istifadə edir. |

**Motivasiya**

**Müəllim:** – *Yaşadığınız ərazidə hansı qədim tarixi abidələr* (məscid, türbə, hamam, məzar, bulaq və s.) *var? Həmin abidələr haqqında nə bilirsiniz?*

**Dinləmə**

### İÇƏRİŞƏHƏR

İçərişəhər – Bakının ən qədim hissəsi, Azərbaycan mədəni irsinin nadir incisidir. Burada yüzlərlə tarixi abidə – yaşayış evləri, məscidlər, hamamlar, karvansaralar, şəhəri əhatə edən qala divarları var. Bu abidələr göstərir ki, hələ neçə əsr bundan əvvəl Azərbaycanda mahir memarlar, sənətkarlar yaşamışlar. Bakıya gələn qonaqlar Qız qalası, Şirvanşahlar sarayı, Məhəmmədi məscidi, Ağa Mikayıl hamamı, Buxara karvansarası, Qala divarları kimi qədim memarlıq abidələrini maraqla seyr edirlər.

İçərişəhərin qala divarları yadelli işğalçılar üçün keçilməz sipər idi. Buradakı küçələrin dar və əyri-üyrü olması da, çox güman ki, yadellilərin hücumları ilə bağlıdır. Düşmən atlıları qala divarlarını yarıb şəhərə soxulsalar belə, dar küçələrlə irəliləyə bilmirdilər. Onlar bu küçələrdə azır, sanki daş tələyə düşürdülər. İkimərtəbəli evlərin eyvanından isə hər kəs – uşaq da, böyük də düşmən atlılarının başına qaynar su tökür, daş yağdırırdı. Bir sözlə, qədim zamanlardan bəri İçərişəhər alınmaz qala sayılırdı.

### İŞ VƏRƏQİ

**1. Cütləri müəyyən et.**

| I | | II | |
|---|---|---|---|
| dar | işğalçılar | Şirvanşahlar | hamam |
| yadelli | sənətkarlar | Qız | karvansara |
| mahir | qala | Məhəmmədi | saray |
| alınmaz | abidə | Ağa Mikayıl | qala |
| tarixi | küçə | Buxara | məscid |



Çap üçün deyil

**2. Mətndə işlənən “daş tələ” ifadəsi nəyə aiddir?**
A) İçərişəhərdə yerləşən karvansaraya
B) Qız qalasına
C) İçərişəhərin küçələrinə

**3. Mətndə işlənən “keçilməz sipər” ifadəsi nəyə aiddir?**
A) Şirvanşahlar sarayına
B) Qala divarlarına
C) dar məhəllələrə

**4. Hansı söz xüsusi isim kimi də işlənə bilər?**
A) nadir B) qürur C) dar

**5. Hansı söz birləşməsinin tərkibində mürəkkəb söz var?**
A) Qız qalası B) Məhəmmədi məscidi C) Şirvanşahlar sarayı

### Oxu

Müəllim Azərbaycanla bağlı bir neçə tarixi abidənin rəsmini göstərir (Qız qalası, Şirvanşahlar sarayı, Atəşgah və s.).

**Sual:** – *Bu tarixi abidələrdən hansını tanıyırsınız? Onlardan hansılar İçərişəhərdə yerləşir?*
Şagirdlərin cavabları və müəllimin köməyi ilə abidələrin adları müəyyən olunur.

**Sual müsabiqəsi.** Mətn (dərslik, səh. 196) səssiz oxunduqdan sonra **Sual müsabiqəsi** üsulu tətbiq olunur (bax: MMV, səh. 24-25). Sonda mətnin məzmununu əks etdirən əsas suallar müəyyənləşdirilir və onların əsasında mətn başlıqlara (tezislərə) bölünür.

**Söz ehtiyatı.** *“Divanxana”, “türbə”, “ovdan”* sözlərinin izahı verilir.

**İş dəftərinin 135-ci** səhifəsindəki tapşırıqlar yerinə yetirilir. 7-ci tapşırıqda rebusun cavabı “zəlzələ” sözüdür.

**Müəllim:** – *Bakı haqqında kitablarda, rəsmlərdə ən çox rast gəldiyiniz şəkil hansıdır?*
“Qız qalası” cavabı alındıqdan sonra BİBÖ cədvəli çəkilir.

| QIZ QALASI HAQQINDA | | |
|---|---|---|
| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
| | | |

### Dinləmə

#### QIZ QALASI

Azərbaycan memarlığının incilərindən sayılan Qız qalasını “Bakının rəmzi” adlandırırlar.

Qız qalasının tarixi haqqında çoxlu rəvayət vardır. Həmin rəvayətlərə görə, o, əvvəllər dənizin içində yerləşirmiş. Amma sonradan Xəzərin suyu çəkildiyindən Qız qalası da quruda qalıb. Qalanın hündürlüyü 29 metrdir. O, yerli əhəngdaşından hörülüb. Divarlarının qalınlığı beş metr olan bu abidə 8 mərtəbədən ibarətdir. Qız qalasına eyni vaxtda 250 adam yerləşdirmək olar.

Abidənin divarı üzərindəki kitabələrdən birində yazılıb: “Davud oğlu Məsudun qülləsi”. Elə ona görə də alimlərin çoxu belə qərara gəlib ki, qalanın memarı Məsud adlı şəxs olmuşdur. Bəziləri isə deyir ki, Məsud həmin vaxt şəhərin hakimi imiş. O, qalanı

Çap üçün deyil

yadellilərdən müdafiə olunmaq üçün tikdirmişdir. Lakin bu qalanın nə vaxt tikildiyi məlum deyil. Tarixçilərin fikrincə, Qız qalasının yaşı min ildən çoxdur.

Qalanın adına gəlincə, bu haqda müxtəlif fikirlər var. Onlardan ən ağlabatanı qədimdə "qız" sözünün həm də "ələkeçməz", "alınmaz" mənalarında işlənməsidir. Beləliklə, Qız qalasını həm də "ələkeçməz, alınmaz qala" adlandırmaq olar. Bu da onu sübut edir ki, qalanı düşmənlərdən qorunmaq məqsədi ilə tikiblər.

**Söz ehtiyatı.** "Rəmz", "kitabə" sözlərinin mənası açıqlanır.
Dinləmə mətni ilə bağlı suallar yazılmış iş vərəqləri paylanır.

**Yazı** (ifadə)
Şagirdlər mətnin qısa məzmununu yazırlar. Bunun üçün mətnin planı tutulur:
1. Qız qalasının memarlıq xüsusiyyətləri
2. Qalanın tarixi (memarı, yaşı, tikilmə məqsədi)
3. Qız qalasının adı ilə bağlı fikirlər

**Danışma**

*Müəllimin nəzərinə: Bu dərs şagirdlərdən öncə hazırlıq tələb edir. Şagirdlərə tapşırılır ki, İçərişəhər də daxil olmaqla tarixi abidələrimiz haqqında müxtəlif mənbələrdən (böyüklərdən, sorğu kitablarından, internet saytlarından) mümkün qədər çox məlumat toplasınlar.*

Bu dərsdə müxtəlif üsullar tətbiq oluna bilər:
1. **Akvarium** üsulu (bax: MMV, səh. 25).
2. **Kollektiv məruzələr.** Şagirdlər mövzular üzrə qruplara bölünərək topladıqları məlumatları bölüşürlər. Daha sonra hər qrup öz spikerini seçir və spiker qrupun məruzəsini təqdim edir.

**Debat:** Dağılmaqda olan tarixi abidələri qorumaq üçün nə etmək lazımdır?
I qrup. Tarixi abidələri yenidən tikməliyik.
II qrup. Qədim abidələri olduğu kimi qoruyub saxlamalıyıq.

**Dil qaydaları**

**İmla mətni.** *Qırmızı rəngdə verilmiş sözlərin yazılışına xüsusi diqqət yetirilir.*

**ƏLAÇI SƏMƏD** (81 söz)

Səməd balacaboy, qarabuğdayı oğlandır. Onun qara saçları, işıqlı qara gözləri var. O, ikinci sinifdə oxuyur. Əlaçıdır.

Səməd səliqəli oğlandır. Hər gün iki-üç dəfə çantasını yoxlayır. Dəftər-kitabın yerində olduğunu görüb rahat olur. Axı o, evdəki beş uşaqdan böyüyüdür. Kiçik bacı-qardaşları onun çantasına həsrətlə baxırlar. Səməd onlara deyir:

– Məktəbli uşağın kitab-dəftəri təmiz olmalıdır.

Sinifdə Səmədin ən yaxın dostu Kərəmdir. Səməddən fərqli olaraq o, ucaboy, enlikürək oğlandır. Səməd Kərəmi də, başqa sinif yoldaşlarını da çox istəyir. Ağsaçlı, gülərüz müəlliminə isə böyük məhəbbətlə, hörmətlə yanaşır.

*Mirzə İbrahimov*

**Sinifdənxaric oxu.** Qrimm qardaşları. "Bremen çalğıçıları".

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

# Dərs 104. 2500 YAŞLI XALÇA (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Dinlədiyi və oxuduğu mətnlər arasındakı mövzu yaxınlığını müəyyən edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, onların xarakterik əlamətlərini adlandırır. | Sözün aid olduğu məna qrupunu müəyyənləşdirir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.1.3. Öyrəndiyi yeni söz və terminlərdən məqamında istifadə edir. | Öyrəndiyi yeni söz və terminləri cümlədə mənasına uyğun işlədir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnləri fərqləndirir, onların xüsusiyyətlərini sadə şəkildə şərh edir. | Elmi mətndəki əsas məlumatları mənimsəyir və sualları cavablandırır. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Əsas nitq hissələrini fərqləndirir və xüsusiyyətlərini sadalayır. |

**Motivasiya** (Söz assosiasiyası)
Lövhədə aşağıdakı sxem çəkilir. **Sual:** – *Sual işarəsinin yerinə hansı söz olmalıdır?*




Şagirdlər 2-ci sinifdə “Qədim xalça” hekayəsini oxuyarkən “hana” və “çeşni” sözləri ilə tanış olublar. Bu və sxemdəki digər sözlər onlarda “xalça” sözü ilə assosiasiya yarada bilər.

**Dinləmə**

**AZƏRBAYCAN XALÇALARI**

Azərbaycanda ən qədim zamanlardan xalçaçılıq sənəti geniş yayılmışdır. Bizim xalçalar öz gözəlliyi ilə bütün dünyada məşhurdur. Belə xalçalardan biri də “Şeyx Səfi” adlanan xalçadır. Bu xalçanı 550 il bundan əvvəl Təbriz ustaları toxumuşlar. Hazırda “Şeyx Səfi” xalçası İngiltərə muzeylərindən birində saxlanılır. Onun uzunluğu 10 metrdən, eni 5 metrdən çoxdur. Bu xalça muzeyin ən qiymətli eksponatlarından biri sayılır.

**Söz ehtiyatı.** Dinləməyə fasilə verilir və “eksponat” (muzeydə nümayiş etdirilən əşya) sözünün mənası soruşulur.

Tapşırıq: – *Hesablayın: “Şeyx Səfi” xalçası böyükdür, yoxsa sinif otağınızın döşəməsi?*

**İş dəftərinin 136-cı** səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir.

**Mətnin davamı:**

Azərbaycanda xalçaçılığın qədim sənət olduğunu sübut edən mənbələrdən biri də ən qədim kitabımız olan “Kitabi-Dədə Qorqud”dur. Bu əsərdə deyilir:

“Dədə Qorquddan soruşmuşlar:



Çap üçün deyil

– Dədə, gün gələcək, yaz gedəcək, çiçəklər solacaq. Sağımıza baxsaq, quru ağac görərik. Solumuza baxsaq, kol-kos görərik. Bundan çıxış yolu varmı?

Dədə Qorqud fikir elədi, söylədi:

– Çiçəyin ömrünü uzatmaq olmaz. Qar da yağmalıdır, yağış da. Yer də su içməlidir, güc yığmalıdır. Ey igid ərənlər, nə bağrınızı qan edərsiniz? Sizin xatunlarınıza, qız-gəlinlərinizə elə bir sənət öyrədərəm ki, alaçığınızda iliniz on iki ay yaz olar, çiçək olar, buta olar, xonça olar. İstəmirsiniz?

**Söz ehtiyatı.** Müəllim mətnin bu parçasında rast gəlinən "buta", "xonça" sözlərinin mənalarını soruşur. Bildirilir ki, bu sözlər xalçaçılıq terminləri – xalçalarda geniş istifadə olunan naxış adlarıdır (nümayiş olunur).

*Müəllimin nəzərinə:* *xonçaya "göl", "turunc", "tabaq" da deyilir.*

**Mətnin davamı:**

– İstərik, dədə, istərik, – deyə ərənlər bir ağızdan dilləndilər.

Onda Dədə Qorqud üzünü qızlara, qadınlara tutdu:

– Al, qızım, bu ipliyi, bu ərişi, bu arğacı, bu həvəni. Bax bu qırmızı çadırın qabağında sizə bir hana quraram. Uğurunuz açıq olsun. Mən bu gün varam, sabah yox. Mən söylərəm, siz dinlərsiniz. Siz söylərsiniz öz qızınıza, qızınız da öz qızına…

Beləcə, Dədə Qorqud yun daramağı, cəhrədə ip əyirməyi, ip boyamağı, həvələməyi, ilmə vurmağı öyrətdi".

**Söz ehtiyatı.** "Əriş" (xalça dəzgahına – hanaya şaquli istiqamətdə çəkilən iplər), "arğac" (xalça dəzgahına – hanaya üfüqi istiqamətdə çəkilən iplər), "həvə" (xalçaçılıqda istifadə olunan alət), "cəhrə" (ip əyirmək üçün dəzgah) sözlərinin mənası açıqlanır.

Şifahi sual-cavab və ya iş vərəqindəki tapşırıqlar vasitəsilə dinləmə mətninin qavranıldığı yoxlanılır.

*Müəllimin nəzərinə:* *Bu dərsdə keçilən xalçaçılıq terminlərindən yalnız "hana", "ilmə" və "buta" sözlərinin mənimsədilməsi kifayətdir. Şagirdlərə bu terminləri cümlələrdə işlətmək tapşırıla bilər.*

**Müəllim: –** *"Hər şeyin təzəsi, dostun köhnəsi" atalar sözünü necə izah edərdiniz? Bu atalar sözü ilə razısınızmı? Yalnız dostunmu köhnəsi yaxşıdır? Bəs kitabın, xalçanın, bəzək əşyasının, abidənin necə – təzəsi daha qiymətlidir, yoxsa köhnəsi?*

Şagirdlər verilən suallar ətrafında fikir bildirirlər (kiçik debat da təşkil etmək olar).

### Oxu

Dərsliyin 197-ci səhifəsindəki mətn oxunur. **Sual müsabiqəsi** üsulu tətbiq olunur.

Dərslikdəki tapşırıq yerinə yetirilir. Cavab "B" variantıdır.

Şagirdlər dinlədikləri və oxuduqları mətnlər arasındakı mövzu yaxınlığını müəyyən edirlər. (Hər iki mətndə Azərbaycan xalçalarının qədimliyindən danışılır.)

**İş dəftərinin 136-cı** səhifəsindəki 2-ci tapşırıq yerinə yetirilir.

### Dil qaydaları

**İş dəftərinin 136-cı** səhifəsindəki 3-4-cü tapşırıqlar yerinə yetirilir.

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

## Dərs 105. BUTA (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Sözləri uyğun gələn əksmənalı sözlərlə əvəz edərək cümlələrdə işlədir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətndəki məlumatlarla bağlı sualları cavablandıraraq mətni şüurlu oxuduğunu nümayiş etdirir. |
| 3.1.2. Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. | Tərkibində yazılışı çətin sözlər olan cümlələri seçir və orfoqrafik qaydalara uyğun olaraq köçürür. |

**Motivasiya**

Müəllim buta şəklini şagirdlərə göstərir və sinfə bu sualla müraciət edir:
– *Bu naxış nəyi xatırladır?*
Şagirdlər müxtəlif fərziyyələr irəli sürürlər.

**Oxu** (**Sual müsabiqəsi**)

Dərsliyin 198-ci səhifəsindəki “Buta” mətni oxunur. **Sual müsabiqəsi** üsulu tətbiq olunur (bax: MMV, səh. 24-25). Dərslikdəki tapşırıqlar yerinə yetirilir. Müəllimin köməyi ilə 1-ci tapşırıqda “C” variantının düzgün fikir olmadığı müəyyənləşdirilir.

2-ci tapşırığın cavab variantlarından biri: *xalı – xala – bala – bula – buta.*

Müəllim butaya həsr olunan bayatını söyləyir:

*Gur xəzri əsdi, buta,*
*Səbrimi kəsdi, buta.*
*Söylə, axı neyləyim,*
*Yar yardan küsdü, buta.*

Sual: – *Bu bayatı “Buta” mətninin hansı abzası ilə məzmunca səslənir?*

**Yazı**

Mətndən yazılışı çətin olan sözlərin işləndiyi cümlələr seçilir və dəftərə köçürülür (tovuz quşu, məşhur, tədqiqatçı və s.).

**İş dəftərində** (səh. 136) “Küsülü buta” naxışı rənglənir (ortadakı rəsm).

**Dil qaydaları**

Tapşırıq: – *Verilən sözləri əksmənalı sözlərlə əvəz edib cümlələrdə işlədin.*
*qədim, sadə, sonra, daxili, parlaq, təsdiq, vətən*

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

## Dərs 106. BALABAN ( 2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətnin məzmununa uyğun olan sualları cavablandıraraq mətni şüurlu oxuduğunu nümayiş etdirir. |
| 3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. | Sxematik illüstrasiyadan istifadə etməklə oxuduğu mətnin qısa məzmununu yazır. |
| 4.1.1. Sait və samit səsləri növlərinə görə izah edir. | Sait və samit səslərin fizioloji təbiətini (yaranma mexanizmini) araşdırır. |

### Motivasiya

**Müəllim:** – *Nəfəslə çalınan hansı musiqi alətlərini tanıyırsınız? Bu alətlər haqqında nə bilirsiniz?* (BİBÖ cədvəlindən istifadə etmək olar.)

### Oxu

Mətn (dərslik, səh. 199) şagirdlər tərəfindən abzaslarla səsli oxunur. Yeni sözlərin mənası (müştük, xamıt, qarğı, avaz və s.) açıqlanır. Müəllim vaxtaşırı oxuya fasilə verərək mətndəki məlumatları əyani vəsaitin (musiqi alətlərindən zurna və ya klarnet ola bilər) üzərində nümayiş etdirir.

**Sual müsabiqəsi.** MMV-nin 24-25-ci səhifələrində şərh edilmiş **Sual müsabiqəsi** üsulu tətbiq olunur. Sonda iş dəftərində (səh. 137, 1-3-cü çalışmalar) verilmiş çalışma və testlər vasitəsilə mətndəki məlumatların şagirdlər tərəfindən qavranılması yoxlanılır.

**Araşdırma. Müəllim:** – Bədnam erməni qonşularımız tar, kamança, balaban kimi alətləri öz adlarına çıxırlar. “Kamança” sözünün mənasını açıqlamaqla onun Azərbaycan musiqi aləti olduğunu sübut edin.

Müəllim “kaman” sözünün ilkin mənasını uşaqlara başa salır və alətin adının həmin sözdən götürüldüyünü deyir.

### Yazı

**İş dəftərinin 137-ci** səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir. Şagirdlər sxematik şəkildən istifadə etməklə öz sözləri ilə balaban haqqında kiçik mətn yazırlar.

### Dil qaydaları

**Sual**: – *Balabanın səsi danışıq səslərindən hansına daha çox bənzəyir?*

Şagirdlər təcrübə aparmaqla bu qənaətə gəlirlər ki, balaban səsi mahiyyət etibarilə (avazın yaranması, səsin uzana bilməsi) sait səslərə və bəzi cingiltili samitlərə (z, v) bənzəyir . Burada müştük səs telləri, korpusdakı elementlər  (dəliklər və s.) isə  ağız boşluğundakı danışıq üzvləri (dil, dişlər, dodaqlar) rolunu oynayır.

*Müəllimin nəzərinə:* *Balabanda melodiyanın səslənməsi ilə danışıq səslərinin (sait səslərin və bəzi cingiltili samitlərin) yaranması mahiyyət etibarilə eynidir. Buna görə də müəllim bu mətndəki məlumatların şagirdlər tərəfindən bütün təfərrüatı ilə mənimsənilməsinə çalışmalıdır. Bunun üçün əyani vəsaitlərdən və empirik (öz üzərində təcrübədən keçirmək) üsullardan istifadə etmək vacibdir.*

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

## Dərs 107. QƏDİM KİTABLAR (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnlə bağlı faktoloji sualları cavablandırır. |
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Dinlədiyi və oxuduğu mətnlər arasındakı mövzu yaxınlığını müəyyən edir və məlumatları ümumiləşdirərək təqdim edir. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 3.1.1. Hüsnxət normalarına riayət etməklə səliqəli və sürətlə yazır. | Verilmiş mətni hüsnxət normalarına uyğun yazır. |
| 4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları məqamına uyğun istifadə edir. | Xüsusi isimləri böyük hərflə yazır. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Mürəkkəb sözlərin tərkibindəki nitq hissələrini müəyyənləşdirir. |

### Motivasiya

**Müəllim:** – *Sizin hamınızda eyni cür dərsliklər var. Bu dərsliklər mətbəələrdə çap olunur. Bəs sizcə, qədimdə, çap maşınları olmayan vaxt uşaqlar dərs öyrənmək üçün kitabları necə əldə edirdilər?*

Şagirdlər bu haqda fikirlərini söyləyirlər.

### Oxu

Dərsliyin 200-cü səhifəsindəki mətn oxunur. Həmin səhifədəki suallar cavablandırılır.

**Söz ehtiyatı**. Şagirdlər “xəttat”, “əlyazma”, “miniatürçü” sözlərinin mənasını lüğət vasitəsilə izah edirlər: xəttat – kitabın üzünü köçürən sənətkar; əlyazma – əl ilə yazılmış mətn, kitab və s.; miniatürçü – kitablara müəyyən üslubda kiçik rəsmlər çəkən rəssam.

*<u>Müəllimin nəzərinə:</u> Müəllim bildirir ki, xəttatlıq sənəti incəsənətin ayrıca bir sahəsidir. Bu sahə “kalliqrafiya” adlanır. Bu sahənin mütəxəssislərinə isə “kalliqraf” deyirlər. Xəttat – kitabın üzünü köçürən sənətkar, gözəl xətti olan adamdır. Əlyazma – əl ilə yazılmış mətn, kitab və s. deməkdir. “Miniatür” (isim, italyan sözü, incəsənət termini) sözünün bir neçə mənası var:*
*1) qədim əlyazmalarda və kitablarda rəngli şəkil və ya yazı;*
*2) zərif işlənmiş kiçik rəsm;*
*3) kiçikhəcmli ədəbi və ya musiqi əsəri;*
*4) incə və zərif olan hər şey (miniatür kitab və ya saat).*

### Dinləmə

**Müəllim:** – *Bakıda Hacı Zeynalabdin Tağıyevin tikdirdiyi hansı binaları tanıyırsınız? Bu binalarda indi hansı təşkilatlar fəaliyyət göstərir?* (Keçən dərslərdə şagirdlər bu haqda məlumat almışlar.)

Müəllim aşağıdakı mətni səsləndirir:

Çap üçün deyil

## ƏDƏBİYYATIMIZIN BEŞİYİ

Hacı Zeynalabdin Tağıyev xeyriyyəçilik məqsədi ilə Bakıda bir çox binalar tikdirmişdi. Onlardan biri də indiki İstiqlaliyyət küçəsində yerləşən Əlyazmalar İnstitutunun binasıdır. Tikintisi 1901-ci ildə başa çatmış bu binada keçən əsrin əvvəllərində Qızlar Seminariyası yerləşirdi. Həmin binanın zirzəmisini isə Tağıyev “Orucov qardaşları” mətbəəsinə kirayəyə vermişdi. Kirayə haqqı olaraq Orucov qardaşları seminariyanın qızları üçün kitablar çap edirdilər.

Hal-hazırda həmin binada Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu yerləşir. Burada müxtəlif dilləri və qədim əlifbaları bilən onlarla alim əlyazma və əski çap kitablarının tədqiqi, nəşri və bərpası ilə məşğul olur. İnstitutun fondunda 20 minə yaxın əlyazma saxlanılır. Onlardan ən qədimi IX əsrdə dəri üzərində yazılmış Quran surəsidir.

Şifahi sual-cavab yolu ilə mətndəki məlumatların qavranılması yoxlanılır.

Şagirdlər oxuduqları və dinlədikləri mətnlərdəki məlumatları ümumiləşdirərək vahid mətn şəklində təqdim edirlər.

*Müəllimin nəzərinə: Növbəti günlərin birində “Miniatür kitab muzeyi”nə siniflə birlikdə ekskursiya təşkil edilməsi məqsədəuyğun olardı.*

### Dil qaydaları

<u>Tapşırıqlar:</u>

1. Dinlədiyiniz və oxuduğunuz mətnlərdəki xüsusi isimləri yazın.

Dərsliyin 200-cü səhifəsindəki <u>3-cü tapşırıq</u> yerinə yetirilir. Hər iki söz mürəkkəb söz olub isim və feilin birləşməsindən əmələ gəlib.

**İş dəftərinin 138-ci** səhifəsindəki 1-4-cü tapşırıqlar yerinə yetirilir.

### Yazı

**Qruplarla iş.** Müəllim hər qrupa özlərinin kitabını hazırlamağı tapşırır. Kitablar qruplara təqdim olunmuş dəftərdən hazırlanacaq. Qrup üzvlərindən biri xəttat vəzifəsini yerinə yetirəcək. Xəttat dərslikdəki mətnin bir hissəsini köçürəcək.

Təqdimatlarda nəfis tərtibat, hüsnxət normalarına riayət edilməsi nəzərə alınır.

Müşahidə və yazı işləri əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

Çap üçün deyil

## Dərs 108. KİTAB (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiklərini, eşitdiklərini və oxuduqlarını müqayisə etməklə nəql edir. | Oxuduğu mətnləri müqayisə edərək ümumiləşdirmələr aparır. |
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Çoxmənalı sözün mətndə işləndiyi mənasını kontekstə görə izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətnin məzmunu ilə bağlı sualları cavablandıraraq mətni şüurlu oxuduğunu nümayiş etdirir. |
| 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir. | Mətnin ideyasını həyat haqqında düşüncələri ilə əlaqələndirərək fikir yürüdür. |
| 3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. | Şeiri nəsrə çevirərək qısa məzmununu yazır. |
| 4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları məqamına uyğun istifadə edir. | İmla yazarkən xüsusi isimlərin böyük hərflə yazılışı qaydalarına riayət edir. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Yazdığı imla mətnini orfoqrafik cəhətdən yoxlamaq üçün lüğətdən istifadə edir. |
| 4.1.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir. | Feilləri zamanına görə fərqləndirir. |
| 4.1.7. Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir. | Nəqli, əmr və sual cümlələrini fərqləndirir. |

**Motivasiya** (söz assosiasiyası)

**Müəllim:** – *"Kitab" dedikdə yadınıza nə düşür?*

"Bilik", "şeir", "dərs", "hekayələr", "Cırtdan", "nağıl", "təmsil", "şair", "yazıçı" kimi sözlər səsləndirilə bilər.

**Oxu**

Dərsliyin 201-ci səhifəsindəki "Kitab" şeiri ifadəli oxunur (ifadəli oxu müsabiqəsi keçirilə bilər).

**Söz ehtiyatı.** Birinci bənddə verilən "günü günə qatdılar" ifadəsinin leksik mənasını və ona əks olan ifadəni müəllimin köməyi ilə müəyyənləşdirirlər *(günü günə qatmaq – dayanmadan çalışmaq; əksmənalı ifadə – günü günə satmaq)*.

**Suallar**:

*1. Şeirdə neçə bənd var?*
*2. Hər bənddə neçə misra var?*
*3. Hər misrada neçə heca var?*
*4. Bəndlərin hansı misraları qafiyələnir?*



Çap üçün deyil

**1-ci tapşırıq.** Şeirin 1-5-ci bəndlərində qafiyələnmə a b a b sxeminə, sonuncu bənddə isə a a b b sxeminə uyğundur. Deməli, cavab 6-cı bənddəki misralardır.
**2-ci tapşırıq.** Şeirdə şairlərdən Nizami Gəncəvinin və Mirzə Ələkbər Sabirin adları çəkilir.
**3-cü tapşırıq.** Tapşırıqda verilmiş ardıcıllıq aşağıdakı kimi davam edə bilər:
*Karlson, şahzadə Eduard, Tom, Fitnə, Fatma və s.*
**4-cü tapşırıq.** Cavab "C" variantıdır.

İş dəftərinin 138-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

### Yazı

**Qruplarla iş.** Şagirdlər dörd qrupa bölünür. Müəllim şeirin birinci dörd bəndini qruplar arasında bölüşdürüb nəsrlə ifadə etmək tapşırığı verir.

**Sinifdənxaric oxu.** "Basat və Təpəgöz" (Kitabi-Dədə Qorqud" dan).

### Dil qaydaları

Şeirin cümlə şəklində verilmiş misraları seçilib dəftərə yazılır.
**Cütlərlə iş.** Müəllim lövhədə üç söz yazır: "dəniz", "fırtına", "qayıq". Tapşırıq: – Bu üç sözdən istifadə edərək cümlə qurun.

**Qruplarla iş.** I qrup. Dərslik, səh. 202, tap. 6.
II qrup. Dərslik, səh. 202, tap. 7.
III qrup. Dərslik səh. 202, tap. 8.
IV qrup. İş dəftəri, səh. 138, tap. 5.
Qrupların təqdimatları dinlənilir və müzakirə olunur.

Dərslik və iş dəftərindəki mövzu ilə bağlı digər tapşırıqlar yerinə yetirilir.

**İmla mətni**
*Sözlərin böyük hərflə yazılışına dair qaydalardan məqamında istifadə edilməsinə diqqət yetirilir.*

**AZƏRBAYCAN RESPUBLIKASI** (64 söz)

Azərbaycan Respublikası Rusiya, Gürcüstan, Türkiyə, İran və başqa ölkələrlə həmsərhəddir. Ölkəmiz Xəzər dənizinin sahilində yerləşir. Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan respublikamızın ən böyük şəhərləridir. Naxçıvan Muxtar Respublikası da Azərbaycanın tərkibinə daxildir.

Ölkəmizdə ən böyük çaylar Kür və Araz, ən uca dağlar isə Bazardüzü və Şahdağdır. Azərbaycanın Muğan və Mil kimi böyük düzləri, Kəpəz dağının ətəyində yerləşən füsunkar Göygölü var.

Paytaxt şəhərimiz isə günü-gündən gözəlləşən Bakıdır.

**Qiymətləndirmə.** Təqdimata, diskussiyaya və tətbiqetmənin nəticələrinə əsasən aparılır.

Çap üçün deyil

## Dərs 109. HOP-HOP (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələrin mənasını lüğət vasitəsilə araşdırır və izah edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Bədii əsərin müəyyən hissəsini oxuduqdan sonra baş verəcək hadisələri proqnozlaşdırır. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Müəyyən mövzu ilə bağlı hekayə qurub yazır. |
| 4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları məqamına uyğun istifadə edir. | Mürəkkəb adları və xüsusi isimləri böyük hərflə yazır. |

**Motivasiya**

**Müəllim:** – *Azərbaycanda ilk milli qəzetin adı nə idi?* ("Əkinçi") *Bu qəzeti kim nəşr etdirirdi?* (H.Zərdabi) *"Molla Nəsrəddin" deyəndə yadınıza nə düşür?* (lətifələr) *Biz bu il Cəlil Məmmədquluzadənin hansı əsərlərini oxumuşuq?* ("İki alma", "Quzu") *Bəs Mirzə Ələkbər Sabirin hansı şeirlərini bilirsiniz?*

**Oxu** (proqnozlaşdırma). Dərsliyin 203-cü səhifəsindəki "Hop-hop" mətninin birinci üç abzası oxunduqdan sonra müəllim sualla müraciət edir:

– *Sizcə, nəyə görə bu mətn "Hop-hop" adlanır?*

Şagirdlərin versiyaları dinlənilir. Mətnin davamı oxunur və versiyalarla müqayisə olunur.

<u>1-ci tapşırıq.</u> Cavab "B" variantıdır.

<u>2-ci tapşırıq.</u> M.Ə.Sabir əsərlərində dövrünün haqsızlıqlarını əks etdirirdi. Ona qarşı olan təqiblərdən, təzyiqlərdən qorunmaq üçün şeirlərini imzasız yazırdı.

**Yazı**

Müəllim şagirdlərə kiçik bir hekayə yazmağı tapşırır. Yaxşı olar ki, hekayənin mövzusu haqqında da qısa məlumat verilsin. Şagirdlər yazdıqları mətnin sonunda özlərinə seçdikləri təxəllüsü də qeyd edirlər.

**Dil qaydaları**

Müəllim "Hop-hop" mətnindən böyük hərflə yazılan sözləri seçib dəftərə yazmağı və aşağıdakı şəkildə qruplaşdırmağı tapşırır:

| İnsan ad və soyadları, təxəllüs | Jurnal, kitab adı |
|---|---|
| | |

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

## Dərs 110. XALQIN MALINI XALQA SATMAZLAR (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi fikir ətrafında müzakirələrdə münasibətini bildirir. | Dinlədiyi mətnlə bağlı sualları cavablandırır. |
| 2.1.4. Yaxınmənalı, əksmənalı və çoxmənalı sözlərdən nitqində istifadə edir. | Yaxınmənalı və əksmənalı sözləri müəyyən edir. |
| 2.2.1. Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur. | Mətnin məzmunu ilə bağlı sualları cavablandıraraq mətni şüurlu oxuduğunu nümayiş etdirir. |
| 3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır. | Verilmiş mövzu üzrə məqalə hazırlayıb yazır. |
| 4.1.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir. | Lüğətin köməyi ilə deyilişi və yazılışı fərqlənən sözlərin düzgün yazılışını müəyyənləşdirir. |

**Motivasiya**

Müəllim şagirdlərlə birlikdə bir xalq mahnısı oxuyur ("Qaragilə" və ya "Pəncərədən daş gəlir").

**Sual:** – *Xalq mahnılarının bəstəkar mahnılarından fərqi nədədir?* (1. Xalq mahnıları daha qədimdir. 2. Xalq mahnısının müəllifi məlum deyil, ağızdan-ağıza, şifahi yayılır) *Bəs sizcə, xalq mahnıları günümüzə necə gəlib çatmışdır?*

Şagirdlərin fikirləri dinlənilir və müzakirə olunur.

**Oxu** (**Ziqzaq**)

Dərsliyin 204-205-ci səhifələrindəki mətn dörd hissəyə bölünür və **Ziqzaq** üsulu ilə oxunur (bax: MMV, səh. 26): 1) I abzas; 2) II abzas; 3) bəstəkarla xanəndənin dialoqu; 4) sonuncu iki abzas. Sonda hər qrupun nümayəndəsi mətni nəql edir. Müəllim qalan şagirdlərə tapşırır ki, nəql zamanı yaddan çıxmış vacib məqamları qeyd etsinlər və nəqlin sonunda öz qeydlərini söyləsinlər. Dərsliyin 205-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

**Söz ehtiyatı.** Müəllim mətndəki "itib-batmaq" mürəkkəb feilinin yaranma yolunu müəyyənləşdirməyi tapşırır (yaxınmənalı sözlərin birləşməsi ilə). "Zəhmət haqqı" ifadəsinin sinonimlərini müəyyənləşdirirlər (məvacib, maaş, donluq). Müəllim bildirir ki, bu sözlərdən biri – "donluq" artıq ədəbi dildə işlənmir.

**Dinləmə**

**Müəllim:** – *Bakıda fəaliyyət göstərən hansı teatrları tanıyırsınız?* (Kukla Teatrı, Dram Teatrı, Musiqili Teatr, Opera və Balet Teatrı və s.) *Bu teatrlarda göstərilən tamaşalar bir-birindən nə ilə fərqlənir? Heç teatrda və ya televiziya vasitəsilə operaya baxmısınızmı? Opera tamaşası gördüyünüz başqa tamaşalardan nə ilə fərqlənir?*

Şagirdlərin fikirləri dinlənilir və müzakirə olunur.

### İLK OPERAMIZ – "LEYLİ VƏ MƏCNUN"

Opera da dram kimi, tamaşaya qoyulmaq üçün yazılan səhnə əsəridir. Lakin burada rolları oynayan qəhrəmanların ifası və hərəkətləri musiqi ilə müşayiət olunur.

İlk Azərbaycan operası "Leyli və Məcnun" adlanır. Bu əsəri dahi bəstəkarımız Üzeyir

Çap üçün deyil

Hacıbəyli yazmışdır. Lakin həmin dövrdə "Leyli və Məcnun" operasını səhnələşdirmək heç də asan deyildi. Axı o vaxt Azərbaycanda qadın aktyorlar yox idi. Ona görə də Üzeyir bəy Leyli rolunu oynamağı Əhməd bəy Ağdamskiyə tapşırmalı olur. Əhməd bəy işinin öhdəsindən elə sənətkarlıqla gəlir ki, tamaşaçılar Leyli rolunu kişi aktyorun oynadığını hiss etmirlər. Məcnun rolunun ilk ifaçısı isə Hüseynqulu Sarabski olmuşdur.

Üzeyir bəy opera yazmağa başlayanda cəmi 22 yaşı vardı. Dahi bəstəkar bunu belə xatırlayır: "On üç yaşım olanda Şuşada bir səhnəcik gördüm. Bu səhnəcik böyük şairimiz Füzulinin "Leyli və Məcnun" poeması əsasında hazırlanmışdı. Səhnəcik məni çox həyəcanlandırdı. Bir neçə ildən sonra qərara gəldim ki, "Leyli və Məcnun" poeması əsasında opera yazım".

Beləcə, 1908-ci ildə, soyuq bir qış günündə Üzeyir bəy və onun sənətçi dostları Bakıda ilk Azərbaycan operasını səhnələşdirdilər. Tamaşa Hacı Zeynalabdin Tağıyevin açdığı teatr binasında göstərildi. Beləliklə, Azərbaycan mədəniyyəti tarixinə daha bir şanlı səhifə yazıldı. "Leyli və Məcnun" təkcə Azərbaycanda deyil, bütün Şərqdə ilk opera əsəri hesab olunur.

Dinləmə mətni ilə bağlı suallar verilir:
*1. Mətndən hansı məlumatları əldə etdiniz?*
*2. Əhməd bəy Ağdamski, Hüseynqulu Sarabski, ... Hansı ad ardıcıllığı davam etdirə bilər?*
A) Səttar Bəhlulzadə B) Alim Qasımov C) Fikrət Əmirov

**Yazı** (divar qəzeti)
**Əqli həmlə. Müəllim:** – *Biz dərsliyin son bölməsində mədəni irsimiz haqqında müəyyən məlumatlar aldıq. İndi deyə bilərsinizmi, "mədəni irs" dedikdə nəyi nəzərdə tuturuq?* (tarixi memarlıq abidələrimiz, musiqi alətlərimiz və əsərlərimiz, xalçalarımız, təsviri sənət əsərlərimiz, kitablarımız və s.) *Siz öyrəndiniz ki, ən qədim xalçamız olan Bərdə xalısı, ən qiymətli xalçamız olan "Şeyx Səfi" xalçası, məşhur xəttatlarımızın yaratdığı bir çox kitablar xarici muzeylərdə saxlanılır. Sizcə, bu niyə baş verib? Nəyə görə biz bu əsərləri öz muzeylərimizdə görə bilmirik?*

Şagirdlər bu qənaətə gəlirlər ki, ayrı-ayrı dövrlərdə müəyyən insanlar mədəni irsimizin nümunələrini qorumaq əvəzinə onları əcnəbilərə bağışlamış və ya satmışlar. Bunun təkrar olunmaması üçün biz mədəni irsimizi göz bəbəyi kimi qorumalıyıq.

Müəllim təklif edir ki, sinfin növbəti (bu il üçün sonuncu) divar qəzeti buraxılsın və qəzetin bu nömrəsi "Mədəni irsimizi qoruyaq" mövzusuna həsr olunsun.

Şagirdlər redaksiya heyətini seçir və iş bölgüsü aparırlar:
– baş redaktor (redaksiyanın işinə rəhbərlik edir, əlaqələndirmə funksiyasını yerinə yetirir);
– redaktorlar (məqalələrin savadlı yazılmasına nəzarət edirlər);
– müxbirlər (məqalələri yazırlar);
– xəttatlar (məqalələri gözəl xətlə köçürürlər);
– rəssamlar (məqalələr üçün şəkillər çəkirlər);
– tərtibatçı-dizaynerlər (məqalələri qəzet səhifəsində yerləşdirirlər).

Müəllim şagirdlərə fərdi bacarıqlarına uyğun vəzifə tapşırılmasına nəzarət edir.
Yazılacaq məqalələrin başlıqları müəyyən olunur:
– Tarixi memarlıq abidələrimiz. Onları qorumaq üçün nə etməliyik?
– Xalçalarımız
– Azərbaycanın musiqi mədəniyyəti (musiqi alətləri, xalq musiqisi, bəstəkar musiqisi)
– Azərbaycanda kitabın tarixi

**Qiymətləndirmə.** Müəllimin hazırladığı meyarlara əsasən aparılır.

Çap üçün deyil

## Dərs 111. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərsdə dərsliyin 206-207-ci səhifələrində verilmiş sual və tapşırıqlar yerinə yetirilir, müvafiq bölmədə tədris olunmuş materiallar təkrarlanır. Bununla yanaşı, müəllim həm özünün hazırladığı materiallardan, həm də müxtəlif qiymətləndirmə vasitələrindən istifadə edə bilər. Tapşırıqların seçimi zamanı bölmədə reallaşdırılmış standartları əsas götürmək lazımdır.

## Dərs 112. BÖLMƏ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ (2 saat)

**DİNLƏMƏ**

### NEMAN ŞAH VƏ USTA SİMNAR

Bəhram anadan olanda atası onu tərbiyə olunmaq üçün dostu Neman şahın sarayına göndərdi. Neman qərara gəldi ki, Bəhram üçün şahzadənin adına layiq qəsr tikdirsin.

Şaha dedilər ki, belə bir qəsri yalnız Rum ölkəsində yaşayan usta Simnar tikə bilər.

Neman Simnarı öz sarayına dəvət etdi. Ona tapşırdı ki, başı buludlara dəyən bir saray ucaltsın.

Simnarın tikdiyi saray Nemanın çox xoşuna gəldi. Doğrudan da, cahanda hələ belə uca bina olmamışdı. Şah memara söz verdiyindən ikiqat artıq zəhmət haqqı verdi. Onun əliaçıqlığını görən Simnar dedi:

– Bilsəydim bu qədər pul alacağam, bundan da uca saray tikərdim.

Neman soruşdu:

– Deməli, çox muzd versələr, bundan da yaxşı qəsr tikə bilərsən?

Simnar cavab verdi:

– İstəyirsən elə bir bina ucaldım ki, bu saray onun yanında daxmaya oxşasın...

Neman çox şöhrətpərəst idi. İstəyirdi ki, onun tikdirdiyi sarayı barmaqla göstərsinlər. Simnarın sözlərindən sonra şah cəlladı çağırıb əmr etdi ki, memarı qəsrin başından aşağı atsınlar.

*Nizami Gəncəvi ("Yeddi gözəl" poemasından)*

**1. Uyğunluğu müəyyən et.**

A) Bəhram 1) memar
B) Simnar 2) şah
C) Neman 3) şahzadə

**2. Yaxınmənalı sözləri müəyyən et.**

A) qəsr B) xələt C) cahan

dünya A B C
saray A B C
peşkəş A B C

**3. Neman sarayı kimin üçün tikdirirdi?**

A) özü üçün B) oğlu üçün C) dostunun oğlu üçün



Çap üçün deyil

**4. Nəyə görə Neman şah usta Simnarı qəsrin başından atdırdı?**
A) Simnarın tikdiyi saray xoşuna gəlmədi.
B) İstəmirdi ki, Simnar bundan da uca saray tiksin.
C) Simnarın lovğalığı şahı əsəbiləşdirmişdi.

**5. Verilmiş cümlədə məsdər şəklində olan feil hansıdır?**
Bəhram anadan olanda atası onu tərbiyə olunmaq üçün dostu Neman şahın sarayına göndərdi.
A) anadan olanda B) tərbiyə olunmaq C) göndərdi

**YAZI**
**İmla.** Neman şahla usta Simnarın dialoqu müəllimin diktəsi ilə şagirdlər tərəfindən yazılır.

**OXU**

## ŞƏKİ XAN SARAYI

Şəki xan sarayı Azərbaycan memarlığının incisi hesab olunur. Onu Şəki xanı Hüseyn xan tikdirmişdir. Xan sarayı Şəki xanlarının yay iqamətgahı idi. Xan və onun ailəsi qışı başqa bir sarayda keçirirdilər. Amma həmin saray günümüzə gəlib çatmamışdır.

300 il əvvəl tikilən bu abidə altı otaq, dörd dəhliz və iki eyvandan ibarətdir. İkimərtəbəli sarayın divarları rəsmlərlə bəzədilib. Həmin rəsmlər bir neçə rəssam tərəfindən çəkilmişdir. Onların adları sarayın bir neçə yerində divarlara nəqş edilmişdir. Maraqlıdır ki, yalnız sarayın divarları deyil, tavanı da rəngbərəng naxışlarla örtülüdür.

Şəki xan sarayının ən heyrətamiz cəhəti odur ki, sarayın tikintisində bircə mismardan belə istifadə edilməmişdir. Onun inşa olunduğu ağac və şüşə parçaları böyük ustalıqla bir-birinə geydirilmişdir. Bu zaman nəinki mismar, heç yapışqandan da istifadə olunmamışdır.

**1. Mətnin məzmunu ilə bağlı hansı fikir doğrudur?**
A) Şəki xan sarayının memarı Hüseyn xan olmuşdur.
B) Şəki xan sarayı günümüzə kimi gəlib çatmamışdır.
C) Sarayın tikintisində mismardan istifadə edilməmişdir.

**2. Mətnin məzmunundan belə bir nəticə çıxarmaq olar.**
A) Saraydakı divar rəsmlərinin müəllifləri məlumdur.
B) 300 il əvvəl mismar və yapışqan hələ icad edilməmişdi.
C) Sarayın hər mərtəbəsində bir eyvan var.

**3. Mətndə hansı suala cavab yoxdur?**
A) Ustalar yapışqansız, mismarsız qapı-pəncərəni necə düzəldirdilər?
B) Şəki xanının qış sarayı harada yerləşirdi?
C) Sarayın divar rəsmlərini çəkmiş rəssamların adı ilə bağlı necə məlumat əldə etmək olar?

**4. Göy rənglə verilmiş ifadəni hansı sözlə əvəz etmək olar?**
A) yazıldığı B) tikildiyi C) çəkildiyi

Çap üçün deyil

## DİL QAYDALARI

**1. 2-ci abzasın birinci cümləsində neçə say var?**
A) iki B) üç C) dörd

**2. Hansı fikir doğrudur?**
A) Əlifbamızda 34 hərf var.
B) Səslərin tələffüzündə dil, dodaq iştirak edir.
C) Səsləri yazırıq, hərfləri tələffüz edirik.

**3. Yalnız qalın saitlərdən ibarət sözlər hansı sıradadır?**
A) yaşıl, oturacaq
B) mülayim, işıq
C) ördək, bülbül

**4. Hansı sırada kar samitlər və onların cingiltili qarşılığı verilib?**
A) p – f, b – d, s – ş
B) g – ğ, m – n, c – ç
C) f – v, t – d, ş – j

**5. Sözlərdən birində sonuncu samiti ləğv etdikdə yeni söz yaranır.**
A) hiss B) xətt C) həzz

**6. Yaxınmənalı feillər hansı sıradadır?**
A) qaçdı, tutdu
B) yığdı, topladı
C) hündür, uca

**7. Düzgün cümləni seç.**
A) Bu tamaşa mənim xoşum gəldi.
B) Bu tamaşadan mənim xoşuma gəldi.
C) Bu tamaşadan mənim xoşum gəldi.

**8. Hansı cümlədə xəbər *necədir?* sualına cavab verir?**
A) O ağacın meyvəsi şirindir.
B) Ali məktəbdə oxumaq ən böyük məqsədimdir.
C) Bakı gözəl şəhərdir.

Çap üçün deyil

*Rafiq İsmayılov*
*Gülşən Orucova*
*Nərminə Qaragözova*

AZƏRBAYCAN DİLİ
(3-cü sinif)

**Müəllim üçün metodik vəsait**
Bakı: Altun Kitab, 2014

Nəşriyyatın ünvanı:
AZ1130, Bakı, Ə.Naxçıvani küçəsi, 15A
www.altunkitab.az
E-mail: altunkitab2004@gmail.com

Çapa imzalanıb: 24.06.2014. Kağız formatı 57x82 1/8.
Fiziki çap vərəqi 29. Tirajı 8100.

Çap üçün deyil